MOLLA KƏRBƏLAYİ NÜSRƏT QIZILAĞACLI

# İSLAM ÇƏLƏNGİ

## 3 cilddə

*1-ci cild*

"ADİLOĞLU" nəşriyyatı
BAKI-2005

Az
N 57

N 57 **Molla Kərbəlayi Nüsrət Qızılağaclı.** İSLAM ÇƏLƏNGİ
3 clilddə.1-ci cild. Bakı, "Adiloğlu" nəşriyyatı - 2005, 420 səh.

"İslam çələngi" adlı kitab Molla Kərbəlayi Nüsrətin oxucularla daha bir görüşüdür. Müəllif insanları düzlüyə, haqqa-ədalətə, sədaqətə, ilahi varlığa olan imana, ona ibadət etməyə çağırır. Allahın yaratdıqlarının müqabilində ona bir bəndə kimi münasibət bəsləməyə istiqamətləndirir.

İnanırıq ki, kitab böyük oxucu kütləsi tərəfindən maraqlı qarşılanacaq və seviləcək.

N $\frac{4712310316}{121\text{-}2005}$ sifarişlə

© N.Nəsrullayev

Dinin əvvəli Allahı tanımaq,
Allahı tanımağın kamilliyi
onu təsdiq etmək və təsdiq
etməyin kamilliyi isə onu
vahid bilməkdir.
Vahid bilməyin kamilliyi
isə ona qarşı tam xalislilikdir

*Həzrəti Əli ə.s.*
*(Nəhcül-dəlağə)*



## ÖN SÖZ

### Bismillahir-rəhmanir rəhim

Ey insanlar!
Gəlin, dinləyin, ibrət alın.
Yaşayan ölür.
Ölən aramızdan qeyb olur
Olacaqlar olur!
Yağış yağar, otlar bitər".
Uşaqlar doğular (dünyaya gələr) analarının,
atalarının yerlərini tutar.
Sonra hamısı gedər!..
Dünya işlərinin ardı-arası kəsilməz.
biri-birini təqib edər.
Diqqət edin, qulaq asın:
Yerlərdə, göylərdə ibrət alacaq
çoxlu şeylər var:
Ulduzlar gəzir,
Dənizlər coşur
Çaylar axır,

Gələnlər gedir.

Gedənlər dönməyir.

Əcaba, getdikləri yerdən məmnun olubmu qalırlar?

Cənnətimi seyr edirlər, əzabmı çəkirlər?

Möhtərəm insanlar!

Qəti olaraq bilin və bildirin:

Allah yanında tək (din) ancaq İslam dinidir.

Allahın bizlərə və bütün aləmlərə rəhmət olaraq göndərdiyi son peyğəmbər: Ulu peyğəmbərimiz həzrəti **Məhəmməd Müstəfadır** (s.ə.v.v.)

Ey oyanmış insanlar, Ağlı başında olanlar!

Hanı bu torpaqlarda bir zamanlar yaşayıb həyat sürənlər?..

Hanı Allahımıza, Peyğəmbərimizə, Quranımıza və müqəddəs dərk etdiyimiz şeylərə dil uzadan qədim nəsibsizlər?..

Hanı həyatlarını içki içməklə, qumar oynamaqla, nəfslərinə uymaqla, faydasız işlərlə məşğul olmaqla, pullarına, gözəlliklərinə və mövqelərinə güvənərək, hər kəsi kiçik görməklə və yoxsulları heç düşünməməklə yaşayıb ömür sürənlər?..

Bəs onlar haraya getdilər?.. O gözəl vücudlar indi torpaq altında nə haldadır? Bəlkə onlar bizə nisbətən daha gözəl və daha zəngindirlər! Fəqət bu torpaq onları da dəyirmanında üyütdü, toz edib dağıtdı, sümükləri belə çürüdü. Evləri izsiz qaldı, bəlkə də başqalarının əlinə keçdi!

Axirətləri isə daha da bərbad oldu!

Çəkilin, onlar kimi olmayıb, keçici zövqlərə aldanmayın. Qəflətə düşməyin, nəfslərinizə uymayın.

Aravuran olmayın.

Boş şeyləri buraxın.

Haqq sözü dinləyin, qadağanlardan çəkinin (uzaq olun)

Həyatınızı doğru-düzgün mənalı yaşayın.

Dünyanız və axirətiniz üçün çalışın.

Vaxtınızı boş keçirməyin...

Çünki hər şey fanidir!..

Əbədi olan ancaq **ALLAHDIR**.

O **Allah** ki;

Birdir.

Oxşarı və bənzər yoxdur.

İbadət ediləcək və özündən yardım istəniləcək ancaq odur!

Bizdən əvvəl gəlib gedənlər bizə ibrət olmalıdırlar!..

Ölümün hər evə mütləq gələcəyini heç vaxt unutmayın...

Böyük-kiçik hamımız köç edib gedəcəyik həyatda gördüyümüz işlərdən mütləq hesabat ediləcək.

Bu halda Ey İnsan Oğlu, gəl

**Allaha** inan,

**Peyğəmbərə** bağlan,

**Qurana** sarıl,

İslama yapış,

Elmə arxalan,

Fəzilətli və bilikli bir müsəlman, əxlaqlı və ibadətli bir insan olan ol.

## ALLAHA İNANMAQ FİTRİDİRMİ, YOXSA BAŞQA AMİLLƏRDƏN ASILIDIR?

Allahı tanıyıb, ona inanmaq hər bir insanın fitrətində kök salıbdır.

Yaradılışın əvvəlindən onun Alnına yazılıbdır, bu isə istər-istəməz hər bir insanın vücudunda qoyulubdur.

Allaha inanmaq tamamilə insandan ayrılan bir şey deyil ki, bəziləri onu qəbul edib, başqaları isə onu rədd edələr. Başqa təbir ilə desək yaradıcını tanıma və tanrı istəmə hissi, əldə etməli deyil ki, bəziləri onu əldə edib başqaları isə, tənbəllik nəticəsində belə bir hissə sahib olmayalar. Varlıq böyüklüyündə yaşayan bütün tayfalar və insanlar, hətta tərbiyə olmamış, mədəniləşməmiş yerlərdən uzaqda qalan insanlarda özlərində tanrını tanıma bir hissi duyurlar. Onlar inanırlar, təbiətin bütün yaradılmışları o cümlədən insan öz-özünə yaranmayıblar. Buna görə də onları yaradanın qarşısında onlara bol-bol nemətlər verdiyinə görə, boyun əyib təzim etməlidirlər.

Bu hiss onların vücudunda qoyulan ilkin fitrətdir.

Bu söz artıq dəlil və sübuta ehtiyacı yoxdur. Çünki onu inkar etmək məqsədində olmayan hər bir kimsə onu duyar.

Burada bir sual ortaya çıxır ki, Allahın vücudunu tanımaq fitri olarkən, insan cəmiyyətində başqa məbudlar və bütpərəstliklərin meydana gəlməsi nə kimi şərh edilir?

Cavab budur ki, insan öz içərisində, bir məbuda məhəbbət bəsləyəcəyini duyur və onun qarşısında bəndəlik etməyi sevir. Ona görə də işıqlı dünyada, tanrısını arayır,

bununla, öz fikrincə müqəddəs olan hər bir şeyi, tanrı kimi seçir. Onu Allaha bənzətmək üçün, onun qarşısında özünü aciz sanır. Buna görə də, insan gerçəkdən yanlışa uğramamaq üçün və başqasını tanrı ilə səhv etməmək üçün, insanları Allaha sarı çağırmaq üçün peyğəmbərlər gəldilər. Onların gəlməsi ilə insanlar doğru yollarını tapıb əyrilikdən uzaq olmağı örgəndilər.

Deyilən sözlərdən Allaha inanmağın fitri olduğu təsdiqlənir. Allahı tanımaq üçün insan hökmən peyğəmbərlərin dediklərinə əməl etməli və onun sayəsində inamını Allaha qarşı gücləndirməlidir.

Allahın vəhdaniyyətliyini danan, Quranı yalan hesab edən kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər.

Nəhayət gəlib ona çatdığı zaman onun heç nə olduğunu görər.

## QURANDA ALLAHIN VARLIĞINI SÜBUT EDƏN BİR NEÇƏ AYƏ

**Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin, dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, küləyin bir səmtdən başqa səmtə əsməsində göylə yer arasında** *(Allahın əmrinə)*

**tabe buludların hərəkətində ağıl və düşüncə sahibi olan insanlar üçün** *(Allahın hikmət və qüdrətinə dəlalət edən)* **əlamətlər vardır.** *(Bəqərə 164)*

**Göyləri gördüyümüz kimi, dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta** *(dünyanın axırına, qiyamətə)* **qədər** *(səmada)* **dolaşan Günəşi və Ayı** *(iradəsinə)* **tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır.** *(Bütün bu dəlillərdən sonra)*, **Rəbbinizlə qarşılaşacağınıza** *(qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza)* **bəlkə inanasınız!** *(Rəd 2)*

**Yeri** *(insanların və başqa canlıların yaşaya bilməsi üçün)* **döşəyən** *(uzadıb-genəldən)*, **orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən** *(erkək-dişi, yaxud şirin-acı, turş-meyxoş və c. olmaqla)* **cüt-cüt yetişdirən, gecəni gündüzlə** *(gündüzü də gecə ilə)* **örtüb bürüyən odur. Şübhəsiz ki, bunda** *(bütün bu deyilənlərdə)* **düşünən insanlar üçün** *(Allahın qüdrətini və vəhdaniyyətini sübut edən)* **neçə-neçə dəlillər vardır.** *(Rəd 3)*

## İBRAHİM (ə) VƏ SONRADAN ALLAHPƏRƏST OLAN KAFİR QONAQ

Əllamə Məclisinin (r.ə) **"İrşadəl qlub"** kitabında **İbrahim Xəlilullah** (ə.s) haqqında belə bir hədisi nəql olunur:

**İbrahim** (ə.s) heç vaxt qonaqsız xörək yeməzdi. Bəzi günlərdə hətta qonaq tapmaqdan ötrü ətraf yerləri gəzirdi. Günlərin bir günündə o həzrət yenə də qonaq axtarmağa gedərkən bir nəfərə rast gəlib, onu nahara dəvət elədi. Süfrəyə oturduqları vaxt **İbrahim** (ə.s) **"Bismillah"** dedi. Qonaq isə Allahı yad etməyib əlini süfrəyə uzatdı. **İbrahim** (ə.s) buyurdu:

Niyə Allahın adını çəkmədin?

Qonaq dedi: Allah kimdir, mən Allah-zad tanımıram. **İbrahim** (ə.s) buyurdu: Qalx ayağa get burdan! Mən Allahı inkar edən adamla bir süfrə başında otura bilmərəm. Qonaq ayağa durub getdi. **İbrahim** (ə.s) tək qaldı. Həmin anda Allah tərəfindən vəhy nazil oldu:

**"Biz bu şəxsə illərlə ruzi verdik və ruzimizə görə də heç vaxt ona minnət qoymarıq.**

**Təkcə bu gün onun ruzisi sənə həvalə olunmuşdur. Sən isə onu qovdun".**

**İbrahim** (ə.s) tez ayağa qalxıb, həmin şəxsin ardınca getdi.

Çox xahiş-minnətdən sonra kafir dedi: Bir şərtlə qayıdaram, de görüm məni qovandan sonra niyə görə dalımca gəlib, qayıtmağımdan ötrü bu qədər təkid edirsən?

**İbrahim** (ə.s) həqiqəti açıb buyurdu:

Səni qovduğuma görə Allah təala məni danladı.

Şəxs dedi:

Vay olsun mənə ki, bu cür mehriban Allahdan üz döndərmişəm. Ey İbrahim, məni Allahınla tanış et. Həmin şəxs nəhayətdə mömin və Allahpərəst oldu.

İnsan bir az düşünsə görər ki, Allah ona maddi nemətdən tutmuş mənəvi nemətə qədər hər şey vermişdir. Bunun müqabilində Allah bəndəsi hansı, ibadəti yerinə yetirmiş və hansı mərifəti əldə etmişdir.

## TANRIYA YAXINLAŞMAQ YOLU HANSIDIR?

Əvvəla onu bilmək lazımdır ki, tanrıya yaxın uzaqlıq mənəvi baxımdandır, nəinki maddi baxımdan Tanrını daha dərindən dərk edənlər, ona daha yaxındırlar. Tanrıya diqqəti artıran əməl insanı ona yaxınlaşdıra bilər.

Bunun təsdiqi üçün aurada gəlib!

**"Namaz hər bir təqvalı insana, tanrıya yaxınlaşmaq üçün vəsilədir."** *(Usuli-kafi 1 cild. səh.234)*

Bu isə ona görədir ki, insan namazda tanrıya artıq diqqətli olmaq üçün tanrıya daha artıq yaxınlaşır.

***Haşiyə:*** Namaz İslamdan qabaqkı dinlərə mənsub olanlara da vacib buyurulmuşdur.

**Həzrəti Məhəmməd**dən əvvəl **Həzrəti-İsa**nın da dinində namaz olmuşdur. Quran onun dilindən belə nəql edir:

**Allah mənə namaz qılmağı tövsiyə etmişdir** *(Məryam surəsi ayə 31-də).*

**Musa** (ə.s) da Allaha xitabən deyir:

**"Mən həqiqətən, Allaham, Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və məni anmaq üçün namaz qıl!** *(Taha surəsi. ayə 14).*

Yəhudi dinindən öncə isə namaza yer verilmişdir.

**(... Sənə namazımı əmr edir?)** *(Hud surəsi 87-ci ayə)*

**Həzrəti İbrahim** (ə.s) - Allah ona və övladına namaz qılın demişdir. **"Ey rəbbim məni də nəslindən olanlarıda namaz qılanlardan et".** *(İbrahim surəsi, 40-cı ayə)*

**Loğman** da öz oğluna **"Oğlum! namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işlərdən çəkindir!** *(Loğman surəsi 17-ci ayə)*

Bütün sadaladığım yuxarıdakı ayələr sübut edir ki, məhz Allaha namaz qılmaq və ibadət etməklə yaxınlaşmaq olar.

Bu yaxınlıq mənəvi inamdan, bağlılıqdan asılıdır.

Ona görə də Allah öz bəndəsinə rəhm etmək üçün çox-lu yollar bəxş edib.

O Yolun başlanğıcı namazdır!

Bununla Tanrı üçün və həqqə boyun əymək uğrunda görülən hər bir iş Allaha yaxınlıq vəsiləsi sanılır.

## İNAM DƏRƏCƏLƏRİ NECƏDİR?

İnami yolun çoxlu rəvayətləri vardır.

Altıncı imam, imami **Sadiq** (ə) dan **"Usuli Kafi"** kita-bının 2-ci cildi 50-ci səhifəsində bir rəvayət nəql olunub ki, o həzrət buyurub: İnam on pilləli bir nərdbanandır ki, hər bir pilləsindən ötmək, öncədə ki, pillələrdən ötmək nəticəsindədir.

Başqa bir rəvayətdə imami **Sadiq** (ə.s) buyurubdur:

Mütəal tanrı inamı yeddi qismdə bölübdür.

*1. Yaxşı iş görmək*
*2. Düzlük*
*3. Həqiqi etiqadlara inamlı olmaq*
*4. Tanrıdan razı olmaq*
*5. Vəfa*
*6. Bilgi*
*7. Dözüm*

Bir kimsədə bu yeddi qismin hər yeddisi olarsa inam baxımından kamildir.

**Hər bir kimsədə bu bölmələrin biri olmasa o ölçüdə inamı naqis olar.** *(usuli Kafi cild 2 səh.45)*.

İman və inam öz dərəcələrinə görə hər bir mömin müsəlman hər gün bunları əldə etməyə çalışmalıdır. Məhz bunların sayəsində mömin şəxsin Allah yanında özünə məxsus dərəcəsi ola bilər.

Keçmişə nəzər salsaq görərik ki, bu pillələri addımlayan şəxslər mömün və təqvalı kimi tarixə öz adlarını əməlləri ilə yazdırıblar.

Həyatda insan o pillələri addımlamağı qarşısına məqsəd qoysa və nail olsa artıq o hər şeyi qazanmış şəxs olar. Yəni Axirət üstünlükləri əldə edər.

## İNAMIN RÜKÜNLƏRİ NƏDİR?

İnam bir şeyə inanıb ona etiqad bəsləməkdir. Bu etiqad bəsləmə tanrı və ya qiyamət gününə olarsa qiyamət gününə inama tanrıya inam deyilir. Tanrıya inam qəlb eti-

madı və yaxşı əməllər görməkdir. Bu etiqad mömünin ruhunda inamla birlikdə, başqa sifətlər də törədir. Bu etiqadın zəif və güclü olması, inama bağlıdır, bu sifətləri inamın rükünləri saymaq olar.

Fikri açıqlamaq üçün mömünlərin əmiri **Əli** (ə) dan olan rəvayətə müraciət edək.

"**Kuleyni** (r.ə) **"Usuli Kafi"** kitabında beşinci imam. **İmami Baqir** (ə) dan rəvayət üzrə nəql edir:

Bir gün **Əli (ə.s)** dən soruşdular. İman nədir? Həzrət buyurdu tanrı inamı dörd rükn və təməl üstündə qurub.

O dörd rükn: dözüm, yəqin, ədl və cihaddır.

1. *Dözüm* - yəni vacibləri yerinə gətirməkdə, israr etmək, günah və çirkinliklərdən çəkindikdə dözümlü olmaq.

2. *Yəqin* - yəqin tanrının varlığı, qiyamət günü və həqq mərifətlərinə inanıb, yəqin sanmaq.

3. *Ədl* - yənı davranmaqda orta halətli olmaq. Yaxşı hakim (araşdırıcı) olmaq və başqalarının həqqlərinə toxunmamaq

4. *Cihad* - yəni Allahpərəstlik və insanların hidayət olmaqlarına çalışmaq dinsizlik, maddəçilik, zülm və savaş qarşısını almaq.

## İNSAN NƏ CÜR HƏQİQİ MÖMÜN VƏ KAMİL İNSAN OLA BİLƏR?

İnsan həyatda öz fəaliyyəti sayəsində istədiyi kamilliyə çata bilər, bu şərtlə ki vəzifəsini bilən olsun. Sonra isə vəzifəsinə əməl etsin *(bəndəlik vəzifəsi)*. Aydındır ki, tək-

cə kamillik yolunu tapmaq insanı səadətə çatdıra bilməz.

Bəlkə onun kamal yolunu sona qədər getməsi gərəkdir. Təmkinlik kamilliyin mənbəyidir.

Cəmiyyətdə bir çox insanlar vardır ki, elm, mərifət, dərrakə başa düşmə və kamil baxımdan üca məqamlara yüksəlir.

Amma elmə əməl etmək və mərifətlərini tanımaqda zəiflik edib öz bildiklərini saymayıblar.

Bununla həqiqi mömün kamil insan o kəsdir ki, ilk mərhələdə tanrının müqəddəs zatından olan fərmanlarını tanıyıb, ikinci mərhələdə isə onlara əməl edə. Ancaq Tanrının fərmanları təkcə sözdə və ibadət etmək çərçivəsində məhdudlaşmır. Bəlkə bütün sosial və şəxsi yaşayış da axıcı olmalıdır.

Alla təbarək Təala Yasin surəsinin 60-cı ayəsində buyurur:

**Ey Adəm övladı! Məgər Mən** *(dünyada)* **sizə "Şeytana ibadət etməyin, o sizin açıq düşməninizdir!"** deyə buyurmadımı.

Aydındır tanrı nəhy edən Şeytanın ibadəti həvəsləndirən vəsvəsələrə qulaq asıb onlara əməl etməkdir. Bu itaət etmək, yəni Şeytanın həvəslərindən yaşayış qaydalarında əməldə itaət etməkdir. Bu isə onun ibadəti sayılır. Şeytanı ibadət edən kimsədə tanrıya mömün ola bilməz.

Nəticədə istədiyi kamillik zirvəsinə çatmayacaqdır. Çünki insanın kamilliyi tanrıya arxalanma və ona imanlı olmaqla əldə edilə bilər.

## HƏQİQİ İNAMIN ƏLAMƏTİ İNSANDA NƏDİR?

Bilmək lazımdır ki, inam insanın daxili ruh sifətlərinə aiddir. Onun əlamətləri mövcud olduğuna inanmalıyıq. İnsanların həqiqi inamını göstərən amil isə təkcə yaxşı əməl deyildir. Çünki insanın gördüyü işlər və əməllər onun inamından qaynaqlanır. Buna görə deyə bilərik: inamın kamalı və əməlin düzlüyü arasında bilavasitə əlaqə vardır. Yəni əməl daha yaxşı olduqda, inam da kamildir.

Həqiqi inam haqqında, hidayət elçiləri tərəfindən bir çox rəvayətlər vardır.

Həmin rəvayətlərdən bir neçəsinə nəzər salaq.

1. **İmami Sadiq (ə.s)** həzrətləri buyurub:

Mömin təqvalı olduğu halda, yaxşı xasiyyətli və daxili isə bəzəklidir. Öz malından artıq qalanı yoxsullara paylayar. Ya o sözləri danışmaz, insanlara əziyyəti çatmaz və onlar ilə insafla davranar. *(Usuli kafi 1-ci il. səh.235)*

2. **İmami Muhəmməd Baqir (ə.s)** buyurub:

Mömin dağdan bərkdir, çünki dağdan *(daşlarını qazmaqla)* azaltmaq olar, halbuki möminin dinindən heç nə azalmaz. *(İsbati vücudi xuda kitabı 287-ci səhifə).*

3. **İmami Muhəmməd Baqir (ə.s)** səhabələrinin birindən mömününün kim olduğunu soruşdu? Dedilər siz yaxşı bilirsiniz. Həzrət buyurdu: **“Mömün o kəsdir ki, millət onu malları və canlarına əmin sanallar.** *(Usuli kafi 1-ci cild. səh.241)*

Saleh əməl imandan irəli gəlməlidir. İman olmazsa əməlin dəyəri olmaz.

İmanla əməl yanaşıdır. Ola bilər ki, imanlı bir adam müəyyən səbəblər üzündən əməl edə bilməsin, üzürlü olsun, onun iradı yoxdur. Lakin imanı olub onun tələblərinə əsasən əməl etməyib günaha düşən adama gəldikdə isə bu iş imanın zəifləməsinə səbəb olar.

Bir yol qalır o da bu ki, tövbə və yaxşı iş görməklə ödəsin. Deməli yaxşı əməl imanın güclənməsinə səbəb olduğu kimi pis əməldə onun zəiflənməsinə səbəb olur.

Rəvayətlərdə deyilir ki, bir şəxs günah iş gördükdə onun ruhunda və qəlbində qara ləkə yaranır, günah çoxaldıqca ləkə də böyüyür. Müəyyən həddə çatdıqda isə qəlbi tamamilə əhatə edir. Günaha davam etdirmək, imanın kökünü məhv edə bilər. Bir ağacı nəzərdə tutun ki, gündə yarpağının birini qırırlar. Sonra isə qol-budağını sındırırlar, nəhayət ağac aradan gedir və kökü quruyur. İnsanın əməllərində iman *(ağacın)* qol-budağıdır.

## İNAM GÜCÜNÜ NECƏ GÜCLƏNDİRƏ BİLƏRİK?

İnam gücünü gücləndirmək üçün ilk öncə tanrının yaratdıqlarında təfəkkür etmək və ulduzlara, göyərtilərə, fələklərə, dağlara, dəryalara, heyvanlara, insana, insanın bədənində olan heyrətləndirici nizama düşünmək dünya və axirət yaradıcısına inamlı olmaqda mühüm bir rol oynaya bilər.

Düşünməkdən sonra onun sonsuz qüdrəti qarşısında əyilib fərmanlarından itaət edib, nəhy etdiklərindən çəkin-

mək onu məhz ibadət etmək. İbadət etmək əsas yardımçı ola bilər.

Çünki Allah təala buyurur:

**"Və Allahı çox yada salın ki, bəlkə, nicat tapasınız"** *(Ənfal surəsi 45-ci ayə).* **"Allahı zikr etmək şübhəsiz ki, daha böyükdür"** *(Ənkəbut surəsi. 45-ci ayə).*

**"Onu səhər axşam təqdis edib şəninə təriflər deyin"** *(Əhzab surəsi 42-ci ayə).*

**"Gecənin bir qismində ona səcdə et və gecə uzunu da onu təqdis edib şəninə təriflər de"** *(İnsan surəsi ayə 26)*

Namaz və başqasını sevindirmə kimi ibadətlər insanın inamını gücləndirib ruhunu isə böyüklədir. İnsanın qəlbini işıqlandırır və inam qüdrətilə çətinlikləri aradan qaldırmada insanı üstünləşdirir.

İbadət Allahla ünsiyyətin yaranmasına səbəb olur. Bu ünsiyyət elədir ki, insanı daima yaxşı işlər görməyə və Allaha yaxınlaşmağa sövq etdirər.

Əmir-əlmöminin **Əli** (ə) **"Nəhcül bəlağədə"** buyurur: **Allahı anmağın adamı var, belə adam zikri bütün nemətlərdən və dünya ləzzətlərindən üstün tutur**.

Demək ibadət xarakterli əməllər, namaz və Allahın zikri meylin şiddətlənməsinə, insanın inkişafına, qəlbdə bəndəilik marağının canlı və sabit qalmasına səbəb olar.

Xəbərlərdə vardır ki, **Əli** (ə.s) yer belləyəndə, quyudan su çəkəndə Quran oxuyur və Allahı zikr edərdi.

Belə bir halda insan həyat eniş-yoxuşunda özünü itirməyib bu dünyadan üstün olan gücə arxalanmaqla həmişə sevincli olar.

İnsan dünya və axirət səadəti ilə qucaq-qucağa olar.

Buna görə çalışmalıyıq ki, əvvəla qıldığımız namazın, dediyimiz zikirlərin, habelə quranın məfhumlarını öyrənməklə məbud qarşısında öz mövqeyimizi dərk edək.

## İNAM VƏ İRADƏNİN MÖHKƏMLƏNMƏSİ UĞRUNDA NƏ ETMƏLİYİK?

Dövrün və mühitin işləri insanı əhatə etməsinə baxmayaraq, bildiyimiz kimi insan öz sarsılmaz iradəsinə arxalanmaqla üstünlüyünü qoruyub saxlaya bilər. Özünə faydalı olanları həyata keçirə bilər. Aydındır belə surətdə özü uca rütbəli və kamil bir şəxs olduqda başqalarına da göstəriş verib hidayət edə bilər.

Əlbəttə, insan öz sarsılmaz və qəti iradəsiylə özünü adətlərdən üstün edib, adi işlərdən yuxarıya apara bilər.

İnsana aid təklifləri və vəzifələrini yerinə yetirib düz danışan və düz iş görən olar. Bunu fikri təsdiq etmək üçün **Vəlidbni Muqeyrə**nin hekayətinə nəzər salaq.

Peyğəmbərə (ə.s) və Qurana qarşı çıxmağa dəvət olunanlardan biri də **“Vəlid ibni Muqeyrə”** idi.

O **“bəni məxzum”** tayfasından idi. Bu adam o zamanda ərəb içində yaxşı tədbir və möhkəm düşüncə ilə seçilirdi.

Ondan istədilər bu haqda düşünsün və öz nəzərin Quranın əcibə ayələri haqqında və xariqəlad nüfuzu barədə söyləsin.

Bu ayələr Vəliddə elə həyəcanlar doğurmuşdur ki, ix-

tiyarsız olaraq yerindən qalxıdı və **"bəni məxzun"** tayfası tərəfindən qurulmuş məclisə getdi və dedi:

Allaha and olsun **Məhəmməd**dən bir söz eşitdim ki, nə insanların sözlərinə bənzəyir nə qocaların. Vəlid dedi: **Məhəmməd**in sözünün əsas bir şirinliyi və özünə məxsus bir gözəlliyi vardır. Ərəblər Vəliddən bu sözləri eşidəndən sonra şayə yaydılar ki, Vəlid **Məhəmmədə** vurulub.

**"Əbu Cəhl"** bu şayəni eşidən kimi Vəlidin evinə gəldi. Qureyşin macarasın ona söylədi və onu məclislərinə çağırdı.

Vəlid onların məclisinə gəldi və dedi:

Ayə zənn edirsiniz **Məhəmməd** (ə.s) dəli olmuşdur?

Heç onda cunun əsəri görürsünüz?

Məclisdə olanlar dedilər. Yox. Sonra Vəlid dedi: Fikr edirsiniz o yalançıdır?

Ayə indiyədək sizin aranızda doğru danışmaq və əmanət saxlamaqda məşhur deyildir? Siz özünüz ona **Sadiq**, **Əmin** ləqəbi verməmişdinizmi? **"Vəlid"** bir az düşündü və dedi: Deyin o **"cadugərdir"**?: Əgərçi onlar bu sözlərlə istəyirdilər qurana məhəbbəti olan xalqı ondan uzaqlaşdırsınlar. Lakin bu **"Sehr"** tədbiri özü Quran cazibəsinə bir dəlil hesab olurdu. Onlar bu cazibənin adın **"sehr"** qoymuşdular.

Halbuki cadu və sehr ilə bağlı deyildir.

Bu vaxt qureyş tayfası hər yerdə dedilər ki, **Məhəmməd** bir bacarıqlı cadugərdir, ondan uzaq gəzin. Çalışın ki, sözlərin dinləməyəsiz.

Lakin Qureyşin bütün təlaşlarına baxmayaraq çəkdiklə-

ri plan fayda vermədi. Həqiqət teşnələri oyan-buyandan dəstə-dəstə Qurana sarı gəldilər. Bu səmavi kəlamın zülal suyundan sirab oldular. Məğlub olmuş düşmənlər isə geri çəkildilər. Məhz Vəlidin həqiqəti deməyinin nəticəsi onlara zərbə vurdu.

Öz vəzifəsinə və insanlara görəki, vəzifəsinə əməl edib, camaatın həqqini də qoruya. İnam gücü əldə edib, iradəsini möhkəmləndirmək üçün təqvalı və saleh insanlar ilə qovuşa. Bəlkə bu yolla onların xislətləri kimi yaşaya bilə.

Məsum imamlar (ə.s) və onların şagirdlərinin düzgün tarixini əldə etməyin də müsbət təsiri vardır.

Qurani Kərim ayələrində imanlı insanlara dözümlü olmaq tanrının bəndəliyin istəmək və ona namaz qılmaq, tanrıdan yardım diləmək sifariş olunub.

**“Vəstəinu bissəbri vəssalah”**. Aydındır ki, bu əsr və bu aludə olmuş cəmiyyətdə özünü və başqalarını qorumaq qərarına gələn kimsə, İslam və onun uca, rütbəli diqqəti altında olub və tanrının inayəti ilə onun yardımçısı olacaqdır.

## QURANİ KƏRİM DEYİR: “ALLAHU NURUSSƏMAVATİ VƏL ƏRZİ. HALBUKİ ALİMLƏR NURU (İŞIĞI) AÇIB TANRINI İSƏ ONDA GÖRMƏYİBLƏR!. BUNU NECƏ DƏRK ETMƏK OLAR?

Bu ayənin mənası bu deyil ki, tanrı nurdur və ya nurun arasındadır. Bu ayənin mənası budur ki, yer-göy və bütün mövcudların nuru və əvvəli tanrıdır. Yəni nur hər şeyi işıqlandıran kimi, tanrı da hər şeyə varlıq verəndir. Tanrı, bü-

tün mövcudların işıq verən və varlıq verəndir: işıq varlığının qaynağı, işıq yaradan tanrıdır.

Başqa sözlə, tanrı, varlıq verən və münəvvər *(nur verən)*-dir.

Nur sözü, münəvvər və nur verən yerinə ərəbcədə və türkcədə işlənir.

Bu məna, yəni *(nurda işıq)* vermək daha əla dərəcəni çatdırmaq üçün işlənir.

## "YƏDULLAH" NƏ DEMƏKDİR? MƏGƏR TANRININ ƏLİ DƏ VARDIR?

Əl insanın qüdrət nişanəsidir. İnsan bir çox işlərini əl ilə görür: **Əli** olmayan kimsə, demək olar ki, bir iş də görə bilməz və aciz sayılır.

Buna görə tanrının qüdrət nişanəsi olanlar və böyük işləri əllərilə həyata keçirən kimsələrə *(tanrı Əli)* - yəni tanrının qüdrət və güclülük nişanəsi deyilir.

Bunlar hər bir işi görə bildigi halda, gücləri isə tanrı tərəfindəndir. Bununla **"Yədullah"** tanrı qüdrəti mənasındadır. Quran **"Yədullahi föqə eydihim"** bu Allahın qüdrət əli onların əllərinin üstündədir – bu ayə də yuxarıdakı mənasındadır.

Bir misal vardır, **"əl üstə əl yoxdur"**, bu isə o demək degil ki, gerçəkdən - birinin əli başqasından yuxarıdır. Bəlkə bu deməkdir ki, hər bir güc və qüdrətun üstün bir qüdrəti də vardır. **Əli** (ə.s)a Yədullah deyilsə, yenə də tanrının

qüdrəti deməkdir. Yəni **Əli**(ə) tanrının qüdrət və güclülüyün nişanəsidir.

**"Əynullah"** *(Tanrının gözü)*, **"Uznullah"** *(Tanrının qulağı)*, **"Lisanullah"** *(Tanrının dili)* və bu kimi sözlərdə yuxarıdakı mənanı daşıyırlar ki, yeri gəldikdə nə məna işlədilməsini duymaq olar.

## "YƏDULLAHİ FÖQƏ EYDİYİM" ŞƏRİFƏ AYƏSİNİN MƏNASI NƏDİR? BU AYƏ TANRININ CİSM OLDUĞUNU SÜBUT ETMİRMİ?

Qurani Məcid, Kamil və ətraflı kitabdır. Eləcə də insanların qurtuluş və səadətini təmin edir, buna baxmayaraq insanların gündəlik işlətdikləri sözlərdən də faydalanıbdır. Tanrının felləri və sifətlərini bəyan etməkdə də həmin sözlərdən faydalanıbdır. Buna görə sözlərin üzdəki mənalarını məqsədlərini nəzərə almadan yozmaq düzgün deyil. Ancaq işlədilən alınma bənzəyişi və iç mənalarını nəzərə almalıyıq. Əsasən Quranın da aydın sözlüyü və fəsihligi həmin gizli məqsədlərini nəzərə almadan məcazi mənalarda və anlamalardadır.

Bu anlamlar quranda az deyil. Yuxarıdakı cümlədə **"Yəd"**-dən məqsəd əl deyil, bununla tanrıya cism olmağı bağlamaq olmaz, halbuki **"Yəd"** qüdrətin başa düşülməsidir. Əl insanın bədənində, çalışqanlıq səy etmə və qüdrət nişanəsi olduğu üçün məcazi qüdrət mənasında işlənibdir.

Bununla ayənin anlamı budur: *"tanrının qüdrəti başqa-*

*larının güclülüyündən üstündür".* Ondan başqa, Quranın yozumunda təkcə bir ayədən faydalanmamalıyıq, biz bir mübahisəni doğru və önə aparması üçün bir yerdə toplandırıb, ayələri bir-biri ilə aydınlaşdırmalıyıq. Quranın bir çox ayələrində tanrının cism olmadığı və bütün mümkünləri əhatə etməsi həqiqəti sübut edə bilər.

## İLKİN İNSANLAR BÜTPƏRƏST İDİLƏR, YOXSA TANRIPƏRƏST?

Hər insan öz fitrəti hökm etdiki üçün yaradılmış olduğunu duyur. O anlayır ki, yaradıcısı vardır. Yenə də həmin fitrət hökmü üçün öz içində tanrı aramı və tanrı istəmə hissini duyur. Bu tanrı aramı hissi insanı öz itkisini tapmağa çağırır. Fitrət üzrə belə olan insan, əla tərbiyələrdən və ilahi peyğəmbərlərin sözlərindən faydalanmaqla istədiyi kamala çata bilər. İnsan axırda öz tanrısını tapıb onu ibadət edər. Ancaq belə bir hissin olduğuna baxmayaraq, ilahi peyğəmbərlərin çağrışlarını saymadığı halda, əyriliyə yönəlib, tanrı pərəstlik yerinə, günəş pərəst, aypərəst, ulduz pərəst, qısa sözlə mürtəd və büt pərəst olur.

Bununla demək olar ki, büt pərəstlik, tanrı pərəstlikdən qaynaqlanır. Yəni insan, tanrı pərəstlikdən uzaqlaşdıqda, bütpərəst olmuşdur.

Bu hesabla ilkin insanlar tanrı sevər və Allah pərəst idilər.

## ƏSHABİ-FİL NECƏ HƏLAK OLDU?

Allah-təala əshabi filin başına gələnlər barəsində Quranda buyurur: **"O quşlar onların başına gildən möhkəm xırda daşlar yağdırdı. Və Rəbbin onları həşarət tərəfindən yeyilmiş Əkin yarpağına, saman çöpünə döndərdi!"**.

Bu əhəmiyyətli tarixi hadisə ərəb tarixinin başlanğıcına səbəb oldu.

Əbrəhə fillərdən ibarət olan böyük bir ordunu Kəbəni dağıtmaq üçün göndərdi. Lakin bu ordu Əbabil quşları tərəfindən məhv edildi. Quşlardan hər biri özləri ilə gətirdikləri noxuddan da kiçik üç ədəd daşla ordunun üç əsgər və üç filini öldürdülər.

Belə ki, hər bir quş, fili minmiş əsgərin başının üstündə dayanıb dimdiyindəki daşı onun başına atırdı. Daş əsgərin başından daxil olub, filin qarnından çıxırdı. Beləliklə əsgər və fil hər ikisi həlak olurdu.

Allah təala bu hadisəni insanın ibrət almasından ötrü nəql edir.

Görəsən adam öldürmək qabiliyyəti olmayan bu kiçik daşa, öldürmək qabiliyyətini kim verdi?

Necə oldu ki, bu daş onları dəlik-deşik etdi?

Belə bir rəvayət nəql olunur: **"Əgər Allah-təala bir möminə xeyli iradə verib, onun bəsirətini açmaq istəsə, ümid olmayan yerdən onun üçün xeyir göndərər"**.

Allah bu barədə Quranda buyurur: **"Və ona gözləmədiyi yerdən ruzi verər"**.

## NƏ ÜÇÜN İNSANLAR DİNƏ EHTİYACLIDIRLAR?

Din nə deməkdir?

Din ilahi bir ənənədir. Allah dini, insanları düzgün yola dəvət etmək üçün peyğəmbər vasitəsi ilə göndərmişdir. Din düzgün faydalar, əqidələri ehtiva edir ki, bunlar insanları yaxşı əməllərə, cəmiyyəti düzgün və ədalətli intizama sövq edir.

## DİN NƏ ÜÇÜN LAZIMDIR?

**1.** Allah insanları azad və səlayhətli yaratmış və onların mal, məqam və cinsi məsələlərə və bu kimi şeylərə olan istək və meyllərini qeyri məhdud etmişdir ki, insanları çalışmağa və irəliləməgə sövq edən amillərin miqdarı çox olsun. İnsanların istəkləri bir-biri ilə uzlaşmaya bilərdi. Belə hallarda, onları nizamlama və düzgün istiqamətləndirmək üçün də müəyyən qayda-qanunlar verilməli idi.

**2.** Allah insanı ictimai yaratmışdır. O bilirdi ki, bir qrup adam bir yerə toplaşdıqda, bir-birilə əməkdaşlıq etməyə ehtiyaclı olacaq, birgə yaşamaq və əməkdaşlıq şəraitində müəyyən əlaqə və hüquqlar, məsələ meydana çıxacaqdır.

Bu cəhət də onlara düzgün ictimai hüquq və əlaqə yolları göstərməli idi.

**3.** İnsan duyulmayan təbiət xaricindəki, məsələləri dərk etmək yolunu asanlıqla tapa bilməz və pərvərdigarı, axirət dünyasını, behişti, cəhənnəmi və mələkləri tapmaqda yanılıb səhvə yol verə bilər. Digər tərəfdən isə, bu mə-

sələlər onu əqidəsi, həyati və tale ilə bilavasitə bağlı məsələlərdir. Buna görə, Allah insanları bu həqiqətlərlə yaxşıca tanış etməli idi.

**4.** Allah insanlara bollu nemətlər bəxş etmişdir, hər bir nemət üçün şükür etmək lazım idi. Adamların özləri isə şükür və ibadət etməyin yolunu bilmirlər. Onlara bunu öyrətmək lazım gəlirdi. Ona görə də Allah peyğəmbərləri təyin etdi ki:

Allahi adamlara tanıtdırsın. Ona düzgün pərəstiş yollarını adamlara göstərsinlər, yaranış məqsədini onlara öyrətsinlər. Axirət dünyasından əməllərin mükafatından, cəzalarından onları agah etsinlər.

İnsanın ağlını və fitrətini oyatsınlar. Fitri istək və meyillərinə düzgün istiqamət verib, onları nizama salsınlar. İlahi talanlara və təbii nemətlərdən düzgün istifadə etməyə sövq etsinlər. İnsanın ruhunun və ağlının lazımı səviyyədə inkişafını təmin etsinlər.

İctimai hüquq və əlaqələri onlara başa salsınlar. Zülmün və haqsızlıqların qarşısını alsınlar.

## DİN VƏ QANUN

İnsanların irəli sürdügü qanunlar heç vaxt hamının hər tərəfli məsləhət və səadətini təmin edə bilməz, çünki:

**1.** Bu qanunlar islam məfkurəsinin məhsuludur.

Bir yandan insanın fikri dəyişə bildiyinə, digər tərəfdən də insanlar məsələnin bütün cəhətlərini nəzərə ala bil-

mədiyindən öz məsləhətlərini arayarkən kin, mövcud adət-ənənələrin, iddia fəlsəfələrinin təsiri altına düşə bilər.

**2.** Fərz edək ki, qanun verənlər cəmiyyətin xeyrini və məsləhətini yaxşı dərk edə bildilər. Ancaq daima münasib qanunlar verməkdə azad və uğurlu çıxış etməyəcəklər. Çünki, bir çox hallarda, adamlar, zorakılıq, hədə qorxu və ya satılma nəticəsində düz yoldan kənara çıxır və fərdi istək və tamahlar onları səhvə salır və beləliklə də cəmiyyətin mənafeyini nəzərə almadan yalnız özləri və yaxud müəyyən qrupun xeyrinə olaraq qanunlar saxtalayırlar.

**3.** Tutaq ki, qanun verənlər cəmiyyətində istək və meyillərini nəzərə ala bildilər. Belə olduqda diqqət yetirilməlidir, qanun verilməsində adamların istək və meyilləri nəzərə alınmışdır, yoxsa onların xeyri və məsləhəti! Ola bilər ki, adamların, bəyənib, istədikləri şey onların xeyrinə olmasın, yaxud əksinə. Ola bilər ki, razı olmadıqları məsələ onların səadətinə gətirib çıxartsın.

Lakin, dini qanunlar Allah tərəfindən verilmişdir. Allah hər nəyə agahdır, o nüfuzlu şəxslərin təsirinə məruz qalmır və hamının hər tərəfli, həqiqi xoşbəxtliyini istəyir.

## BƏNDƏLİYİN HƏQİQƏTİ

Zariyat surəsi 56-cı ayədə Allah buyurur:

**"Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım."**

İnsan bəndəçilik üçün yaranmışdır. Bəs bəndəçilik nədir?

Bəndəlik müəyyən mövcudun başqa mövcud arasında müstəqil olmadığını dərk etməsi və öz yoxsulluğunu duymasıdır.

Bəndə odur ki, heç şeyi özününkü bilməsin, qulluq borcunu yerinə yetirsin. Bilsin ki, gözü özünün deyil, onunkudur, hələlik bəndəyə verib, almasına isə zərrə qədər zəhmət və çətinlik yoxdur! **"Bir şeyi yaratmaq istədiyi zaman Allahın buyurduğu ona ancaq: "Ol" deməkdir. O da dərhal olur"** *(Yasin 82-ci ayə)*.

Bizim varlığımız özümüzün olmadığı, yaşadığımız və ölməyimiz öz əlimizdə olmadığı üçün bəndə olduğumuzu etiraf etməliyik, Özümüzün olsaydı öz ixtiramız da olardı.

Dünyaya öz istəyimizə gəlmişikmi və öz istəyimizlə gedəcəyikmi?

Yox, əsla yox. Demək biz öz varlığımızın yiyəsi deyilik, gözümüzün və qulağımızın ixtiyarı belə öz əlimizdə deyil, havasız yaşamaq və qidasız yox olmaq üçün heç bir iş görə bilmərik. Beləliklə insan möhtac olduğunu inkar edə bilməz.

Necə ki, Fatir surəsi 15-ci ayədə buyrulur.

**"Ey insanlar! Siz Allaha möhtacsınız"**.

Buna görə də bütün ehtiyaclar möhtac olmayan bir varlığın əlilə aradan qaldırılmalıdır. Yenə fatir surəsi ayə 15-də **"Allah isə möhtac deyildir"** buyurur.

Heç nəyi olmayan və başdan ayağa ehtiyac içində olan adamın əlindən ehtiyacını bildirmək və bəndəlikdən başqa bir iş gələrmi?

Bütün yaranmışlar öz əməlləri və təsirləri ilə əslində

Allaha bəndəlik edir, özlərinin möhtac olduğunu və onun möhtac olmadığını təsdiq edirlər.

Torpaqda cücərən toxumun cücərməsi ona bəndəliyin nişanəsidir.

Uçan quş, cəh-cəh edən bülbül, sürünən ilan, atılan qurbağa, vuran ildırım hər bir mövcudun hər bir izi bəndəlik nişanəsidir. Quran deyir: **"Bəli göylərdə və yerdə nə varsa, ona məxsusdur, hamısı onun itaətindədir"** *(Ali İmran, ayə 83)*.

Allah bütün yaranmışlardan yalnız insan ruhunu muxtar etmişdir ki, ən yüksək mərtəbələrə çatmaq üçün öz iradəsi və istəyi ilə bəndəlik etsin.

Bəndəlik etmək istəyən adam heç olduğunu, heç şeyə malik olmadığını bildirməli və buna görə də həqiqi yiyəsi Allah olan qüvvələrini ilahi razılıqdan başqa yolda işlətməsin.

Həm başqa mövcudlardan istifadə etmək malikin icazəsilə olmalıdır, həm də həyatının bütün sahələri bəndəlik şəklinə düşməlidir. Hətta ürək belə Allahın ixtiyarında olmalı və Allah bəndələri haqqında pis gümana qapılmamalıdır. Bunu Huçurat surəsinin 12-ci ayəsində oxuyuruq: **"Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi günahdır"**.

İnsanın ürəyidə özünün olmadığı üçün dostluğu və düşmənliyi də Allah üçün olmalıdır. Dost dediyi adamla dost, düşmən dediyi adamla düşmən olmalıdır. Allahın övliyaları ilə dost olmalı, düşmənləri ilə düşmən olmalıyıq:

Mumtəhinə surəsi 4-cü ayə **"İbrahim və onunla birlikdə olanlar sizin üçün gözəl örnəkdir"** deyir.

**Həzrəti İbrahim** bütpərəstlərə: **"Biz sizə nifrət edirik, vahid Allaha iman gətirməyincə aramızda düşmənçilik olacaqdır"** - dedi.

Mömünlə düşmənçilik etmək olmaz. Pis iş görəndə onun yalnız pis işindən acığımız gəlməlidir, özündən yox. Elə də Allahın düşmənlərini və dostların düşmənlərini dost tutmaq olmaz.

Allah xatirinə dostluq, Allah xatirinə düşmənçilik.

Demək ürək də Allahındır. Mömün həmişə çalışır ki, Allahın razılığını olduqca çox cəlb etsin. Hətta çalışır ki, mübah əməl yox, ya vacib yada müstəhəb əməlləri yerinə yetirsin. İnsanın tam bəndəliyi, özünü Allaha həsr etməsidir. İnsan bəndəliyi seçsə əbədi nemətlərə və səadətə yiyələnəcəkdir.

Bəndəlik etməməyimiz Allaha ziyan vurmaz.

Necə ki, **İbrahim** surəsi 8-ci ayədə buyurub:

**"Əgər siz və bütün yer üzündə olanlar Allaha nankorluq eləsəniz** *(ona heç bir zərər yetirə bilməzsinir)* **Çünki Allah möhtac deyildir. O hər cür tərifə və şükrə layiqdir"**. Demək Allahın itaətə və ibadətə əmr etməyi buna görədir ki, onun bizə verdiyi nemətlərdən elə istifadə edək ki, sonsuz nemətlərindən istifadə etməyə layiq olaq.

## İMAN QANUNUN QƏTİ İCRASINA ZƏMANƏT VERİR

Qanunun icra edilməsi üçün məhkəmə və inzibati orqanlar zəruri şərtlərdəndir. Ancaq kifayət deyildir.

Çünki: Dini iman adamlarda qüdrət, kamillik və hər cür

yaxşılıqlar mənbəi olan Allaha inam yaradır. Allah hamının xeyrini istəyir. Cəmiyyətində məsləhətini nəzərə alır.

O bütün gizli və aşikarlardan agahdır. Heç bir şey onun qüdrət və hakimiyyətindən xaric deyil. O dəqiq hesablayıcıdır.

Xalqın ən kiçik əməli onun nəzərindən qaçmır və unudulmur. Allah elə bir hakimdir ki, kimsəyə zülm etməyir, yaxşı işləri mükafatlandırır və pis əməlləri cəzalandırır. Belə bir mehriban, müdrik və qüdrətli Allaha inanmaq adamların ürəyində güclü icra zəmanəti yaradır. Belə ki, Adəm övladı istər gizlində, istərsə də aşikarda başqalarının hüquqlarına riayət etməgi öz vəzifəsi bilir. Bu işdən həzz aparır.

Hətta əgər adamın yaxşı əməlləri ətrafındakıların nəzərindən qaçıb mükafatlandırılmasa belə, o ümidini əldən vermir.

Çünki Allaha olan inamı onu həmişə insanlara xidmət etməyə və güzəştə girməyə təsdiq edir. Yaxşılıq naminə yaxşılıq edir və etdigi bütün yaxşılıqların əvəzini Allahdan umur. Buna baxmayaraq, qulluq heç vaxt unudulmur.

Gec-tez yaxşı ilə pis, xaliq ilə xadim tanınır və elə bu dünyanın özündə başı ucalıq və alnı açıqlıq, yaxşı işlər görənlərə və öz ictimai borcunu tam imanlarına yetirməgə çalışanlara qismət olur.

## İSLAM BİR HƏYAT NİZAMIDIR

Bu şüura sahib ol - özündə, evində mühitdə, ölkəndə
Bunu istə, Bunu yaşa.

Dinsizliklə əlaqədar olan hər cür işdən uzaq dur...

Aldanıb şəriətdən ayrılma, çünki buna əmr edilmişsən, axirətdə də bundan məsulsan. Kimin yolunda, kimin ardında, kimin izinində və kiminlə bərabərsən, onunla yenidən diriləcəksən, onun üçün, sevəcəyin, həmdəm olacağın kimsələrə və onların inanc və davranışlarına çox diqqət et. Aman, onların oduna, atəşinə yanma.

Nurlu imanını qaraltma...

Mənfəətpərəstlərə uyub könül məbədini yıxma!

*Yaxşını - pisdən,*
*doğrunu - əyridən,*
*Faydalını - zərərlidən...*
ayırd edəcək bir mərifətə qovuş!
*Hardan gəldiyini*
*Nə üçün gəldiyini*
*haraya gedəcəyini...*
yaxşı düşün.

## KÜFRÜN MƏNASI NƏDİR?

Küfr lüğətdə gizlətmək, məxfi saxlamaq, şəriətdə isə Allahın üluhiyyətini peyğəmbərin nübuvvətini, məadı, habelə dinin zəruri məsələlərini inkar etməyə deyilir. Dinin zəruri məsələlərindən hətta birini inkar edən şəxs, bütün müsəlmanların nəzərində islamdan çıxaraq kafirlər cərgəsinə qoşulur.

Ümumiyyətlə küfr murdar bir ağacdır ki, onun kökləri

batil etiqad, gövdəsi rəzil əxlaqlar, qol-budağı günah və pis əməllər, meyvəsi isə dünyada zillət və axirətdə əzabdır.

Bunun da müqabilində iman pak bir ağacdır ki, kökü haqqa etiqad, gövdəsi bəyənilən əxlaq, qol-qanadı saleh və gözəl əməllər, meyvəsi isə dünya və axirət xoşbəxtliyidir ki, bu da əbədi quruluşdan ibarətdir. İbrahim surəsinin 25-26-cı ayəsində buyurur: **"Məgər Allahın necə bir misal çəkdiyini görmürsənmi?!"**

Allah pak-pakizə kəlamı imana məsəl vurur: O, kökü yerdə sabit, qol-budağı isə fəzaya, asimana çəkilən gözəl bir ağac kimidir. Pərvərdigarın izni ilə öz meyvəsini hər vaxt verir. "Allah camaat üçün belə məsələlər çəkir ki, bəlkə düşünüb ibrət alalar. Küfrün xəbis kəlməsinin məsəli isə kökü yerdən ayrılan xəbis (iyrənc) ağaca bənzəyir." Belə bir ağac üçün "sabitlik və qərar yoxdur".

## "BİSMİLLAH" SURƏNİN BİR HİSSƏSİDİRMİ?

İslam alimləri arasında **"Bismillah"** cümləsinin **"həmd"** və sair tərkib hissəsi olması barədə heç bir ixtilaf gözə dəymir. **"Bismillah"**ın Quran surələrində yazılması bu məsələnin sübutu üçün canlı bir şahiddir.

Çünki bildiyimiz kimi, Quranın mətninə Peyğəmbəri-əkrəmin (s.ə.v.v.) dövründən indiyə qədər heç nə artırılmamış və heç nə dəyişilməmişdir.

**İmam Sadiq**in (ə) dostlarından olan Müaviyət ibni Əmmar deyir: İmamdan soruşdum ki, namaz qılmaq istə-

yəndə **"Həmd"** surəsini qurtardıqdan sonra növbəti surəni başlayanda **"Bismillah"**ı deyimmi? Buyurdu: **"Bəli"**.

Sünni alimlərindən olan Dar Qutni bir hədisdə səhih sənədlər əsasında nəql edir ki, bir nəfər **Əli** (ə)dan soruşdu **"Səbül-məsani"** nə deməkdir?

Həzrət buyurdu: O **"Həmd"** surəsidir. Kişi yenə soruşdu: **"Həmd"** surəsi altı ayə deyildirmi? İmam buyurdu: **"Bismillahir rəhmanir-rəhim"** də o ayələrdən biridir.

Bundan əlavə müsəlmanlar həmişə Qurani tilavət edəndə **"Bismillah"**ı hər surənin əvvəlində oxuyurdular.

Bir rəvayətdə nəql olunmuşdur ki, Əmirəl-mömindən (ə) soruşdular: **"Bismillahir-rəhmanir rəhim" "Fatihə"** surəsinin tərkib hissəsidirmi? Həzrət buyurdu: Bəli, Rəsuli-əkrəm: onu qiraət edirdi və onu **"Fatihə"** surəsinin bir hissəsi sayır və buyururdu ki, **"Fatihətul-kitab"**, **"Səbul-məsani"**dir və yeddi ayədir.

## İSLAMIN İQTİSADİ GÖRÜŞÜ

İslam bütün sahələrdə olduğu kimi, iqtisadda da bir sistem və bir nizamdır.

İslam heç bir inanc və düşüncə sisteminin ələ almadığı ölçüləri çərçivəsində prinsiplərə bağlanmışdır.

İslam istehsal və istehlak məsələlərində ən səmərəli yol tutaraq cəmiyyətdə təbii hal və azadlıqları həmişə tələb etmişdir. Şəxsiyyətin cəmiyyət içərisində tutduğu mövqeyi islam düzgün göstərir.

İslamiyyətdə ehtiyac maddələrini toplayaraq, az tapılanda bahalı satma və faiz kimi bu günkü cəmiyyətimizin başlıca sərvət qaynağı olaraq gördüyü bütün çirkli sərmayə qaynaqları tıxanmamışdır.

Cəmiyyətə zərər verəcək, əxlaqını pozacaq, ictimaiyyəti zəiflədəcək fəaliyyətlərin hamısının icrası şiddətli cəza ilə qanunlaşdırılmışdır. Kimsənin faizdən, ehtikardan, qumardan, sələmçilikdən, şərabxorluqdan və qadın ticarətindən, yəni cəmiyyətin yox olduğunu hazırlayacaq yollardan qazanc təmin etməsi mümkün deyildir.

Fərdi mülkiyyət insanların təbii haqqıdır. Cəmiyyət üçün təhlükəli olan mülkiyyətin özü deyil, onun qeyri-qanuni istiqamətdəki fəaliyyətidir.

Yəni bu mövzuda islam bir neçə tədbirlər ortaya qoymuşdur. İslam suyu, sahələri, mədənləri, enerji qaynaqlarını və daha neçələrinin içinə olan cəmiyyətin müştərək malları ilə, hər kəsin istifadəsinə verilmiş olan, iqtisadi dəyərlər üzərində mülkiyyət qəbul etməmişdir. Bunlar olduğu kimi İslami dövlətə aiddir.

Buna əsasən İslam iqtisadi anlayışlarda dövlət lazım bildiyi zaman tək-tək adamlara qazandıqları sərvəti, mülkiyyətlərində olan malları, hradan və nə cür aldıqlarını soruşa bilər.

İnsanlar buna inandırıcı, qayda-qanuna əsasən cavab verməklə və qazandığını isbat etməklə mükəlləfdirlər.

## İSLAMİ NİZAMDA

İslam sərvət paylanmasında ədaləti ön planda tutmuşdur. İslam əsasına görə, mülkün həqiqi sahibi yalnız Allahdır. Mömünlər onun yer üzərindəki xəlifəsidir. Əşya üzərində fərdlərin sadəcə istifadə etmə haqları vardır.

Əsasən mal-dövlət imkanlının əlində bir əmanətdir.

Qurani-Kərimin ifadəsi ilə **"Ta ki, sərvət içinizdən yalnız zənginlər arasında dolaşan bir dövlət olmasın..."** *(Həşir surəsi. ayə 7).*

Sərvət, bütün müsəlmanların rifah qayəsinə yönəldilməlidir. İslam bərabərliyi, ancaq xüsusiyyət və mahiyyət etibarı ilə eyni olan dəyərlər haqqında qəbul edir.

İslam bərabərliyi qanun və ədalət önündə qəbul etmişdir. Sərvət bölgüsündə əsas olan ədalətdir, hər kəsin haqqına razı olmasıdır.

Bu xüsusda dövlətə düşən vəzifə: dəyişik ölçülərdə sərmayə sahibi olanları bir-birinə yardımçı olmanı və ahəngi vücuda gətirməkdir.

İslam, sinif məfhumunu qəbul etməyir, islami bir cəmiyyətdə əzənlər-əzilənlər haqq yeyən və haqqı yeyənlər olmaz. İslamda bir-birinə düşmən, işçi, sahibkar sinif yoxdur. İslamda cəmiyyət halında yaşamanın lüzumu olaraq zəruri məslək qrupları vardır.

Çünki cəmiyyətin maddi varlığının davamı məslək qruplarının mövcud olmasının lazımlılığını bildirir.

İslamda qazandığını xərcləmək də fərdlər başlı-başına buraxılmamışdır. Yəni pulu halal yollarla qazanacaq və

xərclənərkən də Allahın göstərdiyi yerlərdə onun əmr və göstərişlərinə görə xərclənəcək.

Təmtəraqlı yaşamaq və israf qəti haramdır. Belə görünür ki, pul sahibi bir kişi əlindəkiləri ya xərcləyir, ya da ehtiyac üçün saxlayır.

İslamiyyət eyni zamanda insanların həyatını sizlərə örnək bəxş edib: Əgər bir şəxs müsəlman isə Allahın **“Yeyin-için, lakin israf etməyin. Çünki Allah israf edənləri sevməz”** ayəsinə əsasən lüzumsuz xərcləmələr etməz. İslam israfı haram buyurmağa belə bir xoşbəxt nəticəyə qapı açmışdır.

## BİR MÜSƏLMAN DİNİN DÜŞMƏNLƏRİNİ NƏ ÜÇÜN SEVMƏMƏLİDİR?

Çünki Allahın əmri, Quranın hökmü belədir. Çünki Allah düşmənlərinin yəni Nəmrud, Şəddad, Firon kimilərinin, Peyğəmbər (ə.s) düşmənlərinin - Əbu Ləhəbin, Əbu Cəhlin, Əbu Sufyan kimilərinin öz istədiklərinə yer tutduğu qəlblərində Allah sevgisi və peyğəmbər məhəbbəti yaranmaz.

Bilə-bilə dinsizlərə uyan, onların arxası ilə gedən və belələrini yaxşılıqla anan bir şəxs necə imanla qala bilər?

Belə bir kimsə müsəlmanlıqdan necə bəhs edə bilər? Fizika qanunlarına görə, necə cisimlər, eyni zamanda eyni yeri işğal edə bilməzlərsə, kafir sevgisi Allah-peyğəmbər və Quran sevgisi də eyni bir qəlbdə ola bilməz.

Kafiri sevmək və onun yolu ilə getmək ən böyük günahdır. Əgər o kafər Qurana və peyğəmbərimizə (ə.s) dil uzadan cinsdəndirsə.

## ƏSBAT KİMLƏRDİR?

**"Sibt"**, **"Səbt"** və **"İsbat"** bir şeyin asanlıqla geniş yayılmasına deyilir. Bəzən ağaca bəsit deyilir.

Çünki, onun şaxələri asanlıqla fəzaya yayılır. Övladlara, ailə üzvlərinin bir nəsildə yaranan genişlənməsinə sibt-əsbat deyilir.

Əsbatdan məqsəd Bəni-İsrail qəbilələrinin şaxələri, yaxud **Yaqub**un on iki övladlarından əmələ gələn insanlardır. Onların arasında peyğəmbərlər olduğuna görə Quran onları Allah ayələrinin nazil olduğu şəxslər cərgəsində sayır. Buna əsasən əsbat-ya məsihi, ya Bəni-İsrail qəbilələri, yaxudda **Yəqub**un övladlarından olan qəbilələrdir ki, onların arasında peyğəmbərlər var idi. Bu **Yəqub**(ə)un öz övladlarına aid deyildi. Çünki onlar qardaşları barəsində günaha mürtəkib olmuşdular və onların hamısının peyğəmbərlik səlahiyyəti yox idi.

3 - **"Hənif"** hənəf kökündən alınmışdır, azqınlıqdan düzlüyə, həqiqətə doğru meyl etmək mənasındadır. **"Cənəf"** isə tamamilə onun əksidir, yəni düzlükdən doğruluqdan əyriliyə yuvarlanmaq mənası daşıyır. Xalis tohid ardıcılları şirkdən üz döndərib bu həqiqətə təslim olduqlarına görə onlara **"hənif"** deyilir. Buna görə də **"hənif"** sözünün

mənalarından biri də düzlük və saflıqdır. Buradan aydın olur ki, təfsirçilərin **"hənif"** kəlməsi barəsində dedikləri mənalar, o cümlədən Allah evinin ziyarəti, həcc, haqqa tabe olmaq, əməli ixlaslı etmək bütün bunlar ümumi və daha geniş mənada olan bir sözə qayıdır və hamısı onun aşkar nümunələrindəndir.

## QİBLƏNİN FƏLSƏFƏSİ NƏDİR?

Burada qarşıya belə bir sual çıxır: Əgər hər tərəfə üz çevirsək Allah orada mövcuddursa, onda namazda qibləyə üz tutmağın nə lüzumu var?

Qibləyə üz tutmağ heç də Allahın pak zatını müəyyən istiqamətdə məhdudlandırmaq mənasında deyildir.

İnsan maddi bir mövcud olduğuna, müəyyən bir tərəfə namaz qılmalı olduğuna görə, əmr olunmuşdur ki, bütün insanlar eyni bir istiqamətə namaz qılsınlar.

Bununla da müsəlmanların cərgələrində nizam-intizam və vəhdət yaransın. Hərc-mərclikdən, parakəndəlikdən uzaq olsunlar.

Təsəvvür edin ki, onların hər biri bir tərəfə namaz qılıb, parakəndə cərgələr təşkil etsələr, necə də xoşa gəlməz mənzərələr yaranar!

Qiblə kimi təyin olunan istiqamət - Kəbə, qədim zamanlardan bəri töhid qərargahı olan və ona üz tutulması töhid məsələsini xatirələrdə canlandıran müqəddəs bir məkandır.

**"Vəchullah"** ifadəsi heç də Allahın surəti demək de-

yildir. Vəch sözünün mənası zat deməkdir.

Burada üç məşhur rəvayətə nəzər salaq.

Mərhum Səduqun **"Töhid"** adlı kitabında Salmani Farsidən maraqlı bir hədis qeyd olunmuşdur. Belə ki, o Həzrəti **Əli (ə)** -dan soruşdu!

**"Allahın üzü hansı istiqamətdədir?"**

Həzrəti **Əli** (ə) buyurdu: İbin Abbas, odun və od gətir. O, da həmin şeyləri gətirdi, Həzrət odunu yandırıb buyurdu: Bu alovun üzü hansı istiqamətədir?

Ərz elədi: Onun müəyyən bir cəhəti yoxdur, hərtərəflidir. Həzrət buyurdu: Mənim pərvərdigarım da belədir. *(Yəni heç bir cəhəti yoxdur)* Məşriq və Məğrib Allaha məxsusdur hər tərəfə üz çevirsən, Allah o istiqamətdədir.

Əmir-əl mömini **Əli** (ə)-dan nəql olunmuşdur ki, Allah təbarək və təalanın cilvəsi əhli-beytdir. Belə ki, onlar ümmətin imamları və yol göstərənləridir. Onların ardıcılı olmaq Allaha və Peyğəmbərə (s.ə.v.v.) itaət etməklə bərabərdir. Əhli beyt yolu ilə getmək Allaha və Peyğəmbərə itaət etmək qədər vacib bir işdir. Yəni Allah təalanın vəchinin əzəmətini, ilahi dərgahı dərk etməyin yolu yalnız İmamlardır. Onlar Allahın insanlar üçün höccətləridir. Buna görə də imamlar buyurmuşlar: **"İnsanlar yalnız bizim vasitəmizlə Allah barəsində mərifət kəsb edib ibadət etmişlər"**.

Tarik ibni Şəhab deyir: Həzrəti əmirəlmömin **Əli (ə)** buyurdu. **"Ey Tarik İmam Allahın kəlməsi höccəti, vəchu və şüurudur."**

## MÜSƏLMANLIQLA XRİSTİANLIQ ƏSAS ETİBARI İLƏ EYNİDİRMİ?

Həzrəti **Adəm**dən **Məhəmməd** (s.ə.v.v.) peyğəmbərə qədər bütün peyğəmbərlər, Allah yanında tək din olan **İSLAMIN**, töhid əsaslarını eynən ümmətinə təbliğ etdi. **İsa** peyğəmbər (ə.s)a nazil olan İncil, Qurandakı töhid prinsiplərinin eynini ifadə edir...

Lakin sonradan bəzi yolunu azmış kimsələr **Musa**(ə.s)a nazil olan Tövratı və **Davud** (ə.s)a nazil olan Zəburu da **İsa** (ə.s)a nazil olan İncildə təhrif etdilər, cəfəngiyyatla doldurub məzmun saflığını pozdular.

Biz müsəlmanlar: İncilin həzrəti **İsa**(ə.s)a göndərilən ilk orijinal nüsxəsinə inamımız var: Bu günki incilin, bizim inandığımız saf və təhrif olunmamış incillə, uzaqdan yaxından heç bir əlaqəsi yoxdur. Xəbərlərdə var ki, incilin ilahi dərgahına çəkilməsindən sonra yer üzərində 154 incil yazıb-yaradıblar. Sonradan isə cəmisi dörd müəllifin adı ilə bağlı olan incil mövcuddur.

**Matta, Markos, Luka, Yuhanna** incilləri belə, bir-birilərindən çox fərqli olub iftira və təzadlarla doludur.

Bu gün xristianlıq əsgi Yunan, Misir, Hind və Romanın bütpərəst və ruhçu düşüncələri ilə yalançı papas, keşiş məntiqindən meydana gələn bir inanc və ayın sistemidir.

Bir çox məzhəblər yanında **Kotolik, Ortodoks, Protestan** və **Anqilikan** kimi öndə gedənləri də ayrı bir din mənzərəsi göstərməkdədirlər. Bu məzhəblərin arasında əsrlərin yaratdığı kin və düşmənçilik hissləri indi də davam etməkdədir.

Nəticə olaraq deməliyik ki, hal-hazırdakı uca dinimiz olan İslamla onların heç bir əlaqəsi və bənzərliyi yoxdur.

## MİSSİONERLİK NƏDİR?

Xristianlığın zəif inanc və düşüncələrini bütün dünyaya yaya bilmək üçün böyük imkanlarla yüyürdülən təbliğat fəaliyyətidir. Hər təbliğçiyə *(Missioner)* deyilir.

Bəlli mərkəzlərdən idarə edilir. Bütün dünya dillərində kitab, braşüra, məcmuə nəşriyyatı yaradırlar.

Bir çox dillərdə film, teatr, televiziya və radio proqramları hazırlayaraq təbliğat fəaliyyətlərini genişləndirirlər.

## HİKMƏT NƏDİR VƏ ONUN TƏSİRİ NƏDƏN İBARƏTDİR?

Hiss aləminin fövqündə olan həqiqətləri dəqiqliklə dərk etməyə **“Hikmət”** deyilir.

İnsan gözü, qulağı və başqa maddi hissləri vasitəsilə bəzi şeyləri dərk edə bilir. O maddi hisslərə malik olmasında heyvanlarla şərikdir. Lakin onun bəzi idrakları özünə məxsusdur. Məsələn: Dünya bəşər üçün mütləq xoşbəxtlik gətirə bilməz. Bu mətləb çox zəifdir: Dünyada yaxşı yaşayan və mütləq rahatlıq əldə etmək istəyən kəs, onu burada əldə edə bilməyəcəkdir.

Bu məsələni çoxları başa düşə bilmir. Elə buna görə də var-dövlət və vəzifə əldə etməkdən ötrü həmişə çalışırlar.

Buna hakim olan şəxs, dünya malının ehtiyaclarını aradan qaldırmaq üçün lazım olduğunu və artığını isə baş ağrısı və həsrətə səbəb olacağını bilir. Eyni zamanda əksər var-dövlət sahiblərinin nə vəziyyətdə olduğunu dərk edir.

Var-dövlət və vəzifə insan üçün xoşbəxt həyat yarada bilmir. İnsan vəzifəyə keçən andan axıra qədər zəhmət və narahatlıq içində olur. Həsəd və paxıllıqdan yaxa qurtara bilmir. Amma əgər bu vəzifə Allah və onun xalqına xidmət etməkdən olsa, insan zəhmətlərin bərabərində böyük savab əldə edə bilər.

Sözün qısası həkim vəzifənin zəhmətə səbəb olmasını dərk edir.

Ümumiyyətlə dünyanın faniliyi və axirətin əbədi olmasının ya əqlin, ya da ki, tohid-əfalının vasitəsilə dərk etmək lazımdır.

Bunları dərk etməyin özü, elə bir böyük hikmətdir.

## DÜNYƏVİ SÜLH YALNIZ İMAN SAYƏSİNDƏ OLA BİLƏR!

**“Ey iman gətirənlər! Hamılıqla sülh və barışığa daxil olun və şeytanın izlərinə tabe olmayın, o sizin aşikar düşməninizdir...”** *(Bəqərə surəsi 208-ci ayə)*

Lüğətdə **“Silm”** və **“Səlam”** sülh, asudəlik, aramlıq mənasındadır. Bu ayə bütün imansız şəxsləri sülhə, asayişə, aramlığa dəvət edir. Möminlərə xitab edildiyindən, ayədən belə məlum olur ki, həqiqi sülh və aramlıq yalnız iman sayəsində mümkün ola bilər və iman olmadan, sadə-

cə maddi qanunlara arxalanmaqla heç müharibə odu sönməyəcəkdir. İnsanlar mövcud ixtilaflara baxmayaraq, yalnız mənəvi qüvvə olan iman sayəsində qardaş kimi bir yerə yığışaraq dünyəvi hökümət təşkil edər və yer üzünün hər bir yerində sülh və təhlükəsizliyi bərqərar edə bilərlər.

Dil, irq, mal-dövlət, coğrafi sərhədlər, ictimai siniflər və digər maddi işlərin hamısı ayrılıq və parakəndəliyə səbəb olur. Bu kimi işlər dünyada heç vaxt insanlar arasında möhkəm rabitə yaradan həqiqi sülhə səbəb ola bilməz.

Bu birlik və vəhdət yalnız Allaha iman sayəsində mümkündür və bu, bütün ixtilafların fövqündə dayanır. Buna əsasən insanın daxilində və onun ruhunda iman olmadan aramlıq müyəssər olmadığı kimi, imansız da sülh və səfa mümkün deyildir. Şeytan insanlarda vəsvəsə yaradaraq onları tədricən azdırır. Bu kimi işlərin hər birini Quranın təbiri ilə, şeytanın bir addımına tabe olmaq hesab olunur.

Burada bu həqiqət bir daha təkrar olunmuşdur ki, haqdan dönmək, ədavət, düşmənçilik, nifaq, müharibə, qan tökülməsi və s. işlər adətən, sadə və kiçik mərhələlərdən başlanır. İman əhli elə ilk əvvəldən ayıq olmalı və bu kimi işlərin qarşısını almalıdır. Ərəblərin arasında belə bir atalar sözü var: **“Bir müharibə bir sillədən başlanır”**. Şeytanın insanla düşmənçiliyi heç də gizli bir şey deyildir, o xilqətin əvvəlindən **Adəm**(ə)la düşmənçiliyə başlamış və bu düşmənçiliyin nəticə verməsi üçün bacardığı qədər səy edəcəyinə and içmişdir. Amma bu ziddiyyət və ədavət imanı insanların ziyanına deyil, onların təkamülünə səbəb olur. Allah tərəfindən verilən göstərişlər, yol və məqsəd

də tamamilə aydın olduğundan, şeytanın vəsvəsələrinə uymağa, yoldan azmağa heç bir əsas qalmır. Əgər bütün bunlarla belə yenə yoldan azarsa, şübhəsiz səhlənkarlıq onların özündədir. Onlar bilməlidirlər ki, Allah həm əzizdir *(qüdrətli və bacarıqlı)*, bir kəs, onun ədalətindən qaça bilməz. Həm də həkimdir, yəni hikməti əksinə bir iş görməz.

## İNSAN NƏ ÜÇÜN PEYĞƏMBƏRLƏRİN GƏLMƏSİNƏ EHTİYACLIDIR?

Cəmiyyətdə iç üzü tanıma haqqında çox bəhs olunan məsələlərin biri də insanın sosial və ictimai olmasıdır. Bu anlamdakı, insan yaşayışın davam tapması və onun ətraflı təkmilləşməsi uğrunda ictimai bir yaşayışa ehtiyacı vardır. Bu isə onun fitrət və zatındadır ki, öz yaşayışını başqası ilə əməkdaşlıq təməlində qursun.

Aydındır ki, birlikdə yaşamağa bir sıra qayda-qanun lazımdır ki, hər kimsənin başqalarına olan vəzifəsinin hüdudunu bildirib və o hüdudun yerinə gətirmək amilləri həmin qayda-qanunda öncədən hesab edilmişdir;

Çünki belə olmasaydı, insan da qərizi olaraq faydalanmağa sarı çəkilmək və zərərdən çəkinmək üzrə və həmçinin cəmiyyətin faydasını öz faydasından araşdıra bilmədiyi üçün başqalarının zərərinə olsa da yalnız öz şəxsi faydalarını nəzərə alacaqdır. Axırda zülm, zor və həqqi aradan aparmaq, insanlar arasında yayılıb və yaşayış öz doğru mənasını əldən verib, insani birliklər isə yoxluğa hədələnəcəkdir.

Bunonla aydınlaşdı, insan ictimai yaşayış kölgəsində yaşamalıdır. İctimai yaşayış da, ədalətli uyğun qanuna ehtiyaclıdır. İndi bu qanunu törədənin necə şərtlərə malik olduğunu aramalıyıq və aydınlaşmağı gərəkdir ki, ayə insan özü belə bir qanunu törədə bilərmi ya yox?

Yəni insan düşüncə baxımından daha kamil olsa da bu şərtləri əldə edə bilərmi ya yox?

## ƏN YAXŞI QANUN VERİCİ KİMDİR?

İndi görək hamıdan yaxşı kim insan həyatının qanunların təyin edə bilər. Həm işlərə sağlamlığına nəzər edilsin, həm də təcavüzkarların qarşısı alınsın.

İnsan cəmiyyətini bir böyük qatara və hakim heyəti isə lokamativə bənzətmək olar. Qanun isə bu qatarın relsləridir. Söz yox ki, bir yaxşı dəmir yolunun aşağıdakı xüsusiyyətləri olmalıdır. Üzərində qatar keçən relslərin yerlərin müqaviməti olmalıdır. Ən çox sıxıntıya dözməlidir. İki xəttin arasındakı fasilələr lokamativ çarxlarının fasiləsi ilə bir olmalıdır. Tunelin divarları və onun hündürlüyü qatarın ölçüləri ilə uyğun olmalıdır.

Enişlər, yoxuşlar o qədər uca və alçaq olmalıdır ki, qatarın tormozları onların öhdəsindən gəlsin. Habelə ətraf dağların tökülmə ehtimalı və içindən keçilən dərələr diqqətlə hesablanmalıdır ki, ta qatar hər şərtlər içində o yeri salamat keçsin.

Bu misala diqqət etməklə insan cəmiyyətinə nəzər salaq:

İnsanlar üçün ən yaxşı qanunlar keçirən adamın aşağıdakı sifətləri olmalıdır:

*1. İnsan növünü yaxşı tanımalıdır. Onun bütün nailiyyətlərindən və çətinliklərindən xəbərdar olmalıdır.*

*2. İnsanlarda olan bütün ləyaqətlər və istedadları nəzərə almalıdır. Onların çiçəklənməsi üçün qanunlardan faydalanmalıdır.*

*3. Bəşər cəmiyyəti üçün baş, beyin hər cür hadisəni və onun qarşısında lazım gələn dayanışı yaxşı ayırd edə bilməlidir.*

*4. Cəmiyyətdə heç cürə xas mənfəəti olmamasıdır. Qanunları tərtib edəndə öz şəxsi mənfəətləri və ya ona bağlı olanların mənfəətlərinə diqqət etməlidir.*

*5. Bu qanunverici, insana mənfəət olan hər cürə qabağa getmə və hər cürə tənəzzüldən xəbərdar olmalıdır.*

*6. Bu qanun verici gərək hər cürə səhf və xətadan məsum olsun.*

*7. Bu qanun vericinin elə bir gücü olmalıdır ki, cəmiyyətdə heç bir məqam və zərurətdən qorxmasın. Eyni halda çox mehriban və ürəyi yanan olsun.*

## QANUN VERİCİNİN ŞƏRTLƏRİ

Qanun verici insan, ruhi və cismi baxımdan ətraflı məlumat sahibi olmalıdır, ta insanın içində gizlənən sirlər ona aydınlaşsın. Başqa cürə olarsa onun qanunları insani birliklər üçün təkamül bağışlayan olmayacaqdır. Eləcə də insan-

ların arasında olan əməllərin əks əməlini yaxşı tanımalıdır.

*Məsələn* varlılara bir qanun verirsə yoxsullar arasında əksil əməlini bilə. Həmçinin onların yetərliklərinə və ləyaqətlərinə uyğun ki, onların gələcəklərinin inkişaf təməlidir.

Bilgisi ola və onları nəzərə almağa qanun verməgə başlaya yəni bunu bilməlidir:

Onun qanunu, həm **Əbu Əli Sina** kimi istedadlılara və həm də ormanlarda yaşayan istedadsız insanlara faydalı olacaqdır. Qısa sözlə, geniş elm və bilik sahibi ola, ta bilməzliklə yaranan nöqsanlar, onun qanununda ortaya çıxmaya və onun hesab etdikləri hər halda vaqiətə uyğun ola. Yəni heç vaxt **"mərkəbi cəhalət"** də olmaya ki, özü vaqiətə uyğun olmasını zənn edərkən, gerçəkdən əksi sübuta yetirilə.

Bunlardan başqa qanunvericilikdən qəsdi yalnız cəmiyyətin xeyri və dözülməsi uğrunda ola və heç vaxt qürur, şəxsi fayda və qərəzli amillərdən qaynaqlanmaya.

Bir az diqqətlə və bunu nəzərə almaq ilə ki, insan nə qədər gedirsə də çoxlu məsələlər ona həll olmamış qalacaqdır, həmçinin yanlışa uğramasını nəzərə alaraq və... bu iş, sayılan şərtlər ilə yalnız mütəal Allahın və onun göndərilənlərin ki, bilgi və yanlışa uğramamazlıqları Allah inayəti ilədir. Öhdələrindən gəlir. Bununla bilici Allahın belə qanun verməsi və peyğəmbərlər vasitəsilə insanlara çatdırması gərəkdir.

Bəzi vaxtlar Allah qanun yaratmağı, peyğəmbərə bəxş edir ki, elm və bilikləri Allahın sonsuz bilgisindən qaynaq-

lanır və heç vaxt yanlışa uğramazlar. *(Əlbəttə əsas qanun verici Allahdır)*

Bu nöqtəni demək lazımdır ki, insanın inkişaf, təkmilləşmə və düz yaşayışı üçün həm göstəriş lazımdır və həm də göstərişi öyrədən. Təkcə qanun və göstəriş insanı səadətə çatdıra bilməz. Bəlkə bir şəxs müəllim, ülgü və örnək kimi insanlar arasında olmalıdır ki, onun etdikləri və qanunu yerinə yetirməsi başqalarına ülkü kimi olsun... Buna görə demək olar o insan iki baxımdan peyğəmbərlərə ehtiyaclıdır. Allah da həmin iki baxımdan peyğəmbərləri məbus etmişdir.

*1. Kamil və ətraflı qanun olmasının gərəkliyi*

*2. Kamil öyrədici və müəllim olmasının gərəkligi*

Eləcə bu iki gərəklik peyğəmbərin gəlməsi ilə ödənildi və insan bu iki qaidə ilə səadət zirvəsinə, xoşbəxtliyə, dünyavi və uxrəvi təkmilləşməyə sarı gedə bilər.

## QANUNVERİCİNİN ŞƏRTLƏRİ KİMDƏ CƏMDİR?

Görəsən insan ən yaxşı qanun verici ola bilər?

Görəsən indiyədək kimsə insanı kamilcəsinə tanıya bilmişdir?

Bizim əsrimizin böyük kamil alimi insan haqqında izahlı bir kitab yazmış və kitabın adını **"İnsan, tanınmamış varlıq"** qoymuşdur.

Ayə insanın cismi və ruhi ehtiyaclarını Allahdan başqa kimsə aydınlaşdıra bilmişdirmi?

Ayə adi insanlar arasında kimsə tapa bilərsiniz ki, cəmiyyətə xas mənfəətləri olmasın?

**Beləliklə Allahdan sonra və ilahi vəhyi alandan sonra kimsə yaxşı qanunverici ola bilməz.**

Beləliklə bu nəticəyə gəlirik ki, bəşər təkamül yolun getmək üçün yaradan Allah, gərək bəzilərin onun hidayətinə məmur etsin. Ta ilahi səmavi qanunları onun ixtiyarında qoysun.

Söz yox ki, əgər insanlar bilsələr qanun, Allah qanunudur daha çox etimad və xətircəmliklə ona əməl edərlər.

Başqa sözlə desək bu ayıqlıq qanunların icrası üçün bir zəmin olacaqdır.

## BİR ZAMANDA İKİ VƏ YA ÇOX PEYĞƏMBƏR ALLAH TƏRƏFİNDƏN MƏBUS OLA BİLƏRMİ?

Qurani Kərimdən bizə məlumdur ki, **Həzrəti İbrahim** və **Həzrəti Lut** və eləcə də **Həzrəti Musa** və **Həzrəti Harun** bir zamanda və əsrdə insanları təbliğ etmək və rəhbərlik vəzifəsini daşıyırdılar.

Quran bu haqda buyurur. **"Onlardan sonra Musanı və Harunu Firona və camaatına açıq möcüzələrlə peyğəmbər göndərdik. Lakin onlar (iman gətirməyi) özlərinə sığışdırmadılar və günahkar bir tayfa oldular"** *(Yunis surəsi ayə 75).*

**"Sonra Musa və qardaşı Harunu ayələrimizlə və *(vəhdaniyətimizi sübut edən)* açıq aşikar bir dəlillə göndərdik.** *(Muminun surəsi ayə 45)*

Bəzi rəvayətlərdə bir gündə bəni İsrail tərəfindən neçə ilahi peyğəmbərin öldürülməsi deyilibdir. Bir zamanda neçə peyğəmbərin birlikdə təbliğ və rəhbərlik vəzifədə olduğunu deyən rəvayətlərdən də xəbərdarıq.

Həmçinin **Şeyx Sədug** (ə) öz **"xisal"** kitabında bu rəvayəti söyləyir.

**"İlahi peyğəmbərlərin sayı 124 min nəfərdir"**.

Neçə peyğəmbərin bir zamanda məbus olmasını sübuta yetirmək üçün istifadə edə bilərik.

Həmçinin bilirik bəzi ilahi peyğəmbərlər təkcə öz ailə və ya öz qohumları və bəziləri isə bir şəhər və ya məxsus camaatın peyğəmbəri idilər. Bununla neçə peyğəmbər bir əsrdə olduğu normal bir vəziyyət imiş. Buna diqqət yetirməliyik ki, iki və ya neçə peyğəmbərin bir əsrdə olmasına baxmayaraq insanları vahid bir dinə doğru çağırırdılar. Yəni məsələn: **Həzrəti Mus**a və qardaşı Həzrəti **Harun** hər ikisi insanları Allahın **Musa**ya əmr etdigi dinə doğru çağırırdılar.

## BİZ PEYĞƏMBƏRLƏRDƏN EHTİYACSIZ OLA BİLƏRİKMİ?

Bilirik insanın yaranışından məqsəd, onun ətraflı təkmilləşməsidir. Ta düzlük ölçüsü olmaqla və artıq çalışmaq və səy ilə, həm maddi və dünyəvi istəklərinə doğru yol ilə çatsın. Həm də dünyəvi səadətləri qazanmaqla, özünü axirət dünyasında həmişəlik yaşamağa hazırlatsın. Bunu da bilirik, insanda təkamülə çatmaq üçün bu istedad və yetərlik vardır. Yəni Allah qol gücü və **"şəhvət"** və **"hirslən-**

**mə”** kimi heyvani qərizələrdən artıq *(əlbəttə bunlarda bədən ehtiyaclarını ödəmək üçün lazımdır)*başqa bir bağış **“Əql”** adında insana veribdir ki, bu istedada arxalanmaqla pisi yaxşıdan, bəyənilən-bəyənilməyəndən, qurtuluşu-zavallıqdan arayır. Amma normal olaraq Allah tərəfindən təlim olmadan yaxşını pisdən araya bilməz, həmçinin başqa dünyadan xəbərdar ola bilməz. İnsan bilmir ki, hansı əməllərin yerinə yetirməyi və hansı əməllərdən çəkinməyi gərəkdir ta axirət dünyasının nemətlərindən faydalansın. Buna görə insan dünya yaradıcısı ilə əlaqədar olan bir müəllim və öyrədiciyə ki, Allah təlimi ilə faydalı şeylərdən xəbərdardır, ehtiyacı vardır, ta o müəllim və öyrədicinin yol göstərməsi ilə Allah insanın dünyəvi və uxrəvi səadəti üzərində yaradan qanunlardan xəbərdar olsun. Ona inamla əməl etməgi ilə iki dünyasının qurtuluşuna çatsın.

*Bir misal gətirək:* doğulan uşaq danışmaq və hər dilin öyrənməsinə istedadı vardır. Amma bir ata-ananın müxtəlif mövqelərdə danışmaqları gərəkdir ta inki uşaqda danışıq istedadı çiçəklənsin. O uşaqda isə onlardan öyrənməklə sözə dil açsın. Bir uşaq heç kəsdən danışmağı dinləməsə, təklikdə danışıq qabiliyyəti tapa bilməz. İnsanın ağlı da belədir. Yəni insanda pisi-yaxşıdan və qurtuluşu zavaldan aramaq istedadı vardır. Amma dünya və axirət sözlərini bilən bir müəllim lazımdır ki, bu istedadı, doğru yoluna salıb, düz yolu insana göstərsin.

Bu müəllim və öyrədicilər peyğəmbərlərdirlər.

Onlar ilahi əmrləri hər əsrdə öz ümmətlərinə çatdırırlar.

## NİYƏ MÜTƏAL ALLAH ÇOXLU PEYĞƏMBƏRLƏR GÖNDƏRMİŞDİ VƏ NİYƏ BUNLARIN HƏR BİRİSİ ÖZLƏRİNƏ MƏXSUS PROQRAM İLƏ İNSANLARA RƏHBƏRLİK EDİRDİLƏR?

İnsanlara rəhbərlik etmək, həm qanun, ehkam və əxlağa ehtiyacı vardır. Həm də müəllim və öyrədiciyə, yəni qanun və əxlaqi insanlara öyrədən bir kimsəyə əməldəki tərbiyəni də onlara örgədəcəkdir.

Buna görə Allah tarix uzunluğu, həmişə insanlara həm proqram göndərib, həm də müəllim və öyrədici. Yəni dövrlərin hamısında peyğəmbəri və peyğəmbərin vəkilini rəhbər kimi insanlara tanıtdırıb, həmçinin lazımi din və şəriəti hər dövrə uyğun olaraq, o dövrün iş proqraması kimi təyin edib ki, insan inkişaf, təkamül və ətraflı səadəti yolunda uca-uca addımlar atsın.

Əlbəttə aydındır, dinlər təməli və səmavi proqramlar hamısı deyirlər: Allah vardır, hamısı saleh əməl və yaxşı əxlaqdan danışırlar və hamısı insanlara ölümdən sonrakı dünyanın olduğunu deyirlər. Hamısı deyirlər insan gərək şirk, büt pərəstlik, günah və alçaq əxlaqlardan çəkinsin. Qısa sözlə onların proqramlarında əsas ixtilaf gözə çarpmır. Yalnız dinin firuyatı olan oruc, namaz, və bu kimi işlərdə mümkündür bir-birlərindən fərqlənsinlər. Bunlarda əsas fərq sayılmırlar. Bununla səmavi şəriətlər və dinlərin çatacaq nöqtəsi bir imiş və hər sonrakı gələn şəriət, özündən qabaqkı şəriəti təkmilləşdirmiş və eləcə islam şəriəti gəlməki ilə şəriətlər və dinlərin ən kamili olaraq, şəriətlə nübüvət sona çatmışdır. İnsanların əməldəki rəhbərliyi

Həzrəti **Məhəmməd** (s.ə.v.v.)-in öz zamanında, o ilə və onlardan sonrası isə o ulu peyğəmbərin vəkilləri və imanlarının öhdəsindədir.

## PEYĞƏMBƏRLƏR HAMISI BİR SÖZÜ DEYİRDİLƏR? BİR SÖZ İDİSƏ NİYƏ MƏSİHLƏRLƏ MÜSƏLMANLAR, DİN ÜSULLARINDA FƏRQLİDİRLƏR?

Səmavi dinlərin hamısının təməli və ilahi peyğəmbərlərin əmrləri doğru araşdırılsa bir-birlərindən fərqlənmir. Yəni hamısı, tohid, ilahi, ədalət, peyğəmbərin gəlməsinin gərəkliyi və məadın olması, hesab, - kitab, cənnət və cəhənnəm və bu kimi şeylərdə vahid əqidələri vardır. Amma indi örnək olaraq məsihlər üçlük və üç pərəstliyə inanırlar və xalis tohidə inamları yoxdur. Onların kitablarında və əqidələrində pozulma və dəyişiklik olduğu nəticəsindədir. Çünki əsl incil yer üzündə mövcud deyil. Firuyatda isə keçmiş dinlərin islam dini ilə çoxlu fərqləri vardır. Niyə ki, islamdan qabaqkı dinlər, o dövrə və o dövrün camaatına aid imiş. Çox vaxtlar bir sıra məsləhətlərə görə onlara uyğun bir hökünn nəzərə alınırmış. Amma İslam son dindir. Hökümləri həmişəlikdir. Əlbəttə başqa dinlərin dəyişiglikləri və az çox olmaqları islam dini ilə müqayisədə unudulmamalıdır, niyə ki, başqa dinlərin hətta firuyatları şübhəlidir. Yəni məsələn demək olmaz indiki Tövratda olan hökümlər, **Həzrəti Musa**nın o dövrün insanlarına deyən hökümləridirlər.

## İLAHİ PEYĞƏMBƏRLƏR BİR-BİRİ İLƏ FƏRQLƏNİR VƏ BU "PEYĞƏMBƏRLƏRİN BƏZİSİNİ DİGƏRİNDƏN ÜSTÜN ETDİK" AYƏSİNİ BİZ ONUN PEYĞƏMBƏRLƏRİ ARASINDA FƏRQ QOYMURUQ AYƏSİ İLƏ NECƏ ARAŞDIRMAQ OLAR?

İlahi peyğəmbərlər buna görə ki, Allah tərəfindən seçiliblər ta camaatı Allah pərəstlik inam və fəzilətlərə çağırsınlar. Həmçinin gizli dünyası ilə əlaqədar olmaqları, günah və yanlışa uğramamazlıqları üçün bir səviyyədədirlər. Bir-biriləri ilə fərqləri yoxdur.

**Biz onun peyğəmbəri arasında fərq qoymuruq** *(Bəqərə surəsi 285-ci ayə)* ayəsində bu söz araşdırılır.

Niyə ki, bu ayədə Allah müsəlmanların və mömünlərin dilindən onların peyğəmbərlər arasında fərq qoymamaqlarını deyir. Onların hamısını ilahi peyğəmbər və Allah tərəfindən gəlmişlər sanırlar və hamısına imanlıdırlar. Amma yəhudəlir və məsihlər belə deyillər. Yəni ilahi peyğəmbərlər arasında fərq qoyurlar, birinci guruh **Musa**ya inamları vardır. **İsa**(ə) və islam peyğəmbərini qəbul etməyirlər.

İkinci guruh isə **Musa**(ə) və **İsa**(ə)ı qəbul edib və islam peyğəmbərini qəbul etməyirlər:

Bu baxımdan peyğəmbərin fərqli olmaqları sair baxımlardan fərqli olmaqlarına dəlil olmaz niyə ki, mümkündür peyğəmbər, ruhani və mənəvi fəzilətlər baxımından və həmçinin fədakarlıq və özündən keçmə baxımından fərqli olsunlar, bununla rütbələri də fərqli olacaqdır. *(Ya Məhəmməd)* **"Biz peyğəmbərlərin bəzisini digərindən üstün etdik"** *(Bəqərə 283-cü ayə)* ayəsidə bu sözü deyir .

Bu ayəyə baxmayaraq da demək olar ki, bir məxsus guruha məbus olan peyğəmbər, çox çətinliklərlə qarşılaşmadığına baxmayaraq **Həzrəti Nuh** (ə.s) kimi yüz illər boyu camaatı Allaha sarı çağırırdı və bu yolda çoxlu çətinliklər onun qarşısına çıxarkən dayanırdı və çətinliklərə dözürdü.

Beləliklə bu iki peyğəmbər mütləq fərqli olacaqlar.

## NİYƏ PEYĞƏMBƏRLƏRİN HAMISI BİR ÖLKƏ VƏ YA BİR MƏMLƏKƏTDƏ ƏRSƏYƏ GƏLMƏYİBLƏR?

Peyğəmbərin məbus olmasından məqsəd, səmavi dinin təbliği və insanları doğru səadətlərinə yönəltməkdir.

Təbiidir ki, peyğəmbərlər dünyanın müxtəlif yerlərində məbus olsalar, bu məqsədə yaxşı çatmaq olar.

Xüsusən o zamanın vəziyyətini nəzərə alaraq ki, gəlget vasitələri və iki uzaq yerin bir-biri ilə əlaqələri çox az idi.

Bununla peyğəmbərin hamısı bir yerdə məbus olsaydılar, layiqincə dəvət və çağrışlarını genişləndirmək imkanı olmayacaq idi. Həmçinin Peyğəmbər olmayan yerdə yaşayanlara bəhanə törənəcək idi. Əlbətt demək olmaz hər peyğəmbər bir yerdə məbus olmalıdır və yaxud hər yerdə peyğəmbər olmaq gərəkdir. Çünki bilici Allah nə kimi məsləhət görürsə, onu edəcək.

Mümkündür bəzi işlər bizim düşüncə və gözlərimizdən gizli olsunlar ki, onları nəzərə almaqla başqa işlərin görülməsi zəruri olmayalar.

## NİYƏ PEYĞƏMBƏRLƏR İNSANLAR ARASINDAN SEÇİLİRDİLƏR?

Mümkündür peyğəmbərlərin insanlar arasından seçilmələrinin əsas illəti müəllimin təsiri məsələsi olsun. Çünki insanlar bunu gördükdə ki, bəzi şəxslər öz içlərindən onların hidayəti uğrunda təlim gətiriblər və ya görsünlər ki, onların özləri deyilən təlim və fərmanlara hamıdan çox əməl edirlər. Bununla bu işlər insanların hidayət və rəhbərliyində əsas rolu oynayır. Eləcə də bir kəs bu işlərin insan öhdəsindən xaric olmalarına bəhanə gətirə bilməz, niyə ki, öz gözləri ilə görürlər, peyğəmbərlər insan olduqda, bu təlimləri daha yaxşı yerinə yetirə bilirlər.

Amma peyğəmbərlər mələk olsaydılar mümkün idi deyilsin bu fərmanlar insan öhdəsindən xaricdir. İnsanlar bu əmrləri yetərli olaraq yerinə yetirə bilməzdilər.

## NİYƏ CAMAAT PEYĞƏMBƏRLƏRİ İNCİDİB, ONLAR İLƏ MÜBARİZƏ APARIRDILAR?

Peyğəmbərlərin cəmiyyətin islahı uğrunda gətirdiki proqramlar boş inanc və xurafatı tamamilə aradan qaldırır və insanı xoşbəxtlik və səadətə sarı yönəldir.

Amma boş inanclar ilə ünsiyyət tapan camaat onlar ilə müxalifət edirdilər. Uzun illər boyu inamları olan adətlərdən əl çəkmirdilər. Həmçinin özlərinin maddi mənfəətlərini təhlükəyə düşməməsi üçün həqiqəti qəbul etmirdilər.

Peyğəmbərlər nə qədər çalışıb və müxaliflərə öyüd

verməklərinə baxmayaraq, onlarda təsir bağışlamırdı və onlar isə düşmənçiliklərinə ayaq dirəyirdilər. Məsələn hamımız bilirik, islam peyğəmbəri risalətə seçilərkən insanları Allah pərəstlik, düzlük və yaxşılığa çağırırdı. Şərab içmə, qumarbazlıq və ayrı çirkinliklərdən nəhy edirdi. Amma o həzrətin qarşısında, illər uzunu büt pərəstlik edənlər cəbhə tuturdular. Həmçinin büt və bütpərəstlikdən himayət edib o ulu insanı incidirdilər. Qısa sözlə, düşmənçilik yolunda əllərindən gələni əsirgəmirdilər.

Hətta peyğəmbəri qətlə çatdırmaq üçün plan çəkmüşdülər.

Əlbəttə ilahi peyğəmbərlər səbr, dözüm, hövsələ və dayanış ilə azda olsa, bəzilərini əzabdan qurtarırdılar.

Camaat isə get-gedə peyğəmbərin qayğıkeşlik və xeyirxahlıqlarını anlayıb, onun ulu şəxsiyyətinə inanırdılar. Onunla bu böyük insanlar gətirdiyi proqramları az çox qəbul edirdilər.

Hətta o həzrətin dəstəmaz suyunu götürmək üçün birbirilə yarış aparırdılar.

## BƏZİ MÜBALİĞLƏRİN DEDİYİNƏ ƏSASƏN, BƏNİ İSRAİL HƏR GÜN 70 NƏFƏR PEYĞƏMBƏRLƏRDƏN ÖLDÜRÜRDÜLƏR. BU SÖZ DOĞRUDURMU?

Qurani Kərim bəni israil haqqında Maidə surəsi ayə 70-də deyir: **“Bəni İsrail ayələrə və ilahi nişanlara küfr edirdilər və peyğəmbərləri öldürürdülər”**. Allah buyu-

rur: **"bəni israil ilə peymanlaşdıq və onlara peyğəmbərlər göndərdik. Hər vaxt peyğəmbərlərin dediyi əmrlər öz istəklərilə uyğun olmayanda bəzisini yalançı sayıb, bəzisini isə öldürürdülər."**

Nisa surəsinin 155-ci ayəsində oxuyuruq. **"Bəni İsrail əhdlərinə vəfalı olmamaq, ilahi ayələrə küfr etmək və peyğəmbərləri öldürmək üçün...** *(Allahın rəhmətindən uzaq oldular)*"

Rəvayətlərdə də çeşitli sözlər bu barədə görünür:

Nurüs səqəliyin kitabında

1. Bəzi rəvayətlərdə deyirlər:

Keçmişdə onlar və ata babaları ilahi peyğəmbərləri öldürürdülər.

2. Bəni İsrail gündə 2 ya 3 və ya çox peyğəmbərlərdən öldürürdülər və hətta bəzi vaxtlar gündə 70 nəfər peyğəmbərlərdən öldürürdülər.

3. **Təbəri "Cərah əbi ubeydə"** diliycə peyğəmbərdən rəvayət edir ki, bəni israil bir səhər çağı 43 nəfər peyğəmbərlərdən öldürürdülər *(məcmüəl bəyan cild 1 səh.423)*

## PEYĞƏMBƏRLƏRİN ALLAH TƏRƏFİNDƏN OLMAQLARINI NƏZƏRƏ ALARAQ, NİYƏ ONLARIN BƏZİSİ ÖZ MİLLƏTİNİ RƏHBƏRLİK EDƏNDƏN SONRA BELƏ DƏHŞƏTLİ FACİƏYƏ UĞRAMIŞLAR?

İlahi peyğəmbərlər Allah tərəfindən insanlara rəhbərlik etmək üçün seçilərkən, fəsad və əyriliklərlə dolu cəmiyyətlərlə üzbə-üz olurdular. Aydındır bütün fəsad və əy-

riliklə dolu olan cəmiyyətə rəhbərlik etmək qərarına gəlmək, bu işdə ətraflı qələbəni öncədən hesab etmək olmaz. Beləki irəli getmək ümüdilə öz proqramlarına başlayır və fövqəladə dözümlə öz məqsədini izləyir. Əlbəttə onların qohumları o səmavi insanların müqəddəs və pak çalışıq və rəhbərliklərini alqışlamayıb, çoxlu inciklikləRdə onlar üçün törətmişdilər. Amma bu inciklər və hətta bəzi peyğəmbərlərin ölməsi dəhşətli faciə hesab olunurmu? Bir az diqqətlə cavab mənfidir niyə ki, böyük ilahi məqsədlər uğrunda ölmək və şəhid olmaq şərəf və iftixardır. Hər bir diri varlıq, ulu tanrıdan başqa ölüm qarşısında əlacsızdır. Bəs yaxşıdır inaclar və əli əgriliklər ilə mübarizə aparmaq yolunda canın qoysun. Bununla insaniyyət tarixində öz adını, həmişəlik yaxşı və ulu olaraq diri saxlasın. Əgər hər insanın maddi yaşayışının sonu heçlik, fəna və aradan getmə ilə bir səviyyədə olsaydı və hesab-kitab, mühakimə olmasaydı, peyğəmbərlərdən qədir danlıq olmamağını düşünmək doğru olardı. Amma belə deyil. Bu ilahi şəxsləri göndərən Allah onların işlərində ilahi eşqdən agah olaraq, çalışqanlıqları və fədakarlıqları üzrə daha böyük mükafat nəzərə alıbdır. Bu yolda çəkdiyi zəhmətlərdən əla şəkildə qədir danlıq olunacaqdır.

Quranın Ali İmran surəsinin 169-cu ayəsində Allah buyurur:

**“Zənn etmə Allah yolunda qətlə yetənlər ölüblər. Bəlkə onlar diridirlər və öz Allahları ilə yanaşı faydalanırlar”**.

## ALLAH TƏRƏFİNDƏN 124 MİN PEYĞƏMBƏR GÖNDƏRİLİBDİSƏ, NİYƏ ONLARIN ADLARI ƏLDƏ DEGİLDİR?

Yalnız bir guruh peyğəmbərin adları olduqlarının dəlili budur ki, dünyanın keçmişindən yazılı tarix əldə yoxdur ki, bütün tarixlər onda yazılmış ola. Böyük və ülül əzm peyğəmbərlərində adlarının əldə olması, quranda və dini rəvayətlərdə olduqlarına görədir ki, onsuz bu adları da bilməyəcəkdir.

## QURANDA OLAN PEYĞƏMBƏRLƏRİN ADLARI

**Adəm, (ə.s)**
**İdris (ə.s)**
**Nuh (ə.s)**
**Hud (ə.s)**
**Saleh (ə.s)**
**İbrahim (ə.s)**
**Lut (ə.s)**
**İsmail (ə.s)**
**İshaq (ə.s)**
**Yəqub (ə.s)**
**Yusif (ə,s)**
**Şueyb (ə.s)**
**Musa (ə.s)**
**Harun (ə.s)**
**Davud (ə.s)**

**Süleyman (ə.s)**
**Əyyub (ə.s)**
**İlyas (ə.s)**
**Əlyəsə (ə.s)**
**Üzeyr (ə.s)**
**Zülkifl (ə.s)**
**Yunus (ə.s)**
**Zəkəriyya (ə.s)**
**Yəhya (ə.s)**
**İsa və İslam peyğəmbəri**
**Həzrət Məhəmməd**
**İbn Əbdullah (s.ə.v.s)**

Əlbəttə bir neçə məşhur peyğəmbərin adı qurani kərimdə gəlməyibdir.

## PEYĞƏMBƏRLƏRİN BAŞQA İNSANLARDAN FƏRQİ NƏDİR?

Qurani Kərimdə dalbadal gəldiyi kimi peyğəmbərlər və səmavi rəhbərlərin başqa insanlar ilə fərqi **"Vəhy"**dədir ki, peyğəmbərlər onunla gizli dünya ilə əlaqədə olurlar və bu yoldan, insanları elmi və əməli baxımdan rəhbərlik etmək gücü sahibi olurlar.

Bununla peyğəmbərlər bir baxımdan insandırlar və başqaları kimi Allahın yaratdıqlarındandır. Təfəkkür və əqil sahibidirlər. Yemək, paltar və dincəlməyə ehtiyacları vardır. Əgər bir nəfər onları Allah kimi tanısa, mürtəddir.

Digər tərəfdən isə onlar məmuli insan deyillər ki, dərs oxumaq ilə söz öyrənsinlər bəlkə **"Vəhy"** yolu ilə Allahdan lazımi şeyləri öyrənirlər. Quran buyurur ey peyğəmbər camaata de: **"Mən sizin kimi insanam, bu fərq ilə ki, mənə Allah tərəfindən vəhy olunur"** *(Kəf surəsi ayə 110)*.

## PEYĞƏMBƏR İLƏ BİR ULU ALİM DÜNYA ÜÇÜN ƏTRAFLI QANUNLAR VERİRLƏR. NƏ KİMİ FƏRQLƏR VARDIR?

İlahi peyğəmbərlər ilə alimlər və nabaluqlər çox fərqlənirlər. Peyğəmbərlərin qanunları ilə alimlər və fəlsəfəçilərin qanunları çox fərqlənir.

Fəlsəfəçilər və alimlər öz nəzəriyyələrini ümumən şübhəli halətdə və təlqin kimi camaata deyirlər. Elə ki, özlərinədə yüzə-yüz şübhəsiz degil və hər an gözləyirlər, yeni tədqiqat uğrunda və yaxud əski qanunları təkmilləşdirsinlər. Mümkündür bir alim çoxlu vaxt sərf etdikdən sonra bir sahə və ya çox sahədəki tədqiqatlara nəzəriyyə versin və ya bir məqalə yazsın və az sonra, öz nəzəriyyəsinin yanlış olmasına diqqət edərək öz nəzəriyyə və ya məqaləsini ləğv etsin, özü ondan peşman olsun.

Amma ilahi peyğəmbərlər təhsilə vaxt sərf etmədən ətraflı olaraq hər cürə əməllərə və fəzilətlərə sahibdirlər.

Öncədən dediklərinə öz tərəflərindən olmaması və ilahi vəhyə arxalanmaq üçün yüzə-yüz etimadlıdırlar.

Hər halda dediklərini yəqin ilə təkrar edirlər. Dedikləri heç vaxt yanlış olmayıb və vaqiətə qarşı deyildir. Bunu

da unutmayaq ki, bir alimin ərsiyə gəlməsi əlverişli mühitə ehtiyacı vardır. Amma peyğəmbərlərin gəlməsi sayılan şərtlərdən və mühit əlverişlilikdən asılı deyil. Bəlkə peyğəmbərlərin çoxu və ya hamısı geri qalmış və cahil millətlər arasındakı bədbəxtlik və həlakət uçrumunda yaşayırdılar, ərsiyə gəlirdilər. Elə bir cəmiyyətdə ərsiyə gəliblər ki, heç bir elmi inkişafa çatmayıb və qaranlıq cəhalət və fəsad içində qərq olmuş idilər. Belə bir mühitdə peyqəmbərliyə gələnlər qaranlığı işıqlandırırdı.

## PEYĞƏMBƏRLƏR YALNIZ ÖZ BACARIQLARI ÜZRƏ, ALLAH TƏRƏFİNDƏN SEÇİLİRDİLƏR, YOXSA SEÇİLMƏKLƏRİ ALLAHIN ÖZ ÖHDƏSİNDƏDİR?

Əsasən həssas ictimai bir vəzifəni öhdəyə almaqda zati ləyaqət və yetərlik olması gərəkdir. Vəzifə ağır olduqda daha artıq istedad lazımdır. Çünki peyğəmbərliyin məqsədi cəmiyyət və insanları təkamülə sarı yönəltməkdir.

Onun məsuliyyəti daha ağır və yorucu olacaqdır. Bununla bu vəzifəyə seçilənlər fövqəladə istedad və ləyaqət sahibi olmalıdırlar.

Əlbəttə mütəal Allah sonsuz bilgisi üzrə, insanların qabiliyyət və istedadlarından belə bir məsuliyyət qarşısında agahdır. Yəni bilirdi ki, hansı insanlar öz istək və ixtiyarları ilə qayğıkeş və saleh olacaqdır. Habelə bilirdi ki, onların tərəfindən ixtiyarlı olaraq neçə şərtlər ortaya çıxacaq.

Beləliklə Allah tərəfindən də zəmin yaranarkən pey-

ğəmbərlərin dünyaya gəlməklərindən qabaq və sonrakı zəminlər - peyğəmbərlik vəsifəsi onlara verilmişdir.

Qısa sözlə peyğəmbərlik və imamlıq məqamı xüsusi bir guruha verilməsi həm onların zati bacaracaqlarına həm də Allah istəyi üzrədir. Yəni Allah ilahi məsuliyyətləri qəbul etməyə istedadı olanlara bu vəzifəni vermişdir.

## NİYƏ PEYĞƏMBƏRLƏR VƏ İMAMLAR MƏSUM OLMALIDIRLAR

Peyğəmbərlər və imamlar məsum olmadıqda insanların etimadını qazana bilməzlər.

Çünki yalan danışma ehtimalı həqiqətlərin dəyişilməyi, qərəzli olmaq, fayda izləmək və bu kimi şeylərin peyğəmbərlərdə olmaqları insanlarda etimadsızlıq ortaya çıxarar, peyğəmbərlərin gəlməyləri hədəfsiz olub heçliyə uğrayar. Həmçinin peyğəmbərlər və imamlar məsum olmasalar, cəmiyyət üçün müəllim ola bilməzlər. Niyə ki, müəllim elmə və hiss etmək üzrə insanların ürəyində yer açır. Əgər bu ulu məqam günaha bulanmış insanların öhdəsinə qoyulsa, ürəklərdə, dərin və köklü təsir bağışlamayıb və peyğəmbərlik doğru hədəfinə çata bilməyəcəkdir. Bununla peyğəmbərlər ismət məqamına çatmaqda onların göndərilmələrindən doğru nəticə əldə etməkdə ondan asılıdır.

Allahın lütfündən faydalanmalıdırlar. Niyə ki, belə olursa insanlar rahat xəyala, peyğəmbərlərin sözünü qəbul edib və etimadla sözlərini yerinə yetirəcəklər.

## PEYĞƏMBƏRLƏR VƏ İMAMLARIN İNSAN OLDUQLARINI NƏZƏRƏ ALARAQ, GÜNAH ETMƏMƏKLƏRİNİ NECƏ TƏBİR ETMƏK OLAR?

Günah edən insan onun zərərlərinin necəliyini tamamən bilmir. Həmçinin ölümdən sonrakı dünyada günah qarşısında cəzalanmaya inamı yoxdur.

Misal üçün şərab içən bir insan onun bu dünya və axirət dünyasında olan zərərlərindən ətraflı məlumatı yoxdur. Eləcə bu bilməməzlikdir ki, günah etməyə yolunu hamarlayr. Amma günahın çirkinliyi və dəhşətli sərəncamından xəbərdar olanlar günahın ətrafında dolanmaqları mahal əmrdir. Niyə ki, onların dərin düşüncələri günahın faciələrini gözləri önündə təsvirə çəkir. Bununla günaha heç fikir də vermirlər.

Ayə siz inanırsız ki, mikrobun zərərlərindən ətraflı məlumat sahibi olan mikrob üzrə mütəxəssis mikroblu su qabından su içə ya yemək yeyə?

## BİR İŞİN ZƏRƏRLƏRİNİ BİLMƏK, HƏMİN İŞDƏN ÇƏKİNMƏK AMİLDİRSƏ, NİYƏ BƏZİ HƏKİMLƏR ŞƏRABIN ZƏRƏRLƏRİNİ BİLƏRKƏN ONU İÇMƏKDƏN ÇƏKİNMİRLƏR?

Bəzən insan havayi həvəs və şəhvət qarşısında məğlub olur. Məsələn bir işin zərərini bilirsə də həmin işi yerinə yetirir. Belə bir vəziyyətdə havayi həvəs bu insanın düşüncə və ağlına qələbə çalır. Amma imamlar və peyğəmbərlər Allahı tanıma və onun əzəmət və böyüklüyünü duyarkən

havayi həvəs və şəhvətə qələbə çalırlar. Bununla bu sahədə məğlubiyyətə uğramazlar. **Həzrəti Əli** (ə) ilahi kişilər haqqında buyurur.

Onların fikrincə yalnız Allah böyükdür və başqaları isə dəyərsizdirlər. Bunlar heç zaman havai həvəs və şəhvət caynağında əsir olmazlar. Heç vaxt mütəal Allahın əmrlərinə nafərmanlıq etməzlər.

## BÜTÜN İLAHİ PEYĞƏMBƏRLƏR MƏSUMDURLARSA, NİYƏ MƏSUMLARIN SAYINI ON DÖRDƏ QƏDƏR AZALDIRIQ?

Əqli və nəqli dəlillərə əsasən bütün imamlar və peyğəmbərlər məsumdurlar. Şiələr arasında məsumların sayı on dörd deyilirsə, məqsəd **Həzrəti Məhəmməd** (ə.s.v.v.) **Həzrəti Əli** (ə.s) **Həzrəti Fatimə** (s.ə) və başqa on bir imamları tanıtdırmaqdır. Bu o demək deyil ki, bunlardan başqa məsum yoxdur. Şiə anlamında bütün ilahi peyğəmbərlərin məsum olduqları aydıncasına deyilibdir.

## İMAMLAR VƏ PEYĞƏMBƏRLƏR BÜTÜN SAHƏLƏRDƏ GÜNAH ETMƏMƏLİDƏRLƏR YAXUD TƏKCƏ DİN TƏBLİĞİ ÇƏRÇİVƏSİNDƏ HÖKÜMLƏRİ CAMAATA ÇATDIRMAQDA YANLIŞ DƏYİŞİKLİK VƏ QƏRƏZLİ OLMAQDAN MƏSUMLUĞA YETİRLƏR?

Bir məzhəbi rəhbərin, insanları Allah yoluna və səadətə çağırmaqda ən mühüm bacarıqlığı və nüfuzlu olmağı, in-

sanların ona inam tapması və arxa durmaqlarıdır.

Bu inamda peyğəmbərlərin pak, təqvalı və qayğıkeş olduqlarından asılıdır.

Əgər imamlar və peyğəmbərlər yalnız ilahi hökmləri insanlara çatdırmaqda məsum olurlar və başqa sahələrdə isə sair insanlar kimi, günaha və yanlışa uğrayalar, heç vaxt bir cəmiyyəti düzlüyə çatdıra bilməzlər. Çünki əgər bir məzhəbi rəhbər misal üçün şərab içməkdən insanları nəhy edə və camaata deyə: **“Allah şərabı haram edibdir”**. Özü isə hərdənbir bu fəsad amilinə dil vura camaat deyərlər. Əgər onun sözü həqq və Allah tərəfindən olsaydı, başqalarından artıq bu işdən çəkinərdi. Bu üsula əsaslanaraq, peyğəmbərlər və imamların günaha bulaşmaqları *(təbliğ və ilahi sözü çatdırmaqda məsum olsalar da)* başqalarında əminsizlik yaradar və bununla peyğəmbərlikdə olan hədəf doğru nəticəyə çatmaz.

Başqa sözlə desək:

Əqidə təməlləri alimləri deyirlər: imamlar və peyğəmbərlər nifrət yaradan sifətlərdən uzaq olmalıdırlar. Günaha bulanmaq daha aydın nifrət yaradıcı bir amildir.

Niyə ki, günaha bulanmaq, insanları onların ətrafından dağıdar.

Yəqin təsdiq edirsiniz ki, bir məzhəbi rəhbər ömrünün hamısında bir dəfə də olsa ümumi iffəti pozan bir amili yerinə gətirsə, camaat ondan nifrətlənib və sözləri göstərişləri onlara deyəndə yaxşı təsir bağışlamaz.

Hökmən peyğəmbərlər və imamlar bütün sahələrdə məsum olmalıdırlar.

Çünki onlar xalqın yol göstərəni və rəhbərləridir.

## PEYĞƏMBƏRLƏR VƏ İMAMLAR BU VƏZİFƏYƏ ÇATMAQDAN ÖNCƏDƏ MƏSUM İDİLƏRMİ?

Bütün peyğəmbərlər və imamlar bu məqama çatmaqdan öncədə yanlış və günahdan məsum olmalıdırlar, niyə ki, bir səmavi rəhbərin keçmişi, yaxşı olmasa, onun mövqeyini titrək edib və ümumi etimaddan faydasız edəcəkdir. Onunla ona tabe olmağa həmin pis keçmişi bəhanə tutarlar. Əsasən bir kimsə yaşayışının əvvəlindən düzlük və paklığa məşhur olmaya və əksinə zəif mövqe və pis keçmişli ola camaat, onu bədbinliklə qarşılayacaqdır. Bununla o, insanın lazım düşüncələrində nüfuzlu ola bilməyəcəkdir. Son söz budur ki, onun keçmiş əməlləri camaatın ona mütləq ürək verməklərinə mane törədəcəkdir.

Buna əsasən, imamlar və peyğəmbərlər bu məqama çatmamışdan məsum və pak adlı-sanlı olsalar, insanların hidayət yolu daha hamar olacaqdır.

Aydındır ki, mütəal Allah öz lütfi üzrə insanları hidayət etmək üçün daha uyğun yol seçəcəkdir. bu həmin lütf üzrədir ki: İslam peyğəmbəri (s.ə) həyatının əvvəlindən, düzlükdə, əmanətdarlıqda, düz danışmaqda yeganə Allaha ibadət etməkdə insanlar arasında tanınmış bir insan idi.

## PEYĞƏMBƏRLƏR VƏ İMAMLAR GÜNAH ETMƏMƏKDƏ VƏ MƏSUM OLMAQDA İXTİYARSIZ İDİLƏRMİ?

İsmət insanın **“iç üzünə”** aid bir halətdir ki, peyğəmbərlər və imamlar mütəal Allahın lütfünə görə dərin baxış və Allaha doğru tanıma ilə ona malik olublar.

Bunun anlamı o deyil ki, peyğəmbərlər və imamlar günah etməməkdə ixtiyarsızdırlar. Başqa təbirlə günah etmək onlara əqlən imkansız deyil. Belə ki, başqaları kimi həm günah edə bilər, həm də istədikləri halda ondan çəkinə bilərlər. Bilirik çoxlu insanlarda Allah qorxusu üzrə ondan çəkinirlər. Habelə peyğəmbərlər və imamlarda günah etməməyə imkanları olduğu halda, Allahı tanıma və dərin düşüncəyə malik olduqları üçün ixtiyarlı olaraq günah etməkdən çəkinirlər.

## İSMƏT MƏQAMI PEYĞƏMBƏRLƏR VƏ İMAMLAR ÜÇÜN ƏLƏ KEÇİRİLMƏLİDİR, YOXSA HƏDİYYƏ KİMİDİR?

İşlərin çirkin və yaxşı olmaqlarını duymaq üçün, peyğəmbərlər və imamlara dərin və kamil düşüncə verilməsi Allah tərəfindən bir bağış kimi hesablanır. Həmin bağış üzrədir ki, onları heç vaxt günah etmirlər. Əqli və nəqli dəlillərə əsaslanaraq, Allah tərəfindən insanlara verilən bağışlar onların qabiliyyət və yetərlikləri üzrədir. Eləcə peyğəmbərlər və imamlar da belədirlər. Yəni Allah bilirdi peyğəmbərlər və imamlara belə bir bağış verilməsə idi də yenə başqaları ilə fərqlənəcəkdilər. Yəni fədakarlıq, dayanış və vəzifələrini yerinə yetirməkdə və yetərlilikdə başqalarından üstün bir tutacaq idilər. **"Nüdbə duası"** -ında aşağıdakı söz həmin gerçəki sübuta yetirir:

**"Onlar üçün dünyada, zahid olmağı gərəkləndirdin,**

**onlar isə həmin gərəkliliyi qəbul etdilər. Və bildin ki, həmin əhdlərində vəfalı olacaqlar. Onda isə onları qəbul etdin. Öz dərgahının ən yaxın insanları etdin".**

Bununla Allahın düzgün peyğəmbərlərə və imamlara olduğu xüsusi lütfi, onların bəndəlik yolunda çalışqan və bu məqama çatmaqda layiq olmaqları üzrədir.

## İSMƏT MƏQAMI, PEYĞƏMBƏRLƏR VƏ İMAMLARDA ƏLDƏ ETMƏLİ OLMADIĞI VƏ ALLAHDAN BİR BAĞIŞ KİMİ OLDUĞUNU NƏZƏRƏ ALARAQ, BU MƏQAM ONLARA FƏZİLƏT VƏ ÜSTÜNLÜK OLA BİLƏRMİ?

Necə ki, təqva, ədalət və günahdan çəkinmə düzgün inam sahibi olan insanlarda, öz doğru inamlarına arxalanaraq, günah etmirlər, fəzilətdir. İsmət-məqamıda peyğəmbərlər və imamlar üçün fəzilət sayılır. Çünki sair adi insanların da günahdan çəkinmələrinin ixtiyarlı olması onların Allaha inamlı olmaqları nəticəsindədir. Peyğəmbərlər və imamlarda günah edə bildiyi və günah etmək gücü onlardan alınmadığı bir halda, habelə ixtiyarları ilahi güc ilə birlikdə onları günah etməkdən uzaqlaşdırırdı.

Aydındır, günahdan kənar olmaq və günah etməmək ixtiyar üzrə olsa yəni günah etməyə gücü olduqda günah etməməyə fəzilət sayılır.

Bu məsələ mühümdür ki, ismət məqamı ələ keçirilməli olduğuna baxmayaraq, Allah tərəfindən bu məqamın verilməsi, ismət məqamını nəzərə almayaraq, yalnız o insan-

lardır ki, başqaları ilə fərqlənirlər. Yəni bu məqam elə bir insanlara verilir ki, ismət məqamları olmasaydı da fədakarlıq və özündən keçmə yolu ilə din yolunda yenə də başqalarından üstün bir yer tutacaq idilər.

Bununla demək, olar bu söz ki, mütəal Allah bu məqamı onlara bağış etməkdə bəzi ilk davranışlar, əsas rolu oynayırlar.

İnkar edilməz bir fəzilətdir. Çünkü başqaları bu ləyaqətə malik olmadıqda həmin üstünlükdə də onlar ilə şərik ola bilməzlər.

## PEYĞƏMBƏR VƏ İMAMLAR MƏSUMDURLARSA, BƏZİ AYƏLƏR VƏ RƏVAYƏTLƏRDƏ, ONLARIN HAQQINDA GÜNAHDAN DANIŞMAQ NƏ DEMƏKDİR?

İslam alimləri uzun illərdən bəri, həmin çatışmamazlığa diqqət edərək, ona müxtəlif cavablar söyləmişlər. Başqa cavablardan ətraflı olan cavabların birisi budur:

Günah iki cürdür:

**Mütləq, nisbi.**

**Mütləq** *günah o deməkdir ki, hər vəzifəli insan görürsə şərabiçmə, yalan danışma, xəyanət və s. günahdır. Əlbəttə imamlar və peyğəmbərlər bu işlərdən mütləq uzaqdırlar.*

**Nisbi** *günah o deməkdir ki, günah olduğu halda başqalarının etməkləri bəlkə də onlara fəxr sayılsın.*

Amma imam və peyğəmbər üçün günah sayılır.

Bu mətləbin izahı üçün aşağıdakı məsələyə diqqət

edək: Bir abadlıq və ya bir kənddə ki, xəstəxana yoxdur, bir xəstəxana binasının tikilməsi təklif olunur. Hamıda bu xeyir işdə iştirak etməlidir. Amma hamıdan birgə yardım gözlənilmir. Gündə 20 min manat əmək haqqı alan bir işçidən bir yardım gözlənilir, bir varlıdan ki bağının meyvələrinin satışı 100 min manata çatır, başqa bir yardım gözlənilir.

Bu misalda, həmin işçinin 100 min manat yardımı çox dəyərli və bəyənilməlidir. Bundan artıq da ondan yardım gözlənilmir.

Çünki ondan artıq əlindən gəlmir. Amma o varlının 100 min manat verə bildigi halda 90 min manat verməgi yəni 90 qat işçinin yardımından çox olduğuna baxmayaraq ona etiraz etmək yerlidir. Çünki öz dini və ictimai vəzifəsini yerinə yetirməkdə, əlindən gələni əsirgəyibdir. Yəni güclülüyündən az yardım göstəribdir.

90 min manat yardım göstərməgə günah demək olarmı?

Yox, eyni halda yetərli olaraq vəzifəsini yerinə yetirmək üçün günaha uğrayıbdır.

Bu nisbi günahın anlamıdır ki, yalnız bəzi insanlara, xas şəraiti olduqları halda günah sayılır. O da bu anlamda yox ki, gerçəkdən günah və Allah əmrinə boyun əyməməkdir. Bəlkə bu anlam ilə ki, ona uyğun olaraq işini yerinə yetirməyibdir.

Bu misal aydınlaşdıqda əsas söz budur:

Peyğəmbərlər və imamlar vasitəsiz dünya yaradıcısı ilə əlaqədar olduqları üçün Allah bilgisinin sonsuz şüaları on-

ların ürəklərinə saçır. Bununla Allaha inamları ən yüksək səviyyədədir. Eləcə də bu məqama uyğun olaraq bir anda Allahı unutmayıblar. Həmçinin bəzi insanlara həlal olan işlərdən çəkinməyi də özlərinə vəzifə sanırlar. Həmişə Allaha bəndəlik və ibadət etməyi yetərli olaraq yerinə yetirirlər. Buna əsasən Allahdan bir an qəflətdə olmaqlarını da qınayırlar. Həmçinin adəti və qeyri-zəruri işlərlə məşğul olmaqlarını günah sayıb onu məhv etmək qərarına gəlir, peyğəmbərlərin nisbi günahları belədir. Əsasən günah olmamaqlarına baxmayaraq onlar üçün günah sayılır **"Tərki ola"** sözünü mənası budur ki, peyğəmbər və imamlar günahdan məsumdurlar.

Amma bəzi **"Tərki ola"** etmişlər yəni bir işin yerinə yetirməyi yerli və **"ola"** *(ümumi xəlq töbəsi)* olduğuna baxmayaraq həmin işi yerinə yetirməyiblər. Bu isə gerçəkdən günah və sərkeşlik sayılmır. Böyük alim xacə **Nəsrəddin Tusi "Osafil Əşrəf"** kitabında yazır:

Əməllər beş yerə bölünür:

1. Yerinə yetirilməyi gərəkli olan əməllər *(Vaciblər)*
2. Yerinə yetirilməyi gərəkli olan əməllər *(məhrəmlər)*
3. Yerinə yetirməyi çəkinilməsindən yaxşı olan əməllər *(müstəhblər)*
4. Çəkinilməsi yerinə yetirilməsindən yaxşı olan əməllər *(məkruhlar)*
5. Yerinə yetirməyi çəkinməsiylə bir səviyyədə olan əməllər *(halallar)*

Müstəhbləri yerinə yetirmək və məkruhvardan çəkin-

mək **"tərk ola"** sayılır ki, **"tərk ola"** məsumlar üçün bəyənilməzdir.

Məsumlarında töbəsi **"tərk ola"** dandır.

Allaha daha yaxın olan peyğəmbərlər və məsumların Allahdan başqasına könül bağlamaları **"Tərk ola"** sayılır və onlar isə ən kiçik unudulan əməllərdən də töbə edirlər. Bununla töbə üç cürədir:

*1. Umumi xəlq töbəsi*

*2. Məsumların töbəsi*

*3. Allaha daha yaxın və seçilmiş məsumların töbəsi*

Günahkar xalqın tövbəsi birinci bölmədən.

Həzrəti Adəm və başqa peyğəmbərlərin tövbəsi ikinci bölmədən Bizim peyğəmbər və imamların tövbəsi üçüncü bölgədədir. Bu nəticəyə gəlmək **"Osafıl Əşrəf"** kitabından əldə edilməsidir *(Osafıl Əşrəf səh.61)*.

## RƏSULİ ƏKRƏM (s.ə.v.v) İN MƏSUM OLDUĞUNA BAXMAYARAQ BU AYƏ NECƏ ANLAŞILIR: ALLAH SƏNİN GÜNAHINI BAĞIŞLASIN ONLARA NİYƏ İCAZƏ VERDİN?

Bu ayənin izahı üçün aşağıdakı şərhə nəzər edək:

**1.** Münafiq *(ikiüzlü)*-lər İslam peyğəmbərindən şəhərdə qalmaqları və savaşa getməklərini istədilər. Müsəlmanlar isə, onların şəhərdə qalmaqları ilə həmrah olduqları üçün, peyğəmbər onların qalmaqlarına məcbur olaraq izin verdi.

Bu sahədə həmin ayə nazil oldu *(Tövbə surəsi 13-cü*

*ayə)*. Ayənin özü də ki, məqsədi **Rəsul Əkrəm** (s.ə.v.v.) idi. Amma daxili anlamda isə müsəlmanları peyğəmbəri bu işə məcbur etməkləri üçün tənqid edir. Bununla, gerçəkdən müsəlmanlar qınanıblar.

**Rəsulu Əkrəm** (s.ə.v.v.) yox.

**2.** Ərəb dili və başqa dillərdə də qaydadır ki, biri ilə danışanda ona məhəbbət bəsləyirlər. Misal üçün farscada bir qoca kişi ilə bir gənc danışanda, gənc ona sorğu verdikdə sözünü başlamadan **"Allah sənə ömr versin"** və ya **"Sən də qocalasan"** deyir və sonra əsas sözə başlayır.

Ərəbdədə, qaydadır Allahın rəhmi olsun və Allah səni səadətə yetirsin və Allah səni bağışlasın deyirlər.

***Məsələn:*** şairlərin birisi, Mütəvvəkil onu sürgünlüyə göndərdikdə ona üz tutaraq deyir:

Allahın lütfi və rəhmi səni bağışlasın. Sənin rəhmin bizdən uzaqlaşa, onu aramıza qaytaran kimsə yoxdurmu?

Aydındır şair Allah səni bağışlasın sözü ilə Mütəvvəkilə günah sübut etmək qəsdində deyil. Çünki bu sürətdə Mütəvvəkil daha çox əsəbiləşər.

Bununla Allah səni bağışlasın sözü Allahın sonsuz lütfi və mərhəmətini peyğəmbərə göstərir. **"Limə əzinət Ləhum"** yəni: niyə müşriklərə şəhərdə qalmaq izni verdim. Əgər izn verməsə idim bu iki üzlü və bədniyyət insanların, rüsvayçılıq, rəzalət və nifaq törətməkləri, daha tez aydınlaşacaqdır.

Aydındır rəsuli **Əkrəm** (s.ə.v.v.) onların qalmaqlarına izn vermişdi. Çünki bununla onlar ordunun arasında olmayıb və çətinlik törədə bilməyəcək idilər. Bu izin vermək is-

lam və müsəlmanların razılığı üzrə idi. Çünki həmin ayədən üç ayə sonra *(tövbə surəsi ayə 46)* - deyilibdir: **“Onlar siz ilə savaş etmək üçün gəlsə idilər işlərinizdə pozğunluq yaradacaq idilər.”**

Bununla rəsuli **Əkrəm** (s.ə.v.v.) izn verməyi məsləhtlə qarşı durmayır. **“Limə əzinət Ləhum”** sözü ilə başlanan ayə *(onlara niyə qalmağa izn verdi)*. Yalnız onların *(münafiqlərin)* inamsızlıq, nifaqlı olmaları və iki üzlülüklərini sübuta yetirmək üçündür.

## ALLAH (BUNUNLA) SƏNİN ƏVVƏLKİ VƏ SONRAKI GÜNAHLARINI BAĞIŞLAYACAQ. ƏL FƏTH SURƏSİ 2-Cİ AYƏSİNDƏ “ZƏNB” NƏ DEMƏKDİR VƏ PEYĞƏMBƏRƏ ZƏNB VƏ GÜNAH BAĞLAMAĞIN BAŞA DÜŞÜLMƏSİ NƏDİR?

Ayəni açıqlamadan qabaq bir nöqtənin izahı lazım görünür:

Peyğəmbərin günahdan məsum olmağı əqidə təməlləri elmində qətiyyətlə əqli və nəqli dəlillərlə sübuta yetirilibdir.

Buna əsasən hər bir ayə və rəvayətdə ilahi peyğəmbərə günah bağlamaq onun üzdəki anlamı deyil. Bunun başqa anlamı vardır, biz isə əsas anlamı anlaya bilməkdə üzdəki mənanı daşımamağınıda bilirik. Çünki **Quranı Məcid** və rəvayətlər əql ilə qarşı duran hökm verməzlər. Xüsusən yuxarıdakı ayədə bircə dəlil **“zənbəkə”**dən məqsədi peyğəmbərə günah bağlamamasını aydın edir. Çünki mütəal

Allah Fəth surəsinin əvvəlində **Məkkə** fəthini xatırlayır.

**“Biz** *(Allah)* **sizə zəfər yaratdıq, aydın bir zəfər”** *(Fəth surəsi ayə 1)*

Sonra bağış və günahdan keçməyi zəfərin illəti bildirib. **“Çünki Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın”**. *(Fəth surəsi ayə 2)*

Aydındır, əgər **“zənb”**dən məqsəd peyğəmbərin öz günahı olsa, ayənin doğru anlamı olmayacaqdır. Peyğəmbərin günahının bağışlanması Məkkəni fəth etmək ilə necə əlaqədar ola bilər. Yəni elə bil deyiblər: biz Məkkəni fəth edib, müsəlmanların əlinə verməyimiz, sənin günahlarının bağışlandığı üçündür. Bununla indi ayə və zənb-in anlamını bilməliyik?

**1.** İslam peyğəmbəri məbus olarkən küfr və büt pərəstliyə qarşı çıxdı və dözüm ayaq dirəmək ilə camaatı yeganə Allaha sarı çağırırdı. Buna görə mürtədlər onu günahkar sanırdılar, onlarca küfr və bütpərəsliyə qarşı çıxmaq günahdır.

Eləcə də rəsul **Əkrəm** (s.ə.v.v.)i aradan aparmaq istəyirdilər. Öz büt və baş inanclarından himayə edirdilər. Bu günah *(yəni mürtədlərcə günah sayılan iş)*

Rəsuli **Əkrəm** (s.ə.v.v) üçün **Məkkə** fəthi olana qədər doğru idi. Məkkə fəthində mürtədlər və kafirlər darmadağın olarkən onlar, o həzrəti yaralandırmaq üçün şəhərdən bayıra çıxdılar. Bununla ayənin anlamı budur:

**“Biz Məkkəni sənin əlin ilə açıladıq. Bununla mürtədlər sənə günah sayan işi aradan qaldırdıq və onları istər-istəməz sənə tabe etdik”**. *(bu cavabın anlamı nurəl-*

*səqəleyn təfsirində 8-ci imamdan nəql olunan rəvayətdən alınıbdır).*

**2.** Ümumiyyətlə peyğəmbər (s.ə.v.v.) işlərinə başlayandan, **Mədinə**yə köçənə qədər və sonra savaşlar əsnasında və cürbəcür enişli-yoxuşlarda, savaşlarında müxtəlif nəzərləri var idi.

Təbiidir bir işi qəti nəticəyə uğramadan ona cürbəcür sözlər deyirlər. Hər bir kimsə onun nəticəsinə bir ehtimal verər. Peyğəmbər (s.ə.v.v.)-ın savaşlarında camaatın bəziləri qəbul və başqaları isə rədd edirdilər.

Aydındır əgər peyğəmbər (s.ə.v.v.) Ərəbistanda qəti qələbəyə uğramasaydı mümkün idi, dostlarda onun savaşlarının doğru olmasına şübhələnərdilər. Məğlubiyyətin günahını onun boynuna salardılar. Düşmənlər isə qətiyyətlə onu qınayacaq idilər. Bununla peyğəmbər (s.ə.v.v.)-in gördüyü işlərin səmərəli olması xüsusən **Məkkə** fəthi ki, Ərəbistanı fəth etmək sayılırdı.

Quranın dedigınə görə camaatın dəstə-dəstə islama daxil olmaqlarına səbəb oldu.

Bu bir diri şahid və aydın nişanə kimi peyğəmbərin Ərəbistanda haqlığını sübuta yetirdi.

Müsəlmanların şübhələrinin aradan getməsi və peyğəmbəri düşmənlərin çirkin düşüncələri baxımından pak olduğunu və onların sözlərinin yalan olduğunu sübuta yetirdi.

Bununla bu aşikar fəth İslamın qəti qələbə çaldığı ilə peyğəmbər (s.ə.v.v.)i günahkar sayanlar və işlərini yanlış hesab edənlər təslim olarkən ona doğru üz tutdular. Tabe olub və işlərini qəbul etdilər.

**3.** Şiənin böyük alimi seyid Murtəza **"tənziləl ənbiya"** kitabında deyilən ayəni belə təfsir edir.

**"Zənb"**dən məqsəd peyğəmbər (s.ə.v.v.) in öz günahı deyil, bəlkə ondan məqsəd mürtədlərin peyğəmbər (s.ə.v.v.)ə görə etdiyi günahlardır. İnsanlar üçün onun işlərində qarışıqlıq yaradanlar peyğəmbər (s.ə.v.v.)in özünə və müsəlmanlara çatdırmalıdırlar. **"Zənb"** yəni *(zənbi müşrikinə ileyk)*

Bununla ayənin anlamı belədir: Biz sənin önünə aydın bir fəth gətirdik. ta mürtədlərin keçmişində etdiyi və ya gələcəkdə edəcəyi xain planlar hayasızcasına çalışıqlarını yetərsiz edək.

Yəni bu fəthdən sonra **Məkkə** sənin əlinin altındadır. Kafirlərin güc və üstünlükləri darma-dağın oldu. Əvvəlki planları da faş oldu.

Deyilən üç anlamdan ikinci ayənin birinci ayə ilə əlaqəsi saxlanılıb. Yəni hər üçündə **Məkkə**nin fəthi buna görədir ki, kafirlərin o həzrətə bağladığı günahlar və yaxud bəzi günahlar ki dostlar və düşmənlər onun boynuna atırdılar, həmçinin kafirlərin o həzrətə etdiyi zülmlər aradan getsin və hamı istər-istəməz onun qarşısında boyun əysin.

## BİR ADAM YALNIZ NEÇƏ İL, DÜZ DANIŞAN VƏ AMANƏTDAR OLSA, ONUN PEYĞƏMBƏRLİK İDDİASINI QƏBUL ETMƏK OLARMI?

İslam peyğəmbəri (s.ə.v.v.) gəldikdən sonra, Quranın qəti dəlillərinə əsasən peyğəmbərimizin sonuncu olduğu sübuta yetirilibdir. Bununla hər bir kimsə yaxşı keçmişə

malik olsa da peyğəmbərlik iddia etsə qətiyyətlə yalançı olduğunu bilirik.

Buna əsasən sözünü əhəmiyyətli tutmayaraq iddiası haqda araşdırmada aparmayırıq. Amma keçmiş zamanlarda biri düzlüyə adlansaydı bunun düzlüyü səbəb olurdu. Camaat bu iddianı araşdırıb və ondan möcüzə istəyirdilər.

Əgər bir kimsə bir ömür düzlüyə adlansa və peyğəmbərlik iddiası etsə onun iddiasını saymaq düz deyil. Əlbəttə bu o demək deyil ki, onun sözü dəlilsiz möcüzəsi olmadan qəbul olunsun. Bəlkə anlamı budur ki, onun keçmişi onun sözünün araşdırmağa dəyərli olduğunu gərəkli edir. Amma qarşısında bir nəfər bütün ömrünü napaklıq və şərab içmək ilə keçirirsə, onun peyğəmbərlik iddiası sözsüz yalandır. Çünki bilirik mütəal Allah bü üstün vəzifəni *(nübüvəti)* napak insanlara verməz.

## MÖCÜZƏ İLƏ SEHR

Təbii vasitələrlə imkansız işlər, peyğəmbərlik və imamlıq iddiasını sübuta yetirmək uğrunda, təbii yollar ilə olmayan surətdə möcüzə sayılır.

Örnək olaraq bütün həkimlərin dediyinə əlacsız bir xəstə, peyğəmbərin yalnız duası ilə ki təbii şeylərdən faydalanmayır dərman olmasını bir möcüzə kimi qəbul edirik.

Keçmişdə heyvanlarla səfərə gedən zaman 300 fərsə yolu ən az 20 gündə getmək olurdu. **Əli** (ə.s) həmin məsafəni bir dəqiqədə gedirdi. Bu kimi işlər peyğəmbərlik və

imamlıq iddiasını sübuta yetirmək uğrunda həyata keçirilsə möcüzə adlanır.

Əlbəttə möcüzə yeni elmlərlə qarşı-qarşıya durmayır. Çünki bu işlərin üzdə çətinliyinə baxmayaraq, Allahın əmrilə peyğəmbər vasitəsilə həyata keçirilməsinə inamımız vardır. Amma sehr və cadunun anlamı budur ki, bəzi adamlar onun öyrənməsinə *(əlbəttə hər bir adam istədiyi halda, təbii yollar ilə onu öyrənə bilər)*. Qeyri-normal işlər görür. Amma bu sahədə nə qədər bilikli olsada, gücü hüdudludur və hər bir işin görə bilməz örnək olaraq, ölümü dirildə bilməz və s. Eləcə də bir sehrkar peyğəmbərlik iddisı edirsə, mütəal Allah insanlar yanlışa uğramamaq üçün ya onun bilgisini ondan alar və yaxud başqa bir yolla həqli olmamağını sübuta yetirir. Qısa sözlə desək sehr ilə möcüzə neçə baxımdan fərqlənir.

**1.** Peyğəmbərin yaşayışı bütünlükdə, düzlük, paklıq, qayğıkeşlik, xeyirxahlıq və ümmətin məsləhəti uğrundadır. Halbuki sehirkarlar əsasən lotu alçaq və rəzil adamlardır.

**2.** Sehirkarlar nə qədər usta olsalar da, gücləri çox hüdudludur və yalnız bir sıra işləri görə bilərlər.

**3.** Sehirkarlar bütün bildiklərini öyrəniblər. Halbuki, peyğəmbərlərin gördügü işlər Allah tərəfindən ilham olubdur.

Muqnatis yuxusuda bir məxsus fəndir ki, hər kəs istədiyi halda, onu öyrənə bilərlər. Möcüzə ilə heç bir əlaqəsi yoxdur. Çünki yuxarıda dediyimiz kimi möcüzədə təbii yollardan faydalanmalıyıq. Muqnatis yuxunu möcüzə ilə

müqayisə ediriksə gərək flan cərrahın əməlini ki, bir insanın qəlbini dəgişdirib, möcüzə adlandıraq. Halbuki, belə işlərdə təbii şeylərdən faydalanıb və hər kəs istəsə ona çata bilər. Peyğəmbərin və imamların möcüzəsinin əksinə ki yalnız gizli güc **"vəhy"** vasitəsilə ola bilər.

Sehr ilə möcüzədə olan sair fərqlər, möcüzə ilə müqnatis yuxusunda şamil olur. Yəni bu fənnin ustası hər adamı yuxlada bilməz. Gücü sonsuz deyil və müqnatis yuxusu elmidə sehr kimi öyrənilə bilər. Halbuki, möcüzə öyrənilə bilməzdir.

## BU SÖZ DOĞRUDURMU? "ƏYYUB PEYĞƏMBƏR (ə.s) XƏSTƏLƏNDİ VƏ XƏSTƏLİK NƏTİCƏSİNDƏ BƏDƏNİN QURTLADI, O CÜRƏ Kİ, BƏDƏNİNDƏN QURTLARI BİR-BİR QOPARIB ATARDI?

**Həzrəti Əyyub**(ə) ilahi bir peyğəmbər idi. O ömürünün uzun hissəsin firavanlıqla yaşadı. Ona baxmayaraq həmişə Allaha şükür də edirdi. Bu firavanlıq maddi olaraq mənəvi həyatından uzaqlaşdırmamışdır. Tainki Allah bəla yağdırması ilə onu sınağa çəkdi.

**Əyyub**(ə) bütün müsibətlərdə dözümlü idi. Bu dözümlülüyünə görə Allah Quranda onu xatırladır:

**"Biz onu dözümlü bir bəndə gördük. Yaxşı bəndə idi və bizdən qədirdanlıq edirdi."** *(Sad surəsi ayə 44)*

Buna əsasən o böyük əzaba uğradığı sözsüz doğrudur. Quranın özündə istifadə edilir. Amma bəzi uzun dastanların rəvayətlərinə əsasən ki, gahi pis və hörmətsizcəsinə

deyilir. Yəqin israillilər böhtanlamışlar. İslam alimlərinə görə bu etibarsızdır. Şiə alimlərinin nübüvvət və imanət məsləkinə arxalanan üsullarının biri də imam və peyğəmbərdə olan xüsusi bir şərtlərdir. Həmin şərtlərin biri də imam və peyğəmbərin nifrət yaradan və pis şəkildə olan xəstəliklərdən uzaq olmaqlarıdır. Aydındır imam və peyğəmbər millətin göstəriş verənləridirlər.

Onlarda nifrət yaradan bir xəstəlik olursa millət onlara sarı yönəlməz. Bu isə rəhbərlik təsdiqi ilə uyğun deyil. Əllamə məclisi həmin məsələ haqqında bir hədis nəql edir: **Əyyub** (ə) bütün xəstəliyi zamanında bədəni qoxumurdu.

Özü isə xoşa gəlməyən və çirkin deyildir. Bədənində heç vaxt qurdlar yuva salmamışdılar. Qısa sözlə insanlarda nifrət yaradan xəstəliklərdən əsər yox idi. Bununla bu sahədə nəql olunan dastanlar əsaslı degildir.

## MÖCÜZƏNİN ANLAMI AĞLASIĞMAZ BİR İŞİN GÖRMƏGİ DEMƏKDİR?

Möcüzə ağlasığmaz işi görmək deyil. Yalnız bir müşkül işi qeyri normal yol ilə həyata keçirməkdir. Aşağıdakı misallara diqqət edin:

**1.** Xurma çərdəyini torpaq altında basdıraraq məxsus bir şəraitdə xurma ağacı ola bilər. Bununla bir çərdəyin ağac olması qeyri-mümkün deyil. Amma xurma çərdəyinin, ağac olduğuna bir neçə il vaxt lazımdır. Möcüzə həmin çərdəyi qeyri-normal olaraq neçə dəqiqədə ağac olduğu deməkdir.

**2.** Odu söndürərkən torpaq və külə çevrilir. Neçə müddətdən sonra, həmin kül və torpaq məxsus bir şəraitdə gül və çiçəyə dəyişə bilər. Bununla torpaq və küldən, gül-çiçək göyərməsi ağıla sığmayan bir iş deyil. Amma zamanın ötməsi gərəkdir.

Möcüzə budur ki, çox az müddətdə həmin torpaqdan qeyri-normal olaraq çiçək göyərsin.

Bununla möcüzə bir işin görməyi, deməkdir ki, onun həyata keçirilməsi təbii surətdə ağıla sığmayandır. Halbuki həmin iş zatən ağıla sığmaz deyil.

Çünki ağıla sığmaz bir iş heç şəraitdə həyata keçirilməz.

## "BÜT DÜZƏLDƏN AZƏR "KİM İDİ? O HƏZRƏTİ İBRAHİM (Ə)IN ATASI OLMASI DOĞRUDURMU?

Azər həzrəti İbrahimin həqiqi atası deyildir. Qurani Kərimdə Azərə nisbət verilən **"Əb"** sözü örnək olaraq bu ayədə *(və iz qalə İbrahimu li Əbihu Azər)* onu həqiqi və ya sayla ikili olmasına dəlil deyil. Çünki ərəb dilində **"Əb"** ata mənası verməyinə baxmayaraq həm də əmi yerində işlədilir. Lakin Qurani Kərimdə belə gəlir: Yəqub(ə) ölüm halında olarkən övladlarına dedi: məndən sonra nəyə ibadət edəcəksiniz? dedikdə: Sənin Tanrına ibadət edəcəyik. Sənin atan olan **İbrahim**, **İsmayıl** və **İshaq** tanrısına.

Burada görürük **"Əba"**, **"Əb"** sözünün cəm şəkili olduqda həm **Həzrət İbrahim** ki, babadır şamil olur və həm

həzrət **İsmayıl** ki Əmidir. Çünki **Yəqub**, İshaq-ın oğlu və İsmayılın qardaşı oğludur.

Azərə-aid olan neçə ayəni deyək:

**Həzrəti İbrahim** (ə.s) risalətinin əvvəlində Azərə xitabən deyir: **“Sən bütləri tanrı qəbul edirsən? Mən səni və sənin tayfanı açıq aydın zillət içində görürəm”** *(Ənam surəsi ayə 74)*

Azər **İbrahim**ə Allaha ibadət etməyə söz verdi. **İbrahim** dedi:

**“Ləstəğfirənnə Ləkə”** sənin üçün Tanrıdan bağışlanmaq istəyəcəyəm *(Mumtəhinə surəsi ayə 4).*

İndi bütpərəstlikdən əl çəkməyini söz verdiyin üçün sənə əfv diləyirəm.

**İbrahim** sonra Azərin sözünün əsassızlığını andı. Bununla ondan uzaqlaşdı.

**“Fələmma təbəyyənə ləhu ənnəhə ədüvəlillahi təbərrə əminhi”** *(tövbə surəsi ayə 114)*

Həmçinin quranın başqa yerində **Həzrət İbrahim**dən nəql edilir.

Atasının Allaha düşmən olması İbrahimə aydın olduqda o öz atasından uzaqlaşdı. **“İlahi hesab günü bərpa olanda, mənim övladlarımı və möminlərimi əfv et”***(İbrahim Surəsi ayə 41).*

Bu ayə İbrahimin son sözlərini ömrünün son çağında olarkən söyləyir.

Bu o zamandır ki, **Kəbə**ni tikmişdir.

Bütün ayədə gördük, İbrahim Azərdən bütün əlaqəsini kəsir, bu ayədə isə İbrahimin ömrünün son çağıdır deyir:

**“İlahi məni övladlarımı əfv et”.**

Bu iki ayəni müqayisə etdikdə biri Azərə aiddir ki, İbrahim risalətinin ilk günlərindədir. Bunlara əsaslanaraq, aydınlaşır ki, Azər İbrahim atası deyil.

Ayənin özəlliyi valideyn işarə etdiyidir.

**“Rəbbəna iğfirli və livalidəyyə”**

Ərəb dilində **“Valideyn”** sözü **“Əb”** sözünün əksinə ata-anadan başqasına şamil olmaz.

Bununla Azər həzrəti İbrahimin həqiqi və ya soyla ikili olan atası deyildir.

## ALLAHIN VƏHDANİYYƏTİNƏ ELM SAHİBLƏRİNİN ŞƏHADƏT VERMƏSİ

Təfəkkür və əqli dəlillər çox yaxşı və lazımlı bir şeydir. Amma əgər bir kəs bu dəlillər vasitəsilə iman gətirib, batini elm əldə etsə, öz şübhələrinə cavab tapmış olacaq. Allahın vəhdaniyyəti barəsində xatircəmlik əldə etməkdən ötrü mərifət sahəsində dediyimiz şeyləri əldə etmək lazımdır. Bəsirət gözü ilə Allahın təkliyini görməkdən ötrü çalışıb nəfsin qarşısında olan hicabları aradan aparmaq lazımdır.

Allah Quran da buyurur: **“Allah özündən başqa heç bir Tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq, o qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heçbir varlıq olmadığına şəhadət verdilər.”**

Elm sahiblərinin elmi əqli dəlillərlə əldə olunan elm

deyildir. Əgər əqli dəlillər qəlbdə olan elmi əldə etməkdən ötrü bir müqəddimə olsa çox yaxşı olar. Əks halda onların özləri də faydasız olacaq və bu işlər üçün ancaq nəfsin paklanmasına ehtiyac vardır. Allah-təala bubarədə buyurur: **"Allah möminlərə lütf və mərhəmət göstərdi. Çünki onların öz içərisindən özlərinə Allahın ayələrini oxuyan, onları pis əməllərdən pak edib, təmizləyən, onlara kitabı, Quranı və hikməti öyrədən bir peyğəmbər göndərdi"**.

Bu ayədə Quranın təlimindən əvvəl paklanıb, təmizlənmə zikr olunmuşdur.

Bir kəsin əqli dililləri yaxşı işlməsinə baxmayaraq, nəfsi pak olmasa heç vaxt həqiqi elm məqamına çata bilməyəcəkdir.

## ALLAHI TANIMA YOLLARI

İnsan həyata bəxş ediləndən Allahı tanımaq üçün yollar seçir.

Odur ki, insanlar öz elmi əqli, dərrakəsi, idrakı sayəsində onu bu işıqlı dünyaya yoxdan bəxş edən Allah haqqında düşünür və onun dərk olunmasına çalışır. Allaha yaxınlaşmaq üçün sonsuz sayda yollar vardır. Çünkü idrak və istedadlar bərabər deyil. Həmin yolları elm vasitəsilə hamarlayıb Allaha yaxınlaşmaq olar.

Əslində elmin özü Allahı tanımaq yolunu hamarlayır.

Çünki elm aləmdəki əlaqələr, səbəblər qüvvələri tanı-

maqdan ibarətdir və dünyaşünaslığın mühüm yollarından biridir.

Beləliklə Allahı isbat etmək yollarını bəyan etmək üçün təbiət elmləri, insan, heyvan və bitki fiziologiyası, biologiya, fizika, kimya, astronomiya, kosmologiya və digər elmlərin bütün nəzəri və təcrübi bölmələrini sadalamaq olar.

Quran ayələri və dünya hadisələrini Allahı tanımağın ən yaxşı yolu hesab edir və insanları dəvət edir ki, pərvərdigarın varlığını başa düşüb, həqq təalanın sonsuz əzəmət və qüdrətindən agah olmaq üçün yaranış təzahürlərinə nəzər salıb, onların ətrafında fikirləşsinlər.

Quranda Rəd surəsi 3-cü ayədə. Bu barədə digər surələrdə çoxlu ayələri vardır. O cümlədən: Allah deyir ki, yeri sərdi onda dağları bərqərar və çayları axdırdı, hər cür meyvəni qoşa yaratdı, gündüzün pərdəsini gecənin üzünə çəkdi. Bunlarda hər bir ağıllı üçün nişanə vardır.

Nur surəsinin 42-ci ayəsində Allah buyurur: **“Məgər görmürsən ki, Allah buludları ehmalca hərəkət etdirir, sonra onları birləşdirir, toplayır və qat-qat bir-birinin üstünə yığır. Bu zaman yağış damlalarını görürsən ki, onların qatlarından xaric olub aşağı tökülür. Habelə dolu damlalarını göyün dağa bənzər buludlarının qəlbindən ayırıb, göydən yerə tökür və onları kimə istəyir çatdırır və kimə istəməyir çatdırmayır, şanki gözləri yenidən qoparmaq istəyir”**.

Bütün bu dediklərimiz ilahi varlığın sübutu üçün bir hissədir. Çox kiçik hissə. Lakin dünya korifeyləri öz

elmləri ilə Allahın varlığına inam hisslərini çoxaltmışlar.

Hətta dahi şəxsiyyətlər, hər hansı elm sahəsində nailiyyət edən, digər dinə mənsub olan alimlər özləri Allahın varlığını öz kəlamlarında təsdiqləyiblər. Baxmayaraq ki, onlar böyük şəxsiyyətlər və alimlərdir haqq həqiqət isə öz varlığını həmişə idrak sahibləri arasında qiymətləndirilib.

Elə isə Allahın isbatını müxtəlif ixtisas sahiblərinin dilindən eşidək. Elektron beyin konstruktoru **Klud**. **M.Hezavi** yazır:

Bir neçə il əvvəl mənə tapşırıldı ki, çətin fərziyələri və iki ölçülü tənlikləri qısa müddətdə həll edə bilən bir elektron maşınının planını hazırlayım. Mən bu iş üçün yüzlərcə elektrik lampalarından, elektrotexnika alətlərindən və çox sayda çarxlardan istifadə etdim. Nəhayət həmin maşın, **"elektron beyin"** lingli Fild şəhəri milli təyyarəçilik komitəsinin konsultasiya idarəsində kiçik otaqda yerləşdirildi. Belə bir plan üzərində uzun illər boyu çalışıb çəkdigim çoxlu zəhmətdən sonra mənim üçün çətindir qəbul edim ki, bu vint və qaykalar şüurlu bir konustruktorun müdaxilə olmadan öz-özünə yerinə qoyulardılar.

İndi diqqət verin, bizi əhatə edən dünya saysız-hesabsız müstəqil, eyni zamanda bir-birilə bağlı olan əlamətlərlə doludur. Bunların hər biri öz növbəsində mənim hazırladığım elektron beyindən yüzlərcə mürəkkəb və qəribədir.

Əgər mənim hazırladığım maşın üçün konstruktor lazım idisə, bəs necə ola bilər ki, bu qədər fiziki, kimyəvi və bioloji xüsusiyyətlərə malik olan mənim bədənim üçün bir konstruktor lazım olmasın.

Söz yox ki, mən özümdə cüzi bir parçası olduğum gerçək aləm üçün, mütləq hikmətli konstruktor lazımdır. Bu nizam, intizam plan və ya adını nə qoyursunuz qoyunuz iki yolda vücudə gələ bilər: ya təsadüfən və ya idarə nəticəsində.

Əgər bunu nəzərə alsaq ki, nizam və intizam artdıqca təsadüf ehtimalı azalır və biz hazırda sonsuz planların əhatəsindəyik. Mənim üçün, qadir və əbədi bir Allahın varlığına iman gətirməkdən başqa yol qalmır.

## KİMYƏVİ QANUNLAR VƏ ALLAH

Amerikalı **Adolf Buhler** deyir:

**"... Statik qanunlara hansı qüvvə hakimdir və onları idarə edən nədir?**

**Əgər ehtimalları hesablama ilə təsadüfən bir təbii prosesin, məsələn bir protin zərrəsinin ilkin ünsürlərdən əmələ gəlməsini nəzərə alsaq və yer kürəsinin ömrünü 3 milyon il fərz etsək, görərik ki, bu müddət belə bir prosesin hasil olması üçün kifayət deyil. Yalnız iradə və istəgi ilə əməl edən bir rəhbər qüvvənin varlığını qəbul etmək, hər hansı bir həmahəngligin təsadüf və qarma-qarışıqlıqdan hasil olma fərqini anlaya bilərik".**

Kafirlərdən biri olan **Əbu Şakir Disani** Həzrəti imam **Sadiq** (ə) ın xidmətinə gəlib dedi:

- Allahın varlığını mənim üçün sübut edin.

Bu halda onların yaxınlığında bir uşaq yumurta ilə oy-

nayırdı. Həzrət o uşağın əlindən yumurtanı alıb, üzünü **Əbu Şakirə** tutub dedi:

Bu yumurtanı görürsən! Bir ağzı bağlı və möhkəm qaladır. Bu qalanın iç divarlarında bir nazik dəri vardır və onun içində bir az əridilmiş qızıl **"yumurta sarısı"** və bir az da əridilmiş gümüş **"yumurta"**nın ağı vardır. Onların heç biri bir-birinə qarışmaz. Bu yumurtanın içindən heç kimin xəbəri yoxdur ki, onun içində olacaq cücə erkəkmi yoxsa dişidir. Cücə yumurtadan çıxanda onun müxtəlif rənglərlə boyanmasını görürük.

Misal üçün bir tavusa baxaq. Görəsən necə bir qüdrət və necə qələm ilə onu bu rənglərlə boyamışdır? Görəsən bir toyuğun və ya tavusun boyanması bir tablonun boyanmasından əhəmiyyətsizdir? Kim deyə bilər ki, bu saxta tabloları rəssam çəkmişdir, amma bu təbii tabloların bir rəssamı yoxdur?

Sonra Əbu Şakirə dedi: buna inanırsan ki, yumurtanın və yumurtadan çıxan cücələrin bu xüsusiyyətləri ilə belə, bir hikmətli, alim və tədbirli yaradıcısı vardır.

Əbu Şakir bir az fikirləşdi, sonra yuxudan ayılmış kimi oyanıb dedi:

Bəli, inanıram ki, bu yaradılış aləminin **"Allah"** adlı yaradıcısı vardır. O Allah bütün kamal sifətlərinə malikdir və inanıram ki, həzrəti **Məhəmməd** (s.ə.v.v.) onun bəndəsi və peyğəmbəridir və sən də onun canişini və Allahın yer üzündə höccətisən. Səndən itaət etmək lazımdır.

## KARL KALİTİS

*(Kimyəvi katalizatorlar mühəndisi)*

Kainatın bir başlanğıca malik olduğunu göstərən çoxlu dəlillər vardır. Dünyanın getdikcə genişləndiyini göstərən astronomik müşahidələr isbat edir ki, dünyanı təşkil edən ünsürlər əvvəlcə bir yerdə toplanmış və bir-birilə dolaşmış halda olmuşdur.

Ulduzlar və qalatikanı müşahidə edərkən görürük ki, bütün səma cisimləri surətlə bir-birindən uzaqlaşır. Spiral formasında burulan bəzi dumanlıqların mütaliəsi göstərir ki, bir sıra səma cisimləri hələ də bu dumanlıqlarda öz ətrafına burulmuş və indi də onlardan biri və ya iksi açılmamışdır. Bundan savayı termodinamikanın *(hərarət və qüvvə)* ikinci qanunu dünyanın bir başlanğıca malik olduğuna möhkəm bir dəlildir.

Fizika sahəsindəki, müşahidələrimizlə təsdiq edilən bu qanun deyir ki, dünyada antropi getdikcə artır və bu o deməkdir ki, bir vaxt gəlib çatacaq ki, dünyada olan bütün cismlərin hərarəti bərabərləşəcəkdir. Deməli, yəqin ki, cisimlərin hərarəti indi bərabər olmadığı kimi keçmişdə də bərabər olmamışdır... Deməli, maddə və enerji əbədi deyil və dünyanın bir başlanğıcı vardır...

Dünyanın bu nizam və intizamı arxasında ali bir hikmət durur və bu varlıq müəyyən bir anda qüvvə ilə maddənin habelə bütün göy cisimlərinini burulmuş kütlə formasında yaratmış və hərəkətə gətirmiş və dünyaya yayılıb genişlənmək qüvvəsi bəxş etmişdir.

## KURUN FİLED

*(Orqanik kimya idarəsinin sədri)*

Çox vaxt laboratoriyada olduqca kiçik cisimlər üzərində işləyərkən onlarda baş verən mürəkkəb və qəribə reaksiyaların şahidi oluram. Allahın əzəmətli və ali hikməti məni heyran edir.

Heyvan hüceyrələrində baş verən reaksiya və hadisələr o qədər qəribə və mürəkkəbdir ki, onlarda baş verən cüzi pozğunluq heyvanın xəstələnməsinə səbəb olur, doğrudan da çox qəribə olardı ki, çox mürəkkəb quruluşa malik olan bir heyvan hüceyrəsinin öz-özünə həat və fəaliyyətə davam etdirdigini iddia edək. Şübhəsiz belə bir iş üçün fövqəladə hikmətli xaliq pərvərdigarın olması zəruridir.

## ANDİRU AYVİ

*(Böyük alim və tanınmış fizoloq)*

... Həyat anlamını mükəmməl hərtərəfli və məntiqi tərzdə anlamaq Allaha inanmadan mümkün degil. Məhz Allaha imandır ki, insanın şəxsiyyətini qoruyur, onun maddə və qüvvələri üstün olduğunu dərk etmək üçün Allaha inamdan başqa bir vasitə yoxdur. Allahın vahidliyi və taysızlığı bütün insanların qardaşlığı və bərabərliyi əlamətidir.

İman həyatın bütün zəhmət və çətinlikləri qarşısında möhkəm bir qalxandır. Aydındır Allaha inanan və ona arxalanan bir adam üçün dünyada heç bir mütləq müsibət yoxdur:

## ALLAHI TANIMAQ

Quranın **Mülk** surəsinin 3-cü ayəsində buyrulur: **"Pərvərdigarın yaranış sistemində heç bir ahəngsizlik və intizamsızlıq görmürsən, bir də bax, hər hansı bir nöqsan və qarmaqarışıqlıq görürsənmi?"**

Dünyada Astronomiya üzrə məşhur alim kimi tanınan **Herşel** deyib:

"İnsan nə qədər elm sahəsində irəliləyir, nə qədər təbiət və onun qanunları haqqında bilikləri çoxalır, dünyanın yaranış əzəmət və qüdrətini bir o qədər dərindən dərk edir."

Elmin sahələri genişləndikcə və əbədi pərvərdigarın varlığını isbat edən qayim və inkar edilməz dəlillər əldə edilir. Gerçəkdən də torpaqşünaslıq, riyaziyyat, kosmologiya və təbiətşünaslıq alimləri, elmin, demək Allahın əzəmət sarayının sarsılmazlığını qorumaq üçün birləşmişlər".

Beləliklə aydın olur ki, Allahı tanımaq və ona iman gətirmək üçün hələ də elm qanunlarının, səbəblər və təbii qanunlarına inkar etməyə və ya cürbəcür hadisələr, örnək olaraq anadan gəlmə qəribə yaranışlı uşağa və ya müalicə edilməz bir xəstənin birdən-birə sağalması kimi hadisələrə əl atmağa ehtiyac yoxdur.

Nizamlı dünya öz qanunları və sabit səbəbləri ilə hikmətli Allahı daha yaxşı tanıtdıra bilər.

Ulduzlar və qalaktikanın nizamlı hərəkətləri, atomun içindəki zərrəciklərin enerjisi və hərəkəti, insan orqanizmində qanın dolanması və milyonlarca fiziki, kimyəvi, tə-

bii, bioloji səbəb və amillər, habelə kainatın hadisələri arasındakı intizam və bağlılıq, bütün bunlar bizə anladır ki, bu nizamlı dünyanın bir müdrik və qüdrətli nizamlayıcısı vardır.

**JAN HANRİ FAİR**
*(entemoloq alim)*

"Qarınca qədər kiçik bir heyvanın bədən quruluşundakı, idarə sistemi və onun orqanizmi, milyardlarla insanı Allaha sarı inamlı edir".

**MARLEN BUKS KREYDUR**
*(Fəlsəfə elmləri doktoru və fiziologiya alimi)*

"Elə ki, görürük bir dünya yaranmışdır ki, onda gizli təbii bir qüvvə hakimdir və müəyyən nizam-intizamla idarə olunur, belə bir qərarə gəlirik ki, bu dünyanın bir xaliqi və idarə edəni vardır".

**ADUN QİST**
*(atom enerjisi sahəsində zəif qüvvəni yoxlayan reaktorun direktoru)*

Elmlər nüvə fizikasına dair məlumatları genişləndirməklə dünyanın başlanğıcını axtarmaqda belə bir nəticəyə gəlmişdir ki, bütün ünsürlər və onların tərkibləri əsas zər-

rəciklərin qarşılıqlı təsirindən törənmişdir. Dünyadakı bütün cismlər, protonların və onların xasiyyətlərinin müxtəlif şərait və vəziyyətdə toplanması nəticəsində əmələ gəlmişdir.

Lakin protonun özünün haradan gəlməsi və nə üçün belə xasiyyətlərə malik olması sorğusuna elm hələlik cavab tapa bilməmişdir.

Təbiət qanunlarına diqqət yetirib araşdırarkən belə bir nəticəyə gəlirik ki, ali bir qanun verici vardır ki, o təbiətin dəyişməz qanunlarını müəyyənləşdirmiş və dünyanı yaradarkən elektron, neytron və protona elə bir xasiyyət vermişdir ki, bütün təbiət qanunları ondan törənib, qaynaqlanırlar...

Heyvanat aləminə müraciət edərkən daha mürəkkəb məsələlərlə rastlaşırıq. Üç əsas ünsir, demək hidrogen, oksigen və karbon canlı varlığın ilkin maddələrini təşkil edirlər. Müəyyən miqdarda azot və bir az da digər ünsürlər həmin üç ünsürlərlə birləşmişdir. Ən bəsit və kiçik canlıların cismində həmin ünsürlərin milyonlarca atomları vardır ki, bir-biri ilə xüsusi nisbət və formalarda birləşmişlər. Bu ünsürlərin təsadüfi birləşmə imkanlarını riyazi yolla hesablasaq, görərik ki, nəticə aşağı yuxarı sıfırla bərabər olacaqdır.

## BƏSİRƏT GÖZÜ

Hicablı olan şəxs, həqiqəti nə vaxt görəcəkdir? **“Şəhadət verirəm”** kəlməsi **“şahidlik”** mənasındadır. İnsan bu şəhadətlə Allahın vəhdaniyyətinə və onunla bir yerdə ol-

masına şahid olmalıdır. Dərs oxuyan adamın hammısına elm sahibi demək olmaz. Çünki o qədər dərs oxuyan adam vardır ki, **“elm sahibi”** deyildir. Amma əksinə, bəzi bisavadlar **“elm sahibi”**dirlər.

Qəlbdə haqqın zühur etməsindən ötrü, insanın qəlbini nurlandıran elm, günəşdən də işıqlıdır. Bu elmə sahib olan kəs, özünün daim Allahla bir yerdə olduğunu dərk edir.

**“Siz harada olsanız, o, da sizinlədir”**.

## DƏVƏNİN YARADILIŞI ÇOX TƏƏCCÜBLÜDÜR

Allah-təala buyurur:

**Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır?**

**Səmaya baxmırlar ki, necə ucaldılmışdır?**

**Dağlara baxmırlar ki, necə dikəldilmişdir?**

**Və yerə baxmırlar ki, necə döşədilmişdir?**

**Dəvənin yaradılış keyfiyyətinə niyə diqqət etmirsiniz?**

Hər bir heyvanın ayaqlarında bir dizi, amma dəvənin hər bir ayağında isə iki dizi vardır.

Dəvə oturan vaxt ayaqları iki dəfə bükülür. Onun boybuxunu necə də gözəl və qəribə yaradılmışdır. **Əflatun**a xəbər verirlər ki, ərəbistanda uzun ayaqlı və hər bir ayağında iki dizi olan heyvan vardır. **Əflatun** dedi: Belə heyvanın xörək yeməkdən ötrü uzun boynu da olmalıdır. Çünki gərək boynu, ayağı ilə mütənasib olsun. Onun xörəyi də həmçinin öz yaşadığı mühitə münasib yaradılmışdır. Ərə-

bistan məntəqəsinin qızmar səhralarında ot-ələfdən xəbər yoxdur. Buna görə də Allah-təala tikanlı qanqalları onun xörəyi qərar vermişdir. Yəni dili, ağzı və mədəsi bu cür tikanlı bitkiləri yeyib həzm etməkdən ötrü çox münasibdir. Baxın görün ki, dəvə narahat olmadan bu tikanlı bitkiləri necə ləzzətlə yeyir.

Dəvə yaşadığı mühitlə uyğunlaşmasından ötrü susuzluğa da dözümlüdür. O, on gündən artıq susuzluğa dözə bilir.Boğazının altında suyu qoruyub saxlamaqdan ötrü tuluğa oxşar bir şey vardır.

## KÖKSÜN GENİŞLİYİ VƏ ONUN NİŞANƏLƏRİ

Allahın təkliyinə etiqad qəlbin təsdiq etməsi ilə olmalıdır. İnsan qəlbinin həqiqətdən xəbərdar olması onun qəlbinin nurlanmasına səbəb olur. Xatircəmlik və Allah eşqi nuraniliyin əlamət və nişanələrindəndir. Rəvayətə əsasən bunlar qəlb nuraniləşəndə baş verir. **“Elm nurdur”**, **“İman nurdur”**. Allah-təala Quranda buyurur:

**“Allah kimi düz yola yönəlmək istəsə, onun köksünü islam üçün açıb genişləndirir.”**

**“Məcməul-bəyan”** təfsirində nəql olunur ki, Peyğəmbərdən (ə.s.) köksün genişliyi haqda sual etdilər. Həzrət (ə.s.) bu sualın cavabın buyurdu: **“O, bir nurdur ki, Allah-təala onu mömünün qəlbində qərar verir”.** Yenə də soruşdular: Ya Rəsuləllah, onun əlamət və nişanəsi vardırmı?

Köksün genişliyini və nurun əta olunmasını hardan başa düşək?

Peyğəmbər(s) buyurdu: **“Köksü genişlənmiş adam qəlbini dünyadan üzüb, bütün şövq və diqqətini Allah və axirətə bağlayır. Ölümün vaxtı çatmamış ona hazır olur. Qəlbində nur yarananda Allahdan başqa bütün şeylərin fani və heç olduğunu dərk edir. Allahdan başqa bütün varlıqları nəzərindən keçirib, onların sırf asılı və aciz olduğnu başa düşür. Bərəkətin və hər bir şeyin mənbəyinin Allah olduğunu dərk edir. Elə buna görə də qəlbini Allahdan başqa bütün şeylərdən kəsib, yalnız Allaha bağlanır.”**

Rəvayətə əsasən **Əli** (ə) və bütün İmamlarımız (ə) Şəbaniyyə duasını oxuyurmuşlar.

Bu dua belə bir cümlə ilə zikr olunur:

**“Pərvərdigara! Səndən başqa şeylərdən əl üzüb, yalnız sənə diqqət etməyimi mənə əta et!”**

İnsanın kamil səadəti, ancaq Allaha bağlı olmaqla ələ gəlir. Belə insanlar Allaha təvəkkül edib, ancaq ondan qorxur və ona da ümid bəsləyirlər.

Ən böyük istəkləri Allahın razılığını əldə etmək olur. Nəticədə **Əli** (ə)-ın **“Nəhcül-bəlağədə dediyi məqama çatırlar.” “Təsdiq etməyin kamalı onu vahid bilmək, vahid bilməyin kamalı isə ona qarşı tam xalislik məqamına yetişməkdir.”**

## QAŞ, KİPRİK VƏ ONLARIN ARXASINDA OLAN DƏRİ ADAMI HEYRƏTƏ GƏTİRİR

İnsanın qaşlarına nəzər salsaq görərik ki, qaşın gözün yuxarısında qövsvari olması, insanın çöhrəsini gözəlləşdirməkdən əlavə, alından axan tər damlalarının gözə tökülməsinin qarşısını da alır. Tər damlaları axaraq, qaşın yanlarına tökülür. Bundan əlavə, qaşların qara rəngli olması kölgəlik rolunu daşıyıb, günəş şüalarının gözə, bir-başa düşməsinin qarşısını kəsir.

Kipriklərin quruluşu da insanı heyrətə gətirir, onlar bir-birlərinin arasında qərar tapmışdır. Belə ki, gözü yuman zaman kipriklər bir-birinin arasına daxil olub, toz-torpağın gözün içinə dolmasının qarşısını alır.

Qara kiprik və qaşların başqa bir xüsusiyyəti gözün yaxşı görməsindən ötrü onların nuru tənzimlənməlidir. Əgər **Nuru**nun qarşısında qara bir şey olmasa, nur yayıla bilər. Uzaqda olan obyekti yaxşı görməkdən ötrü, gözün nuru səpələnməyib, düz həmin obyektə çatmasına görə əlimizi gözün üzərinə qoyuruq.

Kipriklərin bir dənəsinin düşməsinin və ya onların arasında artıq bir tükün bitməsinin necə bəla olduğunu təsəvvür edə bilirsinizmi? Bəzən, bəzi fərdlər bu cür bəlalara düçar olurlar ki, başqalarına da ibrət olsun.

Göz yuxarı, aşağı, sağ və sol hərəkətlərinə malikdir. O, bu hərəkətləri başı tərpənmədən yerinə yetirir. Yeriyəndə başı aşağı əymədən, gözün hərəkətlərinin vasitəsilə ayaqların qarşısında nə olduğunu görmək olur. Gözün bu dörd

tərəfli hərəkəti, dörd əsəb sisteminin nəticəsidir. Əgər onlardan biri aradan getsə, gözün həmin hərəkəti də məhv olur.

## SÜD NECƏ YARANIR?

İnsanın ixtiyarına verilmiş dəyərli ilahi nemətlərdən biri də süddür. Qurani Kərimdə buyurulur:

**"Şübhəsiz ki, mal-heyvanda sizin üçün bir ibrət vardır. Biz onların qarınlarındakı qanla ifrazat arasında olan təmiz südü sizə içiririk"** *(Nəhl sur. ayə 66).*

Bətnində körpə olan ana qidalanır və bu qidaların təsiri qanda özünü büruzə verir. Qan dövranı sisteminin çıxışı, körpənin (**"Cənin"**) qan dövranı sistemi ilə əlaqələnir. Körpə nə qədər ki, ana bətnindədir, bu yolla qidalanır. Uşaq doğulduqdan sonra anadakı körpəni qidalandırma çıxışı, onun döşünə ötürülür. Ananın yedikləri tam həzm olmamış bir növ qida ilə qan arasında süd yaranır. Süd nə həzm olmuş qida, nə də qandır. Ana döşündə proteinli süd hazırlanarkən, əlavə olaraq yalnız bədəndəki turşulardan istifadə olunur.

Hazırlanan südün tərkibindəki vitaminlərin, duzun, fosfatın, şəkərin qandan götürüldüyü məlumdur. Süd qida maddələrinin qan vasitəsilə sorulmasından yaranır.

Elmi hesablamalara əsasən, ana döşündə bir litr südün hazırlanması üçün ən azı beş yüz litr qan bu üzvdən dövr etməlidir. Hansı ki, bir litr qanın yaranması üçün bu qandan qat-qat artıq qida qəbul olunmalıdır. Demək, ana döşündə

gedən proseslərin mahiyyəti, hələ də elm üçün qaranlıqdır. Həzrət Peyğəmbər (ə.s.) buyurur: **"Suyu və qidanı tam əvəz edə biləcək yeganə şey süddür!"**

## GÜVƏ

Bu kiçik həşərat, özünə məxsus bir zəka ilə yuva qurmaq üçün elə bir sementdən faydalanır ki, hələ keofizika alimləri elə bir sementi kəşf edə bilməmişlər.

Əgər bəşər bir gün belə bir sementi kəşf edib, onunla bina tiksə, o binaları dinamitlə də dağıtmaq olmaz.

İndi belə bir sualla rastlaşırıq ki, görəsən həşəratlar bu elmləri harada və hansı məktəbdə öyrənmişdir? Necə bir sirli qüdrət onları belə yaşamaqla tanış etmişdir. Əgər belə təsəvvür olsa ki,  bu elmlər irs səbəbilə onlara çatmışdır, onda bu fikir bir əfsanə kimi olar. Çünki heç bir təhsil edilən elm varis olmaq genetika vasitəsilə uşağa verilməz. Heç vaxt görünməmişdir ki, bir memarın və ya mühəndisin oğlu həmin sahələrdə təhsil almadan, memar, ya mühəndis olsun. Buradadır ki, bəşər təəccüblənir və bu kiçik heyvanlara bu elmləri ilham edən qüvvə qarşısında baş əyir və inanır ki, bu elmlər və ilhamlar bir alim və qadir İlham verən olmadan ola bilməz.

## BAL ARISI

Bu bal arısı sirli bir zəka ilə gülün üzərinə qonub, onun şirəsini xüsusi bir tərzlə sovrulur və onunla insana çox şi-

rin bal düzəldir. Bu həşəratın yuva bağlaması xilqətin əcaibindəndir.

Bu həşərat yuvasını altı bucaq şəklində elə düzəldir ki, bir-bucaq başqa bir bucaqla mində bir millimetr də olsun fərq etmir. Bal arısı qaranlıqda və tufanlıqda öz yuvasını çox asanlıqla tapır.

## YARALANMIŞ ÜZVÜN SAĞALMASI

Təəccüblüdür ki, bir çox canlılar öz bədənlərini yenidən qurmağa qadirdirlər. Bədən hüceyrələri işlərilə o qədər tanış və mahirdirlər ki, bədənin bir üzvü mükəlləşməyə ehtiyacı olsa, onlar işəbaşlayıb o üzvü sağaldıb kamilləşdirənə kimi öz fəaliyyətlərindən əl götürmürlər.

Bir Amerikalı alim öz kitabındabelə yazır:

Xərçəng kimi bir çox heyvanların bir üzvü yaralandıqda, o üzvün hüceyrələri dərhal o üzvü sağaltmaq üçün işə düşərlər. Həmçinin, onlar üzvü sağaltdıqdan sonra dərhal işdən əl çəkirlər. Sanki özləri işin qurtarmasını bilirlər.

Bir yer qurdunun başını qırsanız, o özünə başqa bir baş düzəldəcəkdir. Bizim elə üzvlərimiz vardır ki, hüceyrələri işləməyə vadar edir. Görəsən bir gün olacaqdır ki, cərrahlar insan bədənində başqa bir əli, sümüyü və ya dırnağı yaratmaq üçün hüceyrələri fəaliyyət etməyə vadar etsinlər.

Bu heyvanlarda bu təlimatlar bir gizli qüdrəti, göstərişləri olmadan ola bilərmi?

Məgər heyvanların bu əsrarəngiz şüurlarına və başqa

sözlə həyatını davam etdirməyə yol tapmaqlarını görmək, bizə bir hikmətli alim və qadir yaradıcının varlığını anlatmırmı?

Bir sıra torantalar vardır ki, top kimi yumru bir tor toxuyub, onu bir şeyə bağlayır və suya atır. Sonra öz qarnının altındakı tükləri hava ilə doldurar və o torun alt tərəfindəki torun içinə üfüləyir. Pülədikdən sonra o tor bir top kimi şişir. Sonra onun içinə toxum atır və uşaqlarını onun içində böyüdür. O buyolla uşaqlarını xətərdən qoruyur. Torantanın həmin əməli bir sıra diqqətli elmlərdən, o cümlədən toxuculuq və mühəndislik elmlərdən tutmuş dənizaltı əməliyyatına kimi ibrətdir.

## GECƏ QUŞU

Quşlar içində gecə quşu bir sıra xüsusiyyətlərə malikdir ki, Tohidin və haqqın böyük nişanəsi olabilər. Bu quş təbiətin zərurətindən, yəni günəşin işığında uça bilmədiyi üzündən, gecələr uçmalıdır. Digər tərəfdən qorxunc qaranlıq təhlükəlidir. Mümkündür ki, bu quş qida tapmaq üçün uçsun, amma qapı, pəncərə, divar kimi bərk şeylərə dəysin və yaralansın. Onun yaradıcısı onu elə yaratmışdır ki, onun vücudunda elə bir qüvvə qoymuşdur ki, o bir şeyə toqquşmadan əvvəl dərhal onu anlayır və yolunu dəyişir. Və öz uçuşunu davam etdirir. Bu sirli qüvvə radarın dalğaları kimidir ki, alimlər onunla təyyarələrin yolunu müəyyənləşdirib, idarə edirlər. Görəsən bu quş belə bir aparatı haradan

tapmışdır ki, dünya alimləri yüz illərdən sonra onu kəşf edə bilmişlər?

Qurani Kərim bu barədə deyir:

**Elə bir Allah ki, varlıqları düzgüncəsinə yaratdı və hər bir varlığı ölçüb, onu həyat və kamal yoluna hidayət etdi** *(Əlaq surəsi, ayə 2-3).*

## UŞAĞINI HEÇ VAXT GÖRMƏYƏN ANA

Amoofil adında bir həşarat ölümünü duyanda bir qurdaq şikar edər və onun arxasının müəyyən bir yerindən elə çalar ki, qurdaq bihuş olur, amma ölmür. Sonra bu qurdağın bədəninin müəyyən bir yerinə toxum atır və özü uşağı dünyaya gəlməzdən əvvəl ölür. Uşaqlar qurdağın ətindən qidalanıb böyüyürlər. Təəccüblüdür ki, analarını görməyən bu uşaqlar, böyüyüb həddi buluğa çatdıqdan sonra toxum atmaq istəyəndə öz anaları kimi əməl edirlər. Bu işdə heç səhv etmirlər. Bu həşəratın sonku nəsli qabaqkı nəsli görmdiyi üçün heç kəs deyə bilməz ki, onlar analarından öyrənmişlər.

Bu həşərat budərsləri və təlimatı hansı məktəbdə öyrənmişdir? Bu necə bir qüdrətdir ki, bütün canlıları ilk gündən yaşama tərzi ilə tanış etmişdir? Onlar gediləcək məqsədə doğru hərəkət edirlər.

Qətiyyən buna inanmalısınız ki, bu heyvanın bu növ fəaliyyətləri bir xüsusi rəhbərliyi tələb edir.

Elə bir rəhbər tələb edir ki, o rəhbər onun həyatı üçün

lazım olan şeyləri və həyat vasitələrini onun ixtiyarında qoymuşdur və onu həyatın yollarına xüsusi ilhamla tanış etmişdir.

## DOĞUM YERİNƏ MƏHƏBBƏT VƏ CƏHƏT TAPMAQ

Sizin evinizin qabağvnda yuva bağlayan qaranquş qış fəslində qışlağa gedir. Amma yaz gələndə yenə öz yuvasına qayıdır. Quşlar qışın soyuğunda cənuba sarı köçürlər. Onlar min kilometrlə yerin və dəryanın üstündə yol gedirlər, amma öz yuvalarını itirmirlər. Bir göyərçinin əl-ayağını bağlayıb, bir sandığa qoysan və aparıb uzaqdan azadetsən, yenə havada fırlanıb, öz yuvasına qayıdar. Balıq balası neçə illər boyunca dənizdə yaşayır, nəhayət dünyaya gəldiyi şirin suyu tapıb, oraya qayıdır. Bir çayda üzən balığı nəzərdə tutaq. O çalışır ki, özünü anadan olduğu yerə çatdırsın. Ona görə də çayın müəyyən nöqtəsinə tərəf gedir. Onu o müəyyən nöqtəyə sarı çəkən nədir?

İlanbalıqlarının yaşayışlarının rəmzini tapmaq da çətindir. Onlar balıq olandan sonra yaşadıqları yeri buraxıb, hamısı birlikdə dənizin dərinliyinə sarı bir uzun yol tutub gedirlər.

O yerə çatmaq üçün Avropadan hərəkət edən ilanbalıqlar minlərcə kilometr yol gedəndən sonra Saqares adlı bir dənizə çatırlar. Orada ilanbalıqlar toxum atıb ölürlər. Sonra onların təzəcə dünyaya gəlmiş uşaqları, onları əhatə et-

miş mühitin şəraitindən heç nə bilməyərək, hərəkətə başlayırlar və özlərini ata-analarının gəldikləri sahilə çatdırmaqdan əlavə əcdadları yaşayan kiçik bir arxa da baş vururlar. Bu ilanbalıqları hidayət edən qüvvəni kim vermişdir.

Heyvanların şüuru bir o qədər genişdir ki, alimlərin kəşf etdiklərinin mində birini burada zikr etmək olmaz.

Bu barədə "heyvanların sirli hissləri" kitabında geniş şərhlər var.

Qurani-Kərim bu barədə **"Nəhl"** surəsi 68-69-u ayədə deyir:

**Sənin pərvərdigarın bal arısına ilham etdi ki, dağlardan və uca yerlərdən özünə yuva bağlasın. Bütün nemətlərdən yesin və öz həyatını davam etdirsin, təki onun qarnında bir çox xəstəliklərin dərmanı olan müxtəlif ballar axsın. Həmin bu işdə mütəfəkkirlər üçün** *(Allahın varlığına)* **nişanə vardır.**

## QIRMIZI ARI

Qırmızı arı çəyirtkəni şikar edib, bir çuxura salır. Müəyyən yerlərini sancar və bihuş edər və bir diri ət kimi onu saxlayar. Sonralar çəyirtkənin müəyyən bir yerlərində toxum tökür. Uşaq toxumdan çıxan kimi çəyirtkənin bədənindən qidalanır. Amma onu ani olaraq öldürmürlər, çünki özləri də onda ölərlər. Sonra arı yerdə bir dəlik oyub, özü ora soxular və orada can verər. Nə arı və nə də ki, arının

balaları gördükləri işdən baş çıxartmırlar - onlar bilmirlər ki, onların uşaqları necə olurlar. Qətiyyən buzati hidayət olmaq səbəbsiz deyildir. O bir alim və qadir şəxsə bağlıdır.

## İXLAS NƏDİR?

İnsan **Tohid** məqamında ixlasa çatmalıdır. Allahı Vahid bilməyin kamalı ixlasdır. *İnsan* - mərifət məsələsində heç vaxt bir yerdə dayanmamalı, daim hərəkət etməlidir.

Onun **Tohid**də olan hərəkəti də ixlasa çatana qədər davam etməlidir.

Dinin məzmunu ixlasdır. Allah təala Qurani Kərimin əksər ayələrində ixlasdan danışır: **"Halbuki onlara əmr edildi ki, Allaha dini yalnız ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru düzgün din budur"**. Dini Allah üçün xalis etmək, insaniyyətin ən uca məqamlarındandır.

Allaha olan ixlasın mənası, onu naqiislikdən, məhdudiyyətdən, müqəddəs zatının heç vaxt zavala uğramamasından, sifətlərinin çatışmamazlıqlarından, uzaq olmasından və ümumiyyətlə hər bir şeydən xalis hesab etməkdir.

Əgər insan Allahın zatını onun eyni vücudu hesab etməsə, bir  şirk etmiş olacaqdır.

Adətən həmd və təsbih bir yerdə zikr olunur.

**"Fəsəbbih bihəmdi rəbbik, sübhanəllahi və bihəmdihi"** həmd və təsbih bir-birilərinin lazim-məlzumdur. Mü-

vəhiddlər, Allahın kəmalını həmdlə sübut etdikləri kimi, onu hər bir naqislikdən də pak və münəzən bilməlidirlər.

## QURAN VƏ ALLAH ƏDALƏTİ

Qeyd etmək lazımdır ki, Qurani Məcidin ayələrində bu məsələ üzərində çox danışılmışdır.

O cümlədən Yunis surəsi 44-cü ayədə **"Allah kimsəyə zülm etməz, bu xəlqdir özü-özünə zülm edir."**

Hisa surəsində 40-cı ayədə **"Allah hətta bir zərrə qədər kimsəyə zülm etməz."**

Ənbiya surəsinin 47-ci ayəsində **"Biz qiyamət günü ədalət tərəzisin qurarıq, kimsəyə bir zülm də olunmaz"** buyrulur.

## ƏDALƏT NƏDİR?

Ədalətin iki fərqli mənası vardır?

**1.** Bu sözün geniş mənası, hər şeyin öz yerində qərar tapmasıdır. Ədalətin bu mənası bütün yaradıcılıq aləmində, mənzumələr, atomların içi, insan vücudunun binövrəsi və bütün canlılar və bitkilərdə hakimdir.

Bu peyğəmbər (ə) hədisində gələn mənadır: **"Göylər və yer ədalət ilə bərqərardır"**: Misal üçün, yer kürəsinin **"dəf edici"** və **"Cəzb edici"** qüvvəsi öz mövqeini əldən versə və bunların biri başqasına qələbə etsə, yer günəşə tərəf cəzb olar və yanar yox olar ya öz məhvərindən çıxar və sonsuz fəzada yox olar.

**2.** Ədalətin başqa mənası başqa insanların həqlərinə əməl etməkdir.

Onun müqabili olan zülm isə, başqasının həqqin almaq və bir başqasına verme, ayrı seçkilik salma, belə ki, bir parasına öz həqlərin versinlər və bir paraya verməsinlər.

Aydındır ki, birinci məna **"Xas"** ikinci məna **"Am"**dır.

Allah haqqında ədlin hər iki mənası sidq edər. Lakin bu bəhslərdə ikinci mənanı nəzərdə tuturuq.

Allahın ədalətinin mənası budur ki, nə birisinin həqqini aradan aparar və nə də birinin həqqini başqasına verər, nə də insanlar arasında ayrı seçkilik salar.

O tam mənasında adildir. **"Zülm"** isə bir şəxsin həqqin almaq mənasındadır və ya bir şəxsi başqasına verildiyi həqq anlamında və ya ayrı seçkilik anlamında olsun, Allahın təmiz zatına yol tapa bilməz.

O heç zaman xeyr iş görəni cəzalandırmaz, pis iş görəni sevdirməz, birini özgənin günahına görə suala çəkməz.

Yaşı və qurunu birlikdə yandırmaz.

Hətta böyük bir cəmiyyətdə bir nəfərdən başqa hamını məhv etsələr, günah iş görsələr, Allah O bir nəfərin hesabına başqalarından ayırar və onu günah iş görənlər ilə birlikdə cəzalandırılmaz.

**3. "Ədalət"** və **"Müsavat"** arasında fərq nədir?

Bəzi vaxtlarda **"Ədalət"** və **"Müsavat"** arasında məhv üz verir. Zənn edilir ki, ədalətin mənası müsavata riayət etməkdir. Halbuki, belə deyildir.

Ədalətdə heç vaxt Müsavat şərt deyildir.

Misal üçün bir sinfin şagirdləri arasında ədalət onların

hamısına bərabər qiymət verilsin. İki fəhlə arasında ədalət o deyildir ki, hər iksinə eyni həqq verilsin. Bəlkə ədalət odur ki, hər şagird öz məlumatı və savadına uyğun qiymət alsın və hər fəhlə öz iş və çalışmasına görə muzd alsın.

Təbiət aləmində ədalət geniş mənaya, aiddir əgər bir ton ağırlığı olan bir balinanın ürəgi və ya bir sərçənmn ürəgi eyni olsaydı, ədalət olmazdı, ədalət odur ki, hər möcüd öz həqq istedad və ləyaqətə uyğun bir səhm aparsın.

## ZÜLMÜN QAYNAĞI NƏDİR?

Zülmün qaynağı aşağıdakıların biridir:

**1. Biliksizlik:** bəzi vaxt zalim adam doğurdan da nə edəcəgini anlamaz. Birinin paymal etdigini bilməz və öz işindən xəbərsizdir.

**2. Ehtiyac:** Bəzi vaxt özgələrən əlində olana ehtiyac duymaz, insanı bu işi görməyə vəsvəsə edər halbuki, ehtiyacsız olsaydı zülm də etməzd.

**3. Acizlik:** bəzi vaxt insan özgəsin həqqin əda etməkdə əsirgəmir. Lakin o işə qadir olmadığı üçün zülm edir.

**4. Özün bəyənmək, və intiqam almaq:** Bəzi vaxt bu amillər heç yoxdurlar. Lakin **"Özün bəyənməklik"** səbəb olur insan özgələrin həqqinə təcavüz etsin və ya **"intiqam hissi"** və **"kinlilik"** onu zülmə vadar edir və ya **"İnhisar tələbəlik"** ruhu səbəb olur özgələrə zülm etsin... və bu kimi

Lakin Allahın müqəddəs vücudunda bu çirkin sifətlərin

heç birisinin olmadığına diqqət edərək, bilməliyik ki, o dünyanın hər nəyini bilir. Heç kəsə ehtiyacı yoxdur və hər işə qadirdir. Hamıya məhəbbətlidir odur ki, zülm etməz.

O intəhasız vücuddur. Onun kamalı hüdudsuzdur. Belə bir vücuddan yalnız xeyr, ədalət, rəhmət gözləyə bilər, pis iş görənlər də cəzalandırılsa, cəza onların əməllərinin nəticəsidir.

## ALLAH VƏ PEYĞƏMBƏRLİK BAĞLILIĞI

Buna diqqət yetirmək lazım görürük ki, xilqət Nizami, özü ilahi peyğəmbərin vücudu və onların risalətinə diri bir şahiddir.

Belə ki, varlığın bu əcibə nizamına nəzər salmaqla görürük ki, Allah varlıqların heç bir ehtiyacların nəzərdən uzaq etməmişdir.

Misal üçün əgər sizə görmək üçün göz vermişdirsə, bu gözə, qaş və kirpik vermişdir ta ondan mühafizat etsin və nurun ondan keçməsini tənzim etsin.

Gözün guşələrilə yaş damarları yaratmışdır. Ta gözün səhifəsi hər zaman yaş saxlanılsın. Çünki göz qurusa aradan gedər.

Yenə də gözün kənarında bir bala dəlik açmışdır ta artıq sular ondan axsın və burun içinə tökülsün, əgər bu baca dar olmasaydı hər zaman yaş damarları üzümüzdən axardı.

Gözün bəbəginə o qədər həssaslıq vermişdi ki, özü işlərkən hər cür güclü və zəif nur önündə dayanar və genişlənər ta nur tənzim olsun və gözə bir zərər dəyməsin.

Göz görəsi ətrafında müxtəlif üzvlər vardır ki, onu hər tərəfə dolandırar və müxtəlif səhnələri görməyi baş və bədəni hərəkət vermədən asan edər.

***Hekayət:*** İmami **Sadiq** (ə) vaxtında onun şagirdi **Huşşam**dan belə bir sual soruşdular: Bu aləm kiçilmədən və yumurtada öz ölçüsündə qala-qala Allah təala aləmi yumurtanın içində yerləşdirə bilərmi? **Hüşşam** cavab verə bilmədi. Çün əgər yerləşdirə bilməz desəydi, Allahı aciz hesab etmiş olardı ki, bu da küfürdür. Amma əgər yerləşdirə bilər desəydi, mümkün olmayan bir işi Allaha nisbət vermiş olardı. Elə buna görə də İmam **Sadiq** (ə)ın xidmətinə yetişib bu şübhənin cavabını ondan soruşdu. İmam da cavabında buyurdu: **"Bizim Allahımız acizliklə vəsf olunmaz, Yəqin deyə bilməzsən ki, Allah bu işi görə bilməz. Amma bilmək lazımdır ki, Onun qüdrəti qeyri-mümkün olan şeylərə aid deyildir. Çünki qeyri-mümkün olan şeylərin vücuda gəlməyə şəraiti yoxdur"**.

Elə buna görə də imam (ə) Allahın qüdrətini ona başa salmaq üçün buyurdu: ətrafına bir nəzər sal, nə görürsən?

*Huşsam dedi:* Yer, göy, dağlar, yaşıllıqlar, ağaclar, insanlar və başqa şeylər...

*İmam (ə) buyurdu:* Allah-təala bu qədər şeyləri kiçik bir göz bəbəyinə necə yerləşdirmişdir?

Bu böyüklükdə olan aləmidə həmin göz bəbəyində qərar vermişdir. Bu özü elə Allahın qüdrətidir.

Çünki təsvirin sahibi nə qədər böyük olsa da onu qəbul edərək, əks etdirən göz bəbəyidir. Yəni göz bəbəyinin bu böyüklükdə təsviri əks etdirməyə qabiliyyəti vardır. Amma

əvvəlki misalda, naqislik yumurtardır ki, bu aləmi özündə yerləşdirməyi qəbul edə bilmir.

Allahın bütün kamal sifətləri onun elm və qüdrətinə qayıdır və bunların hər ikisi mütləq və nöqsansızdır.

Ayə insanın belə ehtiyaclarını təmin edən Allah, onu bir hidayət edici və məsum rəhbərdən məhrum edə bilərmi?

Görkəmli filosof **Əbu Əli Sina** da məşhur **"Şəfa"** kitabında belə yazır:

"İnsanın peyğəmbərlərin peyğəmbərliklərinə ehtiyacı, söz yox ki, kirpiklərin törəməsi və ayaq altının dərinləşməsindən çox lazımdır".

## NECƏ İSMƏT MƏQAMINA GÜVƏNMƏK OLAR?

İsmət məfhumu və məsumluq amillərindən xəbəri olmayanlar irad edirlər. Əgər Allah kimsəni günahdan saxlarsa və onda günah amillərin öldürərsə, ona bir fəxr sayılmaz.

Bu bir icbarı toxunulmazlıqdır və icbari toxunulmazlıq fəzilət deyildir.

Peyğəmbərin günahdan toxunulmazlığı icbari sayılmır. Bəlkə onların güclü imam və kamil yəqinlərindən asılıdır. Bu isə onlar üçün böyük fəxrdir.

Xəstəlik meyillərindən uzaqlaşan təbibin əməli onun məcbur olmasına dəlildirmi?

Sağlamlıq işlərinə riayət edən kəsə onun işi fəzilət sayılırmı?

Bir cinayətin aqibətlərin bilən bir hüquqçu məhkəmədə ondan pəhriz edərsə, fəziləti yoxdurmu?

Beləliklə nəticəyə gəlirik ki, peyğəmbərlərin məsum olmaları həm ixtiyarıdır həm də onlara böyük bir fəxr hesab olunur.

## PEYĞƏMBƏRLƏRİ TANIMAĞIN ƏN YAXŞI YOLU

Hər bir iddia edənin iddiasın qəbul etmək ağıldan və məntiqdən uzaqdır. Allah tərəfindən nubuvvət və risalət müddəası doğru danışan ola bilər, lakin fürsət axtaran fırıldaqçı adam da özünü doğru və peyğəmbər adlandıra bilər. Buna görə də peyğəmbərlərin dəvətin qiymətləndirmək və onların Allah ilə bağlılığın anlamaq üçün qəti bir meyar əldə etməliyik. Bu məqsədə çatmaq üçün, müxtəlif yollar lazımdır. hamısından mühüm olanı aşağıdakı iki yoldur:

**1.** Peyğəmbər dəvətinin əhatəsini təhlil etmək və qərinələr və nişanələr yığmaq.

**2.** Möcüzə və foqəlad işlər. İlk öncə möcüzədən danışaq. Bir çox adamlar **"möcüzə"** sözündən təəccüb edirlər və ya möcüzənin əfsanə-əsatir ilə bir sayırlar.

Halbuki möcüzənin dəqiq və elmi anlamı haqqında düşünsək belə təsəvvür məhz səhv olacaqdır. Möcüzə bir mümkün olmayan əməl və illətsiz bir şeyin nəticəsi degildir. Bəlkə sadə təfsirdir. Möcüzə adətdən yüksək bir əmələ deyilir. O əməli yerinə yetirmək adi fərdlərin öhdəsindən gəlməz. Yalnız insanlardan fərqli güc sahibi onu yeri-

nə yetirə bilər. qeyd etmək lazımdır ki, möcüzənin aşağıdakı şərtləri vardır.

*1. Mümkün və qəbul oluna bilən bir işdir.*

*2. Adi insanlar, hətta böyük insani güclərə malik olanlar görə bilməz.*

*3. Kimsə onun tayın gətirə bilməz. Möcüzənin adından başa düşmək lazımdır ki, hamı onun müqabilində aciz deyillər.*

*4. Möcüzəni gətirən o qədər öz işində xatircam olmalıdır ki, özgələri üz-bəüz durmağa çağrılmalıdır.*

*5. Möcüzə nübüvət və imamət iddiasıyla bir olmalıdır. (buna görə peyğəmbər olmayan və imamdan baş verən adətdən yüksək işlər möcüzə adlanmaz. bəlkə kəramət adlanar)*

Buna bir neçə misal göstərək:

Biz hamımız eşitmişik ki, həzrəti **Məsih**in möcüzələrindən biri ölüləri diriltmək və əlac tapa bilməz xəstələri sağaltmaq idi.

Bir insanın vücudunun cihazları işdən düşdükdən sonra onun yenidən həyata başlaması və ya başlamamasına aid bir elmi və əqli dəlilimiz varmı?

Siratam *(xərçəng)* xəstəliyinin dərman edilməsinə aid bir elmi və əqli dəlilimiz varmı?

Əlbəttə şəksiz insan indiki gücü ilə ölüləri dirildə və xəstələri dərman edə bilməz. Hətta əgər bütün dünya təbibləri əl-ələ verələr və öz təcrübə və əməllərin köməyə çağıralar. Lakin nə ola bilər ki, bir insan ilahi güc ilə və Allah elminin dənizindən *(dəryasından)* aldığı bir ayıqlıq ilə

və bir rəmzli işarə ilə ölünün cəsədinə ruh qaytara və əlac tapmaz bir xəstəni şəfa verə.

Elm deyir ki, mən bacara bilmərəm. Lakin demir ki, mümkün deyildir və ağıl kəsən deyildir.

***Başqa misal:*** kosmik kəşfdən istifadə etmədən ay kürəsinə səfər etmə heç bir insana mümkün deyildir. Lakin nə maniə vardır ki, bizim gücümüzdən yüksək bir güc və bizim minəcəyimiz minikdən daha rəmzi bir minik bəşərin ixtira etdigi miniklərdən daha uca bir minik bir adamın ixtiyarında olsun.

Kosmik kəşfdən istifadə etmədən ay kürəsi və ya başqa kürələrə səfər etsin. Əgər doğrudan bir nəfər belə xariqəlad işləri yerinə yetirə bilsə və onunla birlikdə nübüvət iddiası etsə və insanları müqabiləyə çağırsa, və hanı onun önündə aciz olsa yəqindir ki, o Allah tərəfindən gəlmisidir. Çünki mümkün deyil Allah belə bir qüdrəti bir yalançı insanın ixtiyarına versin ki, bəndələri azdırsınlar *(diqqət edin)*

## QURAN HANSI CƏHƏTDƏN MÖCÜZƏDİR?

Quranın xariqul-adə bir kitab olması təkcə danışıqda gözəl və bəyan üslubunda deyil, həm də möcüzəsinin çoxlu sayda və müxtəlif çeşidlərdə olmasıdır ki, hətta onun ən kiçiyi ilə belə höccət tamam olar və heç bir bəhanə yeri qalmaz. Bütün fəsahət ustaları, ədiblər və Quranı oxuyan şəxslər onun hərf və kəlmə tərkibinin fəsahət və bəlağət

baxımından ən yüksək dərəcədə olduğunu bilirlər.

Onların etiraflarına görə fəsahət və bəlağət elmi o dövrdə özünün çiçəklənmə dövrünə, intibah dövrünə çatmışdı.

Quranın da ərəb dilində nazil olmasına baxmayaraq onun ən kiçik ayəsi qədər də olsa belə bir ayə gətirə bilmədilər. Peyğəmbəri-əkrəmə qarşı bəslədikləri düşmənçilik və şiddətli ədavətə baxmayaraq onunla müharibə aparmağa, əhli-əyallarının əsir olmağına razı oldular, amma Quranla mübarizəyə cürət etmədilər.

Şübhə yoxdur ki, əgər Qurani-Kərim bəşər kəlamı, **Peyğəmbər**in (s.ə.v.v.) qələminin məhsulu olsaydı, söz ustaları öz güclərini sınayar, Quranın qarşısına bir neçə kitab gətirib onun bəşər kəlamı olduğunu isbat edərdilər.

Əgər onlar qurana oxşar bir şey yaza bilsəydilər onu var qüvvələri ilə qorumağa çalışar və onu yaşatmaq üçün əllərindən gələnləri əsirgəməzdilər.

İslam düşmənləri müntəzəm olaraq onu başımıza qaxınc edər və hər yerdə bizi rüsvay etməyə çalışardılar.

Məlumdur ki, **Peyğəmbəri-Əkrəm** (s.ə.v.v.) zahirdə savadsız idi, heç bir müəllimin şagirdi olmamışdı və təhsil üçün maddi imkanı da yox idi. Hələ dünyaya gəlməmiş atası vəfat etmiş, uşaqlıq çağlarında anasız qalmış və babası **Əbdül Müttəlib**in himayəsi altında böyüyüb boya-başa çatmışdı. Bununla yanaşı belə bir şəxsin keçmiş peyğəmbərlərdən, habelə Allahdan başqa bir kəsin bilmədiyi gələcək hadisələrdən xəbər verməsi üçün kifayət qədər məlumat əldə etməsi də mümkün deyildi. Bəli onun elm və bi-

liyi heç də başqalarından əxz edilməmişdi. Necə ki, **Nəcm** surəsi 3-4 ayələrdə Allah buyurur:

**"O (peyğəmbər) həvayi-nəfs üzündən danışmır. Bu ona ilham olan vəhydən başqa bir şey deyildir."**

O Vücud aləminin qəlbidir ki, Allah elm və bilik yolunu ona öyrətmişdir. Bəzi təfsirçilərin dediyi kimi, Quranın həqiqəti və onun nazil olma məhəlli məhz Həzrəti **Məhəmməd**in (s.ə.v.v.) müqəddəs sinəsidir.

Onun pak sinəsi vəhy və qələm vasitəsilə Allah-təala tərəfindən əvvəldən axıra qədər olan bütün elmlərin həkk olunduğu Lövhi-məhfuzdur.

Deməli bütün elm, hikmət və maariflə əhatəli olduğu üçün ona Quran deyilir.

Haqqı batildən ayırdığına görə, **Fürqan** deyilir. Halal-haramı ayırd etdiyinə görə **Tibyan** *(açıq ifadə etmə)* sayılır.

Hər bir alim Quran barəsində azacıq fikirləşsə, başa düşər ki, bəşər elmi inkişaf edib genişləndirdikcə, Quranın incə nöqtələri və sirləri daha artıq aydınlaşır.

Bəli, qiyamətə qədər qüvvədə qalmalı olan və bütün məxluqatın ona əməl etməyə vəzifəli olduqları din və şəriət məhz bu ilahi kitabdır. Bizim qanun kitabımız, Peyğəmbərimizin möcüzəsi olan və bu günə qədər əlimizdə qalan yeganə şey Qurani-Kərimdir. Əlbəttə, belə bir kitab bütün bəşər elmləri və alimlərinin fövqündə dayanan, bütün elmləri özündə ehtiva edəndir. Belə ki, bəşər elmi tərəqqi edib yüksəldikcə bu kitabda ondan daha yüksək mənaları qoparar və heç kəs üçün bəhanə yeri qalmaz.

Qısa şəkildə desək, dünya alimlərinin bütün elmləri,

bütün siyasətlərin mənbəyi, siyasi qanun və göstərişlər, bəşərin yüksəliş və tərəqqisinə səbəb olan hər bir şeyin kökü Quran-məciddən və **Həzrəti Məhəmməd** (s.ə.v.v.)in qanunundan nəşət tapır.

**Kəhf** surəsi 109-cu ayədə Allah buyurur:

**"De** *(əyər Pərvərdigarımın Quran elmləri və ilahi hikmətləri ibrət olan kəlmələrini)* **yazmaq üçün dəryaların suyu mürəkkəb olsa və dəryalar suyu qurtarsa və bir o qədər də ona əlavə edilsə, pərvərdigarımın kəlmələri qurtarmazdan əvvəl dəryaların suyu qurtarar."**

Bu ayə bizim müddəalarımızın düzgünlüyünə ən tutarlı bir şahiddir.

Əziz oxucu! Heç fikirləşmisinizmi ki, əgər yer kürəsini dörd hissəyə bölsək onun üç hissəsi su, bir hissəsi isə qurudur. Əgər bu üç hissəni də iki qat artırıb mürəkkəbə çevirsək və Quranın sirlərini və elmlərini yazsaq, bu dəryaların suyu tükənər, amma Quranın elmləri qurtarmaz. Bu mətləbin əzəmətinə diqqət yetirin və dərindən düşünün!

## NƏ ÜÇÜN İBLİS MÜXALİFƏT ETDİ?

Bildiyimiz kimi, şeytan ümumi isimdir. O, həm ilk əvvəldəki şeytana, həm də sonrakı bütün şeytanlara aid edilir.

İblis isə xüsusi isimdir və **Adəm**i (ə) aldadan şeytana aid edilir. O, Quran ayələrinin aşkar buyurduğu kimi, mələklərin cinsindən deyildi, sadəcə olaraq onların cərgəsinə keçmişdir. O, maddi bir məxluq olan cinnlərdən idi.

**“Kəhf”** surəsinin 50-ci ayəsində buyurulur: **“Mələklərin hamısı Adəmə səcdə etdilər, cinlərdən olan İblisdən başqa”**.

Onun müxalifət etməsinin səbəbi təkəbbür, qürur və xüsusi bir təəssüb hissi idi ki, vücuduna hakim kəsilmişdi. O, belə güman edirdi ki, Adəmdən üstündür və Səcdə əmri ona aid edilməməli idi. Əksinə, İblisin özünə səcdə olunması **Adəm**in özü də ona səcdə etməli idi!

İblisin kafir olmasının əsas səbəbi bu idi ki, o, Pərvərdigarın hikmətli fərmanına əhəmiyyət vermədi və onu səhf göstəriş hesab etdi. Təkcə əməldə üsyankar olmadı, həm də etiqad nəzərindən etiraz etdi. Beləliklə xudbəsəndlik və özünü üstün sayma onun bir ömür ibadətini puça çıxartdı. Varlığını cəhənnəmə atdı. Təkəbbür və qürurun bu sayaq təsirləri çoxdur.

**“Kafirlərdən oldu”** ifadəsi göstərir ki, o, bu fərmandan qabaq öz hesab kitabını mələklərin rəftarından, Allaha itaət etmək yolundan ayırmışdı və onun başında təkəbbürlü xəyallar dolanırdı.

## QURAN İSLAM PEYĞƏMBƏRİNİN ƏBƏDİ MÖCÜZƏSİDİR

İslam peyğəmbərindən baş verən möcüzələr sırasında Quran onun haqq olmasına ən dəyərli və ən yaxşı sübutdur.

Əlbəttə bildiyimiz kimi, böyük İslam alimlərinin nəql etdiyinə əsasən, Peyğəmbərin 4440 möcüzəsi olmuşdur *(mənaqib 1-ci cildsə 144)* Quran da o həzrətin möcüzə-

sidir. Bu, bəşər təfəkkürü və zəkasının fövqündə dayanan bir kitabdır. İndiyə qədər heç bir kəs onun kimi bir kitab gətirə bilməmişdir və bu böyük kitab açılmamış möcüzədir.

Əvvəlki peyğəmbərlər öz möcüzələri ilə bir yerdə və bir zamanda olmalı və onun möcüzə olmasını isbat etmək üçün müxalifləri onunla mübarizəyə çağırmalı idilər.

Həqiqətdə o möcüzələrin danışan dili həmin peyğəmbərlərin özləri idi. Bu məsələ **Peyğəmbəri-Əkrəmi** (s.ə.v.v.) Qurandan başqa sair möcüzələri barəsində də doğrudur.

Amma Quranın özü danışan bir möcüzədir. Onu təqdim etməyə ehtiyac duyulmur. Özü insanları özünə tərəf dəvət edir, müxalifləri mübarizəyə çağırır və onları batil olmaqda məhkum edib mübarizə meydanından qalib və başı uca çıxır. Buna görə **Peyğəmbər Əkrəmin** (s.ə.v.v.) vəfatından əsrlər keçməsinə baxmayaraq onun dini həyatında olduğu kimi öz dəvətini davam etdirir. O həm dindir, həm də möcüzə, həm qanundur, həm də qanun sənədi.

Quran İslam peyğəmbərin ən böyük möcüzəsidir.

Ən böyük deməkdən məqsəd budur ki, **birinci** Quran əqli möcüzədir. İnisalların ruhi və düşüncələri ilə işi vardır.

**İkinci** bu ki, əbədi bir möcüzədir. **Üçüncü** 14-cü əsrdir ki, Quran deyir:

**"Əgər deyirsiniz bu kitab ilahi kitab degildir, onun kimisin gətirin"**. Bu mübarizəyə dəvət quranın bir neçə ayələrində açıqca gəlmişdir.

**"Denən bütün dünya yığılsa ki, Quran kimisini gəti-**

**rə, bacarmaz. Hətta əgər birlikdə çox iş birliyi, və fikir birliyi saxlayalar”** *(İsra surəsi, ayə 88).*

Başqa bir yerdə bu mübarizənin şərtin daha asanlaşdırmış və deyir:

Yoxsa müşriklər:

**“Quranı özündən uydurdu”** - deyirlər. Onlara de ki, **“Əgər doğru deyirsinizsə, onun kimi özünüzdən on surə uydurub gətirin və (bu işdə) Allahdan başqa, kimi bacarırsınızsa onu da köməyə çağırın”** *(Hud surəsi, ayə-14).*

Başqa tərəfdə mübarizə şərtlərin azaldır.

**“Əgər siz bəndənizə *(Məhəmmədə)* nazil etdiyiniz *(Qurana)* şəkkiniz varsa, sizə də *(fəsahətdə və bəlağətdə)* ona bənzər bir surə gətirin və əgər sizin *(bu, bəşər kəlamıdır)* iddianız doğrudursa, Allahdan savayı bütün şahidlərinizi *(bəylərinizi, şair və alimlərinizi)* bu işdə köməyə çağırın”.** *(Bəqərə surəsi ayə 23)*

Sonrakı ayədə sərahətlə deyir:

**Madam ki, belə bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış yanacağı *(günahkar)* insanlardan və kibrit daşlarından ibarət olan oddan *(Cəhənnəmdən)* həzər edin!** *(bəqərə surəsi ayə 24)*

Bu dalbadal dəvətlər, münkirlər ilə üz-üzə durmaq üçün, göstərir ki, peyğəmbər ecaz məsələsində Qurana çox dayanmışdır. Gərçi İslam peyğəmbərindən başqa möcüzələrdə nəql olunmuşdur və tarix kitablarında yazılmışdır.

## FƏSİHLİK VƏ BƏLİĞLİK

Hər sözün iki cinsi vardır: **Ləfz**lər və **Məna** *(söz)*

Əgər ləfzlər və gözəl sözlər, layiq olsalar və qarışıq olmasalar və cümlələr mənanı kamilcə, gözəlcəsinə yetirsə o kəlamə fəsih və bəliğ kəlam deyilir.

Quran, əla həddə bu iki xüsusiyyəti saxlayır.

Belə ki, indiyədək kimsə belə cazibəli ayələr və surələr gətirə bilməmişdir.

Quranı eşidən o dövrün adamları həmin anda xəyala dalaraq ilahi kəlamı olduğunu təsdiqləyib islama müşərrəf olublar.

Quranın zahiri bəzənmiş, gözəl və batini dərindir. Quranın əcayibi saya gəlməz və köhnəlməz.

Quran məktəbinin böyük şagirdi əmirəl muminin **Əli** (ə) da bu haqda deyir:

**“Ürəklərin yazı Qurandır və elm bulaqları ondan qaynayır və insanın qəlbi və ruhu üçün ondan uca sığal yoxdur.”**

## NİYƏ MUQƏTTƏƏ HƏRİFLƏR?

Quran surələrinin bir çoxunun başında **“Əlif**, **Lam**, **Mim”**, **“Taha**, **Lam**, **Ra” “Ya sin”** kimi müqəttəə hərflər vardır. Bu müqəttəə həṙiflərin fəlsəfə və sirlərindən biri, bəzi islami rəvayətlərə görə, budur ki, Allah belə sadə əlifbalar ilə neçə belə əbədi bir möcüzə düzəltmişdir. Belə bir

böyük kəlam, neçə hərf uşağın bacara bildiyi hərflər və ləfzlərdən düzələ bilmişdir. Doğrusu isə, belə mühüm işin tapılması ən böyük ecazdır. İndi bu sualı qarşıya çıxaraq ki, Quran necə bir möcüzədir. Ayə yalnız fəsihlik və bəliğlik baxımından və başqa sözlə ibadətlərin gözəlliyi və yetginliyi üzündən və ya başqa cəhətdən möcüzədir?

Doğrusu budur ki, hər vaxt Qurana müxtəlif guşədən bacxılsa, hər guşə və hər bacadan onun ecazının simalarından biri aşikar olacaq. o cümlədən:

**1.** *Fəsihlik və bəliğlik:*

**Ləfz**lərin və məfhumların əcayib cazibəsi və fövqəladə şirinligi.

**2.** *Hər baxımdan yüksək ucalıq verməsi, xüsusilə xurafilərdən boşalmış əqidələr*

**3.** *Elmi möcüzələr: yəni insanın o zamandakı əli çatmamış məsələlərdən pərdə götürmək.*

**4.** *Gələcək məsələlər haqqında diqqətli, açıqca qabaqcadan xəbər vermək (quranın ğeybi xəbərlər)*

**5.** *Ziddiyyətli, ixtilaflı və dağınıq danışmaq və başqa cəhətlər*

## VƏHY NƏ ÜÇÜN ÜMUMİ HİSS DEYİLDİR?

Peyğəmbərin peyğəmbərliyi təsdiqinin əsası sayılan **Vəhy**-dir.

Lüğətdə **"vəhy"** hər hansı bir gizli idrak mənasındadır. Buna görə alçaqdan danışmağa da **"vəhy"** deyilir ki, sözü

gizlicə və başqalarının eşitməməsi üçün alçaqdan deyərlər.

Qurani-məciddə bu söz çoxlu məqamlarda işləmişdir.

Peyğəmbərlər bir növ sirli xəbərləşmə sisteminə malikdirlər ki, onunla xilqətin qaynağı və onun mələkləri ilə əlaqə yaradırlar. Aydın bir ibrətlə desək, bu bir növ idrak və elmi hissdir ki, onunla hər harada olsalar, heç bir maddi vəsilələrdən istifadə etmədən, qeyb aləmindən xəbər verirlər və qeyb aləminin xəbər və məlumatların alırlar.

Bu halda bu sualla rastlaşırıq ki, görəsən belə bir hiss ola bilərmi? Əgər ola bilərsə, bəs nə üçün başqa insanlarda yoxdur.

Bu hissin varlığının mümkün olması barədə bu kifayət edər ki, elm və fəlsəfə onu rədd etməmişdir. Amma o ki, qaldı **“Nə üçün bütün insanların belə bir hissi yoxdur?!”** - sualına deməliyik ki, bu sual yersizdir. Çünki bir şəxsdə bir növ hissin olması, başqalarında da onun olmasını tələb etmir.

Beş hiss insanın ümumi hisslərindəndir. Amma elə adam vardır ki, bu hisslərdən birinə və ya bir neçəsinə malik deyillər. Görəsən bu kimi şəxslər o beş hissə malik olanları tənqid etməyə və malik olmadıqları hissi rədd etməyə haqları varmı?!

Dünyada bir sıra dahi şəxslər vardır ki, şüur və idrak baxımından adi şəxslərdən daha üstündürlər. Görəsən adi şəxslər onlarda belə bir idrakın və şüurun varlığını inkar etməyə haqlıdırlarmı?

Klassik və müasir psixoloqlar deyirlər ki, insanın vücudunun arxasında bir yer vardır ki, əgər ona sarı bir pəncərə açılsa çoxlu gizli sirrlər insan üçün aydınlaşar.

Bununla deməli müəyyən bir hissin bir şəxsdə və ya bir neçə məxsus şəxsdə olduğu halda, başqalarında da həmin hissin olmağını zənn etmək yersizdir. Heyvanlarda da belə bu fərqlilik gözə dəyir.

Gecə quşu bir növ məxsusi hissə malikdir. Gözü olmasa da, maniyəyə toxunmazdan əvvəl tam diqqət və məharətlə onun varlığını hiss edir və yolunu dəyişir. Gecə quşunun bu hissi elə dəqiq və qüvvəlidir ki, ən dolaşıqlı yollardan keçir, amma heç vaxt bir maniyəyə toxunmur.

Heyvayənların çoxu yağış və qar yağmazdan əvvəl - hava ayaz olsa da belə - yağıntı olacağını hiss edirlər və yağış tutmayan bir yerə gedirlər.

Canlılardan çoxu zəlzələnin olacağını əvvəlcədən bilirlər və zəlzələdən qabaq qorxunc nərələr çəkirlər və bəzən qapıları sındırıb yuvalarından eşiyə çıxırlar. Bəzi canlılar yay fəslində qışın soyuduğu şiddətindən xəbərdar olurlar və qışda özlərini qorumaq üçün fəaliyyətlərini sürətləndirirlər.

Sarbon Universitetinin professoru **Milin İdvard “eksiklun”** adlı bir həşarat barədə yazır:

Bu həşarat yalnız yaşayır. Yumurtalayandan sonra dərhal ölür. Yumurtalama vaxtı gələndə bir ağacı dəlir, sonra o dəliyin yan-yörəsini güllər və şirin yarpaqlarla bəzəyir və bir yumurta yumurtalayır. Sonra xəmir kimi bir maddə hazırlayıb o yumurtanın üzərinə çəkir və onu yarpaqla basdırır. Yenə onun üstünə yumurtalayır. Bu işi eləcə də yumurtası qurtarana kimi davam etdirir və dərhal aradan gedir.

Balalar toxumdan çıxanda qanadsız bir qurd kimi özlə-

rini qorumağa imkanları olmur və bir ilə kimi özlərinə qida hazırlaya bilirlər. Bu vəziyyət tələb edir ki, bu həşəratın balaları bir il müddətində sakit və möhkəm bir yerdə yaşamışlar.

Bu əsas bunu göstərir ki, o ana həşərat balalarının çoxlu yaşayış məsələlərini bilir və dərk edirmiş. Bir halda ki, bu hiss bütün heyvanlarda və canlılarda yoxdur.

Bu misallardan məqsəd budur ki, heç vaxt belə güman etməyək ki, bütün insanlar və heyvanlar ehsas və idrak baxımından eyni və yeknəsəkdirlər və əgər birisi bir müəyyən hissə və ya şüura malik olsa, başqalarında həmin şüura malik olsunlar.

## DİN VƏ ELM

Din-allahımızdan elm isə allahımızın yaratdıqlarından bəhs edir. Başqa sözlə desək Din Allahımızın sifətlərindən, əmr və hökümlərindən; Elm isə, onun yaratdığı varlıqlardan və bunlara aid qanun və qaydalardan bəhs edir.

Yerləri-göyləri, gördüyümüz görmədiyimiz bütün aləmləri, yoxdan var edən və bunları tam bir ahəng və qayda-qanunla idarə edən Allahımızın sifətləri, əmrləri və hökümləri ilə;

Yəni özü tərəfindən yaradılan varlıqların tabe olduqları qanun və qaydaları qeydə alan elmi gerçəkliklər necə olur ki, zəif ola bilər, biri-biri ilə çarpışar?

İşin əsli budur ki, Din və elm insan vücudundakı ruh və cism kimi, biri-birini tamamlayır, xalqın rifah və səadətini, hüzur və əmniyyətini təmin edir.

Din olmadan elmin, elm olmadan dinin qiymət və əhəmiyyəti anlaşılmaz Allah yanında tək din olan islam dini, insanları elmə və mədəniyyətə yönəldən bir dindir. Onun üçündür ki, tarixin heç bir dövründə tərəqqiyə mane olmadığı kimi, xüsusən elm öyrənməyənləri, haqqa dönməyənləri daima tənbeh etmiş və elm öyrənməyi tövsiyə etmişdir.

Qurani Kərimdə: **"Heç bilənlərlə bilməyənlər bir olurmu?"** - ayəsində elmə verilən üstünlük öz əhəmiyyətini qoruyub saxlayır.

Necə ki, **Məhəmməd** (s.ə.v.v.) peyğəmbər elm haqqında buyurub:

Elm rütbəsindən daha yüksək rütbə yoxdur.

Beşikdən məzara qədər elm öyrənin.

Elm müsəlmanın qeyb olunmuş malıdır, harda görürsə alır.

Heç ölməyəcəkmiş kimi dünyaya, sabah öləcəkmiş kimi axirətə çalışın.

İçinizdən xeyirliniz, dünyasını axirətə, axirətini dünyasına fəda edənlər deyil, hər ikisi üçün çalışanlardırlar.

Bu kimi hədisləri ilə elmə, hikmətə təşviq edərkən, islam dini, necə olur ki, tərəqqiyə mane ola bilər?

Bizim dinimizdə bahası biçilə bilməyən üç damla vardır:

**Birincisi:** halal yolla ruzini təmin üçün tökülən alın təri damlası, **ikincisi**, Şəhidin qanının damlası, **üçüncüsü** də işlənilən günahların əfvi üçün tökülən göz yaşı damlası...

## ELM VƏ ŞƏRQ ALİMLƏRİ. ASTRONOMİYANIN İNKİŞAF ETDİRİLMƏSİ

Qədim Çinin, Hindistanın və Misirin görkəmli alimləri ilk astronomik müşahidələri müəyyən dərəcədə nizama salmışlar.

Qədim Yunanıstanın alimləri isə Çin, Hindistan, Misir və bir çox başqa xalqların bilikləri əsasında astronomiyaya aid bir sıra kitablar tərtib etmişlər.

Yunan alimlərindən **Aristotel** kainatın quruluşu haqqında öz dövrünə görə yeni bir sistem yaratmışdır.

Bir planetin arxasında duran başqa bir planetin görünməsini izah etmək üçün Aristotel belə qeyd edirdi ki, planetlərin sferaları şəffaf billurdan yaranmışdır və ona görə də biz planetlərin hamısını müşahidə edə bilərik.

**Aristotel**in zamanında və hələ ondan çox sonralar da göydə yeddi planet olduğu güman edilirdi. Həmin planetlər - **Merkuri, Venera, Mars, Yupiter, Ay, Günəş** və **Saturn**dan ibarət idi.

O zaman yeri planet hesab etmirdilər. İlk dəfə olaraq **Kopernik** *(1473-1543)* yeri planet hesab etmiş, Ay və Günəşi planetlər sırasından çıxarmışdı.

Qədim yunan astronomları içərisində iki şəxsiyyət **Hipparx** və **Ptolomey** çox fərqlənirlər.

**Hipparx** bizim eradan əvvəl II əsrdə yaşamışdır. **Hipparx** haqqında çox az məlumat vardır.

Hipparxın astronomiya sahəsində xidmətləri Çin astronomlarından sonra ilk astronomik kataloq yaratmaq olmuşdur.

Qədim Yunanıstanın ikinci astronomu qədim dünyanın ən böyük astronomu **Klavdi Ptolomey**dir.

**Klavdi Ptolomey** İsgəndəriyyə şəhərində, bizim eranın II əsrində yaşamışdır.

Onun əsas elmi işi **"Almagen"** və ya **"Məcəsti"** adlanan astronomik əsərdir.

Ptolomey eyni zamanda **"Coğrafiya"** adlı əsərində müəllifdir. Bundan başqa Ptolomey **"Optika"**ya aid bir əsər də yazmışdır.

Ptolomeyin yazmış olduğu **"Almagets"** əsəri 1400 ilə yaxın bir müddətdə astronomiya tarixində **"hakimi mütləq"** hesab olunmuşdur.

**"Almagest"** əsəri ilə **Evklid**in **"Əsaslar"** kitabını dərindən bilən bir adam orta əsrlərdə astronomiya və riyaziyyat üzrə böyük mütəxəssis hesab edilirdi.

**Ptolomey** astronomiyanın tarixində **"geometrik sistem"** adlanan dünya görüşünün müəllifi kimi məşhurdur.

Planetlərin hərəkətlərini **Ptolomey** bu cür izah edirdi. Bütün planetlər Yerin ətrafında dolanır. Bunun üçün hər bir planetin ən azı iki hərəkət dairəsi vardır.

Ptolomeyin sistemini əsaslı surətdə dəyişdirərək, onu uzun müddət mühafizə edənlər Şərq alimləri olmuşlar. Onlardan **Əlbəttani**ni, **Əbül Vəfanı**, **Əl Sufi**ni və s. göstərmək olar.

İslam aləminin elm xadimləri IX əsrin əvvəlində astronomik rəsədxanalar yaratmağa başlayırlar.

IX əsrin əvvəllərində **Bağdada**, **Dəməşq**də, **Qahirə**də və s. şəhərlərdə yeni elm ocaqları yaranmağa başladı. Bu

dövrün səciyyəvi cəhətlərindən biri budur ki, qeyri ərəb alimləri çox idi. Bu alimlər **Orta Asiya**dan, **İran**dan, **Qafqaz**dan **Ərəbistan**a gəlmişdilər.

829-cu ildə xəlifə Məmunun əmri ilə Bağdada mükəmməl bir rəsədxana tikildi.

Bu dövrün məşhur astronomları içərisində Xorezemli Məhəmmədi, Fərqanəli Məhəmməd Kəsir əl-Fərqanini, Əhməd ben Abdulla Əlmərvəzini göstərmək olar. 827-ci ildə Bağdad yaxınlığında aparılan dərəcə ölçməsinin hesablama işlərinə rəhbərliyi Məhəmməd Xorezmi etmişdi. Bu dərəcə ölçməsinin Yer kürəsinin böyüklüyünün təyin olunmasında əhəmiyyəti çox böyük idi. Çünki ilk dərəcə ölçməsi işi bizim eradan 250 il əvvəl Misirdə Eratosfen tərəfindən aparılmışdır.

Bundan başqa Eratosefenin dövründən IX əsrə qədər 1100 il keçmişdi. Əlbəttə bu qədər vaxt ərzində astronomik müşahidə texnikası və dəqiqliyi xeyli mükəmməlləşmişdi. Bu dərəcə ölçməsi nəticəsində hər meridian dərəcəsini təxminən 56 ərəb mili olması aşkar edilmişdi.

## MÜSƏLMAN RİYAZİYYATÇILAR

Müasir cəbr elminin mənşəyi çox adama məlumdur.

Cəbr üzrə ilk kitab yazan, başqa sözlə, cəbr elminin əsasını qoyan alim Əbu Abdulla Məhəmməd ibn Musa əl-**Xarezmi** əl-Məcusi olmuşdur.

Bu şəxs Avropada uzun müddət **“Alqarizmüs”**, **“Alxo-**

**rezemos", "Alkarezmus", "Alqoritmus", "Alqoritm"** kimi məşhur olmuşdur.

Onu Şərqdə sadəcə olaraq **Əlxarezmi** deyə tanıyırlar.

Əlxarezminin tərcümeyi halına qısa nəzər edək.

Xorezmi 780-ci ilə yaxın bir müddətdə Xorezm əyalətində bəzi məlumatlara görə Xivədə anadan olmuşdur.

Xorezmi ilk təhsilini öz doğma vətənində alır, o çox zəngin bir tələbə imiş.

Öz ana dilindən başqa ərəb, fars, sanskrit dillərini mükəmməl öyrənir.

Xorezmi 20 yaşına çatanda Bağdada gedir. O burada Yunan dilini öyrənərək, **Ekvlid, Arximed, Ptolomey** və başqa yunan alimlərinin riyazi və astronomik əsərlərini dərindən öyrənir.

Bağdadın **"Alimlər evi"** rəhbərliyi vəzifəsinə qədər yüksəlir. Başqa sözlə **"Beytül Hükəma"** o zamanlar Bağdad elmlər akademiyası vəzifəsini görürdü.

35 yaşlı Xorezmi Bağdadda ən yüksək nüfuzlu alim idi.

Xarezmi Əhməd ibn Mərvəri, Məhəmməd ibn Kəsir **Əl Fərqani, Abbas ibn Səid əl Cövhəri** və başqalarının məşhur alim olmalarında da az rol oynamamışdır.

Xorezminin **"Torpaqların təsviri kitabı"** adlı əsəri coğrafiya elmi tarixində qiymətli əsərlərdən ən mühümü sayılır. Həmin əsərin XI əsrdə köçürülmüş surəti 1878-ci ildə tapılmış və 1926-cı ildə çex alimi tərəfindən nəşr edilmişdir.

Bu kitabda bir çox ölkələr və dənizlər haqqında məlumat vardır.

Xorezemi böyük Səyyah idi. Xoreziminin yazmış olduğu **“hindlilərin üsulu ilə toplama və çıxma”** əsəri 1150-cı ildə latın dilinə tərcümə edilmiş İngiltərədə Kembric Universitetinin Kitabxanasında həmin əsərin XIV əsrdə köçürülmüş surəti vardır. Həmin əsər 1957-ci ildə Romada italyan dilində nəşr edilmişdir.

Hazırda məlum olan dörd hesab əməliyyatı əvəzinə o dövrdə altı əməliyyat məlum idi.

*1. Toplama, 2. Çıxma, 3. Vurma, 4. Bölmə, 5. İkiləmə, 6. Yayılana.*

Bu təsnif 15-ci əsrə qədər davam etmişdi.

Vurma əməliyyatının müasir yolu əhəmiyyətli dərəcədə əvvəllər **Nəsrəddin Tusi** tərəfindən işlənmiş və sonralar isə **Qiyasəddin Konş** *(1385-1436)*, italyan alimləri **Prozdroçimo Beldomandi** *(1380-1428)* və **Luka Poçiolli** *(1445-1514)* və alman **Adan Rize** *(1492-1559)* tərəfindən inkişaf etdirilmişdir.

830-cu ildə Xorezmi **“Əlcəbr və əlmüqabələ”** əsərini yazır.

Əl cəbr sözündəki əl əlavəsi ərəb dilində konkretlik göstərirsə **“Cəbr”** sözünün isə qədim assuriya dilindən alınması fərz edilir.

Həmin dildə **“Cəbr”**, **“bərabərlik”** deməkdir.

Cəbrin bir elm kimi meydana çıxmasında Məhəmməd Xorezminin böyük rolu olmuşdur.

## Əhməd ben Abdulla Əlmərvəzi

*astronomiya tarixində "Həbəşül hasib" adı ilə məşhurdur. Onun gördüyü əhəmiyyətli işlərdən biri tərtib etmiş olduğu sinuslar cədvəlidir. O bunu Ptolemeyin vətərlər cədvəli əsasında tərtib etmişdi.*

Həbəşül Hasib hind astronomlarının əsas nailiyyətlərini **"Sindihind"** yolu ilə tərtib edilmiş **"Zic"** adlı kitabında qeyd etmişdir. Hindlilərin ilk sinuslar cədvəlində sinusların qiyməti hər $3^0$45-dən bir verildiyi halda Hasib sinuslarının qiymətini hər $15^0$-dən bir vermişdir.

## Sabit ben Qurrə

*(821-901)*

*(IX əsrin ən böyük riyaziyyatçısı və astronomu* **)**

O, gəncliyində sərraflıq edərmiş, sonralar isə Bağdada gəlib tez bir zamanda bacarıqlı bir alim kimi məşhurlaşır.

Sabit ərəb dilindən başqa, suriya və yunan dillərini mükəmməl bildiyi üçün **Evkilid**in **"Əsaslar"** Ptolomeyin **"Almaketo"** əsərlərini ərəb dilinə tərcümə edir.

Sabit 150 dən çox orijinal və tərcümə əsərləri yazmışdır.

## Əbu Əbbas Təbrizi

*(Sabitin müasirlərindən biri çox məşhur astronom və riyaziyyatçı).*

O, paralel xətlər nəzəriyyəsilə və mürəkkəb nisbətlərlə məşğul olmuşdur. Onun həndəsə kitabı sonradan ərəbcədən latın dilinə tərcümə olunmuşdur.

## Bəttani və ya Əlbəttani

*(Suriyada yaşamış ərəb alimi çox şöhrət tapmış alim)*

Onun anadan olması təxminən IX əsrin ikinci yarısına təsadüf edir. O, 929-cu ildə vəfat etmişdir.

**Bəttan**i Rəkka şəhərində öz xərcinə bir rəsədxana təsis etmiş və orada 878-ci ildən 918-ci ilə qədər astronomik müşahidə işi ilə məşğul olmuşdur.

**Bəttan** pressesiya, eklip-tikanın mailliyi kimi çox mühüm astronomik kəmiyyətlərin qiymətini təyin etmiş və onlar öz müasirlərinin aldıqlarına nisbətən daha yaxşı qiymət almışdır.

Onun astronomiyaya aid olan kitabını alman alimi İyohan Muller XV əsrdə latın dilinə tərcümə etmişdir. Bəzən Bəttanini **"Ərəb Ptolomeyi"** də adlandırırdılar.

## Buzcanlı Əbül Vəfa

*(939-998)*

Bağdadda yaşamış riyazi elmlərin inkişafında olduqca böyük rol oynamışdır. O birinci dəfə olaraq **Tg**, **Gtg** triqonometrik funksiyalarını elmə daxil etmişdir.

**Əbül Vəfa** astronomların həm nəzəri, həm də təcrübi məsələləri ilə məşğul olmuşdur. O hesab, cəbr, həndəsə, astronomiyaya aid bir çox dəyərli əsərlər yazmışdır. **Əbül-Vəfa** Ayın nəzəriyyəsi ilə mükəmməl surətdə məşğul olmuş və o, Ayın hərəkətində **"Variotsiya"** adlı bərabərsizliyi aşkara çıxarmışdır.

**Əbul Vəfa**nın tam mənsubiyyəti belədir: Məhəmməd ibn Məhəmməd ibn Yəhya ibn İsmail ibn Əl-Abbas Əl-Büzcani.

Büzcani sözü Buzğan sözünün ərəbcə yazılışıdır. Büzcan Herat şəhəri ilə Nişapur şəhərləri arasında yerləşmiş bir şəhərin adıdır.

Bu alimin əmisi və dayısı da riyaziyyatçı olmuşdur.

960-cı ildə 20 yaşında Əbül Vəfa Bağdada gəlir. O Bağdaddakı rəsədxanada elmi tədqiqat işləri ilə məşğul olur. Əbül Vəfa 998-ci ildə Bağdadda vəfat edir.

Onun arifimetka, cəbr, həndəsə, astronomiya sahəsində bir çox optimal və əhəmiyyətli əsərləri olmuşdur.

Əbül Vəfanın olduqca böyük fəaliyyəti triqonometriya sahəsində olmuşdur. Onun bu fəaliyyətini xüsusi olaraq Nəsirəddin Tusi qeyd etmişdir.

Nəsrəddin Tusi göstərir ki, tangeslər teoremini ilk dəfə verən və sübut edən Əbül Vəfa olmuşdur.

X əsrdə şərqdə üç böyük elm mərkəzi mövcud idi.

*1) Misirdə* - *Qahirə rəsədxanası*

*2) İranda* - *Rey rəsədxanası*

*3) Orta Asiyada* - *Məmun Akademiyası*

X əsrdəki Qahirə rəsədxanasının banisi və elmi rəhbəri İbn Yunis *(1009-cu ildə vəfat etmişdir)* olmuşdur. Onun ümumi rəhbərliyi altında həmin rəsədxanada **"Zic-Əl-Kəbir"** astronomiya kataloqu haqqında **"Zic Elxani"** də Nəsirəddin tərifli sözlər söyləmişdir.

## Əbdürrəhman ben Ömər Əbdül Hüseyn Əl Sufi

*(903-986)*

Rey şəhərindəki rəsədxananı təsis etmişdir. Həmin rəsədxanada aparılan müşahidə işləri səmərəli olmuş və onların əsasında ulduzlar kataloqu tərtib edilmişdir.

Bu kataloq 1874-cü ildə Peterburqda Şellerun tərəfindən sabit ulduzlar siyahısı başlığı altında nəşr edilmişdir.

Əl Sufi bir çox elmi əsərlərin müəllifidir

X əsrin ikinci yarısında Urgec, Kyat kimi şəhərlər təşəkkül tapır.

Həmin şəhərlər o dövrdə bütün orta Asiyada öz zəngin kitabxanaları olan mədəniyyət mərkəzləri ilə məşhurdur.

Məmun Akademiyasının divarları arasında Biruni, Əbu Əli Sina, Əbu Nəsr İraq, Haraci və Həmdakı (Biruninin müəllimləri) Köcəndi, Əbu Səhl Məsihi, Əbul Həsən həmmar kimi alimlər çalışırlar.

## ƏBU REYHAN MƏHƏMMƏD BEN ƏHMƏD BİRUNİ

973-cü ilin oktyabr ayının 4-də Kyat şəhərinin yaxınlığında *(Özbəkistanın Xorəzm vilayəti)* anadan olmuşdur.

Birunu Əbu Nəsir Mənsur İraqinin yanında oxumuşdur. 82 yaşında olanda onun doğma şəhəri Məmün tərəfindən istila olub qarət edilir.

Biruni Kyat şəhərini tərk edib Qürqola *(Curcona)* gedir. Elə bu dövrdə özünün çox məşhur olan **"Əl əsraf"**, **"Əl**

**baqiyə"**, **"Qədim xalqların xronolojisi"** adlı əsərin yazır.

Xorezmşah II Məmun Biruni təsis etdiyi Akagemyaya dəvət edir. Biruni yeddi il orada işləyir.

Məmun Akademiyası 1017-ci ilə qədər yəni Mahmud Qəznəvinin Xorezmi zəbt edilməsinə qədər fəaliyyət göstərmişdi. Birunu həbs edilir. Sonralar Mahmud Qəznəvinin sarayında ən sevimli bir alim olur.

Bir dəfə türklərin ölkəsinin elçisi Sultan Mahmud Qəznəvinin yanına gəlib, şimal qütbünə yaxın bir uzaq ölkədə gördüklərini söylədi ki, orada günəş həmişə üfüq üzərində durur və heç gecə yoxdur. Sultan buna inanmadı, çünki bu o dövrün etiqadının əksinə gedirdi. Bu barədə Əbu Reyhanın fikrini soruşdu Birunu bu hadisəni o qədər aydın və inandırıcı tərzdə izah etdi ki, Sultan ona inandı və elçiyə çoxlu hədiyyələr verdi.

Biruni Hindistana səfəri əsasında 1030-cu ildə yazmış olduğu **"Hindistan"** kitabı olduqca qiymətli bir əsərdir. Həmin kitab XIX və XX illərdə də öz əhəmiyyətini itirməmişdir.

Biruni 1048-ci ilin dekabr ayının 13-də Qəznə şəhərində vəfat etmişdir. Biruni heliosentrik sistemin qəti tərəfdarlarından biri olmuşdur.

Biruni triqonometriya elmi sahəsindəki xidməti Nəsrəddin Tusi tərəfindən qiymətləndirilir.

Biruni astronomiya müşahidələri ilə çox məşğul olmuşdur. 955-ci ildə özü diametri 7,5 metr olan divar kvadratını hazırlamış və qurmuşdur. Həmin cihaz vasitəsilə təyin edilən kəmiyyətlərdən biri ekliptikanın mailliyinin qiymətidir.

Ekliptikanın mailliyinin qiymətini təsdiq etməklə Biruni iki dəfə məşğul olmuşdur.

*1-ci dəfə 995-996-cı ildə*

*2-dəfə 1062-ci ildə*

Bu müşahidələrin nəticəsində ekliptikanın mailliyi üçün $23^0\ 35'\ 45''$ və $23^0\ 35'\ 50''$ qiymətlərini almalıdır.

## ƏBU ƏLİ SİNA

Məmun Akademiyasında çalışan alimlərdən biri də Əbu Əli Sinadır. Əbu Əli Sina 980-ci ildə Buxara şəhərinin yaxınlığında anadan olmuşdur. Balaca Əli uşaqlıqdan belə böyük və nadir qabiliyyət sahibi olduğunu göstərmişdir.

Atası öləndə onun 22 yaşı var idi. Əbu Əli Sina ömrü boyu şərqi Rey, Qurqan, Həmədan, Urgenc kimi şəhərlərində olmuşdur.

Məmun Akademiyası təşkil ediləndə Əbu Əli Sina oraya dəvət olunmuşdur.

Mahmud Qəznəvinin hərbi yürüşündən sonra o Həmədan şəhərinə qaçmağa müvəffəq olmuş, Mahmud Qəznəvini Hindistana səfərə dəvətindən imtina etmişdi.

Əbu Əli Sina 1037-ci ildə Həmədan şəhərində vəfat etmişdir.

Əbu Əli Sinanın astronomiya və riyaziyyat sahəsinə yazmış olduğu əsərlərin ümdəsi bunlardır.

*1. Ekvatorun xüsusiyyətləri haqqında*

*2. Biruninin on sula cavab*

*3. Biruninin on altı suala cavab*

*4. Yerin və göyün surətləri haqqında*

*5. Göy cisimləri və onların hərəkəti haqqında*

*6. İsfahanda müşahidə üçün hazırlanmış astronomiya cihazları haqqında*

*7. Göy, ulduzlar və meteorlar haqqında*

İbni Sinaya dünya şöhrəti qazandıran "tibb qanunu" əsəri olmuşdur.

Həmin əsərdə ibn Sina qədim Yunanıstan, Misir, Hindistan, Orta Asiya və başqa ölkələrin tibb sahəsində əldə etdikləri nailiyyətləri yekunlaşdırır. Sovet Akademiki E.N.Pavlovskinin fikrincə **"Tibb qanunu"** əsərində profilaktik təbabətin əsası qoyulmuşdur.

## Orta Asiya alimi Hamid ben əl Xəzərə Əbu Mahmud Əl Xocəndi

Biruninin müəllimi olan bu alim astronomiya tarixində bir konstruktor kimi məşhurdur. O, bir neçə elmi risalənin müəllifidir. Bunların içərisində ən əhəmiyyətlisi usturulob tətbiqi haqqında risalədir. 944-cü ildən Xocəndi rey rəsədxanasında çalışır.

Məmun Akademiyasında Əbu Əli Sinanın müəllimi Əbu Səhl İsa ben Məsihi Qurqani də çalışmışdır.

O astronomiya və təbabətə aid bir neçə elmi əsər yazmışdır. Mahmud Qəznəvinin qoşunlarının onu izləməsi zamanı səhrada gizlənərkən məhv olmuşdur.

## ÖMƏR XƏYYAM

1048-ci ildə **Nişapur** şəhərində anadan olmuşdur.

O, orta Asiya və İranda çox səyahət etmişdir. 1074-ci ildə Xəyyam öz dostu **Nizamül-Mülk** tərəfindən Cəlaləddin Məlik Şah Səlcuqinin sarayına dəvət edilmişdi. Məlik şah İsfan şəhərini özünə paytaxt seçdikdən sonra orada rəsədxana təsis etmişdi. Həmin rəsədxananın baş astronomu Ömər Xəyyam, astronomları isə Əbu Müzəffər Sfaranı və Məmun ben əl Nəcəb əl Vəsiti təyin edilmişdi.

Bu rəsədxananın qarşısında astronomiya təqviminin islahatı məsələsi əsas məsələ kimi qoyulmuşdu.

**"Əlcəbr və Əlmüqabələ məsələlərinin isbatı"** haqqında əsərində Xəyyam əsasən kub tənliklərin həlli məsələsi ilə məşğul olur.

Xəyyamın **"Evklidin kitabının çətin postulatlarına şərh"** əsəri orta əsrlər riyaziyyatının paralel xətlər və nisbətlər nəzəriyyəsi kimi iki mühüm məsələsinə həsr etmişdir.

## NƏSRƏDDİN TUSİ

Bütün Şərq aləmində Nəsrəddin Tusi dahi alim Əbu Əli ibn Sina, Əbu Reyhan və Ömər Xəyyam qədər məlum və məşhurdur.

Məhəmməd Nəsrəddin Tusi 1201-ci ildə fevral ayının 17-də anadan olmuşdur. Onun anadan olduğu yer haqqında müxtəlif bir-birinə zidd məlumat vardır. Bunlardan ən mö-

təbər olanı yalnız Rəşidəddin Fəzlullahın şəhadəti sayılır.

Rəşiddin Fəzlullah Nəsirəddinin müavini olmuş və onu şəxsən tanımışdır.

O göstərir ki, Nəsrəddin mənşəyi müasir İranın Həmədan şəhərindəndir. Nəsrəddin kəlməsi ləqəbidir. Onun adı Muhəmməd, atasının da adı Məhəmməddir.

Babasının adı isə Həsən idi. Buna görə də onu Məhəmməd ibn Məhəmməd ibn Həsən çağırırlar.

Bu alimin qəbri üzərində millətin və dinin köməkçisi **“Nəsirü millətü vəldin”** sözləri vardır. Alimin ölümündən bir müddət sonra onu **“Nəsirəddin-dinin köməkçisi”** adlandırmağa başlamışlar. Öz sağlığında o özünü sadəcə olaraq **“Nəsir”** adlandırmış. Buna görə də ona xalq arasında Nəsir Tusi deyirlər.

**“Tusi”** sözü haqqında alimlərin fikri belədir ki, Nəsrəddin gəncliyini Tusda keçirmiş və orada təhsil almışdır.

O dövrdə Tus şəhəri Xorasanın böyük mədəni şəhərlərindən biri sayılırdı.

Nəsrəddinin müəllimlərindən biri Nəsirəddinin Damadi, onun müəllimi Sədrəddin Sərəksi, onun da müəllimi Gilani bu sonuncunun müəllimi Əbu Abbas Lökəri, bunun isə müəllimi Əbu əli Sinanın tələbəsi olan məşhur Azərbaycan filosofu və mütəfəkkiri Bəhmənyar olmuşdur.

Nəsrəddin ensiklopedik biliyə malik olan bir şəxs idi.

1235-ci ildə özünün **“Əxlaqi-Nasiri”** əsərini yazmaqla bütün Şərqdə böyük şöhrət tapmışdır. Ələmut qalasında Nəsirəddin sürgündə idi və qalanı öz arzusu ilə tərk etməyə ixtiyarı yox idi. Bu dövr Nəsrəddinin həyatının ən ağır

dövrü idi. 1242-ci ildə o özünün **"Şərhül-işarət"** adlı əsərini yazır. Həşşanilər qalasında Nəsrəddin 1256-cı ilə qədər, başqa sözlə iyirmi ildən çox yaşamışdır.

1256-cı ildə noyabr ayında Ələmut qalası alındıqdan sonra Hülaku xan Nəsrəddin Tusini özünə şəxsi məsləhətçi təyin edir. Nəsrəddin 1259-cu ildə Marağa rəsədxanasının tikilməsinə başçılıq etmişdir.

Nəsrəddinin üç oğlu bir qızı olub. Nəsrəddin Tusi həm astronom, həm riyaziyyatçı, həm də filosof idi.

Nəsrəddin Tusi 1274-cü ildə vəfat etmişdir.

Bağdada İmami Museyi Kazım (ə) ın barigahında Şeyx Müfiq ilə yanaşı dəfn olunub.

Məşhur tarixçi Rəşidəddin yazır ki, gəncliyində Bağdada təhsil almağa gedən Nəsirəddini geri qaytarırlar.

Səbəbini soruşanda, gülə-gülə deyirlər ki, sənin "buynuzun" var. Sonra Hülakü Bağdadı fəth edəndə alim yanında bir neçə sərkərdə ilə həmin yerə gəlir. Onu hörmətlə qarşılayıb soruşurlar ki, bəs yanındakı kimdir? Nəsrəddin cavab verir: - "Mənim buynuzlarım".

Daha bir rəvayət maraqlıdır. Alim astronomya ilə məşğul olmaq üçün rəsədxana tikdirmək fikrinə düşəndə Hülakü soruşdu ki, astronomiya elminin faydası nədir? Alim xahiş edir ki, bir nəfər heç kimə xəbər vermədən hündür bir yerə çıxıb böyük bir mis teşti yerə tullasın. Hökmdarın əmriylə belə də edirlər.

Səs-küydən adamlar dəhşətə gəlir - hökmdarla alim məsələdən xəbərdar olduqlarına görə qətiyyən hallarını pozmurlar. Alim hökmdara deyir: astronomiyanın faydası

da belədir. Səni olacaq bir çox hadisələrdən xəbərdar edir.

Elm, səbəb, əməl isə nəticədir.

## Əbülhəsən Mərzban oğlu Bəhmənyar

XI əsrdə yetişmiş və o dövrdə Azərbaycanın ən böyük filosoflarındaq biri olmuşdur.

Anadan olma tarixi məlum deyildirsə də onun 1066-cı ildə vəfat etdiyi məlumdur.

Bəhmənyar sənətkar filosof olmuşdur və buna görə də onun bütün elmi əsərləri fəlsəfi məsələlərə həsr edilmişdir. Onun **"Məratib əl-mövcudat"** *(varlığın mərtəbələri)* **"Məbad ət-təbiət"** *(metofizika)* **"Ət-Təhsil" "Təhsil"** və başqa əsərləri yalnız fəlsəfi məzmuna malik idi.

Azərbaycan filosofunun öz müəllimi ilə ilk görüşü haqqında nəql edirlər ki, bir dəfə İbn Sina dəmirçixanada olarkən Bəhmənyar oraya gəlib od istəyir. Dəmirçi deyir: Qab gətir. O, dərhal yerdən bir ovuc toz götürüb deyir: "Odu bu qaba qoy". Bəhmənyarın dərrakəsini görən İbn Sina onu özünə şagird götürür.

Bəhmənyar parlaq istedadı və çalışqanlığı ilə İbn Sinanın dərin rəğbətini qazana bilmişdi. Müəllim sonralar öz şagirdi haqqında yazırdı: **"O, mənə oğuldan da artıq istəklidir. Mən ona təlim-tərbiyə vermiş və bu səviyyəyə gətirib çıxarmışam"**.

Əbülhəsən Bəhmənyarın fəlsəfəsində varlıq təlimi, idrak nəzəriyyəsi və məntiq məsələləri sistem halında geniş işıqlandırılmışdır.

Bəhmənyar fəlsəfəsində əqli idrak məsələləri də geniş işıqlandırılmışdır.

Onun fikrincə, hissi idrak vasitəsilə şeylərin xarici cəhətlərini qavramaq olar. Onların mahiyyətini dərk etmək isə yalnız əqlin sayəsində mümkündür.

Sonrakı əsrlərə gəlib çıxan alimlər nəslinin yetişməsində Ə.Bəhmənyarın xidməti böyükdür.

## İNSANLARIN NÖVLƏRİ

İnsanlar üç dəstədirlər:

**Birinci dəstə:** – Allah və əhli-beyt (ə.s) -ın düşmənləri. Bunlar: Kafirlər, müşriklər, fasidlər və yolunu azmışlardırlar. Bunlar bir əqidədədirlər ki, onların hidayət olunması, dinə və mənəviyyata qayıtmaqlarına ehtimal belə yoxdur. Kök və zatlarının xarablığına görə və ya onların həmişə günah və fəsad etdiklərinə görə ruhları ölübdür. Hər nə qədər nəsihət olunsalar və səy edilsələr ki, onları qəflət yuxularından oyatmaqlıqla düzəlməzlər. Onlar öləndən sonra, qəbirlərində və ya başqa yerlərdəki əzab etmək üçün məxsus yerlərdə əzab olunacaqlar.

Qiyamət günü cəhənnəm oduna daxil olmaq hökümləri veriləcək və bərzəx cəhənnəmindən, əsil cəhənnəmə daxil olacaqlar.

Əgər bir kəs öz günah və qəflətlərinə davam etdirsə onun ruhunun ölmək imkanı vardır.

Allah eləməsin əgər bir kəsin əqidəsi düzgün olmasa,

əgər həm bir həddə kimi öz nəfsini təzkiyə və tərbiyət etsə də bununla bərabər əqidə məsələsinin mühüm olmasına görə, əzaba düçar olacaqlar.

**İkinci dəstə:** – Əqidəsi düzgün və səhih olan kəslərdilər və əhli beytin düz yolunda nəfslərini təzkiyə və tərbiyə edərək ruhu kəmalata və xalis bir məqama yetişiblər. Bunlar bu dünyada mələkut aləmi və bütün həqiqətləri müşahidə edirlər.

Onlara bu dünyada əhli beyt həzrətlərinin və Allah övliyalarının ruhlarının xidməti yetişərək onlardan mənəvi və elmi işlərdə istifadə edirlər. Bu dünyada, behişt və behişt əhlilərin, cəhənnəm əhlinin əzablarını məlaikə və əcinələri (cinləri), mələkutu asimanı və yeri müşahidə və dərk edərək Allah hökümlərindən faydalanırlar. Ölümdən sonra da həmçinin daha artıq şəkildə mənəvi pay alaraq kimi, naz və nemət içində və mənəvi rahatlıq alacaqlar. Qiyamət körpüsündən işıq kimi keçərək və Quranın açıq şəkildə etdiyi hökmü əsasında heç bir hesab kitabsız həqiqi behiştin ən yüksək dərəcəsinə, yəni əhli beyt (ə.s)-la həmçinin dostluq etməyə qədəm qoyacaqlar. Qiyamətdə bir an da belə çaş-baş qalmayacaqlar.

**Üçüncü dəstə:** – Etiqad və inamları düzgün olan kəslərdilər ki, amma əməl və nəfslərin təzkiyə etmələri kamil şəkildə deyildir və qəflət yuxusundadırlar. Elə ki bu dəstə öldü qiyamətə kimi heç bir şey bilməzlər və uzun yuxu və bihuşluğa gedərlər. Qiyamət günündə yuxudan baş qaldıraraq dörd əlli və ayaqlı *(heyvan surətində)* və bəziləri asılmış surətdə ondan keçəcəklər. *(Biharul Ənvar. 8-ci cild. səh.64.)*

Quran ayələri və rəvayətlərin dediyinə əsasən qiyamət 50 ildən artıq çəkəcəkdir. *(Məaric surəsi 4-cü ayə. Biharul Ənvar 7-cildə 126-cı səhif.)*

Bu müddətdə yuxuda olan və özünü müxləslər məqamına çatdırmayan kəslər öz əməllərinin kiçik zərrələrinə kimi istər halal, istərsələr də haram olsun gərək cavab verələr. Yəni halal işlər ki, görüblər gərək mühasibə olsunlar və həm də haram işlər ki, görüblər gərək öz cəzalarını çəksinlər. Həmçinin özlərini gərək bütün pis sifətlərdən pak və təmiz edələr bəlkə bu yolla behiştə daxil olarlar. Heç vaxt imkanı yoxdur ki, hətta iynənin ucu qədər də nəfsin də rəzilə əxlaqı olan kəs behişə daxil olsun. Bəzi möminlər üçün qəbir və can verməklik çətinlikləri və bərzəx aləminin əzabları vardır ki, bunlar səbəb olacaq onlar günahdan pak olsunlar.

Behiştə daxil olan bir qrup şəxslərin dərəcələri bir-birilərinə nisbətən müxtəlifdir. Onların dərəcələrinin müxtəlifliyi bəyənilən ruhi sifət və saleh və yaxşı əməlləri bağlı olan bir işdir. Bir dəstə bu həddə ola biləcək ki, təkcə hurul-eyin uca qəsrlər, meyvələr, yeməklər, ağaclar və bunlardan, başqaları kimi nemətlərdən faydalanacaqlar.

Digər bir qrup həm vardır ki, bu saydıqlarımız nemətlərdən əlavə böyük və çox ləzzətli olan nemətlərdən və on dörd məsum (ə)la həmnişin olmaqlıqdan faydalanaraq hər gün hər an ilahi məhəbbət və mərifətinin seyrində irəli gedəcəklər. Öz məhəbbət və mərifətlərini artırmaqlıqla ali dərəcələrə yetişdirəcəklər.

## ÖLÜMDƏN SONRAKI, ALƏM BU DÜNYA KİMİDİR? VƏ YA BU DÜNYA İLƏ FƏRQLİDİR?

Cavabda açıqca deməliyik ki, əldə bir çox şahid var. O dünyanın bu dünya ilə fərqli olduğunu göstərr. Bu dünyada qiyamətdən gördügümüz, uzaqdan görünən bir şübhədir.

Yaxşı budur ki, **"Cinni"**in misalında faydalanaq necə ki, **"Cinnin aləmi"** və bu **"Dünya"** arasında fərq vardır, bu **"dünya"** O **"dünya"** arasında fərq var. Əgər Cinnin aləmində olan uşağın ağlı olsaydı və dünyadan, göydən, yerdən, aydan, günəşdən, ulduzlardan, dağlardan cəngəllərdən və dənizlərdən doğru bir təsvir əldə etmək istəsə idi bu işi görə bilməzdi.

Cinnin aləmində olan uşaq, anasının çox hüdudlu olan qarnının mühitin görmüşdür.

Ay, günəş, dəniz, tufan, yel, çiçək və bu dünyanın gözəllikləri tam mənasızdır.

Onun lüğət kitabı yalnız bir neçə sözdür. Əgər bu adam ana qarnının eşigindən onunla danışa bilsəydi, onun sözlərin dərk edə bilməz. Bu dünyanın başqa dünya ilə məhdudluğunun fərqi elə bu nisbətdə və ya çoxdur. Buna görə biz heç vaxt qadir olmayacağıq, başqa dünyanın ismətləri və möhübətlərindən faydalanaq və cənnətdən xəbərdar olaq.

Bir hədisdə oxuyuruq: Cənnətdə olan ismətləri heç bir göz görməmişdi, heç bir qulaq eşitməmişdi və kimsənin ağlına da gəlməmişdir.

Qurani Məcid Səcdə surəsinin 17-ci ayəsində həmin məqamı başqa bir bəyan ilə buyurur.

**“Kimsə bilmir necə gözləri işıqlandıran nemətlər orada onun üçün saxlanılmışdır. Əməllərinin cəzası olan nemətləri”**. Bu dünyaya hakim olan qanunların da o dünya ilə fərqi vardır. **Məs.:** qiyamət məhkəməsində, insan əməllərinə şəhadət verən onun əlləri və ayaqları, bədənin dərisi, üstündə günah və ya savab etdigi yer olacaqdır.

**Yasin** surəsi 65-ci ayədə Allah buyurur.

**“Bu gün onların ağzına möhür vurduq və onların əlləri və ayaqları gördükləri işləri təkrar edirlər”**.

**Füsulət** surəsi 21-ci ayədə isə **“Onların bədənlərinin dərisinə deyərlər niyə bizim ziddimizə şəhadət verirsiz? Onlar deyərlər hər varlığı sözə gətirən Allah bizi də danışdırır”** buyurur.

Başqa dünya nemətləri haqda bir şübhə görməməyimizə baxmayaraq, onun vüsət və əhəmiyyətinə pay aparmadan bu məsələyə vaqif olmalıyıq ki, o dünyanın nemətləri və cəzaları, həm cismanidir və həm ruhani. Çünki məadın iki cənbəsi vardır və cəzada iki cəhətli olmalıdır. yəni cismani cəhətdə **Bəqərə** surəsi 25-ci ayənin buyurduğu kimi:

**“İman gətirənlər və saleh əməli olanlara bəşarət verin ki onlar üçün cənnət bağları hazırlanmışdır, ağaclarının altında nəhrlər cari olur... pakizə qadınları vardır və əbədi olaraq behiştdə qalacaqlar.”** Tövbə surəsi 72-də isə **“Allahın rizayəti bütün bu nemətlərdən çoxdur və ucadır” buyurur.**

Bəli cənnət əhlinin Allahın onların razı olmaları üçün olan sevincləri heç bir şey ilə müqayisə edilməzdir.

Cəhənnəm əhli üçün də. Cismani əzab və oddan başqa, hər işgəncədən pis Allahın qəzəbidir.

## BEHİŞTİN QƏSRLƏRİ

**Ənkəbut** surəsinin 58-ci ayəsində Quran buyurur: **“İman gətirib yaxşı işlər görənləri** *(ağacları)* **altından çaylar axan cənnət guşələrində** *(cənnətin yüksək məqamlarında)* **sakin edəcəyik. Onlar orada əbədi qalacaqlar.** *(Yaxşı əməllər)* **edənlərin mükafatı necə də gözəl edir”**.

**Zümər** surəsi 20-ci ayədə isə: **“Lakin rəbbindən qorxanları** *(Cənnətdə)* **bir-birinin üstündə tikilmiş otaqlar** *(behiştin yüksək məqamları)* **gözləyir. Onların altından çaylar axır. Bu Allahın vədidir. Allah vədə xilaf çıxmaz”** buyurulur.

**“Biharul Ənvar”** kitabının 8-ci cild 132-ci səhifəsində bu hədisi peyğəmbər (ə.s) adından yazıblar: O həzrət buyurub: Allah təala behişti, qırmızı yəqutdan yaradıbdır ki, onun başında yetmiş qəsir yerləşir. Hər qəsirdə də yetmiş min otaq vardır. Allah təala onları o kəslər üçün xəlq ediblər ki, dünyada Allaha xatir bir-birləri ilə düz idilər və bir-birlərinin görüşünə gedirdilər. *(Came 174-cü səhifə.)* İslam peyğəmbəri (s) buyurub: **“Behişt”**in binasının bir kərpici qızıldan, biri gümüşdəndir və onların arasına palçıq əvəzinə tökülən şey müşküdür və onun torpağı zəfərandan və kiçik daşları lölö və yaqutdandır. Behiştə daxil olan hər

bir kəs faydalanacaqdır və heç zaman ümüdsüz olmayacaq, həmişəlik orada qalacaq və heç vaxt onun libas və cavanlığı köhnəlməyəcək.

**Ləalı** kitabının 497-ci səhifəsində İmami **Sadiq** (ə)ın bu hədisi yazılıb **“Adamın gözü şüşədən gördüyü kimi behiştin qızılından da görür”**. Yəni onun içində hər nə varsa eşikdən görünür. Buna baxmayaraq ki, dürr və yaqut qızıldan üstün bir şeydir, amma bu qızıl dür və Yaqutdan üstündür.

## BEHİŞT ƏHLİNİN PALTARLARI

Quran **Kəf** surəsi. 31-ci ayədə buyurur:

**“Onlar** *(ağacları)* **altından çaylar axan Ədən cənnətləri gözləyir. Onlar orada taxtlara söykənərək qızıl bilərziklərlə bəzənəcək** *(altun qolbaqlar taxacaq)*. **Nazik və qalın ipəkdən** *(taftadan və qumaşdan)* **yaşıl paltarlar geyəcəklər. O nə gözəl mükafat, o Cənnət necə də gözəl məkandır.**

**Fatir** surəsi 33-cü ayədə isə buyurmuşdur.

**“Onlar Ədən cənnətlərinə daxil olacaq, orada altun bilərziklər və incilərlə bəzənəcəklər. Libasları da ipəkdən olacaqdır.” Duxan** surəsi 51,52,53-cü ayələrdə buyrulur: Müttəqilər isə qorxusuz xəbərsiz bir yerdə, bağçalarda və bulaqlar başında olacaqlar.

**Tafta**dan və atlazdan *(nazik və qalın ipəkdən)* libaslar geyib qarşı-qarşıya əyləşəcəklər.

Peyğəmbər (ə)dan rəvayətdir. **“Əgər bu gün dünyada**

**behişt libaslarından geyinsələr, hər zaman ona tərəf hər kəs nəzər salsa bihuş olar və onu görməyə taqət gətirə bilməz.”**

## BEHİŞT ƏHLİNİN CAVAN OLMASI

**Rəsuli Əkrəm** (s.ə.v.v.) buyurdu: dünya əhlinin hər gün qocalıq və çirkinliyi çoxaldığı kimi **“Behişt əhlində hər gün gözəlliyi, hüsnü, səfası, qəşəngliyi artır”**.

Bir gün **Həzrəti Rəsul** (s.ə.v.v.)-in qohumlarından bir nəfər qoca qadın o həzrətin yanına gəldi və ərz etdi:

“Ya Rəsulullah! dua et ki, mən behiştə gedim”.

Həzrət zarafat üçün buyurdu: **“Qoca qadınlar behiştə getməyəcəklər”**.

O qadın həzrətin yanından qayıdaraq ağlayırdı. Həzrət təbəssüm edərək buyurub: **“Ona xəbər verin ki, qoca qadınlar cavan olandan sonra behiştə gedəcəklər”** və bu ayəni oxudu: **“Şübhəsiz ki, biz cənnət qadınlarının başqa cür** *(yeni bir yaradıcılıqla)* **yaradırıq! Onları bakirə qızlar edəcəyik”**.

## BEHİŞT ƏHLİNİN UŞAĞLI OLMALARI

Bir nəfər Peyğəmbər **Əkrəm** (s.ə.v.v.)-dən soruşdu: **“Aya behişt əhlinin uşaqları olacaqdır?!”** Həzrət buyurdu **“Əgər istəsələr hər surətdə olmuş olsun** *(yəni gözəl qız oğlan olsun)* **həmin anda onlar üçün övlad olar”**.

## BEHİŞTİN MUSİQİ VƏ AHƏNGLƏRİ

Peyğəmbər (s.ə.v.v.)-dən soruşdular: Aya behiştdə **"Musiqi və çalğı vardır?!"**.

Həzrət buyurdu: **"Behiştdə bir ağac var ki, külək əsən zaman o ağacdan elə bir səs ucalır ki, camaat o gözəllikdə səs eşitməyiblər. Behiştdə çaylar vardır ki, onun eni beş yüz illik yoldur. Behiştin qəsrlərinin ətrafında dövrə vurur və onun dalğalarından elə səslər ucalır ki, camaat cuşa gəlir."**

Peyğəmbər (s.ə.v.v.) buyurdu: **"Behiştdə bir bazar vardır ki, onda alış-veriş yoxdur. Məgər ki, qadın və kişilərin surətləridir ki, hər kəs bir surətə tərəf meyl etsə yəni onu istəsə o surətə düşəcəkdir və orada musiqi oxuyan bir cəm dünyada eşidilməyibdir."**

**"Behiştdə ürək açan avaz və ahənglər vardır ki, hurilərin vasitəsi ilə və həmçinin ağaclardan oxunulur. Amma bihudə və ləğv deyildir. Bəlkə irfani mənaya və Allah təalaya həmd və səna deməkliyə aid olur".**

**Həzrəti Əli** (ə) buyurur: **"Kökləri behişt çaylarının sahillərində müşk ətəyində gizlənən ağacların yarpaqlarından və həmçinin ağac üzərində təzə açan qönçələrdən gələn səs insanın fikrini heyran edir".**

**İmami Sadiq** (ə) buyurub: **"Behiştdə bir ağac vardır ki, Allah təala əmr edir ki, o ağaclara külək əssin, bu zaman onu hərəkətə gətirir və ondan elə gözəl nəğmələr eşidilir ki, məxluqat indiyə kimi elə bir gözəl səs qorxusundan musiqiləri tərk edən kəslər üçün mükafatdır."**

Behiştin xanəndəsi **Həzrəti Davud** (ə) - olacaq. O həmişə **La ilahə illəllahı** oxuyacaq öz gözəl səsi ilə.

## AXİRƏT DÜNYASINDA BEHİŞTİN NÖVLƏRİ HANSILARDIR?

Peyğəmbər (ə) buyurub: **Allah-təalanın səkkiz behişti vardır ki, biri-birinin üstündə yerləşiblər.**

*1. Nəim behişti*
*2. Xulud*
*3. Qərar*
*4. Ədin*
*5. Cənnətul məva*
*6. Firovs*
*7. Darus Səlam*
*8. Darun Nürdür*

**İmami Muhəmməd Baqir** (ə.s) buyurub: **behiştlər arasında Allah üçün başqa behiştlər də həmçinin vardır mömün kəsə cənnət və bağçalardan istədiyi qədər verərlər ki, onlar da öz istədikləri kimi faydalanalar.**

## BEHİŞT ƏBƏDİDİR!

Behiştin əhli heç zaman ordan xaric olmuyacaqlar. Qurani Kərimin **Hüd** surəsi 108-ci ayədə Allah buyurur!

**"Amma xoşbəxt və səadətə yetişən kəslər, göylər və yer nə qədər durursa behiştdə əbədi qalacaqdır. Məgər**

**Allahınızın istədikləri şeylər, bir dənə qət olmayan bəxşiş və hədiyyədir”.**

## BEHİŞTİ HAVASI

Rəsuli əkrəmi (s.ə.v.v.) behiştin havası barəsində buyurur: **“Behiştin havası, bizim dünyada sübhün tulusu ilə günəşin tulusu arasında olan hava kimidir, və ondan da çox yaxşı və xoşa gələndir”** *(biharul ənvar 8-ci cild. 157-ci səhifə).*

## İNSAN HƏR NƏ İSTƏSƏ BEHİŞTDƏ VARDIR

Peyğəmbər (ə.s) Allah təalanın qovlunda buyurur: **Saleh bəndələrim üçün bəzi şeylər yığıb hazırlamışam ki, heç vaxt elə bir şeyi göz görməyib, qulaq eşitməyib və bəşərin qəlbindən belə bir şey keçməyibdir.**

## BEHİŞTİN BU DÜNYA İLƏ MÜQAYİSƏSİ

Peyğəmbər Əkrəm (s) buyurub: **Behiştin bir ani dünyadan və onda olan bütün şeylərdən yaxşıdır.**

**Dünyada hər bir şeyi eşitməklə onu görməklidən böyükdür. Amma axirətdəki şeyləri görməklik eşitməklikdən daha da böyükdür.** *(Ləali 506-cı səhifə)*

Həzrəti **Əli** (ə) buyurub: **Əgər qəlbin gözü ilə, behiştin sizin üçün deyilən şeylərə nəzər salsanız söz-süz si-**

**zin ruhunuz da bu dünyada olan bütün şeylərdən, məsələn haram olan, şəhvət, ləzzət, bəzək və mənzərələrdən uzaqlaşacaqdır** *(Nəhcul bəlağə 528-ci səhifə).*

## YOXSULLUQDAN SONRA VAR-DÖVLƏT

**"Fərəcun badə şiddət"** kitabında qəribə bir əhvalat yazılmışdır. Böyük tacirlərdən biri nəql edir: Həcc səfərində idim. İçində üç min dinar qızıl pul və ləl-cəvahirat olan kisəni özümlə aparırdım. Onu belimə bağlamışdım. Mənzillərin birində qəzayi-hacət üçün oturarkən, özüm də bilmədən həmin kisə açılıb düşdü. Bir neçə fərsək yol getdikdən sonra baxdım ki, kisə açılıb düşüb. Lakin geri qayıtmaq mümkün olmadı. Mənim mal-dövlətim çox olduğuna görə, üç min dinarın itirilməsi mənim mal-dövlətimə heç bir təsir buraxmadı. Vətənimə qayıtdıqdan sonra bəlalar mənə hər tərəfdən hücum gətirdi. Bütün mal-dövlətim tədricən əlimdən çıxdı. İzzət dövranı zillətə çevrildi. Dost-tanışın yanında xəcalətdən, düşmənlərin dil yarası və tənələrindən, mal-dövlətimin əldən gedib, vəziyyətimin pisləşməsindən vətəndən sərkərdan düşdüm.

Səfərlərin birində bir kəndə çatdım. Dünya malından 1,5 daik (pul vahidi) gümüş pulum var idi. Qaranlıq və yağışlı bir gecə idi. Həyat yoldaşımı həmin kənddə olan karvansaraya apardım. Həmin halda hamiləlik ağrıları başlandı. O mənə dedi: mənə bir tikə yemək çatdır, əgər çatdırmasan öləcəyəm. Çox çətinliklə yaxınlıqdakı dükana getdim. Bir qədər yalvardıqdan sonra qapını açıb 1,5 daik gü-

müş pula bir qədər zeytun yağı və bir qədər Bişmiş südü bir saxsı kasaya  töküb mənə verdi. Karvansaraya yaxınlaşanda ayağım sürüşdü, yıxıldım. Qəm-qüssənin şiddətindən həyatdan bezdim. Həmin yerdə öz üzümə bir sillə vurub ixtiyarsız olaraq hönkür-hönkür ağladım. Yaxınlıqda bir ev var idi. Onun uca divarları, gözəl mənzərəsi var idi. Qapıdan bir kişi çıxıb, üstümə qışqırdı və dedi: Bu gecə yarısı nə hay-küy qoparmısan? Nə üçün yuxumuza haram qatırsan?

Mən hadisəni ətraflı şəkildə dedim: Cavab verdi: Bu qədər ağlamaqlar və fəryadlar 1,5 daik gümüş pul üçündür?!

Onun tənəsi məni daha da yandırdı. Dedim Allah bilir ki, bu qədər  mal-dövlətin mənim nəzərimdə heç bir əhəmiyyti yoxdur. Ancaq aclıqdan həlak olmaq ərəfəsində olan əhli-əyalıma yazığım gəlirdi.

Allaha and olsun ki, filan ildə həcc səfərində mən firavan yaşayırdım. Filan mənzildə içində üç min dinar qızıl pul və cəvahirat olan kisəmi itirdim. Lakin o, mənim mal-dövlətimə heç bir təsir göstərmədi. Allahdan qorx və mənə tənə vurma!

Bu sözləri eşitdikdə soruşdu: O kisənin nişanələri nə idi?

Yenidən ağlamağa başlayıb dedim: Axı bu nə sualdır ki, bu gecə yarısı bu vəziyyətdə məndən soruşursan?!

Bunu eşidib evindən çıxdı, yanıma gəlib dedi: Həmin kisənin əlamətlərini deməyincə səndən əl çəkən deyiləm:

Məcbur olub onun əlamətlərini dedim. O, əlimdən tu-

tub, evinə apardı. Soruşdu, həyat yoldaşın hardadır? Yerini dedim. Öz qulamlarına əmr etdi, əyalımı və övladlarımı gətirdilər. Onlara dedi ki, lazım olan hər şeyi qonaqlar üçün hazırlasınlar. Sonra mənim üçün təzə paltarlar gətirdilər, məni geyindirib hamama göndərdilər. Həmin gecə çox gözəl keçdi. Sübh yerimdən qalxdıqda özümü tam asayişdə hiss etdim. Mənə dedi: bir neçə gün burada qal, əyalın sağalsın.

Ev sahibi bizi on gün qonaq saxladı. Hər gün də mənə on-iyrmi dinar pul verirdi. Mən onun həmin gecəki istehza və danlağından sonra bu qədər mərhəmətini görüb heyran qalmışdım.

On gündən sonra mənə dedi:

Bir peşə sahibisənmi?

*Dedim:* Ticarətçiyəm, alveri yaxşı bacarıram.

*Dedi:* sənə bir qədər sərmayə verirəm, mənimlə şərikli alver et. Sonra iki yüz dinar (qızıl pul) verib dedi: Elə burda alverlə məşğul ol. Mən sevinərək ticarət etməyə başladım. Bir neçə gündən sonra qazancımı onun yanına gətirdim. Bir gün o biri evə gedib, bir kisə gətirdi və mənim yanıma qoydu. Mən onun həcc səfərində itirdiyim kisə olduğunu gördükdə sevincimdən qəşş edib, yerə yıxıldım. Huşa gəldikdən sonra təəccüblə dedim: Buki, yolda itirdiyim həmin kisədir!

*Dedi:* Bir neçə ildir ki, çox zəhmətlə bu kisəni saxlayıram, həmin gecə sən onun əlamətlərini deyəndə, onu qaytarmaq istədim.

Lakin qorxdum ki, sevincdən ürəyin partlaya bilər.

Buna görə də tədricən onu sənə çatdırdım. İndi öz kisəni götür və məni halal et.

Kiçəni aldıqdan sonra borclarımı qaytardım. Allaha şükür etdim.

O kişiyə təşəkkürümü bildirdikdən sonra vətənimə qayıtdım. Həmin gündən etibarən firavanlıq dövrüm yenidən başlandı. Bəli, **"İnnə məəl-usri-yusrən"** *(hər çətinlikdə bir asanlıq vardır).*

## BİR QOCA KİŞİ YER ŞUMLAMAQLA MƏŞĞUL İDİ

**"Səfinətul-bihar"**ın birinci cildinin **"Arzu"** fəslində belə bir rəvayət nəql olunur:

**İsa** (ə) yol gedərkən beli bükülmüş şəkildə yer şumlayan bir qoca kişiyə rast gəlir. O, əlindəki beli çətinliklə qaldıraraq yeri qazırdı. Həzrət bu qocaya baxıb belə fikirləşdi: Bu adam bu yaşda evin bir küncündə oturub istirahət etməli və dincəlməlidir. Onun çətinlik çəkməsinin əvəzinə uşaqları və qohum-əqrəbaları onun yaşayışını təmin etməlidirlər. Həzrət bu fikirlərlə Allaha dua edərək buyurdu: Pərvərdigara Arzu etməyi buadamdan geri al. Elə həmin anda qoca əlindəki beli kənara atıb bir guşədə əyləşdi. Suyun qarşısını almağa bir kəs olmadığına görə axıb getməyə başladı. **Həzrət Məsih**(ə) əkinin getdikcə xarab olduğunu görüb, yenidən Allaha dua eylədi: Pərvərdigara! Öz məsləhətin nədirsə, elə də buyur. Elə bu anda qoca ayağa qalxıb beli götürdü və suyun axınını qaydaya salıb, yenidən öz işi

ilə məşğul olmağa başladı. **Həzrəti Məsih** (ə) irəliyə gedib kişidən soruşdu: Mən sənə baxıb, sənin iki müxtəlif iş görməyini müşahidə etdim. Əvvəl iş görməklə məşğul idin, sonra beli kənara atıb dincəlməyə başladın.

Birdən ayağa qalxıb, yenidən işlə məşğul oldun?!

*Qoca dedi:* İşlədiyim vaxtda birdən ölümüm yadıma düşdü. Fikirləşdim ki, mən bu gün-sabah ölərəm. Əgər öləcəyəmsə niyə bu qədər özümə əziyyət edirəm. Elə buna görə də bir kənara çəkilərək oturdum. Lakin birdən fikrimə gəldi ki, diri adama yaşayış lazımdır və bəlkə yaxın vaxtlarda ölməyəcəyəm.

Bəziləri bu rəvayəti eşidib belə deyə bilərlər: Əgər hər bir kəs bir küncdə oturub işləməsə, bu aləmin nizamı bir-birinə qarşı bilər, yəni insan uzun arzu etməsə bu aləmin nizamı dağıla bilər. Əgər üzün arzulu olmaq bəyənilmirsə onda nə etmək lazımdır?

## BƏZİ DUALAR DÜZGÜN DEYİLDİR

Günorta namazının arxasında oxunan duada belə deyilir.

**“Pərvərdigara, sənin razılığına səbəb olan və mənə məsləhət bildiyin dünya və axirət hacətlərini mənim üçün qərar ver”.**

İnsan Allahdan istədiyi hacətlərini də hökmlə istəməməlidir.

Hökmlə istəmək dua və hacət istəmək deyildir.

Yəni insan öz dualarında, pərvərdigara mənə elə gəlir

ki, bu iş mənim xeyrimədir - deməməlidir. Amma əgər **"İlahi əgər sənin bu işdə məsləhətin varsa, onu mənə əta et"** - desə, daha ədəbli olar. Ümumiyyətlə, insan bütün işlərini Allaha tapşırmalıdır. Allah bu barədə Quranda buyurur. **"Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah bəndələri görəndir. Əsil dua öz işlərini ona tapşırmaqdır"**.

Duanın təxirə salınması, bəndənin Allah dərgahına yaxınlaşmasına səbəb olur.

Bəzi hallarda duanın qəbul olunmamasının təxirə salınması, bəndəyə daha artıq xeyrin çatmasına görədir.

Çünki dua ən böyük ibadətlərindən sayılır və onun davam etdirilməsi, bəndənin pərvərdigarın dərgahına daha artıq yaxınlaşmasına səbəb olur. Buna görə də Allahın lütf göstərib, inayət etdiyi şəxslərin dualarının qəbul olunması əksr hallarda təxirə düşür.

Əllamə Məclisi **"Həyatəl-qulub"** kitabında yazır: Səhih sənədlərlə imam **Baqir** (ə)dan nəql olunur ki, **İbrahim Xəlil** (ə) bir səhradan keçərək, Allahın məxluqlarından ibrət almaq istəyirdi. Günlərin bir günü səhrada bir nəfəri namaz halında gördü. Onun səsi asimanlara qalxmışdı. Paltarları da tükdən toxunmuşdu. İbrahim onun namazından təəccüb edib ona yaxınlaşdı. Namazı qurtarana qədər gözlədi, sonra ona dedi:

Sənin bu vəziyyətin xoşuma gəldi. Səninlə dost olmaq istəyirəm. De görüm sənin evin haradadır, hər vaxt istəsəm, sənin yanına gəlim.

*Abid dedi:* Sən mənim evimə gələ bilməzsən. Çünki

mənim evim dəryanın o biri tərəfindədir. Sən dəryadan keçə bilməzsən.

*İbrahim buyurdu:* Bəs sən necə keçirsən?

*Abid dedi:* Mən suyun üzü ilə gedirəm.

*İbrahim buyurdu:* Səni suyun üzü ilə aparan Allah suyu mənə də ram etməyə qadirdir. Ayağa qalx, birlikdə gedək. Bu gecə sənə qonaq olacağam.

Suya yaxınlaşdıqda abid **"Bismillah"** deyib suyun üzü ilə hərəkət etdi. **İbrahim** (ə) də **"Bismillah"** deyərək onun ardınca yola düşdü. Abid bu işdən təəccbüləndi. Nəhayət hər ikisi gəlib abidin evinə çatdılar. **İbrahim** (ə) ondan soruşdu: hansı gün başqa günlərdən daha çətindir?

*Abid dedi:* Allah öz bəndəsinə, onun əməllərinə görə cəza verdiyi gün bütün günlərdən artıq çətin və əziyyətlidir.

*İbrahim (ə) dedi:* Gəl birlikdə dua edək, Allah bizi həmin günün şərrindən amanda saxlasın. *(başqa rəvayədə: gəl birlikdə günahkar mömünlər üçün dua edək).*

*Abid dedi:* Mən dua etməyəcəyəm. Çünki üç ildir Allahdan bir şey istəyirəm, lakin qəbul etmir. O duam qəbul olunmayınca, başqa bir şey istəmirəm.

*İbrahim (ə) buyurdu:* Ey abid! Əgər Allah bir bəndəni sevirsə, onun duasının qəbul olunmasını təxirə salır ki, bəndə onunla daha çox münacat etsin və daim ondan istəsin. Amma əgər bir bəndəni düşmən tutursa, duasını dərhal qəbul edir ki, onun qəlbinə ümidsizlik versin, bir daha dua etməsin. Sonra abiddən soruşdu: Sənin istəyin nə idi?

*Abid dedi:* Bir gün namaz qıldığım yerdə çox gözəl oğ-

lan uşağını gördüm, alnından nur parlayırdı. Bir neçə qoyun-quzu və inək otarırdı. Ondan soruşdum ki, bunlar kimindir?

*Dedi:* Mənimdir.

*Dedim:* Sən kimsən?

*Dedi:* Allahın Xəlili İbrahim (ə) oğlu İsmailəm.

Mən də dua etdim ki, Allah, məni öz dostun İbrahimlə tanış et.

*İbrahim (ə) buyurdu:* İndi duan qəbul olunmuşdur. Mən İbrahim (ə)əm.

Abid sevindi. Əllərini İbrahimin boynuna salaraq onunla qol-boyun oldu və üzündən öpdü. Allaha şükr edərək, birlikdə günahkar mömün və möminələr barəsində dua etdi.

## GÜNƏŞ, BULUD VƏ AYIN TARLA VƏ BAŞQA ŞEYLƏRƏ RABİTƏSİ

Allah-təala yeri və başqa mövcudları dirildib, inkişaf etdirməkdən ötrü günəş nurunu doxsan milyon mil məsafədən yollayır. Bitki və heyvanların həyatı ona bağladır.

Üç yüz min km məsafədən yerə gəlib çatana ay nurunun yer kürrəsi üçün on doqquz xüsusiyyəti vardır. Onlardan biri günəş nuru vasitəsilə hərarətlənən bitki və başqa mövcudların tempraturlarını aşağı salmaqdır. Görəsən Allah-təala günəş və ayın nurunu yerlə necə uyğunlaşdırmışdır?

Pərvərdigari aləm bunu elə nizama salıb ki, nə həmişə

yandırıcı istilikləri olan gündüz olur, nə də gecə. Allah Quranda buyurur: **"Həqiqətən göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağış yağdıraraq yenidən diriltməsində, növbənöv heyvanları onun hər tərəfinə yaymasında, küləyin bir səmtdən başqa səmtə əsməsində, göylə-yer arasında Allahın əmrinə tabe olan buludların hərəkətində ağıl və düşüncə sahibləri üçün əlamətlər vardır"**.

Deməli, buludları öz əllərinə tabe edib yağış yağdıran həmin Allahdır ki, yer üzündə bitkilər də bitirir. Allah-təala günəşi yaradandan sonra onun istiliyi nəticəsində əmələ gələn buxar, milyon tonlarla suyu havada hərəkətə gətirir. Bu dəlillər vasitəsilə Allahın vəhdaniyyətini başa düşmək olar.

Buludun yaradılmasında məqsəd qışın soyuğu və yayın yandırıcı istisinin təsiri ilə aradan getmiş yerlərin, bitki aləminin yenidən dirilməsidir.

Bu qədər dəlil və sübutlardan belə bir nəticəyə gəlirik ki, bulud və yağışın Xaliqi bitkilərində Xaliqidir.

Bitkiləri yaradan Allah, heyvanlparın mədə və müxtəlif həzm sistemlərini də yaratmışdır. Bu sistemləri yaradan Pərvərdigar xörəkləri görməkdən ötrü göz də xəlq etmişdir. Bütün bunları yaradan Allah xörəyi hazırlayıb, ağıza qoymaqdan ötrü əl də yaratmışdır. İcmalı bir nəzərlə bütün mövcudların müəyyən bir hissədə bir-birlərilə rabitədə olub. Allahın vəhdaniyyətinə şəhadət vermələrini başa düşürük.

**“Bir olan Allahdan başqa Allah yoxdur. O, təkdir və heç bir şəriki də yoxdur”**.

Varlıq aləminin Əlim *(ən elmli)* həkim *(ən hikmətli)* və Qədir *(ən qüdrətli)* olan ancaq bir məbdəsi vardır. Bu məbdə, yəni Allah hərbir şeyi müəyyən bir hədəfdən ötrü yaratmışdır.

## TƏBİ FƏLAKƏTLƏRİN SƏBƏBİ NƏDİR?

Son dövrlər planetimizi bürümüş təbii fəlakətlərin səbəbi hamını maraqlandırır. Əslində isə bu sualın cavabı olduqca sadədir. **Nəhl** surəsi 112-ci ayədə Allah-təala buyurur: **“Allah bir şəhəri misal gətirir. O şəhər əmin-amanlıq və arxayınçılıq içində idi. Ruzisi də hər yerdən bol-bol gəlirdi. Lakin əhalisi Allahın nemətini inkar etdi. Allah da həmin şəhərin sakinlərinə etdikləri əməllərə görə, aclıq və qorxu bəlası daddırdı”**.

Qurani-Kərimdə Nuhu inkar edənlərin selə qərq olduğu, Ad və Səmüd tayfalarının günahkarları müqabilində dəhşətli sarsıntıya bürünərək diz üstə düşüb qaldıqları, qadınların qoyub, kişilərə şəhvətlə yanaşan Lut tayfasını əzab yağışına düçar olduğu və başqa ibrətli əhvəlatlar rəvayət olunur. Hər bir millət Allaha etiqadı müqabilində üç böyük nemətlə mükafatlandırılır: əmin-amanlıq, gələcəyə inam, gen-bol ruzi.

İmam Sadiq (ə) buyurur:

**“Bəni İsrafildən bir tayfa o qədər gen-bolluq, rifah**

**içində yaşayırdı ki, hətta uşaqlarının oyuncaqları da qida maddələrindən hazırlanmışdı. Amma bu tayfa axırda bir günə düşdü ki, həmin oyuncaqları yeməyə məcbur oldular.”**

Demək bütün bəlalar, eləcə də təbii fəlakətlərin səbəbi **“İnsanların dünyanı axirətdən üstün tutmasıdır”**.

## NƏ ÜÇÜN DÜNYA BİR ANDA YARANMADI?

**“Əraf”** surəsinin 54-cü ayəsində buyurulur: **“Həqiqətən Allah-təala göyləri və yeri altı gündə xəlq etdi”**.

Maraqlıdır ki, görəsən, misilsiz əzəmət sahibi olan Rəbbimiz nə üçün dünyanı bir anda yaratmadı?

Təfsirçilər bu fikirdədirlər ki, hər hansı bir işin bir anda həyata keçməməsi, həmin işin hikməti haqqında düşünməyə imkan verir. Məslən, insanın ana bətnində doqquz ay müddətində mərhələ-mərhələ formalaşması, yaradanın əzəmətini daha da aşkar göstərir.

Allah-təala yeri və göyləri bizim ölçülərlə hər biri neçə milyon il davam etmiş altı gündə yaratmışdır. Quranda buyrulan altı gün, bizim 24 saatlıq günümüzdən tamam fərqlənir. Bu altı günün hikmətlə dolu olan hər anı ilahi elmin əzəmətindən danışır. Bəs bu altı gündə hansı hadisələr baş verdi?

**İlk gün**, toplu qaz forması olan dünya öz oxu ətrafında fırlanaraq parçalandı və planetlər yarandı.

**İkinci gün**, planetlərdən bəzisi közərmiş, bəzisi donmuş halda dayanıqlı vəziyyətə keçdi.

**Üçüncü gün**, günəş sistemi yaranmaqla, yer günəşdən ayrıldı.

**Dördüncü gün**, yer soyudu və həyat üçün şərait yarandı.

**Beşinci gün**, otlar və ağaclar yaradıldı.

**Altıncı gün**, heyvanlar və insan yer üzündə zahir oldu.

## ŞİMŞƏYİN FAYDASI

Bidiyiniz kimi, şimşək mənfi və müsbət yüklü iki buludun bir-birinə yaxınlaşmasından yaranır. Buhadisə mənfi və müsbət yüklü iki naqil bir-birinə toxunduqda qığılcım yaranmasının oxşarıdır.

Bütün təbiət hadisələrində istər cəmiyyət, istərsə də təbiət üçün faydalar olduğunu bilirik. Bəs şimşəyin faydası nədir?

Qurani-Kərimdə buyurulur: **“Sizə qorxu və ümid məqsədi ilə şimşək göstərən ağır buludları yaradanda odur”** *(Rəd surəsi ayə 12)*

Ayədən göründüyü kimi, şimşəyin ilkin faydası, insanları Allah-təalanın əzəmətindən xəbərdar etməkdir.

Buludla yer arasında yaranan belə şimşəkləri **“saiqə”** adlandırmışlar. Müsbət yüklü bulud həmişə mənfi yüklü yerə yaxınlaşdıqda saiqə yaranır.

**“Allah onların vasitəsilə istədiyini vurar”** ayəsində saiqə nəzərdə tutulur.

**“Təbiətin zarafatı”** adlandıralan şimşəyin, bir sıra təbii faydaları da vardır. On beş min dərəcə santiqrad istilik

yaradan şimşəklər, havanı yandırır və bunun ardınca havanın təzyiqinin dərhal enməsi nəticəsində buludlardan yağış yağır. Həmin yüksək temperaturda yağış damlaları artıq oksigendən yaranır və belə su, **"ağır su"** adlanır. Bu suyun formulu **$H_2O$-**dur.

Ağır su isə, güclü mikrob öldürücü xüsusiyyətə malikdir.

Yüksək temperatura yaranmış yağış damlalarının tərkibində karbon turşusu olduğundan, bu yağış həm də torpaq üçün gübrə funksiyasını daşıyır.

## NƏ ÜÇÜN DƏSTƏMAZ ALARKƏN BAŞQASININ ƏLƏ SU TÖKMƏSİ MƏKRUHDUR?

İmami **Sadiq** (ə)-dan rəvayət olunur ki, Həzrət **Əli** (ə) dəstəmaz alarkən kiminsə başqasının əlinə su tökülməsinə razı olmazdı. Həzrət buyurardı ki, namazda heç kəslə şərik olmaq istəmirəm.

## NƏ ÜÇÜN DƏSTƏMAZ ALMAQ ƏMR OLUNDU?

*1. İmami Cəfər Sadiq (ə) buyurub:* **"Dəstəmaz Allahın sərhədlərindən biridir. Onun vasitəsilə Allaha asi olan yaxud da itaət edən məlum olur".**

*2. İmami Cəfər Sadiq (ə) buyurub:* **Dəstəmazda artıq yuyunan tam yuyunmamışdır.**

## NƏ ÜÇÜN ALLAH PEYĞƏMBƏR VƏ İMAMLARI HƏMİŞƏ QALİB ETMƏDİ

İshaq ibn Taqayi rəvayət edir ki, bir kişi İsa İbn il Qasuridən soruşdu ki, İmam **Hüseyn** (ə) Allahın dostu, onun qatili isə Allah düşməni olduğu halda nə üçün Allah düşməni Allah dostuna qalib gəldi? Şeyx cavab verdi: Allah insanlara onların öz cinsindən peyğəmbər göndərdi ki, onu qəbul etsinlər. Əgər belə olmasaydı insanlar onları qəbul etməzdilər. Lakin Allah öz peyğəmbərini bəzən qalib, bəzən məğlub etdi ki, onları allah, məbud kimi qəbul etməsinlər və onlardan səbr, itaət, dözüm, məğlubiyyət qarşısında mətanətli olsunlar. Həmçinin imamlar da belədir. Onlar da məğlubiyyət qarşısında mətanət göstərməklə insanlara səbrli olmağı öyrətdilər.

## SƏXAVƏTLƏ ƏDALƏTİN FƏRQİ NƏDİR?

Həzrəti **Əli** (ə)-ın səxavətlə ədalət arasında fərq barəsində gözəl bəyanı vardır. Həzrətdən bu barədə soruşulanda sualın cavabında buyurur:

**“Ədalət hər şeyi öz yerinə qoyur. Səxavət, onu öz yerindən çıxarır”.** *(çünki, səxavət yəni, haqqından çox bağışlamaq)*

Ədalət hər şeyi hifz edəndir. Səxavət yalnız bəxşiş olunana fayda verir. Beləliklə, ədalət daha yaxşı və şərəflidir.

## AZANI BAŞQA DİLDƏ OXUMAQ OLARMI?

Azanın bir adı da *(Azani Məhəmməddir)*. Həzrəti Məhəmməd (ə.s)ın ümməti olduğunu söyləmək, həm də onun əzanını, onun istədiyi və oxutduğu şəkildə oxumamaq, Peyğəmbərimizin yolunu getməmək və ona qarşı açıqca cəbhə açmaqdır.

Buna nə ehtiyac var?

Bu gün Avropa və Amerikalılardan İslam dinini qəbul edənlər də daxil olmaqla, ayrı-ayrı dillərdə danışan *(8 irqin meydana gətirdiyi 1 milyarddan artıq İslam Aləmi, gündəlik namazlarda beş dəfə Azan-i Məhəmmədi uyğun şəkildə)* oxuyurlar.

Bizi bir neçə qitəyə hakim qılan və bizi müsəlmanlıq şərafəti ilə şərəfləndirdikləri gündən etibarən min ildən artıq Azan-i Məhəmmədi olduğu kimi oxumuşdular.

Azanı ifadə edən kəlmə necə müqəddəs xatirələri dilə gətirir.

Qundaqdakı körpələr, cəbhədəki əsgərlər, bütün müsəlmanların qulaqları və qəlbləri bu ulu kəlmələrlə qidalandırır, nemətləndirir.

Azanı başqa dildə oxumaq İslam dinimizə, uca peyğəmbərimizə qarşı çıxma kimi hesab olunar.

İslam bütövlüyünü parçalamaq isə ən rəzil əlamətdir.

Azan ərəb dilində öz gizli təsiri ilə qəlbləri ruhlandırır.

## İLK DƏFƏ AZAN NƏ VAXT QƏBUL EDİLDİ?

Namaz vəqtlərini xalqa nə cür bildiriləcəyini, peyğəmbər (ə) düşündü və yanındakılardan soruşdu.

*Bəzisi:* buq çalınsın, bəzisi zəng vurulsun.

Bəzisi od yandırılsın dedilər. Amma bunların heç bir münasib görünmədi.

*Çünki:*

Yəhudilər dini ibadətlərdə buq çalardılar.

Məsihlər zəng vurardılar.

Məcuslar *(zərdüştlər)* də od yandırardılar.

Bu səbəblə bunlara bənzəmək istəmədilər.

Nəhayət namaz vəqtləri bir adamın uca səslə namazı xəlqə bildirməsi fikri qəbul edildi. Bu işi bənzərsiz səsi olan Bilal Həbəşiyə tapşırdılar.

Bilal Həbəşi namaz vaxtı **Əs-Səlah, Əs-Səlah, Əs-Səlah** *(namaz, namaz, namaz)* deyə küçələrdə xəlqi namaza dəvət edərdi.

Bu qayda bir müddət davam etdirildi. Sonra ənsardan **Əbdullah ibn Zeyd** bir yuxu gördü, və bu yuxu səbəbi ilə Azan əmr edildi.

Peyğəmbər (ə)ın ilk Azan deyəni **Bilal Həbəşi** olub. O olmadığı zamanlarda **Əbu Məhzur** və bəzən də iki gözündən kor olan Umməktum oğlu azan deyərdi. Amma müharibə zamanı daima azan deyən **Bilal Həbəşi** idi.

## İLK DƏFƏ ZƏKAT NƏ VAXT VACİB BUYURULDU?

Zəkat hicrətin ikinci ilində vacib olmuşdu. Həzrəti peyğəmbər (ə) Məaz ibn Cəbəli Yəmənə göndərdiyi, zaman ona belə buyurdu:

Yəmən əhalisini Allahın birligini *(vəhdaniyyətini)* təsdiq etməyə dəvət et. Söylə Allahın onlara, Mallarının zəkatını verməgi vacib buyurduğunu və bu zəkatın varlılardan alınıb füqaraya veriləcəgini bildirdi.

## FİTRƏ SƏDƏQƏSİ NƏ VAXT VACİB OLDU?

Fitrə, rəmazanın on səkkizinci günü hicrəti 2-ci ilində vacib oldu.

Həzrəti peyğəmbər əshabını məscidə dəvət edib:

- *(Ey ənsar! Ey mühacir! Allah fitrə sədəqəsi verməyinizi əmr edir. Fitrə sədəqəsini bayram namazından qabaq füqəraya təslim edin)* deyərək fitrə sədəqəsi verməyin lazımlılığını ümmətinə təbliğ etdi.

## İLK DƏFƏ FİTR BAYRAM NAMAZI VƏ QURBAN BAYRAMI NAMAZI NƏ VAXT QEYD EDİLİB?

Hicrətin 2-ci ilində ilk dəfə olaraq bayram namazı qılındı şəhval ayının birində. İlk dəfə həzrəti peyğəmbər (ə) əshabi ilə birlikdə müsəlliyə çıxıb, bayram namazını qıldırdı.

Zilhiccə ayında qurban kəsmək bayram namazı qılmaq, təkbir demək də yenə bu il içində vacib oldu.

Həzrəti peyğəmbər (ə) soyuq döyüşündən Zilhiccənin doqquzuncu günü qayıtdı.

Ertəsi günü də əshabilə birlikdə müəsəlliyə çıxdı, bayram namazını qıldı, qurbanlıq iki qoyun kəsdi. Əshabinə də qoyun kəsmələrini əmr etdi.

## NƏ ÜÇÜN ƏLİ (ə)a ƏBU TURAB DEYİLİR?

Əmmari Yasir vaqiəti belə rəvayət edir:

Mən və **Əli** (ə) qumluqda bir ağac kölgəsində yuxulayırdıq. Həzrəti peyğəmbər (ə) yanımıza gəlib, bizi oyandırdı. Əli (ə) oyandırarkən: **"Qalx ey torpağın atası!"** deyə səslədi.

Həzrəti **Əli**(ə)ın künyəsi O gündən etibarən *(torpağın atası)* qaldı.

Bu əhvalat Zil-əşirə döyüşü ərəfəsində baş verdi.

## MƏSCİDLƏRƏ MƏNBƏR NƏ VAXT QOYULUB?

Məscidlər mənbər qoymaq hicrətin səkkizinci ilindən etibarən başlandı. Həzrəti Məhəmməd, o tarixə qədər, mübarək arxasını məscidin sütunlarından birinə dayayıb ayaq üstə əshabinə moizə və nəsihət edərdi.

Ayaq üstə bir gün moizə edərkən ətrafındakılar onun

yorğunluğunu hiss edirdilər. Məsciddə olanlardan Təmim adlı birisi dedi: Ya rəsuləllah icazə versəydin bir minbər düzəldərdim. Həzrəti peyğəmbər (ə) bu xeyir işi alqışladı və qəbul etdi.

Əbbas dedi ki, ya rəsuləllah mənim bir qulum var dülgərlik sənətində mahir bir cavandır. Əgər icazə versən minbəri o düzəltsin.

Həzrəti peyğəmbər (ə.s):

Çox yaxşı ya **Əbbas** düzəltdir buyurdu:

Bir başqa rəvayətə görə, mənbəri inşa edən Mədinədə Meymun adında bir dülgər idi. Mənbəri düzəldib, yerinə qoydu.

Həmin gün Cümə günü idi. Peyğəmbər (s.ə) ilk dəfə olaraq o gün Mənbər üstündə oturub ətrafına toplanan camaata yorulmadan moizə və nəsihət etdi.

## NƏ ÜÇÜN HƏMZƏ (ə.s) "SEYİDİ ŞÜHƏDA" ADLANIR!?

**Həmzə** (ə.s) fədakarlığı və qəhrəmanlığı islam uğrunda əvəzsizdir.

Peyğəmbər (ə.s) Allahın göstərişi ilə **Həmzə** (ə.s) **Seyyidi Şühəda** *(Şəhidlərin, ağası və rəhbəri)* adını verdi.

İmami **Bağır** (ə.s) buyurub. Allah Ərşininin aşağı hissəsində "Həmzə qəti olaraq, Allahın və Allah elçisinin şiri Şəhidlərin ağası və seyididir yazılıb. Yenə rəvayətdə vardır ki, bir şəxs imami **Sadiq** (ə.s)dan sual edib.

İmami **Hüseyn** (ə) Seyyidi Şühəddırsa nə üçün Həmzəyə (ə.s) Seyidi-Şühəda deyirlər?

İmam (ə.s) cavabında buyurub:

Həmzə (ə.s) Seyyidi Şühədadır, bütün aləmə məsum (ə.s) -dan başqa.

Lakin imam Hüseyn (ə.s) Seyyidi Şühədadır bütün aləmə həm məsumlara həm də qeyri məsumlara.

Digər rəvayətdə peyğəmbər (ə.s) buyurub: **“Biz Əbdül Mütəllib evladları: Allahın peyğəmbəri və Həmzə seyyidi Şühəda, Cəfər iki qanad sahibi, Əli (ə.s), Fatimə (ə.s) Həsən və Hüseyn (ə.s) Mehdi (s.ə.v.v.)**

Behiştin əhlinin böyükləriyik.

## 46 İLDƏN SONRA CABİRİN ATASI ABDULLAHIN BƏDƏNİ NECƏ VAR İDİSƏ ELƏ DƏ QALIB!

Cabir deyir: Atamın dəfnindən 46 il keçəndən sonra güclü sel onun qəbrini yuyub korladı. Atamın cəsədini seldən sonra tapdım o halətdə ki, elə bil təzə yatıb. Ayağının üstünə hormul otu elə bil ki, təzə sərilib. İstədim onun bədənini ətirləyəm səhabələr dedilər: Əl dəymə necə varsa qoy elə qalsın. Mən əl vurmadım. Səhabələrdən biri gördü ki, Cabirin atası Abdulla döyüşdə aldığı yaranın üstünə əlin qoyub. 46 il keçib. Ordakılar dedilər gəlin əlin yanına uzadağın. Əlin yaranın üstündən götürdülər. Həmin anda aldığı yara yerindən qan axmağa başladı, yenidən əlin yaranın üstünə qoydular, qan dayandı. Budur şəhidin məqamı, hətta torpaq da onun cəsədinə ehtiram edir.

Quran Kərim **Həşir** surəsinin 2-ci ayəsində buyurur:

**"İbrət alın ey bəsirət əhli"** *(əsərəlğabə 3 cild. səh.232. Bihar.20-cild, səh.113.)*

## 40 İLDƏN SONRA ÜHÜD ŞƏHİDLƏRİNİN BƏDƏNLƏRİ NECƏ VARSA ELƏ QALIB

Cabir Abdulla Ənsarinin oğlu buyurur: 40 il keçəndən sonra ühüd şəhidlərinə ağlamağ niyyəti ilə onların dəfn olduğu qəbristanlığa getdik. Onlara xatir tədbir keçirtdik. Həmin günlərin birində Maviyə Ühüd şəhidləri dəfn olunan qəbristanlıqda şəhidlərin qəbirlərini açmaq göstərişi verdi. Mən gördüm ki, dəfn olunanların qəbrdə bədənləri təzə vəfat edən şəxsin bədəni kimi qalıb. Yeri qazan əsnada pel Həmzə (ə.s) ayağına dəydi və həmin pel dəyən yerdən qan axmağa başladı. *(Firu Kafi cild 1, səh.51, Siyreyi Nəbəviyə 2-ci cild. s.263.)*

## İMAM RZA (ə) AZANIN HİKMƏTİ BARƏSİNDƏ

Şeyx Səduq İmam **Rza** (ə) dan nəql edir ki, həzrət buyurur: Həqiqətən, müsəlmanlar bir neçə səbəbə görə azana əmr olunmuşdur. O onlardan, namazı unudanlara xatırlatmaq, qafilləri agah etmək, namazın vaxtını bilməyənlərə xəbərdarlıqdır. Həmçinin azançı öz azanı ilə insanları Allahın ibadətinə dəvət edir. Onları namaza meyilli edib, Allahın təklifinə iqrar etdirir. İman və İslamın aşkar elan edib, unudanlara xatırladır.

Azançıya, namazı elan etdiyinə görə azançı deyirdilər.

Azan təkbirlə *(Əllahü Əkbər)* başlayıb, La ilahə illəllah deməklə qurtarır. Çünki, Allah-təala öz adının əvvəldə və sonda La ilahə İlləllah deməy sevir.

İki dəfə təkrar edir ki, eşidənə təsir etsin. Əgər birinci cümləni deməklə qafil ayılmasa, ikinci cümlə ilə özünə gələr. İmanın əsli şəhadəti deməkdir. Beləliklə şəhadəti demək iki dəfə qərara alınmışdır. Necə ki, başqa hüquqlara da iki şahid tutulur. Bəndə, Allahın təkliyinə və peyğəmbər (s.ə) iqrar etdikdə, imanın bütün rükününü iqrar etmiş olur. Çünki imanın əsası Allaha və peyğəmbərə iqrar etməkdir. Şəhadət verdikdən sonra namaza dəvət edir. Çünki, azan əsasən, namaza dəvətdən ötrü təyin olunmuşdur.

Bu da, azanın sözləri arasında namaza olan nidadır. Daha sonra nicat və hidayət olunmağa dəvət olunur. Sonra **"həyyə əla xeyril-əməl"**lə, ən yaxşı əmələ dəvət olunur. Nəhayət, azan sonra Allahın adı ilə sona yetir.

## MƏHƏMMƏD PEYĞƏMBƏR (Ə.S) HƏYATINDAN NÜMUNƏLƏR

**"Pərvərdigarın rəhmətinə və axirəi səadətinə ümid bəsləyənlər peyğəmbəri özlərinə ülgü və nümunə seçməlidirlər"** *(Qurani Kərim)*

İslam, peyğəmbərinin xarakteri və davranışında təmsil olunur, çünki, o həzrət İslami təlimlərin mükəmməl güzgüsü, davranışı isə müsəlmanlar üçün ülgüdür.

Peyğəmbər (s.ə.v.v.) bütün müsəlmanlara qardaşlıq gö-

zü ilə baxır və hamı ilə böyük məhəbbət və mehribanlıqla davranırdı. Yoldaşlar, tanışlar məclisdə olduqca sadə və təvazökar idi. Belə ki, özgə bir şəxs məclisə daxil olduqda kimin peyğəmbər olduğunu ayırd edə bilmirdi. Bir dəfə adamlar yol gedəndə bəziləri ondan irəlidə və bəziləri də onun arxasınca gedərdi və peyğəmbər (s.ə.v.v.) hökmən qabaqda getməsi heç də zəruri deyildi. Geyimi sadə və təmiz idi. Paltarın və bədənin təmizliyinə böyük əhəmiyyət verərdi. Gülab vurmaqdan imtina etmirdi. Dodağında sevinc bəxş edən gülüş var idi. Heç vaxt ucadan gülməz, danışıqda kobudluq olmazdı. Yalan və iftiradan şiddətli nifrətli idi. İstər qoca, istərsə də gənclərə münasibətində ədəbli idi. Və salam verməkdə hamını qabaqlayardı. Xəbərlərdə vardır ki, heç olmayıb ki, kimsə ona ondan qabaq salam versin.

Xəstələrə baş çəkməyi sevər, dəfn mərasimlərində iştirak edər, qonaqları daima tam hərarətlə qarşılayardı. Peyğəmbərin güzəşt və kəraməti o qədər çox idi ki, məğlub etdiyi düşmənlərini belə əfv edərdi.

İllər boyu peyğəmbər və onun tərəfdarlarını incidən, onlara qarşı çoxlu müharibələr və sui qəsdlərə əl atan Məkkə əhlinə qalib gəlib, Məkkəni ələ keçirdikdən sonra peyğəmbər (s.ə.v.v.) onları bağışlayıb azad edərdi. O istəyirdi ki, adamların ümumi vəziyyəti yaxşılaşmayanadək onun ailəsi də başqalarından yaxşı yaşamasın və bəzək düzəyə habelə təm-tərağa qapılmasınlar.

Adamların həyatı sahmanlaşmayanadək çox sadə öz yaşayışını davam etdirərdi.

Bir gün doxsan min dirhəm məbləğində pul peyğəmbər (s.ə.v.v.)-ə çatdırmışdılar. Bu pul ümumi əhalinin malı olduğu üçün müsəlmanların xeyrinə xərclənməli idi. Peyğəmbər (s.ə.v.v.) bu pulların hamısını qarşısında, yerə sərilmiş sadə bir xalçanın üzərinə tökərək, onu sonuncu dirhəmə qədər yoxsullar arasında paylayır, özü tam arxayınlıqla həmin xalçanın üstündə yatır.

Ona yumşaq yataq sərmək istədikdə, belə buyurdu... **"Mən dünyada bir atlıya bənzəyirəm ki, bir saat bir ağac altında yatıb, sonra gedir"**. Onun evladları isə elə azad və könlü-gözü tox tərbiyə almışdılar ki, onlar da xalqa xidmət etməyi öz vəziyyətlərini yaxşlaşdırmaqda üstün bilirdilər.

Peyğəmbər (s.ə.v.v.) bir gün qızı **Fatimeyi Zəhra** (s.ə) ın evinə daxil olur. Görür ki, qızı qolundakı qolbağı başqa bir qadına sevinclə göstərir və deyir: Bunu Əbülhəsən *(Əlibni Əbitalib ə.s)* mənə hədiyyə etmişdir. Həmişə qızına böyük məhəbbət göstərən peyğəmbər (s.ə.v.v.) bu dəfə heç oturmadan evdən çıxır. **Fatimə** (ə.s) başa düşür ki, hörmətli ağası şəhərin müxtəlif yerlərində adamların ac yaşadıqları şəraitdə özün daş-qaş ilə bəzənməsini istəyir. Ona görə də dərhal qolbağı göndərib satdırır və onun pulu ilə bir köləni satın alıb azad edir. Bu xəbər peyğəmbərə çatdıqda belə buyurur: **"Şükür olsun o Allaha ki, Fatiməni oddan qurtardı."**

Peyğəmbər (s.ə.v.v.) dostlarından biri deyir: "Bir gün peyğəmbər (s.ə.v.v.) ikindi namazına bizimlə qaldı və birdən-birə tələsik adamların arasından keçərək, evə getdi, az

keçmədən qayıdıb, buyurdu: müsəlmanların mallarından bir qədəri mənim evimdə qalmışdır. Birdən yadıma düşdü, qorxdum ki, onun mənim yanımda qalması məsuliyyət törədə. Odur ki, getdim onları yoxsullar arasında paylayıb qayıtdım".

İslam peyğəmbəri eyni zamanda qüdrətli bir hökmdar idi. Onun qüdrəti və nüfuzu gündən-günə artır, şöhrəti və sədası hər yeri bürüyürdü. O çoxlu zəfərlər əldə etmiş, Məkkə və Hüneyn hadisələri kimi, çoxlu miqdarda sərvət onun ixtiyarında idi.

Buna baxmayaraq, o unutmamışdı ki, bu mallar, müsəlmanların ümumi mallarıdır. Və özü isə bir müsəlman kimi sadə yaşamaq məcburiyətində qalmasına baxmayaraq, özü üçün artıq pay götürməzdi.

Peyğəmbərn şücaəti və məqamı o qədər çox idi ki, o ən ağır böhranlarda özünü itirmirdi. Bu barədə **Əli bin Əbu Talib** (ə.s) belə buyurur: Müharibə atəşi şiddətlə alışdığı və hər tərəfi təhlükə bürüdüyü vaxtlarda peyğəmbər (s.ə.v.v.) düşmənə hamıdan yaxın olurdu və biz özümüzü onun pənahına verərdik. Bir gün peyğəmbər (c.ə.v.v.) çöldə bir ağacın altında tək dincəlirdi. Düşmənlərin biri onu tanıyır və əlində qılınc onun üstünə hücum çəkir. Peyğəmbər (s.ə.v.v.) uzanmış vəziyyətdə düşmən ona müraciət edir:

**"Səni bu iti qılıncdan kim qurtara bilər?"**

Peyğəmbər (s.ə.v.v.) əhvalını əsla pozmadan cavab verir:"Allah" düşmən qılıncını sürətlə aşağı endirərkən, qılınc əlindən yerə düşür və peyğəmbər (s.ə.v.v) dərhal aya-

ğa qalxır, qılıncı yerdən götürür və düşmənə deyir: **“Səni bu qılıncdan kim qurtara bilər”**. Son dərəcə qorxmuş düşmən, heç kəs deyə cavab verir. Peyğəmbər (s.ə.v.v.) onu bağışlayır, günahından keçir və buyurur: **“Rəhm etməyt məndən öyrən”**

Bundan sonra o Həzrətin səmimi yoldaşlarından biri olur. Bəli, peyğəmbər (s.ə.v.v.) dosta, düşmənə qarşı mehriban idi, o qeyrətli olub. İgidliklə yanaşı güzəşti və insanlığında nəzərdən qaçırmırdı. Eyni zamanda haqq və ədalətin həyata keçirilməsində heç bir güzəştə yol verməyirdi. O kimsənin haqqını tapdanmasına, hətta bir qulun o sahibi tərəfindən incidilib, işgəncə edilməsinə izn vermirdi.

İslamın və müsəlmanların nüfuz və mövqeini təhlükədə gördükdə, düşmən qarşısında igidliklə dayanar, heç də süstlüyə yol verməz və geri otuzdururdu. Bəli Qurani Kərim Ənfal surəsinin 124-cü ayəsində buyurur:

**“Allah kimi peyğəmbərliyə seçdiyini daha yaxşı bilir”.**

**Həzrəti Məhəmməd** (ə.s) müsəlmanlar bir yerdə cəm olsun deyə öz evini buraxdı və o dövrdə təzə müsəlman olan Ərqamın evinə köç etdi. Ərqamın evi, Səfa dağının ətəyində və Kəbənin yaxınlığında idi. Uzaq və yaxın yerlərdən Kəbəyə ziyarətə gələnlər, hamı buradan keçirdilər.

Müsəlmanlığı qəbul edənlər, şəhərin bu istiqamətində yerləşmişlər.

Həzrəti Peyğəmbər (ə.s) onlara Quran ayələrini oxuyur və dinin əsaslarını öyrədirdi. Onları dini, bilgisizlikdən *(cəhalətdən)* qurtarmağa çağırırdı.

Bu evə gələnlərdən bir çoxları, İslamı qəbul etdilər. Xalq rəislərinə tabe olduğu üçün, **Həzrəti Məhəmməd** (ə.s) Qureyş qəbiləsinin əyan və əşrəfini müsəlmanlığa dəvət etməkdən heç yorulmayıb, bunların müsəlman olmaqlarını şiddətlə arzu edirdi.

## OLUNAN ƏZİYYƏTLƏR

Bir gün **Həzrət Məhəmməd** (ə.s.) zil-məcaz Məkarəh bazarına gəlmişdi. Müqabilində bir qırmızı libas var idi. Xəlqə nəsihət edib və:

- **Ey insanlar! Allahdan başqa Allah yoxdur... Allah birdir, deyin ki, xilas olasuz...** deyərdi.

**Əbu Cəhldə** peyğəmbər (ə.s.) xəlqə xitab edərkən, onun bərabərində; dalında gəzir və bihəya sözlər deyir:

- Bu adam yalançıdır, inanmayın! -deyə dad çəkirdi. Və bir tərəfdən peyğəmbəri (ə.s.) daşlayırdı.

Həcc mövsümündə, peyğəmbər (ə) ziyarətə gələn hacılarla görüşüb:

- Öz içinizdən hansınız, Allahın əmirlərini yerinə gətirmək üçün mənə yardım edərsiz?.. - deyə soruşdu:

Kafirlər isə, Məkkə şəhərinin eşiyindəki yollarda hacılara müntəzir olub onlara:

Məhəmmədin yalanlarına aldanmayınız deyərdilər.

Kafirlər **Həzrəti Məhəmməd** (ə.s.) əziyyət etmək üçün səy göstərirdilər.

Habelə Qüreyişin rəisləri heç bir fürsəti əldən vermirdilər və o həzrətə ağır işgəncələr verirdilər.

**Həzrəti Məhəmməd** (ə.s.) bütün bu acı həqarətlərə səs çıxartmadan taqət gətirir və səbri əldən buraxmırdı.

**Həzrəti Məhəmməd** (ə.s.) aləmləri yaradan tanrısına pənah gətirmişdi. Yalnız ona güvənirdi, hər yardımı ondan istəyirdi.

Əbu Talib ta sağ idi kafirlər həzrət peyğəmbərə sui-qəsdə cəsarət etmirdilər. Yalnız müsəlmanlardan bəziləri kafirlərin işgəncələrinə düçar olurdular. Lap çox işgəncəyə düçar olan müsəlmanlardan biri də **Bilal Həbəşi** idi.

Zalimlər, müsəlmanlardan əllərinə keçənləri, kimini qumlar içinə soxub, kimini isti günəş qabağında isti daşlar üstündə buraxıb intizarda saxlayıb və onlara bu işgəncələr arasında:

- Lat və Uzza bütləri Məhəmmədin dinindən əladır! - dedirtmək üçün məşğul edirdilər.

Müsəlmanlardan çoxu bu qorxunc işgəncələrə böyük bir dözümlülük göstərirdilər.

## ŞƏHİD EDİLƏN MÜSƏLMANLAR

Yasirlə anası Suməyə ilk şəhid olan müsəlmanlardır.

Yasir, kafirlər əlində şəhid edilmişdi. Bəni məxzum qəbiləsinin əyanları, Suməyəyə işgəncə etdikləri zamanda həzrəti peyğəmbər (ə) oradan keçirdi və bu mənzərəni görəndə:

- Səbr edin ey Yasir övladları, sizin gedəcəyiniz yer cənnətdir - deyə buyurdu.

Suməyə, bu işgəncələri verən Əbu Cəhlə can acısı ilə ağır sözlər söylədi. Bu səbəblə biçarə arvadın ayaqlarını yerbəyer dəvəyə bağladılar.

Beləcə də bədənini parça-parça edib, şəhid etdilər.

## ƏMMAR YASİR

Yasir ilə Suməyəni şəhid etdikdən sonra, növbə oğulları Əmmarə çatdı. Ona da böyük işgəncələr verməyə başladılar. Əmmar verilən işgəncələrə dözmədi və kafirlərin istədiyi sözləri söyləməyə məcbur oldu. Peyğəmbərə: - **"Əmmar dinindən döndü"**- deyə xəbər verdilər. Həzrəti peyğəmbər:

- Heç vaxt! Əmmar dinindən dönməz, o, başdan-başa imandır. Əmmarın əti ilə dərisinin arası iman ilə doludur, deyə buyurdu. Həqiqətdə Əmmar, sonralarda islamiyyətdə çox böyük xidmət etmiş və peyğəmbər tərəfindən çox sevilmişdi.

O bütün həyatında heç bir mənfəət gözləmədiyi üçün səhabələr arasında uca bir mərtəbə qazanmşdır. Əmmar kafirlərin əlindən qurtaran kimi peyğəmbər (ə.s.)-ın hüzuruna gəldi. Çəkdiyi cəfa və əziyyətləri ağlaya-ağlaya söylədi. Həzrət peyğəmbər mübarək əli ilə Əmmarın gözlərini sildi və ona təsəlli verdi:

- Ey Əmmar! Əgər sənə dübarə işgəncə edərlərsə sən yenə onların istədiklərini söylə... - deyə buyurdu. Əmmar Yasir həqiqətdə bir ayə nazil oldu. Nəhl surəsində 106-cı

ayədir. Ayədə buyurulur: **“Əmmar”**ın qəlbinin iman ilə dolu olduğu halda. Bunun səbəbilə həzrəti peyğəmbər Əmmarə:

**- “Ey Əmmar, səni Allaha üsyan edən bir firqə öldürəcək”**- deyə buyurdu. Həqiqətəndə Əmmar Süfeyn davasında Müaviyə tərəfindən şəhid edildi.

## XALQA XİDMƏT

İmanlı şəxslərin dostluq məcaraları və onların arasındakı əlaqə və bağlılıq, elə bir orqanizmə bənzəyir ki, onun bir üzvü ağrıdıqda qalan üzvləri qızdırmaya, yuxusuzluğa düçar olar. *(Məhəmməd peyğəmbər (ə.s.))*

İslam yardım, həmkarlıq və xidmət dinidir. Bu yardım müsəlmanların arasında olan səmimi əlaqədən yaranır. Onların arasındakı məhəbbət və bağlılıq da əqidə birliyindən irəli gəlir. O, elə məhz bu möhkəm əqidə birliyi onların arasında səmimi qardaşlıq əlaqəsi yaradır.

Qurani Kərim buyurur: **“Möminlər bir-biri ilə qardaşdırlar”**.

Əgər insanlar özlərini bir orqanın üzvləri kimi bilib, başqalarına da özləri və yaxın adamlarına baxdığı kimi baxıb, özləri üçün bəyəndikləri şeyləri başqalarınada bəyənsələr, hər cür güzəştin, fədakarlığın və qarşılıqlı xidmətin əməli yaranar və xalq, cəmiyyətin inkişaf etməsi və adamların vəziyyətinin yaxşılaşması naminə, yorulmadan çalışar.

İslam peyğəmbəri başqa şəxslərin xeyrinə çalışan şəxsləri müsəlman kimi tanıyır. O buyurmuşdur: **"Səhər yuxudan durarkən müsəlmanların işlərini islah etmək fikrində olmayan şəxs müsəlman deyildir"**.

Həmçinin xeyri və üstünlüyü başqalarına faydalı olmaqda görür.

Peyğəmbər (ə.s.) buyurub: **"Ən yaxşı adamlar, başqalarına faydalı olan şəxslərdir"**. İslamın tarixi xüsusilə, islam tərbiyyəsinin geniş və dərin kök saldığı ilk dövrlər, müsəlmanların müxtəlif qurumlarda göstərdikləri ictimai fədakarlıq və xidmətlərlə doludur. Müsəlmanların bir çoxu, başqa müsəlman qardaşlarına səmimiyyətlə kömək edər. Onlara öz evlərində yer verər. Onları var-dövlətlərinə ortaq edər, onlarla çox mehriban və səmimi davranardılar. Bizim imamlar və rəhbərlərin ömrü boyu xalqa xidmət etmiş, əsirlər və qulları azad etmiş yoxsullara yardım etmiş və yoxsullara yardım göstərmişlər. Onlar yetimləri himayə edər, xəstələrə baş çəkər, onların sağlamlaşması, vəziyyətlərinin yaxşılaşması naminə çalışardılar. İmamlar təcavüzə məruz qalanlara kömək edərdilər.

Bir sözlə imamlar bütün həyatları boyu xalqa xidmət etmək naminə çalışmışlar. Onlar xalqın narahat olub, geri qalmalarından əzab çəkib, həmişə onların qayğısını çəkmişlər.

Bir çox əxlaqi fəzilətlərin də elə məhz bu kimi əlaqələr, islami qardaşlıq və məhəbbətlər nəticəsində yaranır. Doğrudan da, insanlar özlərini bir-birinə səmimi qardaş bilərkən qeybətdən, xəyanətdən, kin bəsləməkdən, qara

yaxmaqdan, istehzadan, təfriqədən və sairə bu kimi yaramaz əməllərdən istər-istəməz çəkinəcək, yaxın yoldaşlar kimi bir-birinə xəyanət etmək fikrinə düşməyəcək. Başqalarını narahat edən əməllərindən imtina edəcək. Bir-birini qorumağa çalışacaqlar. Necə ki, İslam peyğəmbəri buyurmuşdur: **"İmanlı şəxslər bir binanın tərkib hissələri kimidir, bir-birini qoruyurlar"**.

## İSLAMDA TƏLİM-TƏRBİYYƏ

Üç şey iman əlamətidir: **"Şagirdlərə elm öyrətmək; özün yoxsulluqda yoxsullara kömək etmək; başqalarının xeyrinə öz haqqından keçmək"**.(*Həzrəti Məhəmməd (ə.s.)*)

İslamı elm dini kimi təqdim etmək olar. Çünki peyğəmbərə nazil olan ilk ayələrdə belə, Allah insanın diqqətini elmə cəlb etmiş və belə buyurmuşdur:

**"İnsana bilmədiyini öyrədən xaliq".**

İslamda elmin əhəmiyyəti o qədərdir ki, bu dünyada bütün üstünlüklərin ləğv edilməsinə baxmayaraq, imanla elm insanın ən böyük üstünlükləri sayılır.

Quranda oxuyuruq: **"Allah elm və biliyi olan şəxslərə başqalarından qat-qat çox üstünlük vermişdir."**

**Həzrəti Muhəmməd** (ə.s.)dan.

Aşağıda nəql edilən sözlər elm və biliyin əhəmiyyətinin açıq-aşkar göstərir.

**"Elmi Beşikdən qəbrə kimi axtar".**

*(Yəni elm öyrənməyin sərhədi yoxdur və zamanla məhdudlaşmayır. Habelə ömür boyu elmlə məşğul olmaq gərəkdir).*

Elm öyrənmək hər bir müsəlman kişiyə və qadına vacibdir.

*(Yəni elm öyrənmək ayrı-ayrı adamlara, ya siniflərə məxsus deyildir).*

Dünyanın hər bir nöqtəsində, hətta əgər Çində olmuş olsa belə, elm axtarın.

*(Yəni elmi dünyanın ən ucqar yerlərində öyrənmək lazımdır).*

Cahillikdən böyük yoxsulluq, alimlikdən böyük sərvət və fikirləşmədən böyük ibadət yoxdur.

**Həzrəti Məhəmməd** (s.ə.v.v.) elmi təbliğ edib yaymaq üçün hər bir imkandan istifadə edərdi.

Bir gün İslam peyğəmbəri məscidə daxil olub, görür ki, məscidin iki guşəsində iki dəstə adam məşğuldur.

Onlardan biri Allaha ibadət edir, başqa qrup isə elmi mübahisə ilə məşğul idi. İslam peyğəmbəri buyurdu: Hər iki dəstə yaxşı iş görür, lakin, mən çox istəyirəm ki, elm öyrənənlərlə olam. Peyğəmbər (ə.s.) bu sözü deyərək, elmi mübahisə ilə məşğul olan qrupa yaxınlaşır.

Bədr müharibəsində müşriklərdən bir iddəsi müsəlmanlar tərəfindən əsir düşdülər. Onların arasında oxuyub, yazmağı bacaranlar da var idi. Həzrəti rəsul buyurdu: **“Hər kəs müsəlman gənclərinin on nəfərinə savad öyrətsə, azad olacaqdır.”**

Müharibələrin birində İslamın peyğəmbəri orduya bir

sərkərdə seçmək istəyirdi. Bu işə yarayan bir neçə nəfəri hüzuruna çağırdı, onların bilik dərəcələrini, Quranı bilmələrini yoxladı. Məlum oldu ki, onlardan hamısından gənci daha biliklidir.

Həzrət onu sərkərdəliyə təyin etdi. Bir iddə onun hamıdan gənc olduğunu etiraz etdilər.

**Həzrəti Məhəmməd** (ə.s.) buyurdu: Onun Qurandan biliyi hamınızdan çoxdur.

Beləliklə, həzrət rəsul sərkərdəlik üçün biliyi əsas götürdü. Elə bu kimi islami təşviq və tərbiyənin İslam cəmiyyətinə göstərdiyi güclü təsir nəticəsində bilik əldə etmək fəaliyyəti, elmə yiyələnməyə əhval-ruhiyyəsi müsəlmanların arasında canlandı ki, onlar əsirlər boyu dünyada elm və mədəniyyətin qabaqcılı oldular.

## BÜTÜN ELMLƏRİ ÖYRƏNMƏK FAYDALIDIR

İslamda yalnız xüsusi bir elm sahəsinə deyil, həyatın yaxşılaşdırılması, adamların ehtiyaclarını aradan qaldırılması, yaşayış səviyyəsinin yüksəldilməsi üçün faydalı olan bütün bilik sahələrinə əhəmiyyət verilir.

Söz yox, hər bir müsəlman hər şeydən əvvəl öz dini, mənəvi və əxlaqi vəzifələrini bilməlidir. Çünki Allahı tanımaq, fərdi ailəvi və ictimai vəzifə və hüdudları düzgün yaşamaq qayda-qanunlarını bilmək hər şeydən öncə həyatın düzgün qurulması üçün zəruridir.

Bundan başqa müsəlmanlar başı uca və alnı-açıq yaşa-

yıb, dünyanın ən qabaqcıl xalqına çevrilib kimsəyə möhtac olmamağa çalışmalıdırlar. Digər tərəfdən İslam, həyatın bütün mənəvi və maddi sahələrini yaxşılaşdırmaq məqsədin güdən hər tərəfli din olduğundan müsəlmanlar bütün ictimai ehtiyaclarının ödənilməsi uğrunda birgə addımlar atmağa borcludurlar. İslam peyğəmbəri buyurduğu kimi:

**“Səhər yuxudan durarkən müsəlmanların işini islah etmək fikrində olmayan şəxs müsəlman deyildir”**.

Aydındır ki, tərəqqi etmiş bu günkü həyat şəraitində, elmin bütün faydalı sahələrində, müsəlmanların təhsil alması və ixtisaslaşması lazımdır. Müsəlmanlar belə olduqda cəmiyyətin ehtiyaclarını layiqincə ödəyə bilərlər.

## TƏRBİYƏNİN ƏHƏMİYYƏTİ VƏ MÜƏLLİMİN ROLU

İslamda tərbiyə işinə təlimdən çox əhəmiyyət verilir. Çünki, müsəlman iman, əmanətdarlıq, insanpərvərlik, dözümlülük və yaxşı əxlaqiyata malik olan şəxsdir. Bu müsbət keyfiyyətləri insana yalnız təlim yolu ilə deyil, həm də düzgün tərbiyə vasitəsi ilə aşılamaq olar. Buna görə də müəllim təlim işindən çox tərbiyə işinə diqqət yetirməlidir.

Həzrəti Məhəmməd (s.ə.v.v.) İslami bəşəriyyətin müəllim və tərbiyəçisi kimi təqdim edərək buyurdu:

Allah bir iddə cahilin arasına, Allahın ayələrini onlara oxuyub, onları tərbiyə edib, onlara kitab və hikməti öyrətməsi üçün bir peyğəmbər göndərdi. Bu ayədə tərbiyə məsələsi təlimdən öncə qeyd edilmişdir.

Müəllim uşağın tərbiyə edilib formalaşmasında çox böyük rol oynayır.

Buna görə də, hər bir müəllim öz mövqeyini dərk etməli, üzərinə düşən böyük vəzifəni layiqincə yerinə yetirməlidir.

İslam peyğəmbəri müəllimin hörmət və məramı barədə çoxlu fikirlər söyləmişdir. Bu isə müəllimin rəhbərlik və yaradıcılıq sahəsində çox mühüm rol oynadığını göstərir.

Müəllimin əxlaq və davranışının hər şeydən çox uşaqların tərbiyə işinə təsiri vardır.

Uşaqlar istər sinifdə, istərsədə sinifdən xaric müəllimin sözlərindən, onun davranışından, məsələlərlə yanaşmasından dərs alır və nümunə götürürlər. Buna görə də müəllim çalışmalıdır ki, məktəb mühitində, dini ənənə və mərasimlərə hörmət göstərib, özü təmizlik, düz danışmaq ədəb və yaxşı əxlaqi xüsusiyyətlərin örnəyi olsun.

## İSLAM PEYĞƏMBƏRİ (s.ə.v.v.)-NİN ÜMMƏTƏ BUYRUQLARINDAN NÜMUNƏLƏR

Əkinçilər xalqın sərvət xəzinələridirlər.

Onlar Allahın qüdrəti ilə bəhrələnən yaxşı məhsullar əldə edirlər. Onlarda bütün adamlardan yaxşı məqam və üstün mahiyyətləri vardır. Onlar faydalı və bərəkətli şəxslərdilər.

*(Allahın Rəsulu (s.ə. v.v.)*

İslam həyat dinidir. Bu din insanların məfkurə və ima-

nını islah etmək və yaxşılaşdırmaq sahəsində bir sıra təlimləri irəli sürməklə yanaşı, onların adi yaşayış şəraitini yaxşılaşdırmaq üçün də bir çox yollar göstərilmişdir. İşləməyi, müsəlmanlara bir vəzifə hesab edən islam, onlardan başqalarına möhtac olmamaq üçün özləri və ailələrinin yaşayışını qanuni yollarla idarə etmək üzrə işləmələrini tələb edir. Belə olduqda, islami cəmiyyətdə gen-bol dinclik şəraitində başı ucalıqla yaşaya bilər.

İslam peyğəmbəri (s.ə.v.v.) buyurur: Alimlər və ağıllılar tərəfindən üç məsələ diqqətə layiq sayılır: **"həyatı yaxşılaşdırmaq, Axirət dünyasına əli dolu getmə, halal ruzi"**.

Bəzən islam peyğəmbəri (s.ə.v.v.)nin hüzurunda bir nəfərdən söhbət düşür və xalq onun təqvalı olduğundan danışardı.

Bununlada, həzrət soruşurdu: bu şəxsin bir iş-peşəsi də varmı?

Əgər desəydilər ki, bu şəxs işsizdir, buyurardı: "Gözümdən düşdü". Yəni, onun gözündə işsizlərin, ibadət əhli olsaydılar belə, qədir-qiyməti yox idi.

Buna görə də hər bir müsəlmanın bir işi olmalı və müəyyən bir sahədə fəaliyyət göstərməməlidir. İnsan işləyirsə həm ailəsinin ehtiyacını təmin edər, həm də cəmiyyətə faydalı ola bilər.

Qanuni fəaliyyət növləri içərisində islam, istehsalat işlərinə böyük qiymət verir. Xüsusilə əkinçilik barədə müəyyən tapşırıqlar vardır.

## ƏKİNÇİLİK

İslam peyğəmbəri (s.ə.v.v.) Mədinəyə mühacirat etdikdən bir müddət sonra elan etdi. Hər kəs yararsız yeri abadlaşdırırsa, bu yer onun özünün olacaqdır. Bundan başqa əkinçilik və ağac əkmək barəsində də bir sıra göstərişlər irəli sürdü.

O, özü də şəxsən hamı ilə birlikdə işləyir, xurma ağacı əkərdi.

Çox keçmədən Mədinənin həndəvərində yararsız yerlər abadlaşdı.

Əhalinin yaşayışı yaxşılaşdı, bol məhsul əldə etdilər.

Bildiyimiz kimi imamlar və İslam rəhbərləri, o cümlədən **Əli İbn Əbu Talib** (ə.s.) əkinçiliyə böyük əhəmiyyət verər, toyuq-cücə saxlar, ağac əkmə, suvarma və ərazilərdə abadlaşdırma işlərində yaxından iştirak edərdi. Altıncı imam **Cəfəri Sadiq** (ə.s.) buyurmuşdur: "Mən şəxsən bağlarım və tarlalarımda işləyirəm və tər tökürəm. Tarlalarımda bir neçə fəhlənin işləməsinə baxmayaraq özüm də onlar kimi zəhmət çəkirəm. Mən özüm də işləyirəm ki, Allah, halal ruzi əldə etmək üçün işdən çəkinmədiyimə şahid olsun".

Başqa bir şəxs də belə nəql edir: "Mədinənin ətrafında gəzirdim. İmam **Məhəmməd Baqir** (ə.s.) həzrətlərini gördüm günün istisində alnından tər axaraq, öz bağını suvarırdı. Öz-özümə dedim: qəribədir. Böyük bir ailədən olan bu qoca kişi dünya malı toplamaq üçün necə də çalışır. Getdim ona nəsihət edim. Qabağa gedərək dedim: Siz Qüreyşin böyüklərindən olmağınız, qocalıq dövrünü keçirməyinizə

baxmayaraq, yenə də isti günün altında dünya işləri ilə məşğulsunuz. Əgər indi ölümünüzün vaxtı gəlib çatsa, siz nə cavab verəcəksiniz?

Həzrət buyurdu: Əgər belə bir vəziyyətdə ölsəm, çox sevinərəm. çünki Allahın göstərişlərindən birini yerinə yetirərkən ölürəm. Mən isti Günəş altında işləyirəm ki, özümlə ailəmin ehtiyaclarını ödəyəm və sənin kimi şəxslərə möhtac olmayam. Mən Allah qarşısında bir günah iş görərkən ölməkdən qorxaram."

**Hədis:** Bir gün Mədinə ətrafındakı əkin sahələrinin birində bir şəxs işləyirdi. O bərabərlikdən keçən bir ehtiyaclı şəxs sahədə işləyənə müraciət edərək ondan yemək üçün çörək istədi. Əkin sahəsində olan şəxs tələbkara öz heybəsinin qoyduğu yeri göstərib dedi: Get nə qədər istəyirsən çörək götür ye. Həmin şəxs gəlib heybənin ağzını açdı gördü bir neçə parça arpa unundan bişirilmiş quru çörək var. Baxdı gördü bu quru çörəyi yemək mənim üçün çətin olacaq. Çörəyi götürmədi, heybənin ağzını bağlayıb gedəndə, əkin sahəsində işləyən şəxs dedi: Nə üçün çörəkdən yemədin. *Dedi:* Mənim o çörəyi yeməyə dişlərim tab gətirməz. Ancaq sənin o zəhmətin müqabilində bu quru çörəyi yeməyini xəyalıma gətirirdim ki, sən buçörəyi yeyəndən sonra necə qüvvə toplaya bilərsən. Elə isə sən öz çörəyini yeyərsən. Mən ac da olsam onu yeyə bilmərəm. Əkin sahəsində olan Ərəb bildi ki, bu şəxs çörək quru və yavanlığı olmadığı üçün yemədi. *Dedi:* Ərəb qardaş, əgər ləzəttli yemək istəyirsənsə get şəhərə **Əli** (ə.s.) oğlu İmam **Həsən** (ə.s.) ehsan verən yeri soruş orda aclığını aradan götürə bilərsən.

Odur ki, həmin Ərəb gəlib o yeri tapdı. Xidmətçilər böyük mərhəmətlə onu qarşıladılar. Lazımi qədər cürbəcür yeməklər gətirib onun qarşı bərabərində yerə qoydular. Ərəb başladı yeməyə, xidmətçilər gördülər ki, ərəb bir tikə yeyir, bir tikə isə əbanın lifəsinə qoyur. Onun bu hərəkətinin müqabilində xidmətçilər etirazlarını bildirirlər. Ərəb dedi: mən götürdüyüm tikələri şəhərin yaxınlığında əkin sahəsində işləyən ərəb üçün aparacağam. Çünki o ərəb isti günün altında işləyir. Yeyəcəyi çörəyi də mən görmüşəm. Ona yazığım gəldiyi üçün istəyirəm yavanlıq aparım. Xidmətçilər bildilər ki, həmin şəxs bu ehsanxananın sahibinin atası **Əlibin Əbu Talib** (ə.s.)dır. Ərəb bu sözləri eşidəndən sonra elə bil yatmış idi, ayıldı. Öz-özünə dedi: Bu gündən etibarən məndə zəhmətə bağlanıb çörəyimi qazanmalıyam. **Əli** (ə.s.) kimi şəxsin işgüzarlığı tənbəlliyə aludə olan şəxsə işdən uzaqlaşmağa əsas oldu.

Bu sahədə din rəhbərliyindən çoxlu dastanlar və əhvalatlar nəql edilmişdir. Bunların hamısından belə nəticə çıxarmaq olar ki, islam işə, zəhmətə, xüsusilədə əkinçiliyə çox böyük əhəmiyyət verir və bir sıra adamların təbii nemətlər, yerdən və sudan faydalanaraq, öz yaşayışlarını təmin etmələrini daha yaxşı bildirir.

İslam peyğəmbəri (s.ə.v.v.) buyurmuşdur: **“Ruzini yerdən çıxar”.**

**Həzrəti Məhəmməd** (s.ə.v.v.) öz işlərini irəliyə aparmaq üçün çalışmayan adamları bərk danlayırdı.

O buyurdu: **“Suları və torpaqları olaraq, yoxsulluqda yaşayan şəxslərə lənət olsun.”**

## HEYVANDARLIQ

İslam peyğəmbəri (s.ə.v.v.) hələ peyğəmbərliyə seçilmədən öncə bir müddət qoyunları otarar və onları bəsləyərdi. Peyğəmbərlərin bir çoxu heyvandarlıqla məşğul olur və onlara xüsusi qayğı göstərirdilər.

**Həzrəti Musa** (ə.s.) ömrünün bir neçə ilini **Şueyb** (ə.s.)ın qoyunlarını otarmaqla keçirmiş, hətta çoban paltarında ikən ona vəhy nazil olmuş və peyğəmbərliyə seçilmişdir.

**Musa**(ə), sürünü otararkən əlində gəzdirdiyi ağac əsa olmuşdur. Quran dördayaqlıların və əti halal heyvanların adını Allahın yaxşı nemətləri sırasında çəkir, onların ətindən, yunundan, dərisindən xalqın istifadə etdiyini, habelə onlardan minik və yük daşımaq vasitələri kimi necə istifadə etdiklərini xatırladır.

Onların insanların xidmətində olduqlarını göstərir.

İslamın peyğəmbəri buyurardı: **“Heyvandarlıq, qoyun saxlamaq və əkinçilik sizin işiniz olsun**, **Süd verən qoyun, keçi və ya inək saxlayanlar bu heyvanların bərəkətli olduğunu bilsinlər”**.

## HEYVANLARI HİMAYƏ EDİB BƏSLƏMƏK

Heyvanları himayə etmə və onlara qayğı göstərmə barədə islamın bir sıra göstərişləri vardır. İslam peyğəmbəri (s.ə.v.v.) huyurmuşdur:

Dörd ayaqlı heyvanın öz yiyəsinin boynunda altı haqqı vardı: evə çatan kimi hər şeydən əvvəl onu yemləməlidir. Suyun yanından keçərkən heyvan susuzdursa, ona su verməli və heyvanın üzünə vurmamalı, Cihad meydana müstəsna olaraq heyvanı sürdüyü yerdə onun dalına minməli, həddindən artıq onu yükləməməli və yol aparmamalıdır. Din rəhbərlərinin bu sahədə çoxlu tövsiyələri olmuşdur. O cümlədən **Həzrəti Məhəmməd** (s.ə.v.v.) buyurardı: **“Qoyunların yataq yerini təmiz saxlamaq lazımdır”**.

## ƏXLAQ VƏ CƏMİYYƏT

***Əxlaq:*** Allah tərəfindən bəşərə bəxş edilən İslam dininin əhatə etdiyi ən vacib mövzudur

*(İslamiyyət: - Əxlaq gözəlliyidir)*

İslam peyğəmbəri **Məhəmməd** (s.ə.v.v.)

**“Mən gözəl əxlaqı ucaldıb tamlamaq üzrə göndərildim”** buyurub.

İnamımız və ibadətlərimizin əsası: Necə Allahın əmrlərinə, Quranımızın dediklərinə və Uca peyğəmbərimizin söz və yaşayışlarına uyğunsa: Əxlaqi dayaqlarımızda tamamilə o əsaslara uyğundur. Belə ki, dinimizin bütün əmr və hökümləri, insanları əxlaqlı etmək üçündür. Çünki insan, bu ilahi ölçülərə uyğun bir əxlaqa sahib olduğu müddətdə insandır. Bundan uzaqlaşdığı zaman, şəkil etibarı ilə insana bənzəsə belə, bu xasiyyəti baxımından insan deyildir.

**Cəmiyyətlərdəki anlayışı saxlar: iman,**
**Onsuz artıq, canavardan da betərdir insan!**
**Yaxar insanlığı artıq, qovulur haqsızlıq,**
**Uçrumlar kimi, qorxunc olan əxlaqsızlıq.**

Bizim dinimizdə ən incə nöqtəsinə qədər aydınlaşdırılmamış heç bir əxlaq qaydası göstərilə bilməz.

Bir müsəlman üçün Namaz qılmaq, oruc tutmaq, Zəkat vermək, Həccə getmək neçə bir dini vəzifə isə, əxlaqlı olmaq, ailəsinə yaxınlarına və yoxsullara yardım etmək, təmiz olmaq, vətəni və milləti sevmək, onların xeyrinə çalışmaq da eyni şəkildə və eyni qüvvətdə qayəsi, bizim əxlaqlı olmağımızı saxlamaqdır.

Allah təbarək və təala Qurani Kərimdə buyurur: **“Namaz insanları gözlə görünən və görünməyən bütün pisliklərdən saxlayır”**.

Məhz ibadətlərini sağlam bir imanla və tərtəmiz bir qəlblə yerinə yetirənlər, sözsüz ki, mühitlərinin ən əxlaqlı insanı olurlar.

İçki, qumar, zina, yalan demək, söz gəzdirmək, qiybət etmək, ara vurmaq necə güclü qadağan edilmişsə, anaya, ataya saymamazlıq, müqəddəsliyə hörmətsizlik, vətən və millət sevgisindən uzaq olmaqlıq və s. pis xasiyyətlər də eyni dərəcədə və eyni gücdə qadağan edilmişdir.

İnsana bütün bu yasaqları Allah ona görə rəva bilmişdir ki, insan əxlaqi keyfiyyətləri mənimsəsin və həyatını əsil yaşayış mövqeyində qorusun. Bir zavod və fabrika emal etdiyi bir cihazın və ya mühərrikin nə şəkildə işləyəcəyini, necə baxılacağını, hansı şəkildə işlətdiyi zaman dayanaqlı və uzun ömürlü olacağını sözsüz ki, onu ixtira edən çox yaxşı bilir.

Bunun kimi, ruh və cismdən meydana gəlmiş insan varlığı da, yoxdan insanı var edən Allah, onun necə və nə şəkildə hərəkət və rəftarı təqdirində pisliklərdən, sıxıntılardan, xəstəlik və iztirablardan qoruna biləcəyini, əlbəttə, ən yaxşı biləndir.

Maşının - mühərrikinin baxma və işləmə tərzini bildirən və zavodu tərəfindən hazırlanmış olan kataloqu, necə bu xüsusda bizim çətinliklərimizi həll edir və nə etməyimizin lazım olduğunu bütün açıqlığı ilə bildirirsə, insan maşınını yoxdan var edən Allah da insanı ən yaxşı bilən olduğu üçün, bəndələrinə sırf lütf olsun deyə, necə və nə şəkildə olmağımızı Qurani Kərim vasitəsi ilə Uca peyğəmbərimizin yolu ilə bizlərə aydın bir tərzdə bildirmişdir.

Onun üçündür ki, Quran hökümlərinə tam mənası ilə bağlı olmayan və onun bildirdiyi ibadətləri gərəyi kimi yerinə yetirməyən bir kimsə, heç bir zaman, gerçək mənada əxlaqlı ola bilməz.

Tarix bizə göstərir ki, qısa bir zamanda gəlib böyüyən, mədəniyyət yolunda nailiyyətlər qazanan, rifah və hüriyyət içində olan nə qədər millət varsa, hamısı da bu durumlarına, ancaq və ancaq əxlaqi əsaslara bağlanmaları, elm və texnikaya yiyələnməyləri ilə əldə etmişlər. Əxlaq və elm heç bir zaman biri-birindən ayrılmamalıdır.

Bir millət elmə və texnikaya əhəmiyyət verərkən əxlaqı unudarsa, zalim bir millət olur. Əgər əxlaqa əhəmiyyət verirmiş kimi görünürsə, elmi birtərəfə buraxan, texnikanı qəbul etməyən bir millət isə, daima onun bunun hücumuna məruz qalan, zəif bir millət olur. Həm əxlaqa, həm də elm

və texnikaya əhəmiyyət verən bir millət isə, daima hakim və xoşbəxtdir. Qurani Kərim öz surə və ayələrində neçə millətlər və qəbilələr haqqında xəbər verir ki, əxlaqsızlıq ucbatından ilahi qüdrəti ilə batıb məhv olub gedirdilər.

Ad, Qəbiləsi, Səmud qəbiləsi, Lut qəbiləsi bu əsasdan batmışdılar.

- Nuh qəbiləsi, bu əsasdan suda qərq olunmuşdur.

Əlbəttə, Allahı, yaradanın əmr və hökümlərinə əməl etməyənlər, onun dəyişməyən, çətin qanunlarına çarparaq həlak olmağa məhkumdurlar.

Bütün bu sadaladığımız hər hansı dövrdə, mühitdə yaşayan Allah bəndələri üçün bir ibrət dərsi olmalıdır.

Çünki Allah öz bəndəsindən yaxşı əməl istəyir.

İndi baxaq görək bizim əxlaqi vəzifələrimiz hansı bölmələri əhatə etməlidir:

*1. Allaha, Peyğəmbərə qarşı olan vəzifələrimiz*

*2. Özümüzə qarşı olan vəzifələrimiz*

*3. Anamıza, atamıza və evladlarımıza qarşı olan vəzifələrimiz*

*4. Vətən və millətimizə qarşı vəzifələrimiz*

*5. İnsanlığa qarşı olan vəzifələrimiz*

## ALLAH VƏ PEYĞƏMBƏRƏ QARŞI OLAN VƏZİFƏLƏRİMİZƏ NƏLƏR AİDDİR

Bizi insan olaraq yaradan, saysız nemətlər verən, hər zaman və hər yerdə bizləri pərvəriş verib və qoruyan ancaq Allahımızdır. Onun əmrlərini yerinə yetirmək qada-

ğanlarından əl çəkmək hökmlərini yerinə yetirmək, sevin dediyini sevmək, sevməyən dediyini sevməyək.

Bizim borcumuz Allaha qarşı vəzifələrimizi sevə-sevə yerinə yetirərək, səhətli, şərəfli, bilikli və əxlaqlı bir insan olmaq. Bu həm də bunları yerinə yetirmək, hər şeydən əvvəl bizim dünya və axirət mənfətimizdir. Əgər belə etsək əqillilik etmiş olarıq. Səhhətimizi, nizamımızı, azadlıq və insanlığımızı qorumaq imkanı əldə edərik:

Əks təqdirdə, onun ilahi və dəyişməz qanunlarına və çətin əzabına qatılaraq dünyada və axirətdə zərər çəkərik.

Allah yeri, göyü, dünya və axirəti bütün aləmləri, **Məhəmməd Peyğəmbər** (ə.s) və beş kimsənə xatirinə yaratdı.

Peyğəmbər (ə.s) gəlimi bütün müsəlmanlara Allahı tanıtdı, Quranı öyrətməklə ilahi hökümlərdən bilik əldə etdilər. Peyğəmbər (ə.s) yaşayış tərzinin xüsusiyyətlərinin şirinliyini bəyan etdi.

Peyğəmbər (ə.s) gəlimi, boş olan əlimizə ilahi rəhmət işi bəxş olunmağına səbəb oldu. Vücudumuz şəfa tapdı, yetimlərin üzü güldü. Könül rahatlığı bəxş etdi, insanlar azadlıq və müstəqillik qazandılar.

Bizim vəzifəmiz: Onu canımızdan, malımızdan və bütün varlığımızdan daha çox sevmək, özümüzə daima örnək bilmək, kəlamlarından faydalanmaq, tövsiyələrini yerinə yetirmək xarakterini və şəriətini qorumaq, axirətdədə şəfaətinə qovuşmaqdır.

## ÖZÜMÜZƏ QARŞI VƏZİFƏLƏRİMİZ

Xaliqimiz öz bəndələrinə ruh, vucud və fikir etibarı ilə tərtəmiz olmalarını, səhətli olaraq sağlam, rahat yaşamalarını, qorxduqlarından əmin olub umduqlarını, qovuşmalarını, yəni qurtuluşa yetişmələrini istəməkdədir.

Bunların yol və üsullarını da Quranımız və peyğəmbərimiz vasitəsilə bizlərə bildirmişdir.

Sağlamğılığımızı, onun dediyi kimi qoruyur, ruhumuzu, fikrimizi və vücudumuzu onun əmr və hökümlərinə uyaraq, ibadətlərimizi lazım olduğu kimi edərək, əxlaqımızı Uca peyğəmbərlərimizkinə uyğunlaşdıraraq yaşayırıqsa, şübhəsiz ki, özümüzə qarşı olan vəzifələrimizi də yerli-yerində etmiş olarıq. Vücudumuz bizə bir əmanətdir. Onu ən yaxşı şəkildə qorumaq məcburiyyətindəyik.

Özümüz və ailəmiz baxımından, Vətən və millət yönündə buna məcburuq.

Dünya həyatını - əgər ağıllıyıqsa - insan kimi yaşamaq məcburiyyətindəyik.

Ancaq bu sahədə qorxduğumuzdan əmin ola bilər, xəyal etdiglərimizə qovuşa bilərik, dostumuzu, düşmənimizi ayırd edə bilərik, ölkəmizə, ailəmizə, yaxınlarımıza və bütün insanlara faydalı ola bilərik.

Bir dəfə düşünün:

Qəlbini Allaha bağlamayan, özünü ona yönəltməyən, küfr bataqlığında əziyyət çəkən bir zavallıda, puh sağlığı adına nə qalır?

Gününü içki və qumar masalarında keçirən, mədəsini

spirt çanağı halına gətirən bir biçarədə vücud sağlığımı qalar, fikir salamatlığımı düşünülər?

Allah, vətən və millət düşməni bir nəsibsizdən, cəmiyyət xeyrinə nə gözlənər?..

Hər əsrdə və hər dövürdə insanlardan bəzilərinin xəstəlik və iztirablar içində yanmaqları, rifah və səadətə çatmamaları və beləcə özlərinə qarşı olan vəzifələri yerinə yetirməmələri, ruh, fikir və vücudları arasında tam bir ahəng qura bilməmələrindən, yəni ilahi əmrlərə, islamın dediklərinə əməl etməmələrindəndir.

İslama bağlanmanı, insanlarımızın baş şərti, rahatlıq və səadətimizin əsası olaraq bilmək məcburiyyətindəyik.

Özümüzə qarşı olan vəzifələrimizi, ancaq bunu bildikdən sonra edə bilərik.

## ANAMIZA, ATAMIZA, UŞAĞIMIZA VƏ YAXINLARIMIZA QARŞI VƏZİFƏLƏRİMİZ

Bu mövzudakı ayə və hədisləri diqqətlə oxumalı. Necə ki, Qurani Kərim İsra Surəsi 23-cü ayədə buyurur:

**"Rəbbin ancaq özünə qulluq etməyinizi və anaya, ataya yaxşılıq etməyi əmr etmişdir. Əgər iksindən, yəni ana və atadan biri və ya hər ikisi, yanında qocalarsa, gərək onlara (Uf) belə deməyəsən. Onları incitməyəsən, ikisinin də könlünü alasan".**

Həmin surənin 24-cü ayəsi:

Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına

alıb: **“Pərvərdigara! Onlar mənim körpəliyimdən tərbiyə edib bəslədikləri kimi, sən də onlara rəhm et!”** de

25-ci ayə isə:

**“Rəbbiniz ürəklərinizdə olanları** *(qəlblərinizin sirlərini)* **ən yaxşı biləndir. Əgər əməli saleh olsanız** *(ata-ananıza bilmədən etdiyiniz pislikdən peşman olub tövbə etsəniz və bundan sonra onlarla yaxşı davransanız, bilin ki)* **Rəbbiniz, həqiqətən, tövbəkarları bağışlayandır”** buyurur.

O cümlədən 26-cı ayədə də:

**“Qohum-əqrəbaya da, miskinə də** *(pulu qurtarıb yolda qalan)* **müsafirlərə də haqqını ver. Eyni zamanda** *(mal-dövlətin əbəs yerə)* **sağa-sola da səpələmə buyurulur. İndi isə buna uyğun mövzuları peyğəmbər (s.ə.v.v.) hədislərində tanış olaq.”**

- Cənnət anaların ayaqları altındadır.

- Allaha şərik qərar vermək anaya-ataya asi olmaq, haqsız yerə, adam öldürmək, yalan yerə and içmək, yalançı şahidlik etmək ən böyük günahlardandır.

- Ananıza, atanıza yaxşılıq edin ki, uşaqlarınızdan da yaxşılıq görəsiniz. İffətli olun ki, qadınlarınız da iffətli olsunlar.

- Məni peyğəmbər göndərən Allahı əmin edirəm ki, anasına, atasına asi kimsə Cənnət iyini iyləyə bilməz.

- Atasının dostları ilə münasibəti davam etdirmək, atasına yaxşılıq etmək deməkdir.

- Hər kəs atasına öldükdən sonra ziyarət etmək istəyirsə, atasının dostları ilə görüşsün və onlara yaxşılıq etsin.

- Anasının, atasının hörmətini qazanmış olanlara müjdə olsun ki, Allah onların əmrlərini bərəkətləndirəcəkdir.

- Evladlarınız Allahın sizə ən gözəl hədiyyəsidir. Onları haram loxma ilə bəsləməyin.

- Evladlarınızı axmaq qadınlardan əmizdirməyin, çünki onun axmaqlığı süd ilə uşağa da keçər.

- Allahdan qorxun və övladlarınız haqqında - sevgi yolunda ədalətdən ayrılmayın.

- Atanın övladlarına verəcəyi ən böyük miras onları gözəl tərbiyə etməsidir.

- Evladlarınızın əxlaqının gözəl olmasına çalışın ki, Allahın mərhəmətinə qovuşasınız.

- Evladın ata üzərindəki haqlarından biri də atasının ona oxuyub yazmağı, suda üzməyi, atıcılığı öyrətməsi halal və təmiz olmayan bir ruzu ilə onu böyütməməsidir.

- Bir kimsə, başqasına ovuc açmadan çalışmaq, oğul-uşağına yaxşılıq etmək və qonşularına mərhəmət və yardımda iştirak etmək üçün pul toplayırsa, qazanırsa: qiyamət günündə o, üzü ay kimi parlaq olaraq Allahın hüzuruna çıxar.

- Heç kimsə əlinin əməyindən daha halal bir şey yeyə bilməz.

## VƏTƏN VƏ MİLLƏTİMİZƏ QARŞI VƏZİFƏLƏRİMİZ

Millətimiz insanlıq tarixinin ən qədim və ən şərəfli bir millətidir.

Tariximiz elmin-ədalətli, xeyrin-fəzilətin əlçatmaz örnəklərini verən, şanlı əcdadımızın qəhrəmanlıqları ilə doludur.

Bu bənzərsiz qəhrəmanlıqların tək qaynağı isə, şübhə yox ki, sahib olunan imandır.

İmansız bir qəlbdə vətən və millət sevgisi ola bilməz.

Vətən və millət sevgisi bir-birindən və bunların hər ikisi də din duyğusundan qətiyyən ayrıla bilməz.

Vətənsiz millət mütləq dağılar. Millətsiz Vətən tez-gec məhv olur. Dinsiz bir millət mütləq əzilər. Onun üçündür ki, bizim tariximiz başdan-başa yıxılmamaq və dağılmamaq əzminin, əzilməmək və diz çökməmək qeyrətinin qızıl səhifələri ilə doludur.

Torpaq əgər uğrunda ölən varsa: **VƏTƏNDİR**!..

Uğrunda ölünməyən torpağın aqibəti, əlbəttə, istiladır, parçalanmaqdır...

Üstündə yaşadığımız və öləndə qucağına sığınacağımız bu mübarək Vətən fani həyatlarını heçə sayaraq şəhid olanların və beləcə əbədi diriliyə qovuşanların, yəni əcdadlarımızın, bizə tapşırdıqları ən müqəddəs əmanətdir.

Bu uca əmanəti, bu əziz məmləkəti, bütün varlıq və xatirələri ilə sevməyimiz; onun bütünlüyünü, sərvətlərini daxili və xarici - hər növ təhlükə və fəlakətlərdən qorumağımız və bu mövzuda daima ayıq olmağımız, onu evladlarımıza tam və abad olaraq tapşırmağımız isə bizlər üçün həm dini, həm də milli bir borcdur.

Şübhəsiz: Vətən sevgisi imandandır!..

Bu imana sahib olmadın, yəni Vətən sevgisinin, məmləkət eşqinin ən mühüm vəzifə və təzahürlərindən biri də ona aid sərvətlərini qorumaq və onu fani dünyanın cənnəti halına gətirməkdir...

# İNSANLIĞA QARŞI VƏZİFƏLƏRİMİZ

İslamiyyət, İnsanlığa qurtuluş və cəhalətdən qurtarış dövrünü açdı. Çünki qurtarılacaqların ən başında insan gəlirdi.

Uca peyğəmbərin gəlməsiylə; insan oğlu, özünü dərk etdi, qiyamətini anladı, azadlığı daddı, rahat yaşadı. Müsəlmanlar yalnız özlərini düşünmədilər, digər insanlara da yardım etdilər, onlara da xəbər verdilər, bildiklərini onlara da öyrətdilər, ilahi hökmləri onlara da anlatdılar.

Əcdadımız gələcəyə, əsrlər boyu həmişə bu inancla getdilər. Əxlaqımızı, ədalətimizi cahana yaydılar.

*Müsəlmanlar:* özləri qədər ailələrini, ailələri qədər insanları oyadırlar. Gerçək inamı, tam təmizliyi, ədəbi və nəzakəti yaydılar.

Öncə ətraflarına, sonra daha uzaqlara qədər gedərək, fəlakətə uğrayanların, acı və sıxıntı çəkənlərin, insanlıq, haqq və azadlıqdan məhrum olanların yardımına qoşulurlar.

Hər müsəlman hər kəsə və bütün insanlara: yaxşılığı bildirməyə, pisliyə qarşı onları oyatmağa məcburdur.

Millətimiz tarix boyunca bu növlü və ən uca vəzifəni, ən yaxşı şəkildə bacarmışdır.

Müsəlman insanlığında xidmətindədir.

O bütün varlığa, şəfqət meylləri və lütf nəzərləri ilə baxar. İnsanları, dində qardaşı və ya xilqətdən bir, dostu bilir.

## DIN

Həzrəti **Məhəmməd** (ə.s.) müsəlmanlar bir yerdə cəm olsun deyə öz evini buraxdı və o dövrdə təzə müsəlman olan Ərqamın evinə köç etdi. Ərqamın evi, Səfa dağının ətəyində və Kəbənin yaxınlığında idi.

Uzaq və yaxın yerlərdən Kəbəyə ziyarətə gələnlər, hamı buradan keçirdilər.

Müsəlmanlığı qəbul edənlər, şəhərin bu qismətində yerləşmişlər.

Həzrəti Peyğəmbər (ə.s.) onlara Quran ayələrini oxuyur və dinin əsaslarını öyrədirdi.

Onları din bilgisizlikdən *(cəhalətdən)* qurtarmağa çağırırdı.

Bu evə gələnlərdən bir çoxları İslamı qəbul etdilər.

Xəlq rəislərinə tabe olduğu üçün, **Həzrəti Məhəmməd** (ə.s.) Qüreyş qəbiləsinin əyan və əşrəfini müsəlmanlığa dəvət etməkdən heç yorulmayıb, bunların müsəlman olmalarını şiddətlə arzu edirdi.

Bir gün müsəlmanlığı təbliğ etmək istədikdə Qüreyş əşrəflərindən Muğeyrə oğlu Vəlidə dini təlqin etməyə çalışarkən iki gözü kor Məktum oğlu Abdullah adında biri yanlarına gəldi:

- Ya **Məhəmməd** (s.ə.v.v.) Qurandan mənə də bəzi şeyləri öyrət - deyə müraciət etdi.

Həzrəti peyğəmbər (ə.s.) Vəlid ilə söhbət etdiyi bir zamanda bu kor adamın, sözünü yarıda buraxmasından xoşlamadı və onu ehmal edərək cavab vermədi. Əsasən Vəlidlə

məşğul olduğundan bu adamın orada olduğu fikrindən çıxdı.

Abdullah bir müddət gözlədikdən sonra, heçbir cavab almayacağını başa düşdü və ordan çıxıb getdi.

Bu adam gedəndən sonra peyğəmbər (ə.s.) ürəyində bir narahatçılıq hissi keçirirdi. Onu cavabsız qoyduğuna narahat oldu.

Bu gözdən məhrum olan adamın xahişinin rədd edilməsi Allahı tərəfindən **"Əbəsə və təvəlla"** ayəsi nazil oldu. Mənası budur:

- O, iki gözü kor yanına gəldiyi üçün üzünü büzüşdürdü, arxasını çevirdi. Sən nə bilirsən? Bəlkə onun səndən öyrənəcəyi bir şey var idi. Bəlkə sənin moizələrindən istifadə edəcək, nəfsini qurtaracaqidi.

Amma sən, səndən istifadə edən varlıların müsəlman olmaları üçün üstünə düşürsən, halbuki, sənin vəzifən ancaq söyləməkdir. Onun iman ilə təmizlənməsi üçün bu qədər ehtiyac yoxdur.

O kimsə ki, nəsihət arzu edib, yanına gəlir və Allahdan qorxar, sən ondan üz çevirsən, bilki elə deyildir.

Bu quran bir Moizədir istəyən onu eşidər...

Qüreyşlər içində **Həzrəti Məhəmmədə** (ə.s.) müqabil düşmənliyini çox bərk göstərənlərin başında, Əbu Ləhəb, Əbu Cəhl və Əbu Sufyan idilər.

Əbu Ləhəb **Həzrəti Məhəmməd** (ə.s.)-in əmisi idi. Amma onun **Həzrəti Məhəmmədə** (ə.s.) etdiyi əziyyətlər hamısından artıq idi.

**Peyğəmbər** (ə.s.) xalqı doğru yola dəvət edərkən, o gəlib peyğəmbərin (ə.s.) sözünü kəsərək ona yalançı, sehirbaz, dəli kimi sözlər deyərdi.

Əbu Ləhəbin arvadı Əbu Süfyanın bacısı idi. Bu arvad da yığdığı dəvə tikanlarını, peyğəmbərin (ə.s.) keçdiyi yollara tökərdi və onu bu vasitə ilə narahat edərdi.

Əbu Ləhəblə arvadının, peyğəmbərə bu əziyyətlərinə müqabil **"Məsəd"** surəsi nazil oldu. **"Məsəd"** surəsi ayəsində Allah buyurur: **"Əbu Ləhəbin əlləri qurusun. Onun qazancı və malı onu əzabdan qurtarmaz."**

O yaxında alovlu atəşə girəcəkdir və xurma lifindən ip düzəldib, odun daşıyan arvadının da əlləri qrusun".

Əbu Ləhəbin əleyhinə beləbir surə nazil olanda və arvadı ümmi Cəmili həmalətəl hətəb *(odundaşıyan)* adıyla adlandırmışdır.

Əbu ləhəbin bu surədən xəbəri olanda narahatçılığı çoxaldı, oğlanları Utəbə ilə Atibəni yanına çağırıb onlara: "Bu andan etibarən hər ikiniz də arvadlarınızı boşayacaqsınız! - əmrini verdi.

Utbə də o vaxt **Həzrəti Məhəmməd** (ə.s.) qızı Ruqiyyə ilə evlənmişdi.

Atibə də Həzrəti peyğəmbərin o biri qızı Umgülsüm ilə evlənmişdi. Bu iki qardaşlar hər ikisi peyğəmbər (ə.s.) damadları idilər.

Utəbə və Atibə atalarının əmrini yerinə yetirib axirəzzaman peyğəmbər (ə.s.) damadı olmaq kimi böyük bir şərəf və səadəti əllərindən verdilər.

Utəbə, yalnız arvadını boşayıb düz peyğəmbər (ə.s.) hüzuruna gəlib etdiyi çirkin hərəkəti, onun üzünün müqabilində belə təkrar etmişdi:

**- "Ya Məhəmməd! Bilirəm ki, sən məni sevmirsən.**

**Necə ki, mən də səni sevmirəm. Gətirdiyin dinə də inanmıram. Bu səbəblə qızuzu boşayıram xəbərin olsun”.**

Utbə, bu sözləri dedikdən sonra, peyğəmbərimizin üstünə hücum etmiş və yaxasından tutub köynəyini yırtmaq niyyətində olmuşdur.

**Həzrəti Məhəmməd** (ə.s.) bu təcavüz müqabilində ədalətini əldən verməyib və ona sadəcə nifrini elədi:

- Pərvərdigara! Bu adama yırtıcı canavarlardan birini müsəllət eylə!

Allah peyğəmbərimizin bu istəyini çox keçmədən yerinə yetirdi.

Utəbənin Şama gedərkən, çöl yolunda qabağına bir Aslan çıxıb onu parça-parça etdi. Həzrəti peyğəmbər Utəbədən boşanan qızı Ruqiyyəni sonradan Offan oğlu Osmana ərə vermişdi. Həzrəti peyğəmbərin Xədicədən Qasim və onun dalınca Əbdullah adlarında iki oğlu olmuşdu. Amma, hər ikisidə çox yaşamayıb öldülər.

Həzrəti Məhəmmədin oğlan övlad qalmamasına Qüreyşin kafirləri fürsət bilib orada, burada:

- Məhəmmədin adını yada salan və nəslini davam etdirən kimsəsi qalmadı. O ölüncə çox keçməz, yaddan çıxar gedər! - deyə bəyan edirdilər. Tanrının onu uca mərtəbələrə yetirdiyindən əlbəttə, xəbərləri yox idi.

Həzrəti peyğəmbər (ə.s.) bir dünya səltənəti qurmamışdı ki, dalısınca oğlu olmadığına xatir qorxusu olsun. Kafirlərin belə hərəkətləri, Həzrəti Muhəmmədin din qeyrətini və sözləşmə əzəmətini qüvvətləndirməkdən başqa bir şey deyildi.

## ƏLİ (Ə) DAN SUALLAR VƏ ONUN CAVABLARI

Ya **Əli** (ə) mənə xəbər ver Allah **Musa** (ə) dan qabaq bir kəslə danışmışdırmı?

**Əli** (ə) buyurdu: Allah təbarək və təala ilk dəfə ruhlar aləmində insanların ruhları ilə danışmışdı. Həmin vaxt həm yaxşı insanların, həm də pis insanların ruhları ilə danışmış onlarda cavab vermişlər.

İbnl Kəva bu cavabdan sonra elə zənn etdi ki, **Əli** (ə) özündən bu sözləri əsassız olaraq deyir. Həmin anda dedi: Ya **Əli** (ə) necə mümkün olar ki, Allah bütün insanlarla danışsın. Təəccüblüsü də budur ki, insanlar ona cavab veriblər.

**Əli** (ə) buyurdu: məgər Allahın nazil etdiyi Quranı oxumamısan? İbil Kəva buyurdu oxumuşam **Əli** (ə) dedi: bəs Əraf surəsi 172-ci ayəni oxumadın - Allah buyurur:

*(Ey peyğəmbər)* xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən *(gələcək)* nəsillərini çıxardıb onları özlərinə *(bir-birinə)* şahid tutaraq:

**"Mən sizin Rəbbiniz deyiləmmi?"** soruşmuş, onlar da: "Bəli Rəbbimizsən deyə cavab vermişdilər. *(Belə bir şahidin səbəbi)* qiyamət günü **"Biz bundan qafil idik"** deməsinlər.

O zamanı Adəm övladı Allah kəlamın eşitdilər, ona müsbət cavab verdilər. Onlar da pərvərdigarına mömün oldular.

**Əli** (ə)-ın vaxtında çox insanlar həm yəhudilər, həm müsəlmanlar, həm də xristianlar ona sual verib cavab almışlar. O suallardan bir neçəsin cavabı ilə dinləyək...

Ya **Əli** (ə) o hansı saatdır ki, nə gecəyə, nə də gündüz saatına aid deyil.

- O gün çıxandan qabaqkı saatdır ki, nə gündüz nə də gecə saatı hesab edilir.

**O hansı varlıqdır ki, atası yoxdur.**

- O şəxsin ki, atası yoxdur o **İsa** (ə)-dır.

**O hansı şəxsdir ki, tayfası olmayıb.**

- O şəxsdir ki, qəbilə və qohumu olmayıb o Adəm (ə)-dır.

**O hansı varlıqdır ki, ona qiblə təyin olunmayıb?**

Beytül haram üçün qiblə yoxdur. Çünki o yer müsəlmanın qibləsidir onun da qibləsi olmaz.

**O hansı qəbrdir ki, öz sahibini seyr etdirdi hər tərəfə?**

- O Həzrəti Yunis (ə)dır zaman ki, Allah onu Balığın qarnında məhbus etdi həmin balıq onu hər tərəfə dolandırdı.

**Ya Əli! Məni agah et o mövcuddan ki, gecə və gündüz görən və agahdır.**

- O mövcuddur ki, gecə və gündüz görür, o bir şəxsdir ki, peyğəmbər (ə) və onun sələflərinə imanı var.

O şəxs ki, peyğəmbər (ə)ın peyğəmbərliyini dərk etdi, ona inandı və iman gətirdi, həmin şəxs gecə və gündüz görən olar.

**Məni agah et o Mövcudan ki gündüzlər görür gecələr görmür?**

- Amma o şəxs ki, gecə görmür lakin gündüz görür o bir şəxsdir ki, peyğəmbər (ə)-ın sələflərinə münkür və peyğəmbər (ə) nisbətən mömündür. Bu şəxs gecə görmür, gündüz isə gorür.

**Məni Agah et o mövcuddan ki, gecə görür və gündüz kordur.**

- O şəxs ki, gecə görür və gündüz isə kordur. Peyğəmbərin Sələflərinə və ilahi kitablara iman gətirir. Lakin peyğəmbər (ə) imanı yoxdur. Bu şəxs gecə görür gündüz isə görmür.

**Ya Əli! o hansı şeydir ki, Allah üçün deyildir?**

- O şey ki, Allah vücudunda yoxdur ona şərik qərar verməklikdir.

**- O hansı şeydir ki, Allah yanında deyildir?**

- O şey ki, Allahın yanında yoxdur, o da zülm və sitəmdir. Allah heç kəsə sitəm etməz, hər kəs ona sitəm etsə o zülm ona özündəndir.

**- O hansı şeydir ki, Allah onu bilmir?**

- O ki Allah bilmir, o yəhudilərin qoludur ki, Allaha iman gətiribsə də Uzeyr (ə) Allahın oğlu adlandırırlar. Allah onu bilmir.

**- O hansı iki qeyri üzvi maddə idi ki, Allah onlarla danışıb və o söz nə idi?**

Onlar göy və yer idilər.

O ki, Allah buyurdu:

*(Allahdan əmr olundu)*

Ey yer! Suyu ud!

Ey göy! Yağışını saxla, açıl!..

deyildi su çəkildi tufan bitdi.

**- O iki gedən ki, hərəkət edirlər az və çox olmur gedişləri. Ancaq camaat onların hərəkətin görmürlər. Onlar nədir?**

- Onlar gecə və gündüzdürlər ki, həmin biri-birinin ardınca hərəkət edirlər. Onları camaat görmürlər.

**- O nədir ki, nəfəs alır o halətdə ki, canı yoxdur?**

- O sübh vaxtıdır necə ki, Qurani Kərimdə Təkvir surəsinin 18-ci ayəsində Allah buyurur:

"And olsun sübhə ki, "o vaxt nəfəs alır".

**- O nədir ki, çox və az olmur?!**

- Dəryadır ki, nə azalır nə də çoxalır.

**- O nədir ki, nöqsanı qəbul edir. Lakin çox olmur!**

- O insan ömrüdür ki, göz açıb yumunca keçən vaxtda nöqsan qəbul edir, ömrü də çox olmur.

**- Asimanın açarı nədir?**

- La ilahə illəllah.

**- O hansı mövcuddur ki, qövmuna hidayət etdi nə insdən idi, nə cinndən?**

- O ki, öz qövmünə hidayət edib yol göstərən Süleyman peyğəmbər (ə) ın qarışqası idi.

Quran o haqda buyurur. Ey qarışqalar öz yerinizə daxil olun

**- Ya Əli mənə xəbər 1,2, 3...12-dən.**

- Bir Allahdır ki, şəriki yoxdur.

- İki Adəm (ə) və Həvva (ə) dır

- Üç Cəbrayıl Mikayıl İsrafildir.

- Dörd Tövrat İncil, Zəbur Qurandır.

- Beş beş vəqt qılınan namaz vacibdir.

- **6** Allahın kəlamıdır. Quran Əraf surəsi

- 54-cü ayədə "Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq etdi".

**7** - Allahın Quranda danışığıdır yeddi təbəqə asimanın xəlq olunması. Təlaq surəsi 12-ci ayədə.

“Yedd göyü və bir o qədər də yeri yaradan Allahdır. Bunu, Allahın hər şeyi elmlə, ehtiva etdiyini biləsiniz deyə Allahın əmri onların arasında nazil olar.

**8** - Allahın Quranda danışığıdır. Ərş haqqında

Əl-haqqə surəsi 17-ci ayədə Allah buyurur:

“Sənin rəbbinin ərşini onların (başı) üstündə səkkiz mələk daşıyacaqdır!

**9** - Musa (ə)a Tur dağında nazil olan ayələr.

*(Torat deyir o doqquz göstəriş idi).*

**10**. Allahın Musa (ə)a on gündə əlavə Tur dağında qalmağa göstəriş verməsi.

**11**. Allahın sözüdür ki Həzrəti Yusifin yuxusu haqqında Quranda buyurur: **“Ey ata gördüm on bir ulduz mənə səcdə edirlər”**.

**12**. Allahın bəni israil haqda danışığıdır. Musa(ə) öz gövmü üçün su istədikd **“Ey Musa Əsanı daşa vur!”** dedik. O əsanı daşa vuran kimi daşdan on iki çeşmə fışqırdı. Hər kəs öz çeşməsini tapdı.

**Bir gün Rum hökmdarı məktub vasitəsi ilə Əli (ə) sual etdi: və cavabını xahiş etdi.**

- O nədir ki, bütün vücudunda yalnız ağzı vardır?
- O atəşdir ki, nəyi onun içərisinə atsan yeyər-yandırar.
- O nədir ki, vücudunda yalnız ayağı var?
- O sudur ki, hərəkət edir.
- O nədir ki, bütün vücudunda yalnız gözü var?
- O günəşdir ki, hər yerə nuru saçır

- O nədir ki, bütün vücudunda qol və qanadı vardır?
- O küləkdir ki, hər yerdə əsir.
- O hansı daşdır ki, bir dəfə öz yerindən hərəkət edib.
- O tür dağıdır ki, Əraf surəsi 170-ci ayədə buyurulur: "Bir zaman (Tur dağını yerindən qoparıb İsrail oğullarının başı üstünə kölgəlik (tavan) kimi qaldırmışdıq və onlar da elə güman etmişdilər ki, dağ üstlərinə düşəcək.

**- O hansı ağacdır ki, insan edə bilər onun kölgəsində yüz illik yol gedər, o ağacda başdan-başa o ərazini əhatə edər?**

- O hansı ağacdır və harada qərar tutub?
- O Tubi ağacıdır ki, Sidrətül-Müştəha adlanır.

Yeddinci göydə qərar tutub o behişt ağacıdır. Behiştdə o qəsr yoxdur ki, onun budaqları o qəsrlərin üstündə kölgə salmasın.

O ağacın bənzəri dünyada günəşdir ki, onun əsli birdir öz nuru ilə hər yeri işıqlandırır.

**- O hansı ağacdır ki, onu bir kəs əkməyib və suvarmayıb?**

- O həmin ağacdır ki, Allah təala Həzrəti Yunis üçün Balığın qarnından xaric olandan sonra qumluq səhrada göyərtdi ki, günəş onun bədənini yandırmasın. O boranı ağacı idi.

Necə ki, Saffat surəsi 146-cı ayədə buyurulur.

Və (başı) üstündə (ona kölgə salmaq üçün) iri yarpaqlı bir ağac (yaxud qabaq tağı) bitirdik.

**- O nədir ki, bir qabdadır iki rəngi var ancaq rənglər bir-birinə qarışmır, onun dünyada nümunəsi nədir?**

- O toyuq yumurtasıdır ki, sarı və ağ rəngi var heç vaxt bir-biri ilə qarışmaz.

**O nədir ki, ikidir üç degil? Günəş və Aydır.**

O nədir ki, üçdür dörd deyil?

O qadınların təlaqıdır

**O nədir ki, dörddür beş deyil?**

O Daimi əqddir dörd qadın almaq üçün

**O nədir ki, doqquzdur on deyil?**

O doqquz ay müddətdir ki, uşaq ana bətnində olur. On ay olmur.

**O hansı qasiddir Allah tərəfindən gəlib nə, insandır nə cinn?**

O qarğadır ki, Quran Maidə surəsində ayə 31 buyurur.

“Sonra Allah qardaşının cəsədini necə basdırmağı ona göstərmək üçün yer eşən bir qarğa göndərdi. Qabil dedi “Vay halıma! (Gör nə günə qalmışam) Bu qarğa qədər olub qardaşımın cəsədini də basdıra bilmərəm? O artıq peşman olmuşdu.

**O hansı yaranmışdır ki, insanların dediyin inkar etdi, nə insdəndir nə cinndən.**

O Canavardır ki, Yusif (ə.s)-ı qardaşları onu quyuya atdıqdan sonra bir canavarı tutub gətirdilər. Ataları Yəqubun yanına ki, qurd qardaşımızı yeyib.

Yaqub (ə.s) qurddan sual eylədi nə üçün mənim evladımı yemisən? Qurd dedi qardaşlar mənim barəmdə böhtan deyirlər, mən Yusif (ə.s)i yeməmişəm.

**O nədir ki, ondan az içəndə halal çox içəndə haram oldu.**

O Talut peyğəmbər (ə.s)ın çayı idi ki, öz qoşunu üçün

qərarlandırdı. Zaman ki, Talut Calut üzərində döyüşə başladı.

Bəni İsrail tayfası gəldi, susuzluq onlara qalib oldu. Bu zaman Allah əmr etdi Taluta ki, sənin qoşunun az olmasına baxmayaraq qalib gələcəksən.

**O hansı oruc tutmaqlıdır ki, orda yemək də, içmək də olur.**

Həzrəti Məryam (s.ə)ın tutduğu danışmamaq orucu idi. İsa (ə.s) dünyaya gələndə anası Məryəm (s.ə)ə qarşı çıxanlar onu günahkar sayırdılar. Bu zaman Məryəm (ə.s) danışmadı işarə etdi uşaqdan soruşun.

**O hansı diridir ki, digər diri canlıdan xaric oldu halbuki onlar həmcins deyildilər?**

O Həzrəti Yunus idi ki, Balığın qarnından xaric oldu. Bunların bir-birinə uyğun deyildirlər.

**O nədir ki, diri ikən yeyib içirdi. Öləndə əşyaya çevrilirdi?**

O Musa (ə.s)ın əsası idi. Əvvəl ağac budabı idi. O ağac su və torpaqdan qidalanırdı.

Lakin əsa ki, oldu sehri zahirə gətirmək üçün əjdahaya çevrilərək sehirkarların bütün sehrlərini yeyirdi, aradan aparırdı.

**O hansı uçandır ki, cücə olmayıb və özü də başqa uçanlar kimi də cücə qoymur?**

O uçan Həzrəti İsa (ə) ın palçıqdan düzəltdiyi quş idi. Allah öz qüdrəti ilə ona can verdi. Həmin quş gecə quşu, yarasadır.

Maidə surəsi ayə 110-da Allah buyurur.

“O zaman sən mənim iznimlə palçıqdan quşa bənzər

bir şey düzəldib onu üfürdün, o da mənim iznimlə quş olurdu.”

**O hansı ibadətdir ki, sahibi üçün əzabdır.**

O bir namazdır ki, məst olan şəxs şərab içəndən sonra qılır.

Necə ki, quran deyir. Məst olan halətdə namaza yaxın durmayın.

Həzrəti **Əli** (ə.s) hakimiyyətliyi dövründə iki qadın onun xidmətinə təşrif buyurub dedilər: Ya **Əli** (ə) bizim hansımızın haqlı olduğunuzu araşdır.

**Əli** (ə) buyurdu eşidirəm buyurun: Qadının birincisi dedi: Ya **Əli** (ə) biz ikimizdə eyni gündə eyni vaxtda dünyaya uşaq bəxş etmişik. Mənim uşağım bu qundaqdakı olandır. O qadın məndən əl çəkmir və bu oğlanın onun olduğunu iddia edir. İndi hər iki tərəfdən olan qohumlar münaqişə yaratmaq əzmindədirlər. Ya **Əli** (ə) xahiş edirik bu işdə bizə kömək et. Uşağın kimə məxsus olmağını sübut et. **Əli** (ə) ikinci qadınıda dinlədi. O qadında oğlan uşağının onun olduğunu iddia etdi. Sonra **Əli** (ə) birinci qadına üz tutaraq uşaq sənindir sual etdi?

Qadın bəli ya **Əli** (ə) mənimdir dedi.

İkinci qadın da öz iddiasında oğlan uşağı onun olduğunu bildirdi.

**Əli** (ə) onların hər ikisinin sözlərini dinlədi. Sonra ətrafında olanlara xitab edib dedi: Mənim üçün Ərrə gəturun. Ərrəni gətirib hazır etdilər. **Əli** (ə) göstəriş verdi uşağı qundandan çıxardıb qoyun yerə. Elə də etdilər. Sonra **Əli** (ə) buyurdu bu uşağı ki, hər iki qadın öz övladı bilir gərəkdir Ərrə ilə uşaq tən bərabərlikdə bölünsün və hər iki qadına

bir hissəsi verilsin. Qadınlardan biri sükut etdi. İkinci qadın isə həyəcanlı bir şəkildə qışqıraraq dedi:

Allah, Allah ya Əbülhəsən həqiqətdir istəyirsən ki, bu uşağı iki bölməsən, mən onda öz haqqımdan keçdim, uşaq elə qoy o qadında qalsın.

Mən sənin şərhindən razıyam. Öz övladımın ölməmək xatirinə o qadına verəsən. Bu vaxt **Əli** (ə.s) buyurdu:

Əllahu Əkbər! Uşağı verun bu qadına. Sual eylədilər ya **Əli** (ə.s) nə əsasnan belə qərar çıxartdın.

Əli (ə.s) buyurdu. Uşağın bölünəcəyini görən həqiqi ana övladı yaşasın deyə qəlbində olan analıq məhəbbəti ona bu təsir gücünü bağışlatdı və o da öz övladını o bir qadına verməyə razı oldu. Uşağı narahat olan anaya təqdim etdilər. Ana və qohumları da razı qaldı.

**Əli (ə) qan sual etdilər.**

**1. Məğriblə məşriğin arasındakı məsafə nə qədərdir?**

- Günəşin çıxıb batması qədər.

**2. Əgər bir şəxsi evdə saxlayanlar, evin qapı və pəncərəsini bağlayalar, evə heç bir yerdən iynənin keçəsi qədər işıq düşməsi üçün yer olmaya, Allah o şəxs üçün ruzunu haradan ona çatdırar?**

- o yerdən ki, ölümü ona bəxş edir.

**3. Suyun dadı necədir?**

- həyatın dadı kimi.

**4. Həqq ilə batil arasında məsafə nə qədərdir?**

- dörd barmaq eni qədər.

Həqq gözlə görmək, bati qulaqla eşitməkdir.

Gözlə görməyə iki nəfər ədalətli şəxs şahid olmalıdır.

**5. Göy ilə yerin arasında məsafə nə qədərdir?**

- məzlumun ahı icabətə yetənə qədər.

**6. Əli (ə) xidmətinə gəlib buyurdular ya Əli (ə) bir ana dünyaya eyni vaxtda əkiz uşaq bəxş edib. Uşaqlar biri-birinə bitişik vəziyyətdə. Uşağın biri ölmüş, o biri isə diridir. Bizə deyiblər ki, bunları kəsici alətlə ayırmaq lazımdır.**

Siz nə məsləhət görərdiniz?

Əli (ə) buyurdu: ölmüş uşağı torpağa basdurun diri uşağa süd verin qidalansın, bir neçə gündən sonra ölmüş cəsəd diridən ayrılacaq. Bu göstərişə əməl etdilər. Nəticəyə görə Əli(ə)a minnətdarlıq etdilər.

**7. Bir gün Əli (ə) xidmətinə bir uşaq gətirdilər ki, uşağın iki başı var idi. Başın biri o birindən ayrı idi. Əli (ə) dan sual etdilər ayə bu iki başlı uşağa irsdən neçə hissə çatır?**

Əli (ə) buyurdu. Uşağı yatızdırın hər iki baş yuxuda olanda həyəcanla uşağı çağırın dursun əgər eyni vaxtda hər iki baş oyansa irsdən bir pay, başın biri oyanıb o biri oyanmasa iki pay düşər.

**8. Əli (ə)ın yanına bir şəxs gəldi dedi: ya Əli mənim gözlərim xəstədir. Nə qədər müalicə etdirirəm sağalmır.**

Bəlkə siz bir yol göstərəsüz? Əli (ə) buyurdu get arvadun Mehriyyə pulundan bir dinar götür, ona təmiz bal al, yağış suyu ilə o balı qarışdır. İç gözlərün şəfa tapar. Həmin şəxs getdi göstərişə əməl elədi sağaldı. Gəldi Əli (ə) yanına dedi ya Əli bu təycinatı özünüzdən dediz yainki?...

Əli (ə) buyurdu Allah Qurani Kərimi Nisa surəsi 3-cü ayəsində buyurubdur.

Əli (ə)ın yenə iki qadın xidmətinə gələrək oğlan uşağının haqqında araşdırma aparmağı xahiş etdilər. Qadınların hər iksi deyirdilər oğlan uşağı - mənimdir. Əli (ə) göstəriş verdi qadınlardan biri hər iki qadının döşlərindən süd sağıb ayrı-ayrı qablara yığsın.

Eyni ölçülü qablara hər iki qadından süd cəm edilib Əli (ə)ın xidmətinə gətirdilər. Əli (ə) göstəriş verdi bir tərəzi gətirdilər. Hər iki qabdakı südü tərəzinin ayrı-ayrı gözlərinə qoyub çəkdilər. Baxmayaraq eyni tutumlu qablarda eyni miqdarda süd var idi, lakin bir qabın südü ağır gəldi.

Əli (ə) ağır gələn südün hansı qadından cəm edildiyini soruşdu və xidmətçi həmin qadını göstərdi. Əli (ə) buyurdu. Oğlan uşağı bu qadınındır. Sual etdilər Ya Əli (ə) nə əsasla?

Əli (ə) buyurdu oğlan uşağı doğan ananın südü qız uşağı doğan ananın südündən ağır olar. Ona görə də oğlan öz anasına verildi o biri qadın da bu işi təsdiqlədi.

**O hansı namazdır ki, rüku və səcdələri yoxdur?**

O Məyyit namazıdır ki, rüku və səcdələri yoxdur.

## ORDAN BURDAN, HƏR YERDƏN

***

Böyük alim **Eynşteyn** deyir: İnsanın məlumatı bilmədiyi şeylərə görə aləmin geniş fəzasına sarı olan bir nərdivan kimidir ki, insan hələ o nərdivanın bir neçə pilləsinə çıxa bilmişdir.

İnsana ən yaxın olan mövcudun həlli insanın özüdür. Görəsən, insan özünü tanıya bilmişdirmi?

İnsan öz vücudunda bir okeanca sirlərindən hələ bir o qədər də baş çıxarda bilməmişdir.

***

Aleksis Karl öz **"İnsan tanınmamış mövcud"** adlı əsərində yazır. İnsan başdan-ayağa məchul bir məcmuədir ki, onu butezliklə duymaq olmaz... Bizim daxili dünyamızın bir çox yeri hələ də tanınmamış qalır.

***

Əbül Fərəc **"Maraqlı əhvalatlar"** kitabında insanların zahiri əlamətlərini batinin bağlılığı ilə belə bəyan edib.

Zəif əzələ, dolu bədənlik, əl-qol ilə danışmaq, dərinin yumşaqlığı - bunların hamısı mərhəmətlilik həyalı olmaq nişanıdır.

***

Başı azacıq sağa əymək adəti, yeriyən də ayaqları gen qoyub əllərini bərk yelləmək, oturanda əllərini budlarının

üstünə qoymaq, danışanda müsahibin üzünə baxmaq - anadangəlmə alicənablığı və bütün işlərdə müvəffəqiyyət qazanmağı göstərir.

***

O adamın ki, qolları qılçalarından uzundur, fındıq burundur, piylidir, çox danışandır, qarnı tüklüdür - o uşaqlarını çox sevən atadır.

***

Əflatun deyirdi:

Axmağı 2 əlamətlə tanımaq olar.

O həmişə elə sözlər danışır ki, o sözlərin ona heç də xeyri yoxdur.

O həmişə özgələrinin işinə qarışır.

***

Qalın qaşlar xırda gözlər, qalın dodaqlar və uzun burun, qadının mənfi cəhətlərinə dəalət edir.

***

Donbalan gözlü və hər şeyə diqqət yetirən adam lovğa, təkəbbür və təbiətcə işbaz olar.

***

Çox qırmızı sifət - şəraba hərislik nişanıdır. Sifətin belə rəngi şərabın həddindən artıq işlətməsi nəticəsində olur.

***

Tüklü sinə və tüklü qarın- sabit olmamaq diqqətsiz nəticə çıxarmaq nişanəsidir.

Belə adamları quşlara bənzətmək olar.

***

İti baxış yırtıcı təbiəti xarakterizə edir. Belə adamı qartala bənzətmək olar.

***

O adamın ki, üst dodağı alt dodağından enli və qırmızıdır, özü də cəld yerişlidir, o adam çox nadir hallarda düz danışar.

***

Yumuşaq saç qorxaqlıq nişanəsidir.

Cod Saç qüvvətlilik nişanəsidir. ***Məs:*** Dəvənin, dovşanın, quzunun tükü yumşaq, şir və qabanın isə cod olur. Quşlar haqqında da bunu demək olar.

Qarnının altında tükün çoxluğu, ehtiraslı təbiəti bildirir.

***

Daxilində qüvvə hissedilən iri gözlər *(xüsusən sol göz)* və gözəl sifət müdrikliyi, sevgini, o cümlədən çox bilmişliyi göstərir.

***

Rza şah Pəhləvinin tacı 25 aprel 1926-cı ildə atası böyük Rza şahın tacgüzarlığı üçün düzəldilmişdir.

Bu tac 3380 briliyant, 5 zümrüd, 2göy yaqut və 368 mirvari ilə bəzədilmişdir.

Fərəh xanımın tacının hündürlüyü 16 sm, çəkisi 1600 qram tacda 1469 briliyant, 36 zümrüd, 36 qırmızı yaqut,

105 mirvari və 150 karat altıbucaqlı zümrüd yerləşdirilmişdir.

***

Fətəli şahın əbası 40 kq ağırlığında olub.

***

Nəsrədin şah Qacarın hakimiyyəti vaxtı 1869-cu ildə qlobus düzəltdirir. O qlobusda 51363 qiymətli daş, başlıca olaraq zümrüd Ləl Yaqut və briliyant sərf edilmişdir.

***

Böyük imperator tacı 1762-ci ildə II Yekaterinanın zövqünə uyğun məşhur zərgər Yeremiey Pozje hazırlayıb. Tacdakı briliantların miqdarı 4936, çəkisi 2858 karat tacın ümumi çəkisi isə 1907 qramdır. Taca yaraşıq verən ləlin çəkisi 398,72 karatdır. Tac Rusiya Almaz fondunda saxlanılır.

***

Yeriyərkən ayaqları silkələmək onu göstərir ki, o şir kimi yüksək xəyallarla məşğuldur. Əgər adamın qolları qövs şəklində əyilmişsə, bu əlamət xüsusən düzdür.

***

Biri-birindən aralı qaşları olan, sol gözü ilə göz vuran, qulağına tük çıxan və yerə baxan adam-zirək, çox bilmiş və qəddar olur. Xüsusən, əgər onun burnu bir az sola əyridirsə.

***

Çuxura düşmüş gözlər, enli alın, azacıq uzunsov sifət qoçaqlıq nişanəsidir. Belə adam çox yaşayar.

***

O adam ki, danışarkən tədricən səsini azaldır. Şübhəsiz o qəmgindir. Bəzən bu adamın böyük işgüzarlığını göstərir.

***

O, adam ki, sakit səslə danışır, quzu kimi ürəksizdir. O adam ki, zil səslə və dolaşıq danışır, keçi kimi axmaqdır.

Qırmızı damarlı girdə, donbalan gözlər, acıqlılıq, xəsislik və əxlaqsızlıq nişanələridir.

Əgər onun gözləri daim yuxarı baxırsa, deməli onun xasiyyətində heç bir yaxşı cəhət yoxdur.

***

Enli sifət xoş xasiyyətlik nişanəsidir. Aşağısı enli, yuxarısı ensiz sifət pis xasiyyətlilik əlamətidir.

***

Yekə şiş uclu burun, qara gözlər, uzun saç, naqqallıq etməyə həvəs - pis xasiyyətin nişanəsidir.

## XX ƏSRİN ƏN UCA ADAMLARI

Fillandiyalı Katanus 2 metr 83 sm.
Nyu-York sakini (1987) Eda Kami 2metr 81 sm.

Amerikalı R.Uodlou - 2 metr 71 sm.
Qadın Marina Vedis - 2 metr 55 sm
Pakistanlı Məhəmməd Alama Cainı 2 metr 51 sm, çəkisi 298 kq.

## XX ƏSR ƏN AĞIR ÇƏKİLİ ADAMLARI

Amerikalı Robert Hüqos - 500 kq
Berman - 488 kq.
1987-ci ildə dünyanın ən kök adamı Uolter Hadson (Nyu-York) - 450 kq
Avstraliyalı Albert Perker 399 kq
Amerikalı Roi Hayn 386 kq.

***

Yapon alimləri müəyyən etmişlər ki, hansı yerin suları kalsiumla zəngindir, orada uzunömürlü adamlar çox və ürək xəstəliyi az olur.

***

Adriatik dənizində yerləşən Rodi respublikasının 6 min əhalisi, Karib dənizində yerləşən Angeliya dövlətinin isə 100 kv.metr sahəsi və 6 min əhalisi vardır. Bu dövlətlər 1967-68-ci illərdə yaradılmışdır.

***

Göy-göl XIV əsrdə yaşamış Həmdulla qəzvini, göstərmişdir ki, 15 sentyabr 1139-cu ildə Gəncə yaxınlığında Xə-

rək (ya Xarik) adlı bir dağ zəlzələdən uçaraq oradan axan çayın qarşısını kəsmiş və bir gölün yaranmasına səbəb olmuşdur.

Həmin göl bir neçə əsr Xərək gölü, XIX əsrdən isə Göy-Göl adlanmışdır.

***

Futbol meydançasında hakimin fit səsi ilk dəfə o1881-ci ildə eşidilmişdir. Ondan qabaq isə hakim oyunu zəng ilə idarə edirdi.

***

Misirin qədim abidələrindən olan nəhəng pramidaların ən böyüyünə 2 milyon 300 minə qədər daş işlədilmişdir.

***

Görkəmli şərqşünas Mirzə Kazımbəy Kazan Universitetində L.N.Tolstoya ərəb və türk-tatar dillərindən dərs demişdir.

***

Eynşteyn Nobel mükafatına 1922-ci ildə layiq görülmüşdür.

***

I Pyotr sərxoş adamın boynuna 7 kq ağırlığında yük asdırar və yükün üstünə bu sözü yazdırardı: "sərxoşluğuna görə" sonra sərxoş adamı dustaqxanaya salarmış.

***

Ən kiçik quş kolibradır. Bu quşun çəkisi 5 qr-dır. Kiçik

olmasına baxmayaraq, saatda 80 km uçur. Meksika körfəzini 10 saata keçir.

***

Dünyada məlum olan 3670 quş növünün 700-dən çoxu keçmiş SSRİ ərazisində yaşayır.

***

Şimal ölkələrində yaşayan xırda qızılı tüklü quşlar istirahətsiz 4 min km uçur.

***

Afrika dəvəquşusunun hündürlüyü 275 sm-ə, uzunluğu 2 m, çəkisi 80-90 kq-a çatır.

Hər addımının uzunluğu 4 m, yumurtasının çəkisi 1440 q-dır. Bu da 24 toyuq yumurtasına bərabərdir. Kürk düşdükdə çox hirsli olur, hətta adamada hücum edir.

***

1986-cı ildə Cakarta zooparkına 7 metr uzunluğu və 200 kq çəkisi olan  xallı ilan buraxılmışdır.

***

Gözlüklü ilanın uzunluğu 1,5-1,8 m-ə  çatır. Ən güclü zəhərə malikdir. Bu növ ilanlar hava tempraturunun 0,003-0,005 S dərəcəsində dəyişdiyini duyur. Belə ilanlarda burun və gözlər arasında "termolokator" və ya "istilik gözləri" adlanan iki çökəklik vardır. Havanın çox cüzi belə dəyişdiyini bu orqanın hesabına hiss edir. Gözlüklü ilan dişlədiyi adam 3 dəqiqədən sonra ölür.

Hətta peyvənd etməyə vaxt çatmır.

***

Yer üzərində 2500 ilan növü məlumdur. Bunun 56 növü SSRİ-də, 22 növü isə Azərbaycanda yaşayır. 410 növ ilan insan üçün zəhərlidir.

***

Balıqlar saatda 2 km-dən 130 km-ə kimi (qılınc balıq) hərəkət edə bilir.

***

Ən iri gözlü heyvan Osminoqdur. Onun gözünün diametri 40-50 sm-dir.

***

Braziliya növündən olan arılar turş bal hasil edirlər.

Təbiətdən arı növünün yox olması 100 min bitki növünün yox olması demək olardı.

***

Madaqaskar meşələrində neştəri olmayan bal arıları olur.

***

Neştərsiz arılar yüksək keyfiyyətli bal verirlər.

***

Neştərsiz arılar 1 kq bal toplamaq üçün 300 min km-ə qədər məsafəyə uçur. Bu isə ekvator boyunca 7 dəfədən çox fırlanmağa bərabərdir.

***

Kenqurular ömrü boyu su içmirlər. Onlar suyu yedikləri bitkilərdən hasil edirlər. Kenquru saatda 50 km sürətlə qaçan və 4-5 metr, bəzən 13 metr hündürlüyə tullanan heyvandır.

***

Ayı ağır gövdəli, qısa bədənli və yoğun ayaqlı heyvandır, çəkisi 300 kq-a, bəzən növləri *(kamçatka ayısı)* 600-1200 kq-a çatır. Ayı gündə 40 kq yem yeyir. Pələnglə döyüşə bilir.

***

Pələng heyvanlar aləminin şahı sayılır. O öz şikarının üstünə 6-7 m. məsafədən və 3 m hündürlüyündən atıla bilir. Pələng 2-4 bala doğur. Boğazlılıq müddəti 12 gündür.

***

Dünyanın ən böyük zənglərindən biri 1404-cü ildə Pekində qurulmuş zəngdir. Onun ağırlığı 42 ton, uzunluğu isə 7 metrdir.

***

Ən böyük kitab XVII əsrdə nəşr olunmuş və Bermen Dövlət Kitabxanasında saxlanılan coğrafiya atlası sayılır. Bu cildin hündürlüyü 2 m, eni 1 metrdir.

***

Ən iri heyvan Göy Balinadır. Onun çəkisi 150 ton,

uzunluğu 25-30 metrdir. Mədəsinin tutumu 2 tondur, hər dəqiqə ürəyindən 8 ton qan keçir.

***

Yeni doğulmuş balinanın çəkisi 1,5-2 ton, uzunluğu 9 metrə çatır. Balası gündə 600 kq süd içir.

***

Quruda yaşayan ən iri heyvan Afrika filidir. Onun çəkisi 75 ton, uzunluğu 7,5 metrə çatır. Fil saatda 20 km qaçır.

***

Ən hündür heyvan Zürafədir. Onun hündürlüyü 4,8-5,8 metr, çəkisi 750 kq-a çatır. 7 metr hündürlüyündə olan ağac boyuna çata bilər.

Çox az yatan heyvandır. Gecədə cəmisi 20 dəqiqəyə çatır.

***

Ən cəld heyvan Leoparddır. O saatda 110-140 km məsafə qət edə bilir. Şir isə saatda 80 km məsafə gedə bilir.

***

Ən uzaq tullanan heyvan porsuqdur. O 15 metr tullana bilir.

***

Ən kiçik dırnaqlı heyvan 25 sm hündürlüyü olan cırtdan antilopdur.

***

Ən çox yuxuya gedən heyvan kirpidir. O, ilin 236 gününün yatır. Ayı isə 180 gün yatır.

***

Ən üzündil heyvan qarışqayeyəndir. Onun dilinin uzunluğu 9 metrə çatır.

***

Ən kiçik timsah isə alnı sığallı timsahdır. Onun uzunluğu 0,5 metrdən artıq olmur.

***

Ən səsli heyvan timsahdır.

***

Ən kiçik balıq - Filippin adalarında yaşayan pindikodır. Onun 8-12 milli metr uzunluğu, 15 milliqram çəkisi vardır.

***

Ən iri balıq cənubdayaşayan köpək balığıdır. Onun uzunluğu 15-23 metr, çəkisi isə 20 tona çatır.

***

Ən sürətlə gedən balıq qılınc balığı və marlindir. Bunların sürəti saatda 100-130 km-ə çatır.

***

İri qurbağa - Qərbi Afrikada yaşayan qoşaor qurbağasıdır, onun uzunluğu 40 sm, çəkisi 3,5 kiloqramdır.

***

Ən kiçik qurbağa - Seyşel adalarında yaşayan sarımsaq qurbağasıdır. Onun uzunluğu 2 sm-dən artıq olmur.

***

Ən zəhərli heyvan Cənubi Amerikada yaşayan, çəkisi 2-3 qr olan kokoi qurbağasıdır. Onun zəhəri gürzə zəhərindən güclüdür.

***

Daş kömürdən alınan süni qazdan istifadəedən ilk dəfə İngiltərə olmuşdur. Burada hələ XIX əsrin əvvəllərində süni qazla şəhər küçə və meydanlarını işıqlandırmağa başlamışlar. Londondan sonra 1820-ci ildə Parisdə, 1823-cü ildə Nyu-Yorkda, 1826-cı ildə Berlində, 1835-ci ildə Peterburqda 1865-ci ildə isə Moskvada qaz zavodları tikilmişdir.

***

1802-ci ildə böyük rus alimi V.V.Petrov elektriki kəşf etdi. 1876-cı ildə mühəndis T.N.Yabloçkov birinci elektrik lampası düzəldi.

***

Sonra V.N.Çikalov və A.N.Ladigin elektrik lampasını daha da təkmillədirdi.

***

Yer kürrəsində cəmi 500 min növbitki vardır. Bunun 17520 növü keçmiş SSRİ İttifaqında, 4100 növü isə Azər-

baycanda bitir. Yer kürrəsində 2500 növ bitkidən istifadə olunur.

***

Sədi Şirazi şer yazarkən qarşısına təzə açılmış qızılgül qoyarmış.

***

Tütünün vətəni cənubi Amerika olmuşdur.

1492-ci ildə X.Kolumb bu bitkini Kuba və Antil adalarında toplanmışdır. 1519-cu ildə İspanlar onu Avropaya gətirmişlər. Rusiyada XVI əsrdən, Zaqafqaziyada XIII əsrdən becərilir.

***

Üzüm və çay bitkiləri hələ eramızdan 4-6 min il əvvəl İspanlara məlum idi və onlardan istifadə edirdilər. Çay bitkisi Azərbaycanda 1893-cü ildən becərilir.

***

Hindistanda insanı elektrik cərəyanı kimi vuran ağac bitir. Ağacda ən yüksək gərginlik günorta ən azı isə gecə yarısı olur.

***

Tropik meşələrdə bitən bambuq alaq otu (hamı elə bilir ki, ağacdır) iki aya 30-40 metr boy atır.

***

Qaranquşlar hava pisləşənə yaxın çox aşağıda, aydın havada isə çox yüksəkdə uçur.

***

Yağışlı hava gözlənildikdə sərçələr dəstə ilə yer səthində toplaşır, ördəklər isə belə havada yorulmaq bilmədən suda üzürlər.

***

Payızda qarışqa topaları çox olarsa, qış çox sərt keçəcəkdir.

Hindistan hörümçəyi 18 il, ilanlar 3 il, it 117 gün ac qala bilir.

***

Zürafə 6 ay, Misir, Ərəb dovşanı 3 il susuz qala bilir.

***

Çinar qızılağacdan qabaq yarpaq açırsa, yay isti və quru, əksinə qızılağac çinardan tez yarpaqlayırsa, hava soyuq və yağışlı olur.

***

Çəyirtkənin eşitmə orqanları dizindədir. O, saniyədə 3 metr sürətlə tullanır.

***

Çalıquşu saniyədə 80 m, qaranquş 65 m, şahin 55 m, poçt göyərçini 35 m, çalağan və qartal isə 25 m. uça bilər. Onlar saatda 90-288 km sürətlə uçur.

***

Ən uzun dimdikli quş qılınc-dimdik quşdur, bədəninin uzunluğu 22 sm-dir.

Bunun yarısı, yəni 10-11 sm onun dimdiyidir. Bu quşu kolibr də adlandırırlar. Amerikada yaşayır. Çox sürətlə uçur, hətta adamın gözü bu uçuşu seyr edə bilmir. Dimdiyi ilə ilanın gözünü tökür.

***

Sürətlə danışmaqda ən çox söz işlədən (kişilər arasında) Fransada Nitsa şəhərinin sakini Rene Qramoni olmuşdur. O bir dəqiqədə 667 söz deyə bilmişdir.

***

Fransız Airi Beries öz rəsmlərini saqqalı ilə çəkir. Bunun üçün o saqqalını 6 il qırxmamışdır.

***

Amerikalı bir kişi 36 il bığını qırxdırmamışdır. Bu vaxt ərzində onun bığının uzunluğu 2,5 metrə çatmışdır.

## YAZI

İnsanın ən mühüm kəşflərindən biri də yazıdır. Yazının çox qədim və maraqlı tarixi vardır. İndiki dünyanı yazısız təsəvvür etmək çətindir. Lakin keçmişdə elə dövrlər olmuşdur ki, insanlar yazının nə olduğunu bilməyiblər.

Ən qədim dövrlərdə insanlar yazı əvəzinə şəkillərdən istifadə etmişlər.

Məsələn, ova getməyi bildirmək üçün onlar vəhşi heyvana zərbə endirmək səhnəsini təsvir etmişlər. Ovda qələbə qazandıqda vəhşi heyvanın şəklini dairə içərisinə almışlar.

Şəkil yazılar ancaq ümumi və mücərrəd məna verirdi. Alimlər şəkil yazılara piktoqrafiya adı vermişlər.

İndi alimlər arasında belə fikir mövcuddur ki, *(şəkil-yazı növü mezolit dövründə e.ə X-VII minilliklər)* meydana gəlmiş neolit - *(yeni daş)* dövrü isə *(e.ə VII-VI minilliklər)* onun tam formalaşması başa çatmışdır.

İnsanların təcrübəsi artdıqca onlar tədricən şəkil yazılar sadələşdirilib, işarələrlə əvəz edirlər. Əgər şəkil-yazıda ancaq mücərrəd və ümumi məfhumlar ifadə etmək mümkün idisə, işarə - yazılarda həmin ümumi məfhumu xırdalamağa imkan yaranırdı.

Tarixdə bu növ yazılara idioqrafik yazılar deyilir.

İdioqrafik yazılar da hər işdə müəyyən simvolik məna verir.

Məsələn, Çin yazısında **"Söz"** və yaxud **"danışmaq"** məfhumlarını bildirmək üçün ağız işarəsi, **"isti"** məfhumunu bildirməküçün **"ocaq"** işarəsi **"çox istidir"** demək üçün qoşa ocaq işarəsi çəkmişlər.

Eyni vəziyyəti Misirin qədim heroqlif yazıları haqqında da demək olar.

Qədim işarə yazılardan ancaq Çin yazıları bir qədər dəyişilmiş şəkil də həmin xalqın canlı dili ilə bərabər bu günə qədər qalmışdır.

Lakin işarə yazılar da dəyişilməz qalır.

Heroqlif və işarə yazılar daha da sadələşərək təxminən e.ə II minillik də Misirdə Heratik adlanan yazılar əmələ gətirdilər. Bu dəyişiklik təxminən belə yaranır. Bir əşyasını bildirən heroqlif işarə indi həmin əşyanın adı ilə bir heca işarəsi kimi qəbul edilir. Bu hecalardan isə yeni sözlər düzəldilir. Məsələn, fərz edək ki, Azərbaycan dilində olan **"ayaq"**, **"qab"** və **"ayaqqabı"** sözlərini heroqlif işarələrlə yazmalıyıq. Buna görə də bir **"ayaq"** üçün bir işarə, **"qab"** üçün ikinci işarə, **"ayaqqabı"** üçün isə üçüncü bir işarə lazımdır.

Heratik yazı ilə yazdıqda isə hər üç kəlməyə iki işarə bəs edir, həm də bu işarələr səs xüsusiyyəti qəbul etməyə başlayır.

Misirlilər ən qədim heroqlif yazıları daş üzərində həkk edirdilərsə, heratik yazıları artıq papirus üzərində yazırdılar.

Papirus Nil çayının kənarlarında yetişdirilən zoğlu ağacların qabığından əldə edilirdi.

Onun üzərində yazını müxtəlif boyalarla yazmaq olurdu.

Belə yazı materialının kəşf olunması insana öz fikrini bir yerdən başqa yerə, səsi eşidilə bilməyən yerlərə və daha uzaqlara göndərmək imkanı yaratmışdır.

Şərqin ən qədim xalqlarından olan Dəclə və Fərat çayları arasında yaşamış şumerlər misirlilərdən fərqli olaraq yazını dövlət idarələrində və şəxsi yazışmalarda gil lövhələr üzərində yazmışlar.

Buna görə də onlarda xüsusi yazı forması yaranmışdır. Bu yazılara tarixdə Mixi yazıları deyilir.

Alimlər müəyyən etmişlər ki, mixi yazılar eramızdan üç min il əvvəl meydana gəlmiş və bizim eraya qədər bir sıra qədim xalqların - şumerlərin, assurilərin, elamitlərin, gildanilərin, ürartuların, midyalıların mədəni həyatında böyük rol oynamışdır. Mixi yazılar Azərbaycanda tapılmışdır.

VII əsrdə Azərbaycanı ərəblər tutduqdan sonra, ərəb əlifbası qədim əlifbaları sıxışdırıb çıxartdı. İlk vaxtlar Kufi adlanan Xətt növündən istifadə olunmuşdur. XI-XII əsrlərdə bu xətt "Nəsx" deyilən xətt növü ilə əvəz edilir.

Daha sonra Nəstəlik və Süls adlanan xətt növləri yaradılmışdır.

Azərbaycanda bu xətt növlərinin zəngin nümunələri vardır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1929-cu ildə Ərəb əlifbası, Latın, 1939-cu ildə rus qrafika əsasında yaradılmış əlifba ilə əvəz edilmişdir.

Dünyada əlifbalar müxtəlif olduğu kimi yazı qaydaları da müxtəlif olmuşdur.

Məsələn, Çində, Koreyada olduğu kimi, Qədim Babilistanda yazını yuxarıdan aşağıya doğru yazırdılar. Sətr başa çatdıqdan sonra şaquli vəziyyətdə sağdan yenə sətr başlayırdılar.

Yazının inkişafı və yazılmasında kağızın kəşfinin misilsiz rolu olmuşdur.

İlk kağız eramızdan əvvəl II əsrdə Çində icad edilmişdir. Alimlər planetimizdə 2796 dil bunlardan 225 dilin yazısı olduğunu müəyyən etmişlər.

İlk kitab çapının əsası VIII əsrdə Koreyada qoyulmuş

kitab çapı ağac üzərində qravür üsulu ilə aparılırdı.

Avropada XV əsrin ortalarında İ.Qutenberq, Rusiyada isə 1559-cu ildə İ.Fyodorov mətbəə kitab çapını tətbiq etmişdir. Azərbaycanda ilk kitab çapı 1812-ci ildə, Azərbaycanda ilk çap qəzeti Tiflisdə nəşr edilən "Tiflis əkbarı", *(1832-ci il)* ilk jurnal isə "Kəşkül" *(1883-cü il)* olmuşdur.

Mixi yazılar fonetik əlifbalar yarandıqdan sonra istifadədən çıxdı.

Çünki mixi xətlər sözün əsil mənasında əlifba deyildi.

Artıq müəyyən edilmişdir ki, ilk əlifbanın vaxtı ilə Aralıq dənizinin Şərq sahilində yaşayan finikiyalılar eramızdan əvvəl XI-X əsrlərdə icad etmişdilər.

Finikiyalılardan əlifba Qərbdə yunanlara, romalılara, Şərqdə isə vaxtilə Ön Asiyada yaşamış aramey xalqlarına və Yəhudilərə keçmişdir.

Sonralar Roma, yəni latın əlifbası bütün Avropa xalqlarının əlifbaları üçün əsas oldu. Hazırda fransızlar, ingilislər, almanlar, çexlər və bir çox başqa xalqlar latın əlifbası ilə yazırlar.

Şərqdə isə aramey əlifbası əsasında hindlilərin, ərəblərin, farsların və s. xalqların əlifbası yaranmışdır.

Slavyan xalqların və o cümlədən rusların əlifbası IX-X əsrlərdə yunanlardan götürülmüş əlifba əsasında tərtib olunmdu. Azərbaycanda hələ bizim eranın I əsrində latın əlifbası ilə yazılmış abidə tapılmışdır. Bu yazı Qobustanda Böyükdaş dağının dibində, qaya üzərində həkk olunmuşdur.

Yazı imperator Domisian Sezar Avqust Germanskinin

dövründə Lütem Yuli Maksim ildırım sürətin XII Legionun adından yazılmışdır.

Mütəxəssislər onun eramızın 84-96-cı illər arasında yazıldığını qeyd edirlər,

Eramızın V - əsrində Azərbaycanda yunan əlifbası əsasında yerli - alban əlifbası yaradılmışdır.

Lakin Alban əlifbası çox davam etməmişdir. Bu əlifba ilə yanaşı ölkədə pəhləvi-fars əlifbasından da istifadə olunmuşdur. Pəhləvi yazılarına Dərbənd şəhərini qala divarlarda daş üzərində tapmışlar.

## QƏDİM PULLAR

Pul həmişə olmamışdır, tarixdə elə bir dövr vardı ki, insanlar pulun nə olduğunu bilmirdilər. Pul tarixin müəyyən inkişaf pilləsində meydana gəlmişdir.

Pulun meydana gəlməsi cəmiyyətin sonrakı inkişafı ilə əlaqədardır. Hər ölkənin iqtisadi və coğrafi xüsusiyyətlərinə görə müəyyən əmtəə pul rolunu oynamışdır.

İlk metal pulların xüsusi yazısı yox idi. Onları çəki ilə müəyyənləşdirirdilər.

O zamanlar metal çətin əldə edilirdi. Metal yataqları kəşf olunmamışdır. İnsanların ilk icad etdikləri metal da qızıl olmuşdur. 6 min il bundan qabaq insanlara qızıl məlum idi.

Qızıl pul əvəzi kimi dünyanın inkişaf etmiş ölkələrində 4-4,5 min il bundan qabaq istifadə olunmuşdur.

İlk qızıl pulun isə 2500 il yaşı var. İlk pulun harada zərb olunduğu mübahisəlidir. Bəzi müəlliflər ilk pulun e.ə. VIII-VII əsrdə Yunanıstanın Egina adasında, bəziləri isə Kiçik Asiyanın Qədim Midiya ölkəsində kəsişdiyini göstərirlər. Tarixin atası Herodot yazır ki, "İnsanlardan birinci olaraq onlar (midiyalılar) qızıl və gümüş pul istifadəyə vermişlər.

Yunanıstanda pul zərbetmə adəti e.ə: VI əsrdə İrana, e.ə. IV əsrdə Hindistana, Misirə və sonra başqa ölkələrə yayılmışdır.

Azərbaycanda tapılan ən qədim pullar e.ə. III-I əsrlərə aiddir. Onlar əsas etibarilə xarici ölkələrin *(selevkilərin, Arşakilərin, Romalıların)* pullarıdır.

Azərbaycanda pul kəsilməsi VI əsrə təsadüf edilir.

Azərbaycanda Sasani *(İran)* pullarından sonra VII əsrdən başlayaraq əsas etibarı ilə ərəb pulları dövriyyədə olmuşdur.

Ərəb pulları qızıl, gümüş və Misdən kəsilmişdir. Onlara dirhəm və fels deyirdilər. Azərbaycanda XII-XIIi əsrlərdə müstəqil Atabəylər, Eldəgizlər və Şirvanşahlar feodal dövləti yaratmışdı.

Eldəgiz Təbrizdə, Şirvanşahlar Şamaxıda otururdular. Həmin dövlətlər yerli pullar kəsdirdilər.

Bəşər tarixində uzun müddət metal pullar işlədilmişdir.

İlk metal pul əvəzçiləri dəri və parçadan yaradılır. Sonralar isə yeni mədəniyyət simvolu olan kağız daha münasib hesab edilir.

Beləliklə, pulun mübadilə vəsaiti kimi rolunun artması

nəticəsində kağız pul ortaya çıxır. Bununla yanaşı pulun ödəmə funksiyasının inkişafı nəticəsində kredit pulları *(61 gsil, çek v.s)* yaranır. Bu, pulu buraxan və kredit verən orqana, inamla nizamlanır. **“Kredit”** latınca **“inanmaq”** sözündəndir.

Kağız pullar ilk dəfə kağızın vətəni olan Çində tətbiq edilmişdir.

Azərbaycanda kağız pul Avropa ölkələrindən, demək olar ki, üç-dörd əsr əvvəl, yəni XIV əsrdə buraxılmışdır. Bu pullar Çin pullarına bənzəyirdi.

Təbriz şəhərində kəsilmiş həmin kağız pullara **“Çao”** deyilirdi. **“Çao”** pullar 0,5 dirhəmdən 10 dinara qədər olan gümüş pulun qiymətini əvəz edirdi.

Lakin feodal hərc-mərcliyi dövründə kağız pullar uzun müddət istifadədə qala bilmədi. Onu yenə də metal pulla əvəz etdi. Kağız pul əsasən XVII-XVIII əsrlərdən istifadə olunmağa başlayır. Onlar geniş miqyasda əvvəlcə Amerikada, sonra İngiltərədə, Rusiyada və başqa ölkələrdə tətbiq olunur. Kapitalizm dövründə ticarətin güclənməsi ilə əlaqədar olaraq kağız pul daha geniş yayılmağa başladı. Kağız pul tez-tez qiymətdən düşdüyündən kapitalist dövlətləri kağız pulu ölkədə olan qızıl ehtiyatı dəyərlərində buraxmağa başladılar. Bu da pulun varlılar əlində toplanmasına səbəb olurdu.

Pul o vaxt kapitala çevrilir ki, istifadəyə buraxılan məbləğ əlavə pul yarada bilsin. SSRİ-də ilk kağız pul 11 oktyabr 1922-ci ildə buraxılmışdır.

1947-ci ildə ikinci dəfə SSRİ Ali Sovetinin sessiyasın-

da 1961-ci ildə yanvarın 1-də 10 manat 1 manatla əvəz olundu.

Müstəqil Azərbaycanın ilk pulu 1924-cü ildə və 1994-cü ildə buraxılıb.

## DUANIN ƏHƏMİYYƏTİ

Namazın hissələrindən biri duadır. Hətta namaz əslində dua mənasında olduğu da deyilmişdir. Bəlkə də həqiqi mənası diqqətdir. Duanın özü də Allaha diqqət etmək deməkdir. Bu fərqlə ki, ehtiyacı aradan qaldırmaq üçün edilən dua.

Ğafir surəsinin 60-cı ayəsində deyilir:

**"Mənə dua edin, mən də sizin dualarınızı qəbul edim!"**

Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər. "Bəli ibadət hər bir Allah bəndəsi olan müsəlman şəxslər üçün vacibdir. Çünki o ibadətinin sayəsində özünə məxsus ilahi yanında dərəcə qazana bilər. Quran özü də əslində duadır. Baxmayaraq ki, Quranda məxsus dualar Allaha bəndə və peyğəmbəri vasitəsi ilə olunur. Həmd surəsi Quranın birinci surəsidir. İlk oxunuşda insan Allahdan **"Bizi doğru yola yönəlt"** duasını edir. Onu da bilmək lazımdır ki, yadımızda saxlayaq bunları müstəqil dua kimi yox, Quran kimi oxumalıyıq.

Namazda Müstəhəbbi əməl olan Qunut Allaha dua etmək üçündür. Quranda dua ibadət kimi tanınmışdır. Bu, de-

diyimiz ayənin əvvəlindən və axırından məlum olur. Çünki, ayədə duayə əmr etdikdən sonra buyurur: Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər. Yuxarıdakı iki cümlənin əlaqəsindən belə çıxır ki, dua ibadətdir və dua eləməyi öz təkəbbürlərinə sığışdırmayıb Allaha möhtac olmadıqlarını sananlar böyük bir günah etmiş olurlar.

İnsan ibadəti bəndəlik olaraq edir, əslində də belədir, yəni mən bəndəyəm, sən tanrı və hər şeyin sahibi və hər bir işi görməyə qadirsən.

Duanın həqiqəti maliki-mütləqdən bir şey istəməkdir. Kimsə, başqa bir adamdan bir şey istəyəndə onun maliki-mütləq və küllən-ixtiyar olmadığını, Allaha möhtac olmadığından bir iş görə bilmədiyini bilməli və onu bir vasitə kimi tanımalıdır.

Mömünün hədəfi Allahdır və hər mömünlə əməkdaşlıq etməli, həmahəng olmalıdır.

Tohidin canı və Allaha etimad eləmək o deməkdir ki, insan bütün ehtiyaclarını təmin etmək üçün məhz Allaha yönəlməli, məhz ona arxalanmalı, ondan yardım diləməli və başqa heç bir şeyə etimad etməməlidir.

## MƏHƏMMƏD (S.Ə.V.V) PEYĞƏMBƏRİN DİGƏR PEYĞƏMBƏRDƏN FƏRQLİ SİFƏTLƏRİ VARMI?

Bəli, bizim peyğəmbərdə digər peyğəmbərlərdə olmayan üç artıq sifət vardır.

**Birincisi:** Xatəmülənbiya, yəni son peyğəmbər olmasıdır.

*(Dünyanın sonuna qədər peyğəmbərdir.)*

**İkincisi:** Həm insanların, həm də gözlə görülə bilməyən varlıqların, yəni mələklərin və cinlərin də peyğəmbərləri olmasıdır.

**Üçüncüsü:** Şəriətinin və gətirdiyi prinsiplərin dünyanın sonuna qədər davamlı olmasıdır.

## MÜSƏLMAN OLMAYAN KİMSƏLƏR, BİZİM YAXIN DOSTLARIMIZ OLA BİLƏRLƏRMİ?

Allah təala Qurani Kərimdə Bəqərə surəsinin 120-ci ayəsində buyurur:

"*(Ya Məhəmməd)* Sən yəhudi və xaçpərəstlərin millətlərinə *(dinlərinə)* tabe olmayınca onlar səndən qətiyyən razı qalmayacaqlar. Onlara de: ... Düzgün yol, yalnız Allahın göstərdiyi yoldur!" Əgər sənə gələn elmdən *(vəhydən)* sonra onların istəyinə uyasan, o zaman səni, Allahdan *(Allahın əzabından)* qoruyacaq nə bir dost, nə də bir köməkçi tapılar".

Ali İmran surəsinin 118-ci ayəsində isə:

**"Ey iman gətirənlər! Öz din qardaşlarınızdan başqasını özünüzə dost və sirdaş etməyin"**.

Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkmirlər. Sizin zərərə və əziyyətə düşməyinizi istərlər.

Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından

çıxan sözlərdən aşikar olur. Amma ürəklərində, gizlətdikləri *(düşmənçilik)* isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə, *(onların sizə bəslədikləri ədavət barəsindəki)* ayələri artıq sizə izah etdik.

Həmin surənin 119-cu ayəsində isə:

Bəli siz o kimsəsizlərsiniz ki, onları sevirsiniz, onlar isə sizləri sevməzlər. Siz kitabın hamısına *(bütün ilahi kitablara)* inanırsınız. Onlar sizinlə görüşdükləri zaman: **"Biz də inandıq"**, - deyir.

Xəlvətdə olduqda isə sizə qarşı qəzəblərindən barmaqlarını gəmirirlər. *(Ya Məhəmməd)* De ki: **"Acınızdan ölün!"** Əlbəttə, Allah ürəklərdə olanları biləndir.

Xristianlar və yəhudilər islam tarixinin hər dövründə hər növ adi yaltaqlıq və riya ilə xain planlar düşünmüşlər. Böhranlı günlərdə də müsəlmanlara qarşı, bütün xainlikləri ilə, hətta, iyrənc işgəncə və zülmlərlə siyasətlərini, təcavüzlərini yüyürtmüşdülər.

Bu sifət və təcavüzlər, siyasi, ictimai, hərbi və iqtisadi sahələrdə daima eyni möqeyi və eyni yolu təqib etmişdir. Onun üçündür ki, bunlara qarşı müsəlmanların davranışı:

Onların hər zaman bizi soracaqlarını, əzəcəyini bilərək, dost kimi görünən saxta təbəssümlərinin arxasındakı xainliyi sezərək, daima ciddi və xəbərdar, Bəlli sahələrdə dost deyil, ancaq müttəfiq və orta Sirr verməkdən uzaq, Xüsusən çətin günlərdə yardımlarına gözləməyəcəyimiz biçimlərdə olmalıdır.

## BU GÜNKİ XRİSTİANLIQDA "TƏK ALLAH"A İNAM VARDIRMI?

Yoxdur. Təslis - deyilən bir ilah sisteminə inanırlar. Bu inama görə - həzrəti İsa həm Tanrı və Baba, həm oğul, həm də Ruhul Qudus, yəni müqəddəs Ruhdur. Xristianlar bunu *(üçdən ibarət olan bir tanrı)* şəklində ifadə edirlər.

Ən bəsit bir məntiqin qavraya biləcəyi bu təzadın tək Allaha inanmaq ilə heç bir əlaqəsinin olmadığı aşikardır. Həzrəti **İsa** (ə.s) da bütün peyğəmbərlər kimi müsəlmandır.

Çoxları həzrəti **İsa** (ə.s) çarmıxa çəkilərək öldürüldüyünü deyirlər.

Qurani Kərim açıqca buyurmuşdur ki, yəhudilər Həzrəti **İsa** (ə.s) bənzətdikləri Yuda adlı havariyi həzrəti **İsa** (ə.s) zənn ilə çarmıxa çəkərək öldürdülər. Bu əsnada Həzrəti **İsa** (ə.s) Allah tərəfindən dördüncü göyə çəkildi ölməmişdir, indi sağdır. İmam zaman (ə.s) zühurunda yerə enəcək. **İmam** (ə.s)a kömək edəcəkdir. Onun çarmıxa çəkilərək öldürüldüyü yolunda deyilənlər əsassızdır. Qurana və tarixi gerçəkliyə ziddir.

## MARAQLIDIR

Sufizmdən yazan müəlliflər dərviş ordenlərinin miqdarını müxtəlif göstərirlər.

***Məsələn:***

**1.** Dosson-32, Fon-Hammer və Vamberi-36, Mirzə Kazım bəy-35 Çoi Bron-12 dərviş ordenin yarandığını və yayıldığını qeyd edirlər.

İlk dərviş ordeni Veysi ordenidir. Bu ordenin əsasını Uveyen qoymuş, Neysi Hicri 37 *(miladi 657)* -ci ildə vəfat etmişdir.

**2.** Hulvani ordeni - bu ordenin əsasını Şeyx Hulvaş qoymuş, Sufi Hicri 149 *(milad 766)*-cı ildə Cürdədə vəfat etmişdir.

**3.** Ədhəmi - bu ordenin əsasını İbrahim Ədhəmi qoymuşdur. Hicri 161 *(mil 777)*-ci ildə dəməşqdə vəfat etmişdir.

**4.** Batəmi - bu ordenin əsasını Bəyazid Bətami qoymuşdur. O Suriyada Cəbəl-Bətanda Hicri 265 *(miladi 874)*-ci ildə vəfat etmişdir.

**5.** Səqqati - bu ordenin əsasını Əbülhəsən sirri Səqqati qoymuşdur. O hicri 295 *(miladi 907)*-ci ildə Bakıda vəfat etmişdir.

**7.** Rufan, yaxud Betxon ordenin əsasında Seyid Əhməd Əbdül Əbbas Rufan qoymuş, Hicri 578 *(miladi 1182)*-ci ildə Bağdad və Bəsrə arasındkı ərazidə vəfat etmişdir.

**8.** Nurbəkş yaxud Suhrəverdi - Şihəbbəddin Suhrazərdi bu ordenin əsasını qoymuşdur. Hicri 6021 miladi *(1250-ci)* ildə Bağdadda vəfat edir.

**9.** Şozi - ordenin əsasını Əbdül Həsən Şozli qoymuş Məkkədə hicri 6171 *(miladi 1220)* vəfat etmişdir.

**10.** Mövləvi - Cəlaləddin Rumi Mövləvi ordenin əsasını qoymuşdur. O hicri 672 *(miladi 1273)*-ci ildə Konyada vəfat etmişdir.

**11.** Kübrəvi, Barəvi Əbdül, Nəqşebənd səhadi Bəktaşi xəlvəti zeyin Baban, Bayrami Əşrəfi Bukri Vəfan Sünbü-

lü? Yaqut Baim, Ummi Saşani, Cəlvətti, Uşaqi, Şəmsa, Sinani, Niyazi Müradi Nurəddini, Cəmali, Əşraki, Nəhmətullahi, Heyrəri.

Bütün dərviş ordenləri arasında müqəddəs qohumluq əlaqəsi vardır. Sufizm təriqəti XI əsrdə Yaxın və Orta Şərqdə kəndlərin feodallara tamamilə tabe edilməsindən sonra geniş sahədə yayıldı.

## NƏ ÜÇÜN AYAQLARA VƏ BAŞIN BİR HİSSƏSİNƏ MƏSH ÇƏKİLİR?

İmam Cəfər **Sadiq** (ə) dan ayaqlara və başa məsh edilməsini soruşduqda həzrət cavab verdi: Ayədə **"üzünüzü yuyun"** deyildikdə bilin ki, üzün yuyulması vacibdir. **"Dirsəklərlə birlikdə əllərinizi yuyun"** sonra iki əlin arasında bir fasilə yaradaraq başlarınıza məsh çəkin. Allah təala burada başınızın bir hissəsinə məsh çəkin deyə əmr etmişdir.

İndiki dövrdə tibb elmi müəyyən etmişdir ki, başa məsh çəkməklik Bioloji aktiv nöqtələrin fəaliyyətinə yaxşı təsir göstərir.

## NƏ ÜÇÜN CÜMƏ GÜNÜ QÜSL ETMƏK VACİBDİR?

**1.** Hüseyn ibn Xalid əs Sayrafi rəvayət edərək deyir ki, mən imam **Əli** (ə) dan cümə qusulunun nə üçün vacib olduğunu soruşduqda həzrət buyurdu: Allah fərz namazını nafi-

lə namazı ilə ramazan orucunu nafilə orucu ilə dəstəmazın vacibliyini cümə qüsulunun vacibliyi ilə tamamladı.

**2.** Əl-əshaq İbn Nəbatidən rəvayət olunur ki, imam **Əli** (ə) təkid etdiyi adama deyirdi: "Sən cümə qusulunu tərk etdiyin gündən bəri acizsən. Çünki cümədən-cüməyə qüsul təharəti sallayır".

## QUSUL NECƏ BİR TƏMİZLİKDİR?

Qusul sözü, **"Qəsələ"** sözündəndir. Mənası yumaq. Qusul maddi baxımdan olduğu kimi, mənəvi baxımdan da bir təmizlikdir. Çünki qüsul etməsi vacib olan bir şəxs, xarici görünüşünə qədər təmiz olursa-olsun, islam nöqteyi-nəzərincə qusul verilməyənə qədər təmiz hesab olunmaz.

Belə bir şəxs qusul etməsə narahatçılıqdan, daxili sıxıntılıqdan qurtara bilməz, işləri həmişə narahatçılıq olar.

İslam dini yalnız məcburiyyət hallarında deyil, hər zaman hər imkan olanda yuyunmağı (qusul verməyi) tövsiyə etmişdir. Bu səbəbdəndir ki, müsəlmanın, yalnız xarici görünüşü ilə deyil, görünməyən yerləri etibarı ilə də, mühitinin ən təmiz insanı olması gərəkdir.

Xarici görünüşü ilə tərtəmiz zənn edilən bəzi inamsız şəxslər daxili və görünməyən yerlərin yuyulmamaq cəhətinə görə nə qədər kirli və təmiz olmamalarını dərk etmirlər.

Təmizliyi, ancaq İslam dininin göstərdiyi əsaslara və tövsiyələrə uyğun şəkildə icra edənlər, təmiz olurlar.

Yoxsa, təmizlik, nə bir ətir, və boya, nə də krem və müxtəlif saç parladıcı preparatların işi deyil.

İslam dininin göstərdiyi ardıcıllıqla yuyunmaq, qüsul etmək və bütün vücudu daima təmiz saxlamaq, təmizliyi ibadət niyyəti ilə etmək və bunun zövq və səfasını dada bilmək xoşbəxtlikdir. Hər bir insanın tam mənası ilə təmiz ola bilməsi üçün fikrən və ruhən də təmiz olması şərtdir.

İslam dini bütün bu təmizlikləri dini gərəklər olaraq əmr edən, ən incə təfərrüatına qədər, bunların yol və üsullarını tərif edən, göstərən bir dindir.

## QİYAMƏT SORĞUSUNDA PEYĞƏMBƏR NƏSLİNDƏN OLMAĞIN FAYDASI VARMI?

İslam peyğəmbəri həzrəti **Məhəmməd**in (s) layiqli nəvəsi dördüncü imam **Zeynəl - Abidin** (ə) buyurur: **“Allah-təala behişti, Həbəşi qulda olmuş olsa, ona itaət edən saleh əməl sahibləri üçün yaradıb. Cəhənnəmi isə, Qüreyş övladı da olmuş olsa, ona itaətdən boyun qaçıranlar üçün xəlq edib”**.

**“Möminin”** surəsinin 101-ci ayəsində buyurulur:

**“Sur çalındığı gün, artıq onların arasında heç bir qohumluq əlaqəsi qalmaz və bir-birilərindən kömək istəməzlər”**.

Ravilərdən biri belə nəql edir. “Aylı bir gecədə Allah evini məvaf edərkən, könül oxşayan gözəl və qəmli bir səs eşitdim. Göz gəzdirəndə üzündən nur yağan bir gəncin

Kəbə pərdəsindən tutub, dua etdiyini gördüm. O deyirdi Ey mənim böyüyüm, ey mənim ağam!

Bəndələrinin gözünü yuxu aparıb, ulduzlar bir-birinin ardınca məğrib üfüqlərində gözdən itir. Sən isə oyaqsan, ətrafında heç zaman yuxu dolanmaz. Bu gecə yarısı padışahlar qapısını bağlamış, dostlar bir-birindən ayrılmışdır. Ehtiyaclıların üzünə açıq qalan bircə sənin qapındır.

Qapına gəlmişəm, xətakaram. Bağışlanmağa ümüdlə gəlmişəm. Lütf nəzərinin istəyi ilə gəlmişəm! Onu tanıdım. Bu imam **Zeynal Abidin** (ə) idi. Yaxınlaşıb dedim "Ey peyğəmbər balası, sizin haqqınızda təthir ayəsi nazil olub. Bu göz yaşları nədir? İman (ə) bururdu". Allah təala behişti itaətkar bəndələr, cəhənnəmi isə asilər üçün yaradıb. Qiyamət sorğusunda Həbəşi qul ya Qüreyş başçısı olmağın heç bir fərqi yoxdur.

## PEYĞƏMBƏRİ (Ə.S.) QOCALDAN SURƏ HANSIDIR?

**"Nurus-Səqələyi"**-də həzrət peyğəmbərin (c) belə buyurduğu nəql olunur:

**"Hud"** surəsi məni qocaltdı. Bu surənin ayələrindən alınan nəticə budur ki, müsəlmanlar heç vaxt düşmənin çoxluğu və hücumlarının şiddətinə görə meydandan qaçmamalıdır. İbn Abbas nəql edir: Həzrət Peyğəmbər (c) üçün heç bir ayə **"Sənə əmr edildiyi kimi istiqamətini"** *("Hud" sur, ayə 112)* ayəsi qədər çətin gəlməmişdir. Yaxınları Həzrət Peyğəmbərdən (c) saçının tez ağarmasının

səbəbini soruşanda, Həzrət (s) **"Hud"** surəsini səbəb göstərdi. Başqa bir rəvayətdə isə nəql olunur ki, **"Hud"** surəsinin 112-ci ayəsi nazil olanda Həzrət (s) buyurdu: **"Ətəyinizi kəmərinizə keçirin"**.

Bu hadisədən sonra Həzrəti (c) bir daha gülən görən olmadı. Haqqında bəhs etdiyimiz ayədə dörd göstəriş vardır:

**Sənə əmr edildiyi kimi istiqamətlən. Səninlə birlikdə iman gətirənlər də düz olsunlar. Tüğyan etməyin ki, Allah sizin nə etdiklərinizi görsün.** *("Hud" surəsi, 112-ci ayə)*.

Birincisi, həzrətin (s) istiqamətlənməsi, ikincisi bu istiqamətin ilahi rəngdə olması, üçüncüsü həzrətin (c) öz ətrafındakı müsəlmanları istiqamətləndirməsi və nəhayət, dördüncü göstəriş, bu mübarizədə ədalətə riayət olunmasıdır.

Başqa sözlə, istiqamət, ixlas, mömünlərə rəhbərlik və həddi aşmamaq. İnsanın kamilləşməsi üçün Allahın buyurduqları ən başlıca amildir.

İnsanın müəyyən qayəsi var, o da əbədi və xoşbəxt həyatdır. Məsələ burasındadır ki, hansı yol onu bu məqsədə aparır? Bu səfər üçün nələr lazımdır? Biz elə bir aləmdə yaşayırıq ki, hələ yolu bitməyib və hələ yoldayıq. Bu yolda Allah özü bütün bəndələrinə kömək olsun. Dünya və axirətdə öz köməkliyindən bizləri binəsib etməsin.

**Amin ya rəbbəl aləmin!**

## BÜTPƏRƏSTLİK NECƏ BAŞLAYIB?

**“Lat”**, **“Uzza”** və **“Mənat”**ı gördünüzmü? Bu üç ad cahiliyyət zamanının büt adlarıdır. İslamdan əvvəl bütpərəstliyin məmuli olduğu zamanda bu üç şey olmuşdur. Bu üç büt barəsində bir neçə təfsir zikr olunmuşdur. Lat **“Səqif”** tayfasının bütünün adı olmuşdur. Qadın şəklində olan bu bütə pərəstiş edirdilər. Bəziləri bu bütün *(yəni Latın)* kiminsə heykəli olduğunu deyirlər.

Bu həcc üçün ziyarətə gələn şəxslər üçün un və yağı qarışdırıb onlara verər və onların da xoşuna gələrmiş. Bu şəxs öləndən sonra daşdan onun heykəlin yonublar. Belə də deyirlər ki, Lat adında şəxs bir daşın üstündə oturub halva bişirərmiş. Qarınqulu adamlar da kişinin ölümündən sonra o daşa ibadət ediblər. Bütpərəst olan ən birinci tayfa İdris peyğəmbərin ümməti olub. İdris Adəm Əbul-bəşərin ikinci canişini *(Nuh dövründən əvvəl)* olmuşdur. O çox gözəl olduğundan onun davamçıları onu çox sevərmişlər. Elə buna görə də İdrisin qeybindən sonra onlar onun firaqından qəmgin idilər. Bir müddət sonra Şeytan gəlib onlara deyir: - Niyə bu qədər ağlayırsınız? Gəlin onun şəklini divara çəkin. Onlar elə də etdilər. Və onun müqabilində dayanırdılar. Yavaş-yavaş bu şəkil heykələ çevrildi, təbaşir və ya daşdan onun heykəlini düzəldəndən sonra heykəltəraşlıq adi bir hala çevrildi. İndiki çəkilən imamların şəkli kimi oldu.

Ay insafsız axı sən imamı görməmisən! Məlaikələri də müxtəlif qiyafədə çəkirlər. Bunlar hamısı mövhumatdır.

Xülasə bəşərin bu əməlləri nəticəsində bütpərəstlik genişlənmişdir.

**Uzza**-Məkkənin 6 ağaclığında yaşayan bir tayfa olmuşdur. Bu qəbilənin rəisi Səd ibn Zamin Məkkəyə gələrkən camaatın Kəbəni təvaf etdiklərini görür öz qəbiləsinə gedib deyir: - Biz də elə edərik.

O, Səfa və Mərva dağından iki daş gətirib iki xüsusi yeri Səfa və Mərva adlandırır. Ağac olan yerdə ağacın kənarında üç daş üst-üstə qoyub, qəbiləsi onun ətrafında təvaf etmək üçün oranı Allahın evi adlandırdı və ağaca da **UZZA** adı qoyuldu. Məkkənin fəthi ilindən sonra *(təqribən peyğəmbər (ə) vəfatından iki il əvvəl)* Rəsullulah (s.ə.) 12 min mömünlə Məkkəni azad edib bütləri sındırdı. Belə qərara alındı ki, ətrafdakı bütlər də aradan götürülsün. Uzzanı yox etmək üçün Xalid ibni Vəlid məmur olmuşdu. Xalid oraya gəlib ağacın yarısını kəsərək eybəcər üzlü bir qadın gəlib ah-nalə edir və Xalid geri qayıdır. Rəsullulah (s.ə.v.v)ın xidmətinə gələrkən həzrət ağacın kəsildiyini soruşur. Xalid cavab verir: - Bəli.

Həzrət hamısını kəsdin?

Xalid - xeyr!

Həzrət səbəbini soruşduqda Xalid başına gəldiyi hadisəni danışır.

Həzrət buyurur: - Geri qayıt və ağacın hammısını kəs! Bu hadisədən sonra Xalid qayıdıb ağacın hamısını kəsir.

**Mənat** çox da böyük əhəmiyyətə malik olmayan bütdür. Elə buna görə də bu büt barəsində oxuyuruq yəni biri də üçüncü büt olan Mənatdır. Bu əlbəttə, təkid üçündür.

Onların **Mənatı Lat** və **Uzzadan** da alçaqdır. Yəni həcm və miqdar cəhətdən ən alçaq bütdür. Bəziləri bu iki bütün Məkkədə daş olduqlarını deyirlər.

## FƏQİRLİK GƏTİRƏN MƏKRUHATLAR

***Məkruhatlar:*** Mənzili çirk saxlamaq məkruh olmaqdan əlavə fəqirlik də gətirir. Həmçinin gecə təmizlik işi görmək. Yəni gecə ev süpürmək, yemək qablarını yığılı halda səhərə qədər saxlamaq;

- Su kranının ağzını açıq saxlamaq;
- Kuzənin ağzını açıq qoymaq;
- Evin divar və tavanında olan hörümçək torunu süpürməmək;
- Bədən və paltarı yumamaq;

Əlbəttə, insan hər bir məkruh əməli məkruh olduğuna görə tərk edərsə, istər sirrini bilsin, istərsə də bilməsin, onun savabı o şəxsə çatacaq.

- Bədəni paltarla qurulamaq;
- Cırıq paltarı bədəndə tikmək, özü və başqasının tikməsi məkruhu aradan aparmır. Gərək paltarı bədəndən çıxarandan sonra tikəsən.
- Qapı astanasında oturmaq da məkruhdur.
- Yuyulmamış əl ilə nə isə yemək. Yemək zamanı hər iki əli yumaq müstəhəbdir *(hərçənd bu zamanda bu müstəhəb işin feyzindən insanlar məhrumdurlar)*. Fəqirliyə səbəb olan məkruhatlardan biri də cənabətli halda yemək ye-

məkdir. Əgər qüsl edərsə, ya qüsl etməyə əli çatmasa, onun əvəzinə təyəmmüm edərsə, ya dəstəmaz alarsa bu məkruhat aradan getmiş olur. - Süfrəyə qoyulmuş çörəyin üstünə başqa bir şey qoymaq. Məs: plov qabını çörəyin üstünə qoymaq çox pis iş və məkruhdur.

Bu çörəyə etinasızlıqdır, bir də çörək parçasını atmaqdır, hörmət etməməkdir. Çörəyi kənara atmaq və tapdalamaq da məkruhdur. Bəzi təhqiqatlar bu işin təkcə çörəyə aid olmadığını deyirlər. Həqiqətdə düyü dənəsinə də aiddir. Bu hökmü meyvələrə də aid edirlər. Hətta belə bir rəvayət var: Hər kəs meyvəsini yarımçıq yeyib, qalanını ayaq altına atarsa fəqirlik gözləsin. Beləliklə, bu mövzunun ümumi olmasına baxmayaraq təkcə çörəyə aid deyil. Lakin xüsusilə, çörəyə hörmətsizliyin təsiri çoxdur.

- Yalançılığa adət etməkdə fəqirlik gətirər.

- Yalandan and içmək insanı evsiz-eşiksiz qoyar. Axirət cəza və günahından başqa dünyada da gəda olar.

- **ÖVLADA NİFRİN ETMƏK.** Uşaq evdə əziyyət etdikdə ata-ana nifrin edərsə, bu nifrin fəqirliyə səbəb olar. Uşağın əziyyət etməsi. Ata-ananı narahat etmək, uşağın uşaqlıq yaşı ilə əlaqədardır. Özün də uşaq olanda belə idi. Amma siz Allaha xatir səbr edərək nifrin etməyin. Xüsusilə, südəmər uşaqlara nisbət. Əlbəttə, Allah lütfü ilə onların nifrinlərinə təsir verilmir. Bilafasilə peyman olurlar. Lakin nifrin fəqirlik gətirəndə və Allah eləməmiş birdən nifrin qəbul olunar.

Övladın ata və ya anaya pisliyini istəməsidir. Təhqiqatçı **Xacə Nəsrəddin Tusi** buyurur: Fəqirliyə səbəb olan

əməllər təkcə valideynin pisliyin istəməsi deyil. Həqiqətdə valideyni dua etmək, yəni ata-ananın heç fikrini belə etməmək, qəbirləri üstünə getməmək, onlar üçün xeyirli işlər görməmək də fəqirliyə səbəb olur. Əksinə olaraq xeyirli aqibətə səbəb olan işlərdən valideyni yaxşılıq *(istər bu dünyada, istərsə də bərzəxdə),* valideynin qəbr üstə duanın qəbul olunan yerləridir. Hər nə hacətun varsa, atanın qəbri üstə gedib dua et.

Haram hesab olunan israf və bədxərclik, fəqirlik gətirən amillərdəndir. Axirət əzabına səbəb olmaqla bərabər dünya da fəqirlik gətirir. Əgər insan öz yaşayışında orta səviyyə tərzinə riayət etməzsə gərək fəqirlik gözləsin. Orta səviyyəni gözləmək lazımdır.

Bu da müəyyən şəxslərə görə bir-birindən fərqlənir. Məs: on min manat qazancı olan şəxs on beş min manat xərcləyirsə bu israfçılıqdır.

## RUZİ QAZANMAQ İBADƏT SAYILIRMI?

Bəli, islam dinində ibadət sayılan mövzulardan biri də ruzi dalınca gedib halal nemət qazanmaqdır.

Bu şərtlə ki, öz ehtiyacına görə başqalarına əl açmasın. Qurani-Kərim bu barədə buyurur:

***(Cümə)* namazını qılıb qurtardıqdan sonra yer üzünə dağılıb Allahın kərəmindən ruzi diləyin!**

**Və Allahı çox zikr edin ki, bəlkə nicat tapıb səadətə qovuşasınız.** ***(Cümə, surəsi 10-cu ayə).***

**“Allahın kərəmindən ruzi diləyin ifadəsi”** çox vaxt Quranda, ruzi diləyib ticarət etmək mənasındadır.

Lakin demək olar ki, bu ifadənin məfhumu kimi, ruzi və ticarət onun nümunələrindən biridir. Bəziləri bu ayədən istifadə edirlər ki, cümə namazından sonra ruzi ardınca olub ticarət etməyin bərəkəti vardır. Rəvayətlərdə nəql olunur ki, Peyğəmbər (s.ə.v.v.) cümə namazından sonra bazara baş çəkərdi. Aşağıdakı rəvayətlər ruzi ələ gətirməyin ibadət olduğunu bəyan edir. İmami Baqir (ə) İslam peyğəmbərindən (s.ə.v.v.) nəql edir ki, buyurur: **“İbadətin yetmiş hissəsi vardır. Onların ən yüksəyi halal ruzi tələb etməkdir.**

Əbu Həmzə İmam Baqir (ə)dan nəql edir ki, buyurur:

Hər kim əhalidən ehtiyacsız olmaq, onların yanında öz hörmətini hifz etməkdən ötrü dünya malının ardınca olsa və bu mal-dövlət istəmək və çalışmaq insanın öz ailəsinə və qonşularına kömək üçün olsa, qiyamət günü, üzü on dörd gecəlik ay kimi parlayan halda, Allahın hüzuruna gələr!”

Şeytanın dərki, bizdən çox-çoxdur. Lakin bu dərki şeytan yoluna işlədir. Demək biz şeytan qüvvələri qarşısında qələbə çalmaq istəsək ağıl qüvvəsindən istifadə etməliyik.

Şeytanın şərrindən amanda qalmaq istəsək ağıl qüvvəsini varlığımıza hakim etməli, bilik və düşüncə qüvvəsilə gücləndirməliyik.

Sosial hissiyyat həm fərdi hissiyyat ağıla tabe olmaq şərtilə dəyərlənir.

Sosial hissiyyət ağıl komandanlığına girdikdə dəyərli

olur, ağıla qarşı durduqda isə öz dəyərini itirmiş olur.

Hissiyyat ilahi hökmün həyata keçməsinə mane olarsa demək dəyərsizdir. Quran buyurur:

**“zinakar kişiyə və zinakar qadına yüz qamçı vurun və Allahın dini barəsində (bu işin icrasında) ürəyiniz onlara yumşalmasın”**. *(Hur surəsi, ayə 2)*.

Rum padşahı Qeysər birinci xəlifəyə bir namə yazdı. Namədə öyrənmək istəyirdi, onun vilayətində olan bir müsəlmanın dediklərinin mahiyyətini. Ona görə ki, həmin müsəlmanın dedikləri Rum padşahının nəzərincə islama zidd olan deyiliş idi. Öyrənmək istəyirdi Xəlifədən ki, onun dedikləri nə məna kəsb edir. Əgər islamın ziddinə olsa ona cəza verim. Namə xəlifəyə çatdı. Alıb oxudu gördü.

*O müsəlman deyir:*

**1. Behişt həsrətində deyiləm.**

**2. Cəhənnəmdən qorxmuram.**

**3. Namaz qılıram Ruku Səcdə etmirəm.**

**4. Ölmüşün (meyyitin) ətin yeyirəm.**

**5. Qanı yeyirəm.**

**6. Fitnəni dost tuturam.**

**7. Haqqı düşmən hesab edirəm.**

**8. Şəhadət verirəm o şeylərə ki, onları görməmişəm.**

Xəlifə oxuyan kimi gördü bu müsəlmanın dediklərindən İslam mənafeyi gözlənilmir. Göstəriş verdi. Bir namə yazın, Rum padşahına o şəxsi cəzalandırsan. Ətrafında olanlar məsləhət gördülər ki, bir nəfər nümayəndə göndərək Əli (ə) yanına bu yazıların mənasını o araşdırsın. Elə də etdilər Xəlifənin nümayəndəsi gəldi. Məktubu Əli (ə) təq-

dim eylədi. Ağa oxuduqcan əhsən dedi. Xəlifənin nümayəndəsi təəccüblə bu əhsənləri dinləyirdi. Əli (ə) dedi bu şəxs Allahın ən bəyənilmiş bəndəsidir. Ona görə ki, o deyir: behişt təmənnasında deyiləm, cəhənnəmdən qorxuram - Lakin bu şəxs Allahdan qorxur onun Lütfinə ümidi var,

Allahın zülmündən qorxmur. Bəlkə Allahın ədalətindən qorxur.

Meyyit namazı qılarkən rükü və səcdə etməzlər. Bu şəxs meyitə namaz qılandır. Balıq və Çəyirtkə ölmüş olsa belə ətləri halaldır. Onlardan yeyir.

Qara ciyər qandan ibarətdir. Bu adamda deyir qanı yeyirəm o da qarciyərdir. Şəhadət verir. Behişt və cəhənnəm haqqdır, Allah haqqdır, halbuki onları görməyib.

Fitnəni dost tuturandan məqsəd övlad, uşaq və mal dövlətdir. **Allah Quranda buyurur sizin övlad uşağınız mal-dövlətiniz sizin üçün fitnədir.**

Əli (ə) buyurdu bu şəxs çox təqvalı insandır. Nümayəndə gəldi xəlifənin yanına Ağanın buyurduqların şərh eylədi. Rum padşahına o şəxsin hörmətə layiq olduğunu xəbər verdi.

## İLK MÜSƏLMAN KİMDİR?

Qurani-Kərimin **"Ənam"** surəsinin 163-cü ayəsində buyurulur: *(Ya Muhəmməd, de ki,)* **onun heç bir şəriki yoxdur. Mənə belə buyurmuşdur və mən ilk müsəlmanam.**

Ayədən açıq-aşkar məlum olur ki, ilk müsəlman həzrə-

ti Məhəmməd (c), amma **"Yunis"** surəsinin 72-ci ayəsində **Nuh** peyğəmbərin **"Bəqərə"** surəsinin 128-ci ayəsində **İbrahim** peyğəmbərin **"Yusif"** surəsinin 101-ci ayəsində **İbrahim** peyğəmbərin müsəlmanlığı haqda məlumat verilir. Bəzi təfsirçilərin fikrincə hələ ruhlar aləmində Allah-təalanın dəvətinə ilk müsbət cavab verən insan, həzrət Məhəmməd (s) olduğu üçün ilk müsəlman da o hesab edilməlidir.

Amma başqa bir fikir də mövcuddur. **"Müsəlman"** sözünün lüğəti mənası **"Təslim olan"** deməkdir. Bu baxımdan Adəm peyğəmbərdən başlayaraq, Allah əmrinə bütün təslim olanlar müsəlmanlardır.

**"Müsəlman"** sözünün ikinci mənası, İslam dinini qəbul edən şəxslərə şamil olunur və bu baxımdan ilk müsəlman **Həzrət Məhəmməd** (c) olmuşdur.

## ADƏM (Ə) GÜNAHKARDIRMI?

Yəhudilərin və Məsihçilərin müqəddəs kitablarına əsasən, Adəm (ə) çox ağır günaha yol vermişdir. Lakin İslam mənbələrində Adəmin günaha yol verdiyi qətiyyətlə inkar olunur.

Bilirik ki, Adəm (ə) İlahi peyğəmbərlərdəndir. Quran ayələrinə əsasən, ilahi peyğəmbərlər günah edə bilməz.

Bəzilərinin günah adlandırdığı müəyyən əməllər isə, mütləq günah deyil, **"Tərki ola"**dır. **"Olanın"** lüğəti mənası, ən üstün" deməkdir. **"Tərki-ola"** ən üstün, ən yaxşı

əməlin tərk edilməsidir. Məslən, çox varlı bir adam kasıb qonşusuna böyük köməklər göstərə biləcəyi halda, cüzi bir yardım göstərir. Bu varlığın haqqında elə ittihamlar irəli sürülür ki, guya həmin şəxs günaha yol verib. Əslində isə, heç bir günah baş verməyib. Sadəcə yaxşı bir işi tərk edib. İlahi dərgaha yaxın insanların əməlləri, onların məqamına görə ölçülür. Adi bir insan üçün günah hesab olunmayan əməl, ovliyalar üçün qüsur sayıla bilər. Ona görə də, tərki-olaya yol vermiş peyğəmbərlər, dərhal cəzalandırılırlar.

Adəmin qadağan olunmuş ağaca toxunması günah yox tərki-oladır. Bu əmələ görə, adi bir adam heç vaxt cəzalandırılmazdı. Adəm (ə) peyğəmbərin cəzalandırılmasının səbəbi, onun yüksək məqamı idi.

Allah-təala **“bu ağaca yaxınlaşmayın, yoxsa özünüzə zülüm edənlərdən olarsınız”** buyuraraq, sadəcə, Adəmə xəbərdarlıq edilmişdir.

## İNSAN HEYVANA ÇEVRİLƏ BİLƏRMİ?

Əraf surəsinin 166-cı ayəsində buyurulur: “Qadağan olunmuş işə saymazyana münasibət bəslədikləri vaxt, onlara əmr etdik: **“Zəlil meymunlara dönün”!**

Müxtəlif ayələrdən məlum olur ki, yolunu azmış tüğyançı tayfaları Allah-təala müxtəlif cür cəzalandırır. Yuxarıdakı ayə, bir qrup azğın insanın cəza olaraq heyvana döndərildiyini xəbər verir. Burada insanın ruhən, yoxsa cismən heyvanlaşmasından söhbət gedir. Elmi nöqteyi nəzər-

dən insanın cismən heyvana dönməsi qeyri-mümkündür. Həyat şəraitinin dəyişməsi təsiri altında, orqanizmdə yeni bioloji əlamətlər yarana bilər. Ölmək insanın heyvana çevrilməsi, yalnız möcüzə yolu ilə mümkündür.

Amma təfsirçilərin kiçik bir hissəsi bu fikirdədirlər ki, uyğun ayədə ruhən heyvanlaşmadan gedir. Onlarla razılaşmayan əksər təfsirçilər, belə bir hadisənin təkamül qanununa zidd olduğunu aşkar edirlər. Onlar bildirirlər ki, təkamül qanunu, təkamül prosesinə keçən orqanizmə aiddir. Hansı ki, həyatda istisnalar vardır. Məslən yaşıdları inkişafda olan bir yeniyetmə, hansısa bir xəstəlik ucbatından cılızlaşa bilər.

Rəvayətlərdən aydın olur ki, həmin heyvana döndərilmiş insanlar, yalnız bir neçə gün yaşaya bildilər. Əgər nəzərə olsaq ki, təkamül prosesinə uyğun gəlməyən bütün hadisələr davamsız olur. *(Məsələn, iki başlı insan və heyvanlar çox az yaşayır)* demək qəzəbə düçar olmuş həmin insanlar cismən meymuna döndərilmişlər.

## PEYĞƏMBƏR (S) QEYB ALƏMİNDƏN XƏBƏRDAR İDİMİ?

Məhdud mütaliəli bir qism insan bəzən bir ayəni oxumaqla nəticə çıxarır. Belə ayələrdən biri də, **"Əraf"** surəsinin 188-ci ayəsidir. Ayədə deyilir: **"Əgər qeybi bilsəydin, sözsüz ki, daha xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı"**.

Bu ayə Həzrət Məhəmmədin (s) dilindən buyurulur: Amma ayədən bu nəticə çıxmır ki, peyğəmbər qeyb aləmindən tamamilə xəbərsiz idi. Sadəcə olaraq, peyğəmbərin bu sahədəki biliyi məhdud idi. O bu barədə Allah-təalanın öyrətdiyi qədər bilirdi. **"Cin"** surəsinin 26,27-ci ayələrində oxuyuruq: **Qeybi bilən ancaq Allahdır və öz qeybini kimsəyə əyan etməz, bəyənib seçdiyi peyğəmbərdən başqa!**

Peyğəmbərlər həm maddi, həm də mənəvi cəhətdən cəmiyyətə rəhbərlik etməyə vəzifəli olduqlarından, onların bir sıra biliklərə ehtiyacı labüddür. Bu sahədə qeyb aləmindən biliyə nə qədər ehtiyacları vardırsa, o qədər də bilirlər. Qeyb aləmindən məlumatı olmayan şəxs, öz dövrünün mömini olur və onun bilikləri başqa bir zaman və şəriət üçün yetərsiz olur. Buyruqları dünya həyatının sonunadək eyni təsirdə qalan həzrət Məhəmməd (c) heç şübhəsiz qeyb aləmindən xəbərdar idi. Dünyəvi rəhbərlərin isə, yalnız öz dövrü və öz şəraitində təsirli olduğu göz qabağındadır.

## İMAMLA PEYĞƏMBƏRİN FƏRQİ NƏDİR? VƏ İMAMƏT NƏ DEMƏKDİR?

İmamla peyğəmbərin fərqi bundadır ki, peyğəmbərə vəhy gəlir. İmam isə hökmləri peyğəmbərdən ilahi bir qüvvə ilə əxz edir. Peyğəmbər Allah tərəfindən, İmam isə Peyğəmbər tərəfindən olan təbliğatçıdır. Bu, İmamiyyə

məzhəbinin inancıdır. Sair məzhəblərdə isə, imamət din və dünya işlərində ümumi rəhbərlik, peyğəmbəri Əkrəm (c) tərəfindən Firuddin hökmlərində xəlifədir. **İmamәmәt** - lüğətdə bir şəxsin, camaatın ona tabe olub iqtida etmələrinin lazım olmasına deyilir. Tabe olunan şəxs İmam, tabe olanlar isə mənun adlanır. Deməli imam, insanın söz və əməldə iqtida etdiyi, tabe olduğu şəxsə deyilir.

## İSLAM PEYĞƏMBƏRİNİN MƏDİNƏDƏ GÖSTƏRDİYİ İLK MÖCÜZƏ NƏ OLUB?

Peyğəmbər (s) hicrət edib Mədinəyə daxil olduqdan sonra hər kəs onun dəvəsinin yüyənindən tutub öz evinə aparmaq istəyirdi. Bu zaman peyğəmbər buyurdu. Dəvəni azad buraxın, kimin evininin qapısında yatsa, mən onun qonağı olacağam. Dəvəni buraxdılar, o hərəkət edib Əbu-Əyyub Ənsarinin evinin qapısında yerə yatdı. Əbu Əyyub dedi: Camaat, qapıları açın. Qəbilənin ən hörmətli şəxsi - Hzrəti Məhəmməd Mustəfa gəlib. Əbu Əyyub ənsarinin anasının gözləri tutulmuşdu. O, qapını açaraq dedi: Əfsuslar olsun ki, gözlərim görmür. Gözlərim görəydi, mən də Rəsuli Əkrəmin nurani üzünü görəydim. Peyğəmbər (s)ın ona rəhmi gəldi. Mübarək əllərini onun gözünə çəkdi. Bu zaman onun gözləri açıldı və peyğəmbərin gül-camalını gördü. Bu peyğəmbər (c)ın Mədinədə həyata keçirtdiyi ilk möcüzə idi.

**“Beyəti Rizvan”** nə deməkdir və nə zaman baş verib?

**"Fəth"** surəsinin 18-ci ayəsində buyurulur:

**Allah** ***(Hüdeybiyədə)*** **ağacın altında səninlə beyət edərkən mömünlərdən razı oldu və onların qəlbən vəfalıqları və ixlasları aydın oldu. Allah onlara vüqar və təmkinlilik nazil etdi və onlara yaxın olan fəthi müjdə verdi".**

Bu hadisədən sonra oradan qayıdan müsəlmanlardan bəziləri təbərrük üçün o ağacın altında namaz qılıb, Allaha şükr edirdilər ki, o ağacın səbəbi ilə onları arzularına çatdırdı. *(Məkkə fəth olundu və müsəlmanlar həcc mərasimini yerinə yetirə bildilər)*.

## NƏ ÜÇÜN NUHUN (Ə) ÖMRÜ UZUN OLDU?

Nuhun (ə) ömrünün uzun olmasının səbəbi bu idi ki, Allah-təala onun qövmünə bəla nazil etmək istəyəndə Cəbrailı (ə) yeddi dənə ağac toxumu ilə Nuha tərəf göndərdi. Cəbrail dedi: ey Allahın peyğəmbəri! Allah-təala buyurur: onlar mənim bəndələrim, məxluqlarımdır. Mən bəlanı onlara tərəf yalnız o vaxt göndərirəm ki, əvvəlcə dəvəti təkit edəm, höccəti onlara tamamlayam. Geri qayıt və öz qövmünü bir daha haqqa dəvət et. Mən sənin haqq olmağını onlara göstərəcəyəm. Bu dənələri yerə ək, çünki bunlar, cücərib böyüdükdən, yaşıllaşıb meyvə verdikdən sonra sənin qurtuluş yolun hazırlanacaqdır. Bu xəbəri səninlə olan mömünlərə də xbər ver. Nuh (ə) onları əkdi. Onlar cücərib böyüdü, qol-budaq ataraq meyvə verdi. *(əl-*

*bəttə bunlar çox uzaq müddətə oldu)* O Allahdan vədəsinin gerçəklənməsini istədikdə, Allah ona göstəriş verdi ki, *(yeni əmələ gələn)* toxumları da əksin və səy edib çalışsın höccəti öz qövmünə tamam etsin. Nuh (ə) iman gətirən şəxslər bu mövzudan xəbərdar olduqda onlardan üç yüz nəfəri dindən döndü. Onlar düşünürdülər: Əgər Nuhun (ə) dediyi sözlər Allahın əzab vədəsi düzdürsə, Allah da heç vaxt öz verdiyi vədəyə xilaf çıxmaz. Bəs nə üçün indiyə kimi əzab nazil olmamışdır? Nuha (ə) hər dəfə öz ardıcıllarına göstəriş verirdi ki, ağacın dənələrini əksinlər. Nəhayət, yeddi dəfə əkdilər, ağaclar böyüyüb inkişaf etdi. Bu müddət ərzində ona iman gətirənin əksəriyyəti dindən çıxdılar. Yalnız yetmiş nəfər onun dinində qaldı. Sonra Allah Nuha (ə) vəhy etdi: "Ey Nuh! İndi artıq hər şey zahir oldu. Haqq sənin qövmün aşikar oldu. Hər xəbis batini var idisə, zahir oldu. Əgər sənin əzab istədiyin vaxt mən kafirləri həlak edib öldürsəydim, o zaman sənə iman gətirib sonra mürtəd olanlar diri qalacaqdır. O zaman mənim sənə xalis iman gətirən mömünlərə, habelə sənin nübüvətinə sarılanlara verdiyi vədə düzgün olmazdı. Çünki mən vədə vermişdim ki, onları yer üzünün canişini edəcəyəm. Mən onların əksəriyyətinin *(zəif)* imanlılarından agah idim. Batinlərinin xəbis, niyyətlərini bəd olmasını bilirdim. Bu halda onları özümə necə canişin seçə bilərdim və onlara necə əmin-amanlıq bəxş edə bilərdim?

Onların imanları həqiqi olmadığına görə yer üzərində sonradan canişin olacaqları təqdirdə öz müxaliflərini öldürəcəkdirlər ki, özlərini qüdrətə çatdırsınlar. Əgər onlar ni-

faq, münafiqlik və dəbiiyyət xüsusiyyətləri ilə yanaşı özlərini möminlərlə yanaşı görsəydilər, heç kəs onları tanımasaydı, daha da ürəklənəcək və öz qardaşlarını düşmənliyə çəkəcək və rəyasət əldə etmək üçün müharibə aparacaqdılar. Onlar möminlərin arasında olması ilə yanaşı dində necə aramlıq, möminlərin arasında əmin-amanlıq bərqərar ola bilərdi?! Və belə bir vədə gerçəklənməzdi. Lakin mən əzabın nazil olmasnı təxirə saldım ki, onlar möminlərdən seçilsinlər və onlar öz imanlarından dönsünlər. İndi ki, bu iş həyata keçdi. Mən də əzabımı sənin qövmünə göndərdim. Sən bizim köməyimiz ilə böyük bir gəmi düzəlt.

İmam Baqir (ə) belə buyurur:

Nuhun nübüvət müddəti sona yetdikdən, ömrü qurtardıqdan sonra (Nuh peyğəmbər (ə) ömrün 2500 il, 3 min ildə qeyd edirlər. Quran onun 950 il qövmünə təbliği haqda xəbər verir). Allah-təala ona vəhy etdi: **Ey Nuh, sənin nübüvvət dövrün qurtarmış, ömrün sona çatmışdır.**

İndi elm, imam, İsmi-Əkbər, elm mirası və nübüvvət elminin əsərlərini öz övladlarından birinə ver. Çünki mən nübüvvət peyğəmbərlərin ailələrindən kəsməyəcəyəm. Eləcə də Adəmdən sənin dövrünə qədər kəsməmişəm. Yer üzünü mənim dinimi insanlara tanıtdırın. Mən itaət yollarını onlara deyən və iki peyğəmbərin dövrü arasında dünyaya gələn nəsillərin qurtuluş səbəbi olan bir alimsiz qoymaram. Sonra həzrət buyurur ki, Nuh öz oğlu Sama Hud peyğəmbərin gəlişini müjdə verdi.

## QURAN BARƏSİNDƏ YADLARIN SÖZÜ

**1.** Əbul Əlayi Meri *(Quranla mübarizədə ittiham olunan)* belə deyir: **"Bu söz təmam insanlar tərəfindən** *(müsəlman və qeyrimüsəlman)* **qəbul edilir ki, Məhəmməd (s)ın gətirdiyi kitab ağılları öz qarşısında məğlub etmişdir. İndiyə qədər heç kəs onun mislini gətirə bilməmişdir. Bu kitabın üslubunun ərəb arasında yayalmış üslubların** *(xutabə, rəcəz, şer səce kahinan qafiyə)* **heç birinə oxşarlığı yoxdur. Bu kitabın üstünlüyü və cəzb sözlərin arasında olsa qaranlıq gecədə parıldayan ulduz kimi işıq saçar."**

**2. Karlayel** - tanınmış ingilis tarixçisi

Quran barəsində belə deyir: "Əgər bir dəfə bu müqəddəs kitaba nəzər salsaq görərik ki, gözəl həqiqətlər, varlığın sirləri onda elə öz əksini tapıb ki, Quranın əzəməti və həqiqəti öz-özünə aşikar olur. Bu özü böyük bir üstünlükdür ki, təkcə Qurana məxsusdur. Heç bir elmi, siyasi və iqtisadi kitabda bu üstünlük görünməyib. Bəli, bəzi kitabları oxumaq insanın zehninə dərin təsir göstərir. Lakin bu təsirlər heç vaxt Quranın təsirləri ilə müqayisə ediləsi deyil. Buna görə də gərək deyək ki, Quranın üstün cəhətləri və onun əsas kökləri onun mühüm mövzularının həqiqətinə, pak hisslərinə və gözəl məsələlərinə bağlayır ki, onda heç bir şək-şübhə yoxdur və tamam fəzilətlərin axırı olan təkamülü və bəşərin xoşbəxtliyini özündə cəm edib onları açıq-aşkar göstərir.

**3. "Can Dayan Part"** - Üzre təqsir be peşgah Məhəm-

məd və Quran" kitabının müəllifi yazır - "Quran o qədər nöqsansızdır ki, onun üstündə heç bir islahat aparmağa ehtiyac yoxdur. İnsan onu əvvəldən axıra kimi oxuyur, onda kiçik də olsa bir səhv görülmür. Yenə də o yazır **"hamı qəbul edir ki, Quran ən bəlağətli və fəsahətli dil ilə və ərəblər arasında ədəbi və nəcabətli ləhcə sayılan Qüreyş ləhcəsi ilə nazil olmuşdur və gözəl və mənalı bənzətmələrlə doludur"**.

**4. Tute** - Almaniyalı alim və şair deyir: "Quran bir əsirdir ki, (bəzən) onu oxuyan əvvəl ifadələrinin ağırlığına görə hürkür. Sonra isə onun aşiqi olur. İxtiyarsız onun saysız gözəlliklərinin vurğunu olur. Başqa yerdə yazır: "Uzun illər Allahdan xəbərsiz keşişlər bizi Quranın həqiqətindən və onun gətiricisi Məhəmməd (c)ın əzəmətindən uzaq ediblər. Lakin biz elm yoluna hər addımı atdıqca cahilliik pərdəsi öz-özünə aradan gedir. Tezliklə bu vəsfsiz kitab *(Quran)* dünyanı özünə cəlb edəcək və dünyanın elminə dərin təsir göstərəcək. Nəticədə bəşəriyyətin fikir mənbəyinə çevriləcək". Bir daha deyir: **"Biz əvvəl Qurandan üz döndərmişdik. Lakin çox çəkmədi ki, bu kitab bizim diqqətimizi özünə cəlb etdi və bizi heyrətə saldı. Elə oldu ki, onun böyük elmi qanunları qarşısında təslim olub baş əydik."**

**5. "Vil Durait"** məhşur tarixçi deyir. Quran müsəlmanlara elə bir şəxsiyyət, ədalət və Allah qorxusu bağışladı ki, dünyanın heç yerində onun bənzəri görünməyib.

**6. "Jol Labom"** fransız yazıçısı **"təfsilul ayat"** kitabında yazır. Elm dünyaya müsəlmanlar tərəfindən yayılmışdır.

Müsəlmanlar da o elmləri elm dəryası olan Quranda öyrənmişlər və dünya bəşəriyyəti üçün də o dəryadan çaylar axıtmışlar.

**7. "Dinort"** başqa şərq alimi yazır: **"Gərək boynuma alam ki, Avropada yazılmış təbiət elmləri, fəlsəfə və riyaziyyat əsasən Quranın təlimlərinin bərəkətlərindəndir. Biz müsəlmanlara borcluyuq. Demək olar ki, Avropa bu cəhətdən islamın bir şəhəridir."**

**8.** Neapol institutunun müəllimması xanım **"Lara Vəksiya Vaqliri" "İslamın güclü inkişafı"** kitabında yazır. "İslamın səmavi kitabı möcüzələrindən bir nümunədir...

"Quran bir kitabdır ki, onun tayın gətirmək olmaz. Quranın üslubunun nümunəsi ədəbiyyatda yoxdur.

Bu üslubun insanın ruhuna göstərdiyi təsirlər onun üstünlüyündən əmələ gəlir. Bu möcüzəli kitab necə Məhəmmədin (s) öz yazısı ola bilər?

## SİRATİ MÜSTƏQİM NƏDİR?

Qurani Məcid ayələrinin araşdırılmasından aydın olur ki, **"Sirati müstəqim"** Allahpərəstlik, haqq din və Allahın buyurduqlarına itaət etməkdir. Necə ki, Quranda peyğəmbərin dilindən buyrulur: "Həqiqətən Allah məni "Siratim müstəqimə" möhkəm bir dinə, İbrahim dininə hidayət etmişdir. Hansı ki, o heç vaxt müşriklərdən olmamışdır.

Burada İbrahimin təkallahlılıq ayini, möhkəm dini və hər növ çirkin rədd olunması "Siratim müstəqim" kimi təqdim edilmişdir. Bu ola öz növbəsində əqidəvi yəni

aşikar edir. Amma "Yasin" surəsinin 61-62-ci ayələrində buyurulur: "Ey adəm övladları, məgər Mən sizinlə əhd peyman bağlayıb demədimmi ki, şeytana itaət-ibadət etməyin?! Çün ki, o sizin aşkar düşməninizdir. Və mənə ibadət edin, bu düzgün yoldur".

Burada haqq əməli yönələrində işarə olur ki, hər növ şeytanı işlərin əməlləri rədd etməkdədir. Quranın Ali İmran surəsinin 101-ci ayəsində buyurulduğuna əsasən "siratəl müstəqimə" çatmağın yolu Allah ilə rabitə yaratmaqdır. Bu nöqtəni də qeyd etməyi lazım bilirik ki, sirati müstəqim birdən artıq yol deyildir.

Çünki iki nöqtə arasında yalnız bir düz xətt keçir və bu iki nöqtə arasında ən yaxın yoldur. Buna əsasən Quran sirati müstəqimi ilahi ayin və din əqidə və əməli cəhətlərdən təqdim etməsinin səbəbi budur ki, Allah ilə rabitə yaratmağın ən yaxın yolu məhz budur.

Həmçinin elə bu dəlilə görə, həqiqi din birdən artıq deyildir. Ali İmran surəsi 19-cu ayədə **"Allah yanında din yalnız İslam dinidir"** buyurulur:

Sirati müstəqim peyğəmbərlərin yoludur, həqiqətən peyğəmbərlər ilahi nemətlərə çatanlardır. İmami Sadiq (ə) buyurur: Sirati müstəqim Əli ibn Əbu Talibdir.

Aydındır ki, peyğəmbər, Əli (ə) və əhli-beytin hamısı Allahın Tohid dininə dəvət etmişdir. Elə bir dəvət ki, etiqadı və əməli yönlərə malikdir.

Maraqlıdır ki, mərhum **Rağib Müfrədat** kitabında **"Sirat"** sözünün mənasında buyurur: Sirat düzgün yoldur. Buna əsasən müstəqim olması elə sirat sözünün mənasında gizlənmişdir və müstəqim sözünün sifət kimi gətirilməsi

bu məsələnin daha da təkidlənməsi üçündür. O dərs oxumamış bir ərəb idi... Biz bu kitabda elə elmi xəzinələr görürük ki, onlar filosofların, siyasətçilərin və yüksək istedadlı adamların səviyyəsindən çox-çox yuxarıdır. Elə buna görə də Quran heç bir oxunuş alimin işi ola bilməz.

Professor **Teyasat Qeyasat** tailand. Çianç Mey Universitetində embriologiya və anatomiya kafedrasının müdiri.

Mən inanıram ki, Quranda 1400 il əvvəl ifadə edilmiş hər şey doğururdur və elmi yollarla sübut edilmişdir... Bu, bütün elmləri bilən Allahın ilhamdır. Beləliklə, bunu deməyin vaxtı gəlmişdir. Allahdan başqa tanrı yoxdur və həzrəti Məhəmməd (s.ə.s) onun elçisisdir.

## GÖZÜN ŞƏRİ CƏHƏTDƏN DƏYƏRİ

İmam Xomeyni özünün "Təhriul vəsilə" kitabında yazır.

İki gözün qanbahası, insanın tam qanbahası qədərdir. Onların hər birisi tam qanbahasının yarısıdır. Bu məsələdə fərq etmir ki, gözü torlu görən olsa və ya gözü çəp olub, iki-iki görən olsa, balaca göz olsa, gecə yaxşı görüb, gündüz kor olsa, gecə kor olsa, gözü xəstə olsa, bütün bunlar qanbahasında sağlam göz hökmündədir.

Əgər qaranlıqda, onun gözündə ağlıq olsa və bu ağlıq görmə qabliyyətinə zərər yetirməsə, tam qanbahası var. Əgər bu hal görməkliyə təsir etsə, o qədər də qan habasından əskilir. Bu o haldadır ki, müəyyən olunmaq qabliyyəti olsun. Əgər müəyyən oluna bilməsə, onda "ərş" var. Yə-

ni, sağlam və eyibli gözlə fərqli hesablanmalıdır. İmam Sadıq (ə) buyurur:

İnsanın bədənində hər nə cütdürsə, hər biri üçün insanın qanbahasının yarısı qədərdir.

Ayətulla uzma Gülpayiqani bir qızın gözünün kor olması sualına cavabında buyurur:

Qadının bir gözünün qanbahası, kamil bir qadının qanbahasının yarısı qədərdir.

Bəli! İnsanın iki gözünün dəyəri bütün bədəninin dəyəri qədərdir.

### Hədis

Əbu Cəfər (ə) belə buyurur: Davud Allahdan istədi ki, axirət aləminin mühakimələrindən birinin onun üçün göstərsin. Belə xitab gəldi: Ey Davud! Mən sənin istədiyin bu məsələni bəndələrindən heç birinə göstərməmişəm. Məndən başqa heç kəs onlardan agah ola bilməz. Davud bu istəyini üç dəfə təkrar etdi. Nəhayət, Cəbrail nazil olub ona dedi: Ey Davud! Sən Allahdan elə bir şey istəyirsən ki, bəndələrindən bir kəs indiyə qədər belə şey istəməmişdir. Layiq deyildir ki, Allahdan başqası bu hadisələrdən agah olsun. Amma Allah sənin bu duanı qəbul etdi və sənin yanına gələcəklər, sən onların arasında axirət qanunları əsasında mühakimə edəcəksən. Sübh açılanda Davud qəzavət kürsüsündə əyləşdi. Qoca bir kişi daxil oldu. O özü ilə bir cavanı da dartıb gətirirdi. O cavanın əlində bir salxım üzüm var idi. Qoca kişi Davuda dedi: Ey Allahın peyğəmbəri! Bu oğlan mənim üzüm bağıma girib üzümləri xarab etmişdir. Bu üzüm salxımını da mənim icazəm olmadan dərmişdir.

Davud o cavandan soruşdu: Bu qoca kişinin iddiası müqabilində nə deyirsən?

Cavan bu işi doğrudan da etdiyini etiraf etdi. Həmin anda Allah Davuda vəhy etdi: Ey Davud! Mən axirət mühakimələrindən birini sənin üçün aşikar edirəm. Sən bu iki nəfər arasında əvvəlcədən kəşf vasitəsilə mühakimə edəcəksən, amma özün də o mühakiməyə təhəmmül edə bilməzsən. Üstəlik sənin qövmün də ona razı olmayacaq. İndi ey Davud bil ki, şikayət edən bu qoca kişi bir müddət bundan qabaq bu cavanın atasının bostanına hücum etmiş, atasını öldürmüş və bostanı qəsb etmiş, üstəlik ondan 40 min dirhəm pul almış və pulları filan yerdə yerə basdırmışdır. Bu cavanın əlinə bir qılınc ver və əmr et ki, qocanın boynun vursun. Sonra gedib bağın filan yerini qazıb pullarını çıxarsın. Əbu Cəfər (ə) buyurur:

Davud bu vəhydən vəhşət hissi keçirdi. Öz alim dostlarını bir yerə yığıb Allahın vəhyini onlara çatdırdı. Hadisə Allahın göstərişinə əsasən sona yetdi.

Allah Davuda belə vəhy etdi: Ey Daud! Bəndələrimdən hər biri mənə itaət etsə, istədiyi hər şeyi məndən istəməzdən əvvəl ona əta edərəm. Mənə dua etməzdən qabaq duasını qəbul edərəm.

### Hədis

Allah İncilin 17-ci surəsində buyurur: Vay olsun o şəxslərə ki, elmi eşidərlər, lakin onu axtarıb əldə etməzlər. Bunlar cəhənnəmdə cahillərlə necə birlikdə olacaqlar?

Elmi öyrənib onu başqalarına da öyrədin, çünki əgər

elm sizi xoşbəxt etməsə, bədbəxt də etməz. Əgər sizə fayda verməsə zərər də çatdırmaz. Heç vaxt **"qorxuram ki, elm öyrənib ona əməl edə bilməyəm"**- deməyin. Əksinə deyin ki, ümidvaram ki, elmi öyrənib ona əməl edim. Elm *(qiyamət günündə)* öz sahibinə şəfaət edəcək və Allaha vacibdir ki, elmi xar etməsin *(yəni onun şəfaətini qəbul etsin)*. Allah-təala qiyamət günü buyuracaq: Ey alimlər! Rəbbiniz barəsindəki nəzəriniz necədir? Onlar cavab verirlər: Biz əmin idik ki, o Qiyamət günündə bizə rəhm edib bağışlayacaq. Allah buyurur: Mən sizləri bağışladım, mən öz hikmətimi sizin vücudunuzda, sizə zərər vermək üçün deyil, iradə etdiyim xeyiri çatdırmaq üçün əmanət qoydum. İndi mənim saleh bəndələrimlə birlikdə mənim rəhbərim səbəbinə daxil olun.

## Hədis

Həzrəti Rəsuli-Əkrəm (s.ə) meraca getdikdə ona belə vəhy olundu: Ey Məhəmməd! Sada *(Ərşin bir tərəfində axan çeşmənin adıdır)* yaxınlaşıb səcdəgah yerlərini yuyub pakla və Allahın üçün namaz qıl. Həzrət Məhəmməd (s.ə.v.v.) Sada yaxınlaşanda Allah ona belə vəhy etdi: Əvvəlcə üzünü yu, çünki sən Mənim əzəmətimə tamaşa edirsən. Sonra sağ və sol əllərini *(dirsəkdən barmaqların ucuna qədər)* yu. Çünki sən mənim kəlamımı əllərinlə götürəcəksən. Sonra əllərində qalan rütubətlə əvvəlcə başına, sonra sağ ayağının üstünə, daha sonra sol ayağının üstünə *(ayağının üstündəki çıxıntıya qədər)* məsh çək. Çünki mən səni bərəkətli etmişəm. Səni elə bir yerdə hərəkət et-

dirəcəyəm ki, indiyə qədər bir şəxsin ayağı oraya dəyməmişdir. Sonra Allah buyurdu: Ey Məhəmməd! Üzünü Həcərül-əsvədə *(qara daşa)* tutub mənim hicablarımın sayı qədər *(mənə)* təkbir de *(Hicabların sayı yeddi dənə olduğuna görə təkbirlər də namazda yeddi dənə oldu)*.

Sonra Allah buyurdu: Ey Məhəmməd! Mənim adımla başla. Sonra buyurdu ki, Mənə həmd de. Həzrəti Məhəmməd (s.ə.v.v.) **"Əlhəmdullahi rəbbil aləmin"** deyərək həmd-səna etməyə başladı. Allah buyurdu: Ey Məhəmməd! Bu kəlmələri oxu, **"Allahu Əhəd, Allahu Səməd, ləm yəlid vələm yuləd vələm yəkulləhu küfuvən Əhəd"**.

Sonra Allah belə vəhy etdi: Rukuya get, ey Məhəmməd! Həzrət Məhəmməd rukuya getdikdə həmin halda belə vəhy gəldi: Rukuda de: "Sübhanə rəbbiyəl-əzimi və bu həmduh Həzrəti Məhəmməd (s.ə.v.v.) üç dəfə bu təsbihləri dedi.

Sonra xitab gəldi ki, başını rükudan qaldır. Həzrəti Məhəmməd (s.ə.v.v.) rükudan qalxan zaman Allah buyurdu: Ey Məhəmməd Səcdəyə düş. Həzrət Məhəmməd (s.ə.v.v.) səcdəyə düşdü və başını torpağa qoydu. Xitab gəldi: Sübhanə rəbbayəl-əla və bi həmdih de həzrət Məhəmməd (s.ə.v.v.) bu təkbiri üç dəfə təkrar etdi. Sonra xitab gəldi: Başını səcdədən qaldırdıqda Allahın onun üçün təcəlli edən əzəmətinə baxdı, yenidən ixtiyarsız olaraq səcdəyə düşdü. Allah ona vəhy etdi: Qalx ayağa Həzrət Məhəmməd (s.ə.v.v.) ayağa qalxdıqda xitab gəldi: Əvvəldə oxuduğun surəni oxu. Sonra vəhy etdi ki, surədən sayca **"İnna ənzəlnahu"** surəsini oxu. Çünki bu surə qiyamətə qədər sənin və sənin əhli-beytini xüsusiyyətləri bəyan

edir. Sonra Həzrət Məhəmməd (s.ə.v.v.) eynilə birinci dəfədə olduğu kimi ikinci dəfə rüku və səcdə etdi. Sonra xitab gəldi: Ey Məhəmməd başını qaldır, Allah səni sabit etdi. Həzrəti Məhəmməd qalxmaq istəyəndə xitab yetişdi: Ey Məhəmməd, otur! Həzrət oturdu. Sonra Allah-təala buyurdu: Ey Məhəmməd mənim sənə əta etdiyim nemətləri yad et, mənim adımı zikr et. Sonra ona ilham olundu ki, **“bismilahi və bilahi və la ilahə iləllahi vəl-əsmayl husna Kulluha lillah”**desin. Sonra Allah buyurdu: Ey Muhəmməd özünə və əhli-beytinə salavat göndər. Daha sonra həzrət Məhəmməd (s) baxıb gördü ki, mələklər böyük Rəsul və nəbilər səf çəkib onun yanında oturmuşlar. Həzrəti Məhəmməd (s.ə.v.v.)-ə deyildi: Ey Məhəmməd! Onlara salam göndər, həzrət Məhəmməd (s.ə.v.v.) buyurdu: “Əssəlamu əleyküm və rəhmətullahi və bərəkatun”. Allah buyurdu: Mən salamam. Təhiyyət, rəhmət və bərəkət isə sən və sənin övladlarındır. Sonra həzrəti Məhəmməd (s.ə.v.v.)-a vəhy olundu ki, sol tərəfinə baxmasın.”

## Bilgilər

**1. Ağıllı - mərifətli insan kimdir?**

Yaxşını - pisdən,
doğrunu - əyridən,
faydalını- zərərlidən ayırd edə bilən.
Haradan gəldiyini,
nə üçün gəldiyini,
haraya gedəcəyini düşünən.

İslamı bir həyat nizamı olaraq bilən və yaşayan, bunun üçün çalışan, ağıllı, mərifətli bir insandır.

**2. Haradan gəldik, haraya gedəcəyik?**

Allah tərəfindən gəlmişik, Allah tərəfinə qayıdacağıq.

**3. Nə vaxtdan bəri müsəlmanıq?**

*(Qalu bəla)* günündən.

**4. Qalu bəla nə deməkdir?**

Allah aləmləri yaratmamışdan qabaq gəlmiş və gələcək bütün insanların ruhlarını yaradaraq, bunları ilahi hüzurunda toplamış və onlara:

**Mən sizin rəbbiniz deyiləmmi?** - deyə soruşurdu.

**Ruhlar da bəli, sən bizim Rəbbimizsən demişdir.**

Ancaq sənə qulluq edir və ancaq səndən yardım diləyirik, - deyə söz vermişdir.

Bu danışıq zamanına Qalu Bəla zamanı deyilir. Ruhların bu söz və vədlərində durub durmayacaqlarını özlərinə göstərmək hər növ niyyət və işlərində özlərini şahid göstərmək üçün, hər ruhu ayrı bir cəsədə yerləşdirərək müəyyən zamanlarda və məhdud bir müddət qalmaq üzrə dünyaya göndərdi və göndərməkdədir.

**5. Bu halda ağıllı-mərifətli insan necə bir insandır?**

Belə bir insan Qalu bəla da, ilahi hüzurunda verdiyi qulluq sözünə ömrü boyunca sadiq qalan, dürüst inama qabil, fəzilətli və əxlaqlı bir gedişi şahid olan insandır.

**6. Düzgün inamı, fəzilətli və əxlaqlı gedişin nə təmin edir?**

Din təmin edir.

**7. Nə üçün din təmin edər?**

Çünki insanlar gördüyümüz və görmədiyimiz bütün aləmləri və varlıqları, bütün ruhu və təbii qanunları yox var edən varlığını; hər nə qədər özlərinin ağıl və düşüncələri ilə qavraya bilərlərsə də;

Allahımızın əmirlərinin, qadağanlarının zati və sübuti sifətlərinin nələr olduğunu, dürüst imanın fəzilətli və əxlaqla gedişin əsaslarının nələrdən ibarət olduğunu və ilahi razılığın harada olduğunu bilməzlər.

**8. Bunun üçün Bizi yaradan xaliq nə etmişdir?**

Bunun üçün Allah peyğəmbərlərinin vasitəsilə insanlara, əmr və qadağanların, zati və sübuti sifətlərini, dürüst inamın, fəzilətli və əxlaqlı gedişini yol və prinsiplərini bildirmiş, səadətə qovuşmanın, dünya və axirət üçün faydalı iş və hərəkətdə olmanın yollarını göstərmişdilər. Bütün bunların hamısına birdən **DİN** deyilir.

**9. Bu halda DİN-ə bir daha qısaca tərif verin?**

Allah tərəfindən, peyğəmbərləri vasitəsilə bildirilən ilahi əmrlərin, yasaqların və hökmlərin hamısına DİN deyilir.

**10. Bizim dinimiz hansı dindir?**

Bizim dinimiz İslam dinidir.

**11. İslam dini hansı mühüm əsaslar üzərində qurulub?**

İslam dini iki mühüm əsas üzərində qurulmuşdur. Birincisi, Allahdan başqa ibadət ediləcək heç bir Tanrı olmadığını...

İkincisi də Peyğəmbərimiz Məhəmməd (s.ə.v.v) Allah tərəfindən bütün insanlara və varlıqlara göndərilmiş bir peyğəmbər olduğu;

**12. Dinimizin bu iki böyük inamı bir cümlə içərisində cəm halında toplaşmışdırmı?**

Dinimiz bu iki inancın **"La İlahə İlləllah, Məhəmməddur Rəsulullah Əliyyən Vəliyullah"** cümləsində toplanmışdır.

**13. Bu üç mübarək cümləyə nə deyilir?**

Kəlmeyi Təyyibə.

**14. Hər bir adam İslam dinini nə zaman qəbul etmiş olur?**

Hər bir kəsin **"Kəlmeyi-Təyyibə"**və kəlmeyi-şəhadət-i diliylə söyləyib qəlbilə təsdiq etməsi lazımdır. Belə olduqda İslam dinin qəbul etmişdir.

**15. Bu inanca nə deyilir?**

İman deyilir.

**16. Kəlmeyi şəhadət nədir?**

Kəlmeyi şəhadət Allahın varlığına, peyğəmbərin (ə) peyğəmbərliyinə və həzrəti Əlinin (ə)-ın imamlılığına şəhadət verməklikdir. **Əşhədu La ilahə illəlah, Əşhədu ənnə Məhəmmədər rəsullulah Əliyyəm Vəliyllah.**

**17. İman nədir?**

Kəlmeyi Təyyibə və kəlmeyi şəhadəti dil ilə deyib, qəlb ilə təsdiq etməkdir.

**18. Belə insanlara nə deyilir?**
Mömün deyilir.

**19. Allaha inanmanın nə kimi faydası vardır?**
Qəlbində Allah inanıcını və Allah sevgisini yerləşdirən bir kimsədən daha bəxtiyar kim ola bilər?

Çünki onun qəlbi Allah sevgisi ilə nurlanmış, o sevgi ilə parlamış, Ağlı, zəkası, hafizəsi iradə və məntiqi o sevgi ilə püxtələşmiş və kamilləşmişdir.

Allaha inanan və ona bağlanan insanların, mənəvi üfüqi, dünyalar qədər geniş, rahatlıq və nəşəsi cənnət bağçaları kimi təzə və ölümsüdür.

Onun gözlərində icma şüuru parlar.

Sözlərində həqiqət, sevgi və nəşə olar.

İş və hərəkətlərində ahəng, təmkin, səbr və uyğunluq gözə çarpır.

O insanları Dində qardaş və ya xilqətdə bir bənzəri, oxşarı bilir: onlara lütv meylləri və mərhəmət nəzərləri ilə baxır.

Boynu büküklərin könlün alır, yetimi bağrına basır! Dünya həyatını bir qənimət bilər, yaşar!

Allahın bəxş etdiyi nemətlərdən hər kəs onun iradəsinə uyğun şəkildə faydalanır.

Ölümdən qorxmaz, vaxtı gəlincə ilahi hüzuruna sevərək gedir.

Belə bir qəlbi olan imanla, imansızlığın verdiyi qorxunc, iztirab itginliyin gətirdiyi çətin əzab olmaz.

Belə bir kimsədə paslı bir vicdan, dumanlı bir ağıl, olarmı?

Beləbir qəlbdə Allah düşmənlərinin, Firon tərəfdarlarının sevgilərinə yer ola bilərmi?

Allah sevgisiylə dolu olan bir könül - bir nurdur...

O nur Allah vergisidir. Allah üçün parlar. Necə ki, Şeyx Nizami buyurur:

*... Bəlalar gizlidir bilirəm Allah,*
*Varmı səndən özgə mənə bir pənah.*
*Bir sənsən dünyada əlimdən tutan*
*Nə versən qailəm böyük yaradan.*

Dahi Nizami düşüncəsi, dərki, dərrakəsi, dühasıdır ki, Allah onları ona bəxş etmişdir. Hər insana qismət olmur.

**İki şeyə pərəstiş edənlər nə deyirlər?**

**"Sənəviyyə"** adı ilə məşhur olan bir dəstə, tohidi-zatinin əksinə çıxaraq çoxallahlığa qaildirlər.

Bu əqidəli insanlardan Hindistanda hələ də vardır. İki məbdəyə inanmaqların səbəbi haqqında belə deyirlər:

Biz varlıq aləmində xeyir olan inək, qoyun və şər hesab edilən ilan, əqrəb və yırtıcıları müşahidə edirik. heç vaxt xeyir və şər məbədəsi bir ola bilməz. Deməli, iki məbdə olmalıdır.

Biri xeyir məbədəsi olan nurdur ki, ona fars dilində **"yəzdan"**, digəri isə şər məbdəsi olan İblisdir ki, ona **"zülmət"** deyilir.

Əlbəttə, onlar naqis əqillərinə uyğun olaraq bu cür dəlillər gətirmişlər.

Deməli aləmdə mütləq şər yoxdur. Bu dəstənin dediyinə görə, bu aləmdə elə şərlər vardır ki, onların xeyir məbədəsindən olması qeyri-mümkündür.

Bir halda ki, bu aləmdə heç bir cəhətdən xeyri olmayıb, mütləq və xalis olan şər yoxdur.

Hara baxsanız xeyrin həmişə xalis və qalib olduğunu şərrin isə o şeyə müqayisəli şəkildə başa düşdüyünü və sonradan daxil olduğunu görərsiniz.

Zəhərli olan ilan və əqrəbi faydasız heyvan hesab edib, onların haqqında misal çəkirlər.

Görəsən, bu heyvanların şər olmaqları onların yaradılışındandır? İlan özünün gözəl dərisi ilə niyə şər olmalıdır? Əgər onların şər olmaqları zəhərlərinə görədirsə, belə nəql edirlər ki, bu heyvanların zəhərli olmaqları havada olan zəhərləri, zəhərli tozları cəzb etdiklərinə görədir.

Nəticədə onlar bizim yaxşı tənəffüsümüzdən ötrü havanı təmizləmiş olurlar.

Bundan əlavə zəhər özü çox mənfəətli bir şeydir.

Ondan dərmanlar düzəldib bəzi xəstəliklərin müalicəsində istifadə olunur.

Deməli, bu heyvanlar havanı təmizlədiklərinə və zəhər bəzi xəstəlikləri sağaltdığına görə xeyirli hesab olunurlar. Bundan əlavə bu heyvanlarda bədənin ziddinə olan maddələr də vardır. Əqrəbin bədəninin ortasından kəsib onun sancdığı yerə qoysaq, orada olan zəhəri çəkib çıxaracaqdır. Eyni zamanda onun yağı zəhərlənmiş yerlər üçün çox faydalıdır. Əgər bir nəfər öz səhvi ucbatından əqrəbin sancmasına məruz qalırsa, bu əqrəbin şər olmasına dəlalət deyildir. Bəlkə bu təbii hadisədir. Başqa bir misal, əgər bir evin damından yıxılıb əl-ayağı sınsa və ya ölsə, bu evin damının pis olmasına səbəb deyildir. Çünki hündür yerin təbii qaydası belədir.

Ehtiyatsızlıq edib, sürətlə maşın sürən adamın avtomobil qəzasına uğramaq ehtimalı daha çoxdur.

Bu anda maşının şər olması haqqında heç bir şey demək olmaz.

Deməli, heyvan və zəhərin şər olması onların yaradılışında deyildir.

Biz başa düşsək də, düşməsək də, aləmdə olan bütün varlıqlar xalis xeyirdir.

Buna misal olaraq, xeyirli həmişə qalib olan mələikənin və ya bütün maddi varlıqların adını çəkmək olar. Bununla da, **“Sənəviyyə”** və ya **“iki Allahlıq”** dəstənin xeyir və şər haqqında dediyi əsas şübhə batil olur.

Özünə məxsus məbdəyi olan mütləq şər yoxdur.

Bir varlığın xeyiri qalib olmayınca heç vaxt yaradılmır. Demək olar ki, bütün varlıqların xeyirləri dahaçoxdur.

Hər hansı bir surətdə hasil olan şər də Allahın izni ilədir. Zəhərli heyvanın sancıb öldürməsi Allahın təqdiri əssında olan bir məsləhətdir.

Buna görə də müqayisəli şəkildə başa düşülən şərlərin batinində məslətələr, gizlənmişdir ki, onların həqiqəti xeyir olub, Allahın təqdiri ilə baş verir.

Bunun əsasında xeyir və şəri Allaha nisbət verib, **“Ey xeyir və Şərin xaliqi”** deyirlər. Şər kimi başa düşülən şeylər də məsləhət əsasında baş verir və onlar ictimaiyyət və şəxsləri sınamaqdan ötrüdür.

İki mömin *(həzrəti Süleyman və Zülqərneyi)* və iki nəfər isə kafər *(nəmrud və Buxtirinəsr)* olub.

Quran oxumaq üçün hansı müstəhəb əməllərə riayət etmək lazımdır?

Quran oxuyanda aşağıdakı şərtlərə, riayət etmək lazımdır.

**1.** Paklıq və təharət *(dəstəmaz almaq)* əgər Quran oxuyanda əllərini onun yazılarına dəyməsi, ehtimalı verilsə, onda hökmən gərək dəstəmaz alınmalıdır.

**2.** Ağzın paklığı *(dişləri fırçalamaq)*.

**3.** İxlas üzündən və Allaha görə oxumaq.

**4.** Quran oxumamışdan qabaq məxsus dualar oxumaq.

**5.** **"Nəhl"** surəsinin 98-ci ayəsində buyurulan **"əuzu billahi minəş-şeytanir rəcim"** sözünü demək.

**6.** Quranı üzündən oxumaq, hətta əzbərdən bilsə belə; bu iş günahların bağışlanmasına səbəb olur.

**7.** Gözəl səs ilə oxumaq.

**8.** Ərəb ləhcəsi ilə oxumaq.

**9.** Quran hər bir müsəlmanın səadətə çatmağı üçün bir proqramdır. Bu səbəbdən hər gün ən azı on ayə oxuması yaxşıdır.

**10.** Mənasına diqqət etmək.

**11.** Ahəstə və yavaş-yavaş oxumaq.

**12.** Quran oxunan zaman qulaq asmaq və sükut etmək.

**13.** Səcdə ayələrinə çatanda səcdə etmək.

**14.** Quranı xətm etmək *(qurtarmaq)*

**15.** Quranı əzbərləmək.

**16.** Quranı münasib yerdə saxlamaq.

**17.** Quranın qarşısında ədəb qaydalarına riayət etmək.

**18.** Quran oxunduqdan sonra **"Sədəqəllahül-Əluyul-əzim"** demək.

**19.** Quran oxunduqdan sonra dua oxumaq.

**Zövq və istedad əsasında məsuliyyət nədir?**

Hər kəs öz zövq, istedad və imkanlarına əsasən, məsuliyyət qəbul edirlər. Bunununla, əkinçi digəri heyvandarlıq, daha birisi dəmirçi, dərzidir. Hikmət sahibləri deyiblər:

**"İnsan təbiətinə görə ictimaidir. Bu söz də həmin mənadadır"**.

İnsanın ictimai həyatda olan meyillərini həmin yol aydınlaşdırır. İnsanın həyatı qarşılıqlı olduqda, məsuliyyətlər və vəzifələrin cəmiyyətin içində bir-birinə qarşı məsuliyyətiləri qarşımıza çıxır. Başqa tərəfdən özünü istəmək və təkəbbür qərizəsi insanda tüğyan edir.

Məşhur məsələ görə **"hərkəs qalib gəlsə, haqdır"**. Başqalarının haqqına təcavüz edir. İctimai hərc-mərc hər tərəfdən sərçeşmələnib hər yeri tutur. Ona görə də, cəmiyyətdə qanun zərurətimiz olması məsələsi qarşıya çıxır.

Bununla da, bir sıra nizam və qayda-qanunlar, hasar şəklində cəmiyyətin bütün şəxslərini əhatə edib, onların mənafelərini qorumalıdır.

Bura qədər, insanda məsuliyyətlərin olması, onun hüquqları olmaqla bərabər, başqalarının da hüququna riayət etmələri, nəhayət, ona veriləcəklərdən sual olunacağı barəsində bəhs etmişik.

Necə ki, Quran İsra surəsi 26-cı ayədə:

**"Həqiqətən gözdən, qulaqdan, qəlbdən və bütün verilmişlərdən sual olunacaq"** buyurur.

Bu mətləb aydınlaşdıqdan sonra insana lazımdır ki, özünün məsuliyyətlərini tanısın və bununla da hansı hüquqi məsuliyyətlərin olduğunu bilər.

**Nə üçün "Bəraət" surəsinin əvəlində "Bismillah" yoxdur, "Həml" surəsinin ortasında isə "Bismillah" cümləsi təkrar olunmuşdur?**

Bəraət surəsi müşriklərə qarşı bir növ təhdid, əhd-peyman pozanlara qarşı müharibə elan edilməsi ilə əlaqədar nazil olunduğundan, onun rəhmət, sülh, səfa və dostluq əlaməti olan **"Bismillah"** cümləsi ilə başlaması münasib deyildir. Amma **"Həml"** surəsinin ortalarında **"Bismillah"**ın zikr olunmasına gəldikdə isə, qeyd etmək lazımdır ki, bu həzrəti Süleyman (ə)-ın Səba mələkəsi üçün yazdığı bir məktubun məzmunudur. Və Quranda onun məzmunu tam şəkildə verildiyi üçün onun əvvəli olan **"Bismillah"** da zikr edilmişdir.

**"Bəqərə" surəsinin 207-ci ayəsi hansı hadisə ilə əlaqədar və kimin barəsində nazil olmuşdur?**

**"Bəqərə"** surəsinin 207-ci ayəsi "Camaatdan bəzisi *(imanlı və fədakar insan olan Əliyə)* kimi **"Leylətul məbit"də peyğəmbər (s.ə.v.v.) yatağında yataraq, Allahın razılığını qazanmaq yolunda öz canlarını satır. Allah öz bəndələrinə qarşı mehribandır."**

Himcrətin yeddinci əsrində yaşamış sünnü alimlərindən olan İbni Əbil Hədid **"Nəhcül Bəlağə"**yə yazdığı şərhində belə qeyd edir:

"Bütün təfsirçilər demişlər ki, bu ayə Həzrəti Əli İbni Əbu Talibin (ə)" barəsində **"Leylətul-məbit"** gecəsində həzrəti Rəsuli Əkrəmin (s.ə.v.v.) yerində yatması ilə əlaqədar nazil olmuşdur. Bu məsələ təvatur həddindədir, kafir və divanələrdən başqa heç kim onu inkar etməz.

**"Kövsər" surəsi kimin barəsində və hansı hadisə ilə əlaqədar olaraq nazil olunmuşdur?**

**"Kövsər"** surəsi həzrəti Fatimeyi Zəhra (ə)-ın barəsində nazil olmuşdur. Müşriklər Peyğəmbərə (ə) dil yarası vurub, **"sənin oğlun yoxdur, ona görə də sonsuzsan"** deyirdilər. Bu zaman **"Kövsər"** surəsi nazil olub Peyğəmbərə (ə) təskinlik verdi.

**"Həqiqətən biz sənə Kövsər əta etdik. Belə isə, Rəbbin üçün dua edib qurbanlıq et, həqiqətən sənin düşmənin əbtərdir** *(sonsuzdur)***"**.

Hal-hazırda Peyğəmbərin nəslindən olan seyidlər dünyanın hər yerində vardır.

**"Qurrai Səbə" kimlərdir?**

Qurrai səbə, yəni Qurani Kərimin milavət üsullarını nəql edən 7 nəfərdir. Hafiz İbni Asim ibni Nəcdi Küfi, İbni Kəsir Məkki, Əbu Əmr Bəsri, Naffe Mədəni, Həmzə Kufi, Kəsan Kufi və ibni Amirdir.

**Hansı kitablar Quranın "bacı" və "qardaşı" kimi məşhurlaşıblar?**

Həzrəti Əli (ə)ın **"Nəhcul-bəlağə"**si Quranın qardaşı, İmami Səccad (ə)ın **"Səhifeyi - səğçaddiyyə"** kitabı isə Quranın bacısı adlanır.

**Mələklər necə varlıqlardır?**

Mələklər gözlə görünməyən varlıqlaqlardır.

**Mələklərin ən böyükləri hansılardır?**

Mələklərin ən böyükləri Cəbrayıl, Əzrayıl, Mikayıl və İsrafil (ə)-lar adında mələklərdirlər. Onlara müqərrəb mələklər deyilir.

**Bu mələklərin vəzifələri nədir?**

Cəbrayıl: Peyğəmbərlərlə görüşən və ilahi hökmləri onlara yetirən *(çatdıran)* mələkdir.

*Əzrayıl:* - Əcəli gələnlərin ruhlarını alan, mələkdir.

*Mikayıl:* - Təbiət hadisələri ilə vəzifəli mələkdir.

*İsrafil:* - Dünya həyatının sonunu və məhşər halının başlanğıcını elan edən mələkdir.

Mələklər gündəlik həyatımızın hər bir anını qeydə alırlar: hərəkətlərimizi, səslərimizi, görünməyən filmə və lentə salarlar. Beləcə həyatımızı axirət gününə qədər tədqiq edər, düzləyib hazırlayarlar.

Mələklər İlahi qüdrəti ilə xəlq olunan böyük və kiçik varlıqlardırlar. Quran təkcə Cəbrayıl (ə)ın 600 qanadı olduğunu bəyan edir.

**Allah tərəfindən peyğəmbərə göndərilən kitablar neçədir?**

O müqədəs kitablar dörddür.

***Tövrat***

***İncil,***

***Zəbur,***

***Furqan Quran-Kərim.***

**Müqəddəs kitablar nələri bildirir?**

Müqəddəs kitablar: ilahi əmrləri, yasaqları və hökmləri bildirir. Dünyada və axirətdə insanları nəyə qovuşduracaqları yolları göstərir.

Biz müsəlmanlar hansı müqədəs kitablara inanırıq.

Ən başlıcası öz dinimizi təsdiqləyən və təbliğ edən Qurani-Kərimə. Bəşərin ilk atası olan Adəm peyğəmbərə və ondan sonra peyğəmbər olan bizim peyğəmbərimiz Məhəmməd (ə) qədər olan bütün peyğəmbərlərə göndərilən müqəddəs kitabların hamısına inanırıq.

**Müqəddəs kitabların hamısı böyük kitablardırmı?**

Xeyr, bunların bir qismi bir neçə səhifədən ibarət kiçik həcmli yazıdırlar.

**Suhuf nə deməkdir?**

Səhifələr deməkdir.

**Hansı peyğəmbərə nə qədər səhifə göndərilmişdir?**

Adəm (ə.s.) 10 səhifə
Şeys (ə.s.) 50 səhifə
İdris (ə.s.) 30 səhifə
İbrahim (ə.s.) 10 səhifə
göndərilmişdir ki, cəmisi 100 səhifə edər.

**Müqədəs kitablar kimlərə gəlmişdir?**

Tövrat - Musa (ə.s.)
Zəbur - Davud (ə.s.)
İncil - İsa (ə.s.)
Qurani-Kərim - Məhəmməd (ə.s.)

**Bütün müqəddəs kitabların və səhifələrin hökmləri bu gündə qüvvədədirmi?**

Xeyr, Qurani-Kərim axırıncı ilahi kitabdır. İndi hököm ancaq Qurani-Kərimin hökmüdür. Qalan müqəddəs kitabların hökmlərinin vaxtı keçmiş, Quranın hökmləri qiyamətin gününə qədər qüvvədədir.

**Quran necə kitabdır?**

Quran ikiliklər içində çırpışan insanların bir Allaha olan inamına yol göstərən və hidayət edəndir.

Könülləri rahatlığa, vicdanları səfaya qovuşduran; Vücudun, fikrin və ruhun necə və nə şəkildə təmizlənəcəyini bildirən; hər kəsə ilham verən, nəsibli hər kəsi doyuran, hökmləri hər zaman və hər yerdə keçən azadlıq, ədalət, insaf və ibadət sahələrini əhatə edəndir.

Hər bir Allah bəndəsinə insanlıq şərəfinə uyğun bir həyat tərzi və yaşama səviyyəsi təmin edən sonuncu və tək müqəddəs kitabdır.

**Quran nə üçün başqa dildə nazil olmayıb?**

**Allah təala Fussilət surəsinin 44-cü ayəsində buyurur: "və əgər biz, bu kitabı ərəb dilindən qeyri dildə *(əcəm dilində edəydik)* əlbəttə deyərdilər niyə bəyan olunmadı onun ayətləri ayə kitab əcəmi və peyğəmbər (ə) ərəbdir. (yainki biz ərəbik kitab isə əcəm və bu bəhanə ilə təkzib edərdilər, həm Quranı və səni)**

**Quran digər əlifbalarla yazıla bilərmi?**

Yazılmaz. Bu Quranımızın dilinin ərəbcə olduğunu və

bu xüsusda Allah tərəfindən Quranımızda bəyan edildiyini ayrıca Uca peyğəmbərimizin, Quranımızın bütün ayətlərini ona inam bəsləyənlərə, onun zamanında yaşayan müsəlmanlara bu əlifba ilə yazdırıb təsbit etdiklərini söyləmişdik. Hər dil ancaq və ən gözəl şəkildə öz əlifbası ilə yazıla bilir. Bir dili öz əlifbasından başqa əlifba ilə yazmaq məna dərinliyi kəsbedə bilməz.

Başqa niyyət və düşüncə ilə, ingiliscə, fransızca və ya almancaya öz əlifbası ilə yazmadan digər bir millətin dili ilə yazmaq elm adına xələl gətirər. O dilərdə danışan millətlərə də ağıl öyrətmək kimi olur.

Bu isə işin yalnız xarici tərəfi, ədəb və nəzakət cəhətidir. Bir də işin elmi tərəfi vardır ki, buna görə, ən gözəl yazılmamış şəklini öz doğma əlifbasında tapır. Bəhs etdiyimiz dil Allah kəlamı olduğuna görə işin ciddiyyəti daha çox mühüm olur.

Bu gün Quranın ayələri deyil, ərəbcənin ən bəsit bəzi mətnlərini başqa əlifbalar ilə doğru, yazmaq çox çətindir, həyatlarını bu işə sərf etmiş və ömürləri boyunca transkripsya əlifbası ilə yazmış və bu əlifbanın kəşfində əməkləri keçmiş xarici ərəbşünasların belə ərəbcə bir mətnin adı çəkilən əlifba ilə yanlışsız olaraq yazılmasının imkansız olduğunu etiraf etməkdədirlər. Hansı əcnəbi ərəbşünas göstərilə bilər ki, ərəbcə mətnləri ərəbcə əslindən oxumamış olsun.

Bunların bəzi ərəbcə və farsca mətnləri transkripisya əlifbası ilə yazmaları qərbin bu mövzulardan xəbərsiz insanlardan səthi bir fikir vermək üçündür.

Quran Allah kəlamıdır. Quran ərəbcədir. Ərəb əlifbası ilə yazılmışdır onun oxunuşu da Allah kəlamına yaraşan tərzdə olmalıdır. Bu halı, yəni fonetik qanunauyğunluğu **"TƏCVİD"** adı verilən elm təmin edir. Təcvid ancaq Qurani-Kərimin oxunuşu üzərində tətbiq edilir. Quranın ayələrinin sayı, surələrinin tərtib və təsnifi, hətta ayətlərinin sıralanması və hərflərin ədədi, hamısı vəhyə dayanır. Həriflərindən bir dənəsinin belə düz yazılmaması məna etibarilə dəyişikliyə səbəb olur. Əgər başqa əlifba ilə yazılsa bu yanlışlıq və əksiklik saysız olacaqdır. Bu isə Allah kəlamını təhrif etməkdir.

**Quran başqa dilə tərcümə edilərmi?**

Quran hər bir millətin başa düşməsi, ilahi hökmləri bilib tətbiq etməsi üçün bütün dünya dillərinə tərcümə edilmişdir və edilə bilər. Quranın tərcüməsi hər dövrdə olmuşdur.

**Quranın tərcüməsi özümü deməkdir?**

Xeyr, heç bir zaman özü ola bilməz.

**Əsas xətləri necə tapaq və öyrənək?**

Əsas xətlər sərhəddir, ondan çıxmaq isə təhlükəlidir. Peyğəmbərlərin vurğuladığı birinci mövzu bəndəlikdir.

Allah Quranın "Nəhl" surəsi 36-cı ayəsində buyurur:

**"Biz hər ümmətə: "Allaha ibadət edin, taqutdan çəkinin"- deyə peyğəmbər göndərmişik."**

Bütün dinlərin canı bəndəlikdir, həyatımızın həmin ca-

nı olmayan sahəsi faydasızdır. Peyğəmbərin Əraf və bu kimi surələrində bəyan edilən hekayələri göstərir ki, onların başlıca çağrışı bəndəliyə olmuşdur. İslam peyğəmbərlərinin **"La ilahə İlləllah"** şüarı da həmin mənanı ifadə edir. Quran yaradılmışın səbəbini bəndəlikdə görür:

**"Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım"**.

Zariyat surəsi 56-cı ayədə Allah buyurur.

**Burada məgər Allah insanların bəndəçiliyinə möhtacdır? - deyə bir şübhə yarana bilər.**

Allah mələklər kimi kamil yaradılışlı *(təkamılə möhtac olmayan)* mövcudlar yaratmışdır və onların sayını özündən başqası bilmir.

Lakin həm də ifadə etmişdir ki, Mələklərindən üstün mərtəbəyə çatan mövcud yaratsın, amma belə bir mərtəbəyə yüksəlmək ixtiyarı əməllərdən asılıdır. Digər tərəfdən həmin insan heyvandan alçaq mərhələyə enə bilər:

Necə ki, Əraf surəsi 189-cu ayədə buyurulur:

**"Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər."**

Hər bir yaranmışın ömrü keçdikcə ölümə yaxınlaşır. İstər gənc olsun, istərsə də yaşlı, hər an, hər saniyə ölümə bir azda yaxınlaşır.

Günahkarlar yəni günahkar insanlar qiyamət çətinliyinin müqabilində Nəbə surəsi 40-cı ayədə **"Kaş torpaq olaydım, deyər"**. Bu da insan yaradılışında əzəmətin sirridir. Biz öz qiymətimizi bilmirik, yoxsa bu qədər maddi və mənəvi qüvvələrimizi belə dəyərsiz və ötəri işlərə sərf et-

mərik. Biz o dünyada həqiqətlər üzə çıxanda başa düşəcəyik və təəssüf edəcəyik ki, niyə filan şeyə baxdım, filan sözü danışdım, filan səsi eşitdim, filan... yalnız Allaha bəndəlik etmək uğrunda gördüyümüz işlərdən razı qalacağıq. Ona görə ki, Allah təala Yasin surəsinin 60-61-ci ayələrində buyurub:

**“Ey Adəm övladı! Məgər mən *(dünyada)* sizə: “Şeytana ibadət etməyin, o sizin açıq düşməninizdir!” deyə buyurmadımmı? Və “Mənə ibadət edin, bu doğru yoldur deyə əmr etmədimi”.**

Demək yaradılışın məqsədi Allaha bəndəlik etməkdir. Doğru yol budur, qalan isə şeytan yoludur. Allah razı olmayan işdən şeytan razı olur.

**Müsəlmanın müsəlman qardaşının boynunda haqqı nədir?**

Peyğəmbər (s.ə.v.v.) buyurur:

“Müsəlmanın müsəlman qardaşının boynunda otuz haqqı vardır. Hər bir müsəlman, bu hüquqları yerinə yetirməyib və ya müsəlman qardaşından bunlar barəsində halallıq olmayınca qiyamətdə üzürlü olmaz:”

**1. Onun xətalarını bağışlasın.**
**2. Narahatçılıq vaxtı ona qarşı mehriban olsun.**
**3. Sirrini gizli saxlasın**
**4. Səhvlərinin əvəzini çıxsın.**
**5. Üzürünü qəbul etsin.**
**6. Pis danışanların müqabilində onu müdafiə etsin.**
**7. Həmişə onun xeyrini istəsin.**

**8. Onunla dostluğu qorusun.**
**9. Onunla əhdinə riayət etsin.**
**10. Xəstələnən vaxtı onu yoxlasın.**
**11. Ölən vaxtı onun dəfnində olsun.**
**12. Dəvətini qəbul etsin**
**13. Hədiyyəsini qəbul etsin**
**14. Xeyirxahlığını qiymətləndirsin.**
**15. Onun nemət olmasına şükür etsin.**
**16. Ona kömək etməyə çalışsın.**
**17. Onun namusunu qorusun.**
**18. Onun hacətini yerinə-yetirsin.**
**19. İstəyinə şəfaət etsin.**
**20. Asqıran vaxtı onu salamlasın.**
**21. İtirdiyini tapmaqda kömək etsin.**
**22. salamına cavab versin.**
**23. Danışığını yaxşı bilsin.**
**24. Hörmətini saxlasın.**
**25. Andlarını təsdiq etsin.**
**26. Dostunu dost tutsun.**
**27. Onunla düşmənçilik etməsin.**

**28. İstər Zalım, istərsə də məzlum olsa, ona kömək etməyə çalışsın. Zalım vaxtı ona köməkliyi bu olar ki, onu zülm etməkdən saxlasın. Məzlum olan vaxtı ona haqqını almaqda kömək etsin.**

**29. Onu müxtəlif hadisələrdə tək qoymasın.**

**30. Özünə istədiyi yaxşılıqlardan ona da istəsin. Özünə istəmədiyi pisliyi ona da istəməsin.**

**İslamda qardaşlığa münasibət necədir?**

Qardaşlıq məsələsi, İslam və Quranın mühüm məsələlərindən biri olub, iki qismə bölünür:

"**Birinci**si əsl qardaş, ata-anadan bir olub, bir-birinə ən yaxın insani bağlılıqda olan qardaşlar. Bu bağlılıq, onların bir-birindən irs aparmasına səbəb olur. İrs aparmaqda ikinci təbəqələrdə olub, xüsusi hökmləri vardır. **İkinci**-İman qardaşları. Əslində, bu qardaşlıq bütün müsəlmanları bir-birinə bağlayır və dünyada müsəlmanların vəhdətinə səbəb olur."

**"Əx"** sözü ərəbcə lüğətdə, qardaş rəfiq və yoldaş mənasındadır. Sözün kökü **"Əxəvüdür"**. Əslində o şəxsə deyilir ki, ata-anada və ya onların birində başqası ilə şərik olsun.

Fərid Vəcdi, **"Dairətul Maarif"** kitabında yazır: **"İxvai"** sözü **"əx"** sözünün cəm şəkli olub, rəfiq mənasındadır. Əgər **"əx"** həqiqi qardaş mənasında olsa, cəm şəkilli **"ixvətun"** şəklində gələr.

Lakin Fərid Vəcdinin dediyinin əksinə olaraq Quranda **"Nur"** surəsində **"İxvaiihiinə"** sözü həqiqi qardaş mənasında işlənmişdir.

Qurani-Kərim Hücurat surəsi 10-cu ayədə buyurur:

**"Möminlər bir-biri ilə qardaşdırlar. Bəs qardaşlarınız arasında sülh bərqərar edin və Allahın rəhmətini qazanmaqdan ötrü təqvalı olun."**

**Hesab günü bir sürüyən və bir şahidlə gələr nədir?**

Hesab günü sorğu-sual sırasında bütün insanların yanında olacaq iki mələk haqqında bilgi Quranda bu şəkildə verilir:

**“Hər bir kəs bir sürüyən və bir də şahidlə gələcəkdir”.**

Qaf surəsi 21-ci ayədə Din günü hər yer Allahın nuru ilə işıqlanır. Bu böyük məhkəmədə şahidlik ediləcək elçilər və şahidlər hazır saxlanır. Dünyada Allaha qulluq etmələri lazım gəldiyi insanlara xatırladan və nəsihət verən peyğəmbərlər və digər şahidlər hesab günü sorğuya çəkiləcək insanların yanındadırlar. Bu şahidlər haqq ilə hökm edəcəklər və hesab günü əslində Allaha qulluq etməsi lazım gəldiyin bildiyi halda bilmədiyini iddia edə biləcək heç kimsə olmayacqdır.

O gün bəndənin Rəbinin hüzurunda etdiklərini inkar etməyə fürsəti və ya imkanı yoxdur. İşlədiyi bütün xeyirlər və şərlər ortaya çıxarılmışdır. Həqiqətləri inkar etsə belə şahidlər adil olacaq və onu yalanlayacaqdır. Rəbbimizin hüzurundakı bu böyük nizam içərisində hər ümmət öz imamı (rəhbəri, dövlət başçısı) və kitabı ilə gələcəkdir. Adəm (ə)-dan bu yana yaşamış bütün cəmiyyətlərin bir araya gələcəyi şəraitdə sorğu sualdakı nizam və hesabdakı ciddilik Allahın böyüklüyünün sonsuz ədalətinin və əzəmətini nəzərə çarpacaq göstəricilərdir. Allahın ədaləti Quranın Casiyə surəsinin 28-ci ayəsində belə xəbər verir.

**O gün hər üməti diz çökmüş görəcəksən. Hər ümmət öz dəftərinə tərəf çağırılacaqdır: Bu gün sizə etdiyimiz əməllərin əvəzi veriləcəkdir.**

**“Ülül əmr” ayəsi nədir və kimə aiddir?**

**“Ülül əmr”** ayəsi aşağıdakı ayədir.

**“Ey iman gətirənlər, Allaha peyğəmbərə və öz içimizdə olan əmr sahiblərinə itaət edin”**. Bu ayə Nisa surəsi 59-cuayədə nazil olub. Peyğəmbər (s) bu ayəni oxuyub dedi:

“Mənim (ümmətə rəhbərlikdə) şəriklərim o kəslərdir ki, bu ayədə Allah onları özünə və mənə yaxın etmiş və buyurmuşdur ki, bir işdə çətinlik çəkib qorxsanız, Allaha, onun Rəsuluna və ülul-əmrə müraciət edin”.

Əli (ə) Ya Rəsuləllah!

Ülül-əmr kimlərdir? - deyə sual etdikdə, Peyğəmbər (ə) “Sən onların birincisisən” deyə cavab verdi.

**Şəhadəti məğlubiyyət hesab etmək olarmı?**

Təsəvvür edin ki, bir peyğəmbər düşmənlə döyüşdə şəhadətə yetirilib. Amma onun dini cəmiyyəti öz təsiri altına alaraq, batil əqidələrə qalib gəlib. Diqqət etsək, görərik ki, həmin peyğəmbər əslində qalib gəlmişdir. Qələbə bir insanı yox, onun əqidəsini sındırmaqdır. Bəli İmam Hüseyn (ə) Kərbəlada qətlə yetirildi. Lakin bütövlükdə Kərbəla vaqiəsi İslamın taleyində tarixi dönüş nöqtəsinə çevrildi. Qələbənin digər bir növü, tədricən qələbədir. Belə bir qələbə əsrlərcə davam edən mübarizədən, neçə-neçə nəsillərin şəadətə yetişməsindən sonra əldə edilir. Ən əsas nöqtələrindən biri isə əbədiyyət məsələsidir. Yəni dünya səadəti axirət səadəti demək deyildir. 70 illik bir ömrü xoşbəxt yaşayan insanı, xoşbəxt adlandırmaq olmaz. Əsl xoşbəxtlik axirət xoşbəxtliyidir. Əgər İmam Hüseyn (ə) şəhid olmaqla behiştə gedirsə, demək qalib gəlir. Yox, onu qət-

lə yetirən Şimr cəhənnəm oduna bələnirsə, demək əslində məğlub olur.

**Peyğəmbər kimdi?**

Peyğəmbər Allah ilə bəndə arasında elçidir.

**Hər kəs peyğəmbər ola bilərmi?**

Xeyr. Peyğəmbərlik Allah vergisidir. Allahımız bu vəzifəni özü istədiyi adama vermişdi. Peyğəmbərliyi çalışmaqla əldə etmək olmaz.

**Peyğəmbərlərdə neçə sifat olmalıdır və hansılardır?**

1. *Sidq* - Peyğəmbərlər sözlərində və işlərində ən doğru olmalıdırlar. Onlar heç bir zaman yalan söyləməmişlər. Olacaq dedikləri olmuş və olmayacaqdır.

2. *Əmanətdar* - Özlərinə güvənilən (etibarlı) kimsə olmalarıdır. Onlar heç bir zaman əmanətiə xəyanət etməmişdirlər.

3. *Təbliğ* - İlahinin əmrlərini doğru olaraq insanlara bildirməlidirlər.

4. *İsmət* - heç bir günahları yoxdur, günah etməzlər.

5. *Fətanət* - insanlar içində ən ağıllı və ən zəkalı olmalarıdır.

**Quran necə kitabdır?**

İnsanlıq şərəfinə uyğun bir həyat tərzi və yaşama səviyyəsi təmin edən sonuncu və tək müqəddəs kitabdır.

**Quran neçə il müddətində nazil olub?**
23 ildə.

**Peyğzmbər (ə)a neçə yaşında Quran nazil olub?**
40 yaşında

**Quranın neçə surələri vardır?**
114 surə.

**Quranı əzbər bilənə nə deyirlər?**
Hafiz deyilir.

**Quranın dili hansı dildir və hansı hərflədir?**
Quranın dili Ərəb dilidir və Ərəb əlifbasıilə yzılmışdır.

**Quranın dilinin Ərəbcə olduğunu kim söyləyir?**
Bunu Allah təala Quranın Yusif surəsinin 2-ci ayəsində: **"(Ey Məkkə əhli) biz bunu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə (mənasını) anlayasınız."**

**Quran digər əlifbalarla yazıla bilərmi?**
Xeyir.
1. Rəbbimiz kimdir?
- Allah.
2. Dinimiz?
- İslam.
3. Kitabımız?
- Quran.

4. Qibləmiz?
- Kəbə
5. Kimin bəndəsiyik?
- Allahın
6. Kimin ümmətiyik?
- Məhəmməd (ə)ın.
7. Kimin şiəsiyik?
- Əli (ə).
8. Kimin məzhəbindənik?
- 6-cı imam Cəfəri Sadiq (ə)
9. Kimin millətiyik?
- İbrahim (ə)-ın.
10. Peyğəmbərimizin adı?
- Məhəmməd (s.ə.v.v)
11. Atasının adı?
- Abdullah.
12. Anasının adı?
- Əminə.
13. Süd anasının adı?
- Həlimə.
14. Babasının adı?
- Şeybətül-həmd (Əbdül Müttəllib)
15. Əmisinin adı?
- Əbu Talib.
16. Harada doğulub?
- Məkkə şəhərində.
17. Hansı tarixdə?
- 20 aprel 571-ci il. Fil ilinin 30-da.

18. Bu tarix ərəb ayının hansı ilinə və hansı gününə düşür?

- Rəbiuəvvəl ayının 12-ci günü, bazar ertəsi gecəsinə.

19. Neçə yaşında peyğəmbərliyə çatıb?

- 40 yaşında

20. Neçə il peyğəmbərlik etdi?

- 23 il.

21. Neçə yaşında vəfat edib?

- 63 yaşında.

22. Peyğəmbər (ə)ın neçə qızı vardı?

- Dörd qızı.

23.Adları nədir?

- Zeynəb, Ruqiyə, Ümmü Gülsüm, Fatimə.

24. Neçə oğlu vardı?

- Üç oğlu.

25. Adları nədir?

- İbrahim, Qasim, Abdullah.

26. Peyğəmbər (ə) ilk ailəsi kimdir?

- Xədiceyi Kubra (s.ə.)

27. Peyğəmbərin son ailəsi kimdir?

- Ayişə.

28. Əli (ə) peyğəmbər (ə)ın nəyi olur?

- Əmisi oğlu.

29. Həzrəti Əli (ə) kimin həyat yoldaşı idi?

- Xanım Fatimə (s.ə.)nin.

30. Peyğəmbər (ə)ın neçə nəvəsi vardı?

- Dörd nəvəsi.

31. Kimlər idi.

- İmam Həsən (ə) və İmam Hüseyn (ə), xanım Zeynəb, xanım Gülsüm.

32. Dünyaya bəxş edilib və ediləcək insanların şərafətlisi kimdir?

- Muhəmməd peyğəmbər (ə).

## MƏSULİYYƏTLƏRİN TANINMASI YOLU NƏDİR?

Məsuliyyəti tanımaqdan ötrü bir neçə əsası bilmək lazımdır. **Birinci** əsas, həqarət və rəvan nəfəslərdən azad olmaq.

**İkincisi**, məsuliyyəti icra etməkdən ötrü qüdrət əldə etmək;

**Üçüncü** - onu tanımaq.

Quran İsra surəsinin 15-ci ayəsində buyurur:

**"Doğru yol tutan xeyrinə doğru yol tutmuş, haqq yoldan azan ancaq özünə zərər edər. Heç kəs başqasının yükünü çəkməz. Biz peyğəmbərlər göndərməmiş heç bir ümmətə əzab verməik.**

İnsanın məsuliyyəti, özündən başlayır. İki növ məsuliyyət vardır. **Fərdi məsuliyyət və ictimai məsuliyyət.**

Fərdi məsuliyyət barəsində Quran Müddəsir surəsi 38-ci ayədə buyurur:

**Hər kəs öz əməlinin girovundadır.**

Yenə də Nəhl surəsi 97-ci ayədə

**Mömin olub yaxşı işlər görən hər bir kişi və qadına** *(dünya və axirətdə)* **xoş və pak-pakizə həyat bəxş edəcək.**

**Etdikləri yaxşı əməllərin əvəzində onlara daha yaxşı mükafat verəcəyik.**

İctimai məsuliyyət barəsində Quran Rum surəsi 41-də buyurur:

**İnsanların öz əməlləri üzündən suda və quruda fəsad əmələ gələr ki, bununla onlara etdikləri bəzi işlərin cəzasını daddırsın və bəlkə, qayıtsınlar.**

## ŞƏRAB İÇMƏYİN İNSAN ORQANİZMİNƏ TƏSİRLƏRİ NƏDİR?

**1. Beyinə göstərdiyi təsir**
**2. Əsəb sisteminə**
**3. Mədəyə təsiri**
**4. Qara ciyərə**
**5. Qan dövranına**
**6. Tənəffüs orqanına**
**7. Böyrəklərə**
**8. Ürəyə**
**9. Əql qüvvəsinə**
**10. İnsan nəslində çoxlu mənfi təsirləri vardır.**

**Məstedici mayelər nəcisdir?**

Zatən axıcı *(maye)* şəklində olan məstedici maddələrin içilməsi haram olduğu kimi, eləcə də zatən məstedici olub, lakin axıcı *(maye)* olmayanlar da haramdır.

Bundan əlavə, maye məstedicilər həm də nəcisdir. İn-

sanın bədənində, yaxud paltarında olduqda onunla namaz qılmaq olmaz. Lakin məstedici şeylər zatən bərk halda olsalar *(xaş-xaş və s. kimi)* nəcis deyildir. Amma onun istifadə edilməsi haramdır.

Pis şey az və ya çox olmasından asılı olmyaraq həmişə pisdir. Spirtli içkilər orqanizmə daxil olan kimi, hətta az olsa belə təsir edir.

Siz bir houza bir neçə vedrə qırmızı mürəkkəb töksəniz, hovuzun suyunun hamısı qızaracaqdır. Lakin bir stəkan rəng töksəniz hovuzun rəngi dəyişməz. Siz deyə bilərsinizmi ki, bir stəkan rəng hovuza əsla təsir göstərmir?

Cavab mənfidir. Çünki əgər hovuzun suyunu buxarlandırsanız, o mürəkkəbin izləri zahir olacaqdır.

Spirtli içkilər də eyniylə bu cürdür. Bədənə daxil olduqda şübhəsiz, müəyyən qədər ziyan çatdırır. İstər onun əsərləri dərhal görünsün, istərsə də müəyyən müddət sonra.

İmam Rza (ə) buyurur:

**"Allah hər bir peyğəmbərə camaat arasına göndərmişsə, Allahın elmində mütləq din təkmil edildikdə şərabın haram olması onda olmuşdur.**

**Şərab da həmişə haramdır".**

Buna diqqət edək: Şərab nütfə hüceyrələrində pis təsir qoyur. Belə ki, Alman həkimlərindən biri sübuta yetirmişdir ki, əgər üç nəsl şərab içən olmasa da, şərabın təsiri üç nəsl davam edir.

Ayətullah Dəstğeyib, Seyyid Əbül Əla Mədudinin "Təiqih" kitabından nəql edir. Amerika hökuməti şəraba qarşı mübarizədə bütün vasitələrdən istifadə edərək səkkiz

milyon dollardan çox pul sərf edir.

On dörd il ərzində təxminən 250 milyon dollar, şərabın qadağan olunmasına sərf edib, təxminən 355 nəfəri zindana salmış, 16 milyon lirə şərabxorlardan cərimə alınmış, 455 milyon lirə əmlak müsadirə etmişlər. Bunlar şəraba olan münasibəti azalda bilməmiş 1932-ci ildə isə azad edilmişdir. Müqəddəs İslam dini, onu haram bilmiş, zərərli amillərin olmasını buyurmuşdu.

## LÜĞƏTDƏ HƏRFLƏRİN KÖMPÜTERLƏ TƏFSİRİ

Bir neçə il bundan əvvəl Asiyanın ən böyük jurnalı sayılan Misirin "Saatın sonu" adlı məşhur bir jurnalında bir misirli alimin kompüter vasitəsilə Qurani-Kərimiin bir sıra ayələrinin təfsiri barəsində apardığı qəribə tədqiqatı qeyd olunmuşdu. Misirin kimya alimi Doktor Rəşid Xəlifənin üç il ərzində ələ gətirdiyi bu təhqiqat, bir daha olaraq sübut etdi ki, bu böyük asimani kitab insanın ağlından xaricdir.

Doktor Rəşidin bütün səyi və çalışması Qurani-Kərimin lüğətdə hərflərin ilk mənasını kəşf etməkdən ibarət idi. O çox çətin hesablamalarla sübut etdiki, lüğətdə hərflərinin surənin başlanğıcında olan hərflərlə yaxın rabitəsi var. Onun məqsədi kompüter vasitəsilə Quran ayələrinin təfsir etmək deyil, əksinə Quranın surələrindəki hərflərin sayını hesablamaq, habelə hər bir hərfin bir-birinə olan nisbətini öyrənmək idi.

Doktor Rəşid deyir: Qurani-Kərimin 114-cü surəsinin

86-cı Məkkədə, 28-ci surəsi isə Mədinədə nazil olmuşdur. Və bu surələrin 29-u müğəttə hərflərilə başlayır.

Diqqəti cəlb edən budur ki, bu hərflər ərəb əlifbasında olan 28 hərfin düz yarısını təşkil edir. Bəzən həmin müğəttə hərflərlə Nurani hərflər də deyilir.

O deyir: düz bir il hesablama apardım. İslam tarixində ilk dəfə olaraq həqiqətin üzərindən pərdə götürüldü və riyazi baxımdan Quranın ecazkarlığı, habelə onun hərflərinin nisbəti tamamilə aydın etdi ki, 14 hərfdən ibarət olan hər hansı bir lüğətdə hərflərinin səviyyəsi həmin surənin hərflərinə nisbətən neçə faizdir. Misal üçün hesablamadan sonra ələ gətirdik ki, Quranın "Fələq" surəsindəki nurani hərflərindən biri olan "Qaf" hərfinin nisbəti ən böyük rəqəmə (yəni 6.700 faizə) malikdir. Ondan sonra "Qiyamət" surəsidir ki, onun "Qaf" hərflərinin sayı, digər hərflərə nisbətən 3,907 faizdir. Ondan da sonra "Vəşi-Şəmsu" surəsidir ki, 3,906 faizdir. Gördüyünüz kimi "Qiyamət" və "Vəş Şəmsu" surəsində olan fərq: yalnız mində bir faizdir.

Beləliklə, bu nisbəti Quranın 114 surəsində ələ gətiririk. Və bütün surələrin hər hansı bir hərfinin lüğətdə hərfləri ilə nisbəti açıqlanır. İndi də bu hesablamalardan ələ gələn və diqqəti cəlb edən nəticəyə diqqət edək:

**1.** Qurani Kərimin surələri arasında "Qaf" surəsini istisna etməklə, bütün sürələrdə Qaf hərfi, digər hərflərdən azdır.

Yəni Qaf hərfi 23 il müddətində nazil olan və 113 surədə yerləşən Quran ayələrinin arasında başqa hərfləri az işlədilmişdir. Həmçinin **"Nun"** hərfi "hicr surəsini istisna

etməklə **“Nun vəl qələm”** surəsində ən böyük rəqəmə malikdir və **“hicr”** surəsini istisna etməklə, **“Nun vəl qələm”** surşsində ən böyük rəqəmə malikdir və **“hicr”** surəsində **“Nun”** hərfi **“Nun vəl qələm”** surəsindən nisbətən çoxdur. Amma diqqəti cəlb edən budur ki, Hicr surəsi o sürələrdəndir ki, Əlif, Lam, Ra. hərfləri ilə başlanan sürələrin hamısı bu surə hökmündədir. Yəni bu surələrin içərisində **“Nun”** hərfi **“Nun-vəl-qələm”** surəsindən az olacaq.

Rəd surəsinin başlanğıcındakı “Əlif”, Lam, Mim Ra hərfləri Məryam surəsi başlanğıcdakı beş hərfdən ibarət olan **KAF, HA, YA, ƏLR, SAD** hərflərin hesablasaq, bu beş hərf Qurani-Kərimin digər ayələrinin hərflərindən çox olacaq.

Burada yeni bir məsələ ilə rastlaşırıq. Bu asimani kitabda bir hərf ayrı-ayrılacaq, nəinki xüsusi nəzm üzrədir. Həm də onun müxtəlif hərfləri də belə bir vəziyyətə malikdir.

İndiyə qədər Quranın yalnız bir surəsinin başlanğıcında olan hərflər barəsində söhbət edirdik. Amma Quranın bir neçə surələrinin başlanğıcda olan hərflərin (misal üçün ƏLİF, LAM, MİM, RA və ƏLİF, LAM kimi) hesabı tamamilə ayrıdır. O da budur ki, hesablama maşınlarına, xüsusilə kompüterin mühasiblərinə əsasən, misal üçün “ƏLİF, LAM, MİM” hərflərin bu hərflərlə başlanan surələrdə hesablayıb onların bu surələrindəki hərflərlə nisbətini ələ gətirsək, görəcəyik ki, bu hərflər Quranın başqa surələrindəki hərflərdən çoxdur.

Qurani-Kərimin hər hansı bir surəsinin hərfləri nəinki müəyyən bir hesaba və qanuna malikdir, həm də buna oxşar surələrin hərfləri də bir qayda-qanuna malikdir.

## TƏVİL NƏDİR?

Təvil-lüğətdə bir şeyin qaytarılması mənasındadır. Buna əsasən, son məqsədə çatdıran hər hansı bir sözə və ya işə təvil deyilir. Əgər insan nəticəsi məlum olmayan yuxu görərsə, sonra başqa bir şəxsə müraciət etməklə və ya bir səhnəni görməklə, onu yazarsa, buna təvil deyilir. Məsələn: həzrəti Yusifin məşhur yuxusu xaricdə həyata keçdikdən sonra belə dedi: **"Bu əvvəl gördüyüm yuxunun yozumudur"**.

Qurani-Kərimdə sirlərə və dərin mənaya malik olan ayələr vardır. Lakin azğın fikirləri olan şəxslər özlərindən onun üçün səhv mənalar və təfsirlər etmişlər.

Beləliklə, "ibtiğaə təvillri" cümləsinin mənası budur ki, onlar mütəşabih ayələri *(ayələrin təvilini)* haqqın əksinə olaraq təfsir etmək istəyirlər. Bunu düz yozmayanlar Yəhudi və Məsihlər olublar.

## HƏVARİLƏR KİMLƏR İDİ?

"Həvari"nin cəm forması olan "həvariyyun" kəlməsi "hur" kökündən olub, "yumaq və ağartmaq" mənasındadır. Bəzən ağ olan hər hansı bir şeyə də "həvari" deyilir. Buna görə də ərəblər ağ yeməklərə "həvari" deyirlər.

Behişt hurilərinə də "huriyyə" deməkdə məqsəd, onların bədənlərinin ağ olmasıdır. Amma həzrəti Məsihin şagirdlərinə bu adın verilməsi barədə çoxlu ehtimallar ver-

mişlər. Həqiqət budur ki, dinin böyük rəhbərlərinin hədislərində gəlmişdir ki, onlar səfalı ruha və pak qəlbə malik olduqları halda, başqalarının fikirlərini aydınlaşdırmaqda, habelə camaatı günah və aludəlikdən pak etməkdə də çox çalışırdılar. "Çyuni Əxbari Rza" kitabında İmam Rza (ə)-dan nəql olunmuşdur ki, o həzrətdən həvarilərə qoyulan bu adın səbəbini soruşduqda, buyurdu:

"Xalqın bir dəstəsi belə təsəvvür edirdilər ki, onlar paltar yuyan olmuşlar. Lakin bunun səbəbi budur ki, onlar həm özlərini günahdan və çirkinlikdən pak etmişdilər, həm də başqalarını pak etmək üçün çalışırdılar."

Mətta və Luka İncilinin 6-cı bölümündə həvarilərin adları bunlardan ibarətdir.

**1.** Petres; **2.** Əndəyas; **3.** Yəqub; **4.** Yuhəşis; **5.** Filupes; **6.** Bertululma. **7.** Tuma; **8.** Mətta; **9.** Yəqub ibni Hüləfa; **10.** Şəmun (ləqəbi qəyyur); **11.** Yəhuda (Yəqubun qardaşı); **12.** Yəhuda Əsləryuti.

Bunlara İsa (ə)-ın nəsilləri də deyilir.

## YANARDAĞLAR, VULKANLAR

Yer üzərində zəlzələ ilə yanaşı Vulkanik dağlarda əmələ gələn partlayış və püskürmələr də mühüm təbii fəlakətlərə aiddir.

Dünyada 550-si Yer üzündə və digərləri də dənizin dibində olmaqla 1500-ə yaxın aktiv vulkan var. Bunlardan hər hansı birinin hər hansı bir zaman fəaliyyətə başlaması çox asandır. Bir vulkan püskürəndə isə ətrafında olan bö-

yük bir bölgəni öz təsiri altına alır. Heç bir texnologiyada bunun qarşısını ala bilməz.

Böyük bir fəlakət mənbəyi olan vulkanlar tarixdə Pompey kimi nəhəng şəhərləri yox etmişdir. Vezuvi kimi böyük bir vulkanın yanlış həyat tərzi keçirən, azqınlıq və ifratçılıq içində yaşayan bir xalqı bir anda məhv etməsi şübhəsiz ki, ibrətamiz bir hadisədir.

Vulkan püskürməsinin lavadan başqa digər bir təsiri də qarşısına çıxan hər şeyi yandırıb yaxan qaz və küləkdən ibarətdir. Bu küləyin surəti bəzən saatda 160 km-ə çata bilir. Onun yandırıcı təsiri olur. Görmə məsafəsini yox edir.

Ərazisində 200 aktiv vulkan olan İndoneziyadakı Karakatay vulkanın 1983-cü ildə püskürməsi nəticəsində 160-dan artıq kənd məhv olmuş və 36.000 insan bu zaman yaranan sunamidə boğulardı.

Bu püskürmənin tozları 10 gün sonra 3000 mil məsafəyə qədər çatmışdı. Vulkanların başqa xüsusiyyəti də onların qəfil püskürməsidir.150 il müddətində sönmüş Nevado del Ruiz vulkanın 1985-ci ildə püskürməsini buna misal göstərmək olar. Bu püskürmə 1980-ci ildə meydana gələn müqəddəs heleks vulkanının püskürməsinin gücünün 3 faizinə bərabər idi.

Nevado del Ruiz Armero şəhərini yer üzündən silmişdi. Bu püskürmə 1902-ci ildə Karib adasında 30.000 insanın ölümü ilə nəticələnən Pelee vulkanın püskürməsindən bəri ən böyük vulkan püskürməsi idi.

Bu hadisə baş verən anda yatmağa hazırlaşan 23.000 insandan yalnız 2000 nəfəri sağ qaldığı məlum oldu. Yer-

də qalan 23.000 insan isə püskürmə zamanı palçıq selinin altında qərq olmuşdular.

Allah buhadisələrlə də insanlara ölümün nə qədər asan və yaxın olduğunu göstərir. Onları dünyaya gəlmə məqsədləri barədə düşünməyə dəvət edir.

Bütün insanlar bilməlidir ki, nə olursa olsun, onlar bir gün Allahın hüzurunda dünyadakı əməllərinə görə hesab verəcəklər.

**Elə bir gündür ki, Yer başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və onlar bir olan qalib olan Allahın hüzurunda duracaqlar** *(İbrahim surəsi 48-ci ayə).*

## NEMƏTİN VERİLMƏSİNDƏKİ VƏ ALINMASINDAKI SİRLƏR

Allah Quran ayələrində insanlara nemətlər verilməsinin, ya da bu nemətlərin onlardan geri alınmasının bir səbəbini belə bildirir:

**Bu əzib ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti dəyişməyincə, Allah da ona əta etdiyi neməti dəyişən deyildir. Həqiqətən, Allah eşidəndir, biləndir** *(Ən fal surəsi 53).*

**Onu öndən və arxadan təqib edənlər vardır onu Allahın əmri ilə qoruyurlar, hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə, Allah da onun tövrünü dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istə-**

**sə, onun qarşısı heç cür alına bilməz və ondan başqa onların heç bir hamisi də olamaz** *(Rəd sur. 11)*.

Bu ayədə bildirilənlər, insanların çoxvaxt xəbərsiz olduqları və ya nəzərdən qaçırdığı çox mühüm sirlərdir.

Allah insanlara gözəl əxlaqlarının əvəzində müxtəlif nemətlərini artırarkən, pis əxlaqlı insanlara verilən nemətləri isə azaldacağını, insanların davranışlarındakı və səmimiyyətlərideki dərinliklərə görə, üzərlərindəki nemətlərdə də dəyişiklik olacağını bildirməkdir.

Allahın bu sirrini bilən möminlər qarşılaşdıqları hər hadisədə Allahın yaratdığı hikmətləri araşdırdıqları kimi, bu məsələyə də fikir verilir. Əsla özlərini yetgin görməz, daim Quran əxlaqını daha artıqlaması ilə yaşamağa, çatışmamazlıqlarını, qüsurlarını düzəltməyə cəhd edirlər. Heç vaxt hərəkətsiz olduqları halı qəbul edən, özlərini kifayət qədər yetkin görüb gözəl əxlaqlarından əl çəkən bir anlayış mənimsəməzlər.

## UŞAQLARIN SAÇININ AĞARMASI NƏ VAXT OLACAQ?

**Elə isə əgər küfr etmiş olsanız, uşaqları ağ saçlı qocalara döndərəcək gündən özünüzü necə qoruyacaqsınız.**

Müzzəmil surəsi 17-ci ayədə bu Allah Qiyaməti günün qorxusu kiçik uşaqları da bürüyəcəyini xəbər verir. Bu günün həqiqi mahiyyətini bilməyən, bunun sonsuz əzabın ilk günü olmasını anlayacaq gücdə olmayan uşaqlarda da yet-

kin adamlardan fərqli bir qorxu var. İnsanlar müvəqqəti dünya həyatı boyunca etdikləri əxlaqsızlıqların peşmançılığı içindədir. Uşaqlar isə hələ nə olduğunu qavrayacaq bir ağılda deyil. Buna baxmayaraq gördükləri hadisələrin şiddətindən saçları ağappaq olar. Belə bir fiziki dəyişiklik o ağır günün böyüklüyünü anlamaq baxımından olduqca mühümdür. Çünki o günə qədər dünya çox çeşidli fəlakətlər yaşamışdır. Hər bir insanlara çox şiddətli qorxu vermiş və onları dərindən təsirləndirmişdir. Amma, bu fəlakətlərin heç biri qiyamət günü meydana gələcək hadisələrlə müqayisə edildiyində uşaqların saçlarının ağardacaq qədər şiddətli deyildir. O gün insanların dünya həyatı boyunca yaşadıqları ən ağır, ən çətin gündür. Belə ki, qarşıya çıxan hadisələrin şiddəti qısa ömürləri boyunca qorxunun mahiyyətini və təhlükələrin nəticələrini tam dərk edə bilməmiş uşaqların da saçının qorxudan ağappaq olmasına səbəb olmuşdur.

## HAQQ NƏDİR?

Rağib İsfanı yazır:

**Haqq**, əslində uyğun olmaq və müvafiq olmaqlığa deyilir. Görürük ki, bu uyğunluq və həmahənglik ən çox "haqq" kəlməsində işlədilir.

O cümlədən:

1. **"Haqq"**, Allah və yaradan mənasındadır. Çünki yaranmışları öz hikmətinə uyğun yaratmışdır.

2. **“Haqq”**, yaranmış mənasında: “Çünki, yaranmışlar onun hikmətinə uyğun yaranmışdır” *(Yunis 5)*.

3. **“Haqq”**- əsil həqiqətə uyğun olan mənasında *(Bəqərə 3)*

4. **“Haqq”** - olan və olmalı şeylə uyğun və düzgün olan söz mənasında. *(Yasin 7)*

**“Haqq”** əslində **“sabit”** olmaq mənasnı daşıyır. Amma qalan başqa mənalarının nəticəsi sabit olmağa gəlib çıxır.

Beləliklə, **“həqq”** istər həqiqi olsun, istərsə nisbi, bir işin sabit olunmasından ibarətdir. Bəs Allaha **“həqq”** deyirik, çünki, sabit və həqiqətdir. Qurana **haqq** deyirik, çünki Allah tərəfindən olması sabitdir. Həqiqi və sabit olan hər bir işə **haqq** deyirik.

Ədalətə **haqq** deyirik, çünki, hər şeyin sabit olması və qalmasının əsli ədalətdir. Həqiqi və sabit olmasına görə İslama da **haqq** deyirik.

Haqqın mənası nədir?

**“Haqq”** sözü ərəbcədən, məsdər *(kök)* mənasında işləməsi ilə yanaşı, Qurani Kərimdə müxtəlif mövzularda işlədilmişdir.

Nur surəsi ayə 25-də

**Onlar bilmirlər ki, Allah aşkar haqqdır.**

Həmçinin, Allah-Təalanın işi mənasında işlənib.

Ənam surəsi 73-də

**Göylərin və yeri həqq olaraq yaradan odur.**

Başqa bir yerdə Allahın dini mənasında gəlir.

Fəth surəsi 28-də

**Peyğəmbərin hidayətlə (Quranla) və haqq dinlə göndərən odur.**

Allah vədəsində də işlənmişdir.

Casiyə surəsi 32-də

**O ki, deyilmiş oldu Allahın vədi haqqdır.**

Bundan əlavə **"haqq"** sözü **"vəhy"** mənasındada işlənmişdir.

Fatir 31-də

**Sənə kitabdan vəhy etdiyimiz haqqdır.**

Qissələr mənasında da işlənmişdir.

Ali İmran 62-də

**Həqiqətən, bu Quran və zikr olunanlar haqq qissələrdir.**

Nəhayət, baqq sözü, hökm mənasında da işlənmişdir.

Sad surəsi 26-da

**Bəs insanlar arasında haqqla hökm et.**

Bunlardan əlavə, **"haqq"** sözü Quranda xüsusi və etibari mənalarda da işlənmişdir. Bu da insanla başqa şeylər arasında rabitəyə işarə olunur. Belə halda bəzən mütləq işlənilir.

Rum surəsi 38-də

**Öz qohum-əqrəbana haqqlarını əta et!**

Bəzən mənfəət mənasında gəlir.

Zariyat 19-da

**Və mallarında saillər və mərhumlardan ötrü haqq vardır.**

## DİLİN HAQQI NƏDİR?

Amma dilin haqqı (hüququ) budur ki, onu çirkin işlərə bulaşdırmaqdan qoruyub, hörmətini saxlayasan. Əksinə onu yaxşı və ləyaqətli söz deməyə vadar et! Onu ədəbli və yerində saxla!

Yalnız, ehtiyac olanda dünya və Axirətinə faydası olan zaman ondan istifadə et! Onu çox danışdırmaqdan və zərərindən amanda qalmadığın faydasız sözlərdən qoru! Dil, ağıla, şahidlik edəndir. Ağılın zinəti dilin vasitəsi ilədir. Böyük Allahdan başqa heç bir tərəfdən güc-qüvvət yoxdur.

## DİL İNSANDA ƏN BÖYÜK NEMƏTDİR

Yaradılış aləmində insana məxsus olan ən böyük İlahi nemətlərdən biri dil və danışmaqdır.

"Ərrəhman" surəsinin 3-4-cü ayələrində bu böyük nemətə aşkarcasına işarə olunur və buyurur:

**İnsanın yaratdı, ona danışmağı** *(fikrini və duyğularına bəyan etməyi)* **öyrətdi**. Müfəssirlər ayəni belə məna etmişlər: Bir şeyin üzərindən pərdə götürmək. Dil insanın batinindən xəbər verir və onun mütərcimidir. Pərdələri kənara atır və qəlbdə olanların hamısını izhar edir. Əgər dil olmasaydı, bəşər də başqa heyvanlar kimi sakit qalar. Anlamaq və anlatmaq qapısı onun üzünə bağlanardı. Allah təala Rum surəsi 22-ci ayədə buyurur:

**Göylərin və yerin yaradılışı, dillərinizin və rəngləri-**

**nizin müxtəlifliyi də onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər üçün nişanələr vardır.**

Hər bir şəxsi tanımağın müxtəlif yolları vardır. Onlardan biri də onun danışığıdır. Hər bir insan, öz şəxsiyyətini öz dili ilə tanıtdırır. Dil, onun batinini gözəl və ya çirkin olmasını göstərəndir. Hər bir şəxsin sözündən anlamaq olar ki, saleh ya fasiq şəxsdir. Həzrəti Cavad (ə) buyurur:

**“Kişi öz dilinin altında gizlənmişdir.”**

Dil pərdələri kənara atır və həqiqəti cilvələndirir.

Həzrəti Əli (ə) dil barəsində qısa bir cümlə söyləyib və dilin həqiqətini tam mənada aydınlaşdırmışdır.

Həzrət buyurur: **Dilin çəkisi çox az, ancaq günahı çox ağırdır.**

Dil hər bir şəxsin şəxsiyyətini göstərir. Bununla belə dilə bir sıra zərər və ziyanlar ariz olur.

Əli (ə) bu barədə buyurur:

Dil elə bir yırtıcıdır ki, əgər azad olsa, yara vurar.

Başqa yerdə buyurur:

Bəşərə təəccüblənin ki, bir tikə piylə görür, bir tikə ətlə danışır və bir tikə sümüklə eşidir və burun deşiyi ilə nəfəs alır.

Dilin sahibinə böyük üstünlüklər gətirməsi haqda peyğəmbər (ə) buyurur:

**Hər kəs mənə, iki dodağın və iffətin yəni, dil və namusunu qorumağı zəmanət versə, mən də Behişti ona zəmanət verərəm.**

Məaz ibni Cəbəl peyğəmbər (ə)-dan soruşdu: Ya rəsuləllah. Məgər danışıqlarımıza görə sorğu-sual olunacağıq?

Həzrət buyurdu: **Anan sənə ağlasın! Məgər cəhənnəmə tullanmaqdan ötrü dil yaralarından böyük amil varmı?**

Əxlaq elminin alimləri deyirlər: Aləmdə hər bir şərin bəlası vardır və dil də bu qanundan müstəsna deyil.

Dilin başqa bəlalarından biri də, vədə verib ona əməl etməməkdir. Əhdə vəfa etmək Allah adamlarının nişanələrindən biridir.

Allah -Təala İsmayıl peyğəmbəri vədəsində doğru olduğuna görə onu, Qurani Kərimdə **"Sadiqulvəd"** ləqəbi ilə tərifləmişdir.

Müqəddəs İslam şəriəti, mömin bir insanın dilinə görə kamil bir insanın qan bahasını *(diyə)* təyin etmişdir.

Bunun özüdə dilin əhəmiyyəti və dəyərlərinə dəlildir. Dahi mühəqqiq əllamei Hilli özünün **"Muxtəsər Nafe"** kitabında buyurur:

"Doğru və düzgün dilin qan bahası, kamil bir insanın diyəsi (qan bahası) qədərdir. Əgər dilin bəzi hissəsi kəsilmiş olsa, onun dəyəri 28 hərfin tələffüzündən asılıdır. (Nə qədər hərif tələffüz edə bilər). Eyibli və lalın dilinin qan bahası, sağlam insanın qan bahasının üçdə biri qədərdir.

Ayətulla-üzma Hacı Seyid Əbül Qasim Xoyi özünün "Məbanil təkmilətil-minac" kitabında yazır:

"Dilin kəsilməsi və qan bahasında etibar, ölçü və uzunluqda yox, bəlkə də, dilin faydasının aradan getməsi ilədir. Əsas etibar ağzından çıxan hərflərin sayı qədərdir. Beləliklə, əgər uzunluq cəhətdən dilin dördə biri kəsilsə, amma hərflərin yarısı tələffüz oluna bilsə, belə olan halda, insanın tam qan bahasının ikidə bir qədər qan bahası ödənilmə-

lidir. Əgər ölçü cəhətdən, dilin yarısı aradan getsə, lakin, hərflərin tələffüzü cəhətdən, dörddə bir qədər tələffüz qabiliyyəti aradan getsə, dörddə bir qədər qan bahası verilməlidir.

Əslində dilin kiçik və ya böyük miqdardan xəsarət görməsi qan bahasında dəxli yoxdur. Bəlkə də, dilin qan bahasının təyinində hərflərin hansı qabiliyyətdə - tələffüz olunmasıdır.

## QULAĞIN HAQQI NƏDİR?

Qulağın haqqı onun qəlbinin yolu qərar verib, pak saxlamağındadır. Sənin qəlbində xeyir icad edən yaxşı xəbərlər eşitsin və ya sənə kəramətli xüsusiyyət nəsib etsin.

Çünki, qulaq qəlbin qapısıdır. Yaxşı mənaları eşidir, xeyirlə şəri qəlbə çatdırır. Allahdan başqa heç bir güc və qüdrət yoxdur.

Allah-Təala Quranın Mülk surəsi 23-cü ayədə buyurur: **“De ki: Sizi yoxdan yaradan, sizə qulaq, göz və qəlb verən Allahdır. Nə az şükr edirsiniz.”**

## EŞİTMƏYİN İNSAN TƏKAMÜLÜNDƏ ROLU

İnsan dünyaya göz açarkən bu aləmin mövcudatları ilə heç bir tanışlığı olmur. Lakin, yavaş-yavaş onları görüb tanıyır. Tanımaq vasitələrindən biri də insanın qulaq və ya eşitmək hissidir. İnsan qulaq vasitəsilə eşidir və sözləri xa-

tirində saxlayır. Eşitmək, məqsədə yetişmək müqəddiməsidir.

Həzrəti Əli (ə) ondan xeyir işlərə yol göstərməyi tələb edən bir nəfərin cavabında buyurur:

**"Ey sual soruşan! Əvvəl eşit, sonra anla! O vaxt inan və sonra işə salıb əməl et."**

Bütün anlaşılmalar, etiqad və əməl, eşitmək və qulaq asmağın yolu ilə başlanır. Ona görə də eşitmək hissini, ictimai hiss adlandırıb, onu bu baxımdan görmək hissinə də üstün qərar vermək olar.

Səs nədir? Səs cisimlərin hərəkətindən hasil olur.

İnsanın səsidə boğazındakı səs tellərinin hərəkətindən yaranır.

Qəti təcrübələr sübut edib ki, havasız yerdə, çəkisizlikdə səs yayılmır. Lakin güman etməli deyilik ki, əsas vasitə yalnız, havadır. Bəlkə də mayelər, qazlardan tez və cəmadət isə mayelərdən tez səs ötürürlər.

## QULAQ NEÇƏ HİSSƏDƏN İBARƏTDİR?

Qulaq üç hissədən ibarətdir. **1. Xarici qulaq; 2. Ortancıl qulaq; 3. Daxili qulaq.**

**1.XARİCİ QULAQ**, bu iki üzvdən təşkil olunub.

Birinci qulağın xarici görünüşü və ya əyrisi.

İkinci qulağın içi. Qulağın xarici görünüşü həlqəvari ətdən olub, xüsusi kanallara malikdir. Qulağın içi 3 santimetrə qədərdir. Onun axırında **"Səmax"** adlı pərdə vardır.

Bu pərdə xarici qulağı, ortancıl qulaqdan ayırır.

Qulağın deşiyinin bu qismətinin divarı, xüsusi dəridən olub, tərkibində yapışqan və zəhərli maddələr vardır. Bu maddələr mikrobları öldürür, həşəratların və toz-torpağın qulağın içinə daxil olmasına mane olur.

**2. ORTANCIL QULAQ.** Qulağın pərdəsinin arxasından "pərdənin sandığı" adlanan xüsusi boşluq vardır.

Bu fəza, iki kanalla daxili qulağa birləşir. Bu boşluq, və ya sandıqda çox nazik və lətif sümüklər yerləşir.

**3.DAXİLİ QULAQ.** Qulağın bu qisməti eşitməyin ən mühüm və həssas qismətidir. Hər cür zərbədən məhfuz qalmaqdan ötrü gicgah sümüyünün arxasında yerləşmişdir. Mürəkkəb bir qurluşa malikdir, dəqiq quruluşu var.

## NECƏ EŞİDİRİK?

Səs dalğalarını daşıyan hava, qulağa daxil olur və qulağın pərdəsini silkələyir. Çəkiş səndani və kəmərvari sümüklər, bu səsləri qulaq pərdəsindən götürüb daxili qulağın girəcəyində yerləşən ağ kanala salır. Ağ kanal da, öz növbəsində bu dalğaları alıb daxili qulağın içində yerləşən mayelərə ötürür. Bu mayelər arasında yerləşən eşitmə telləri, bu səsdən təsirlənir. Bu təsirləri əsəb sistemləri alıb zehində yerləşən mərkəzə çatdırır. Beləliklə də, səsi hiss edib, eşitmək hasil olur. Qulaq haqqında Quranda bir neçə ayələrdə Allah buyurub:

Yunis surəsi 31-ci ayədə

*De ki:* **Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan kimdir?**

İsra surəsi 36-cı ayədə

**Qulaq, göz və ürək bunların hamısı sorğu-sual olunacaqdır!**

Həmçinin Nəhl surəsinin 78, möminin surəsinin 78, Bəqərə surəsinin 8, Fussilət surəsi 20 və bir çox başqa ayələrdə qulaq haqqında vardır.

Mühəqqiq Əllamə Hilli buyurur:

İnsanın iki qulağında tam qan bahasının yarısı nəzərdə tutulub. Qulağın yumşaq yerinin kəsilməsinə görə, insanın tam qan bahasının üçdə biri qədərdir. Qulağın yumşaq yerini deşməyin isə insanın qan bahasının üçdə biri qədər bahası verilməlidir. Ayətulla Xoinin kitabında insanın iki qulağında tam qan bahası var. Kar qulaqda yarım qan bahası, bəzilərində isə həmin qanun üzrə. Əgər insanın bir qulağını kəssələr insanın yarım qanbahasını verilməlidir.

## QARNIN HAQQI NƏDİR?

**"Qarnın haqqı odur ki, onu az və ya çox da olsa, harama qab etmiyəsən. Halaldan da müəyyən ölçüdə verəsən. Hər vaxt aclıq və susuzluğa giriftar olsa, onu sakitləşdirir. Çünki, hədsiz yemək qarnı üsyana qaldırır. Tənbəllik gətirib, geridə qalmaq və hər cür xeyir və ehsan etməkdən daha saxlayır. Öz sahibini məst edən içki, insanı yüngüllük, nadanlıq və mürüvətsizliyə çəkir."**

Allah yaratdığı bütün canlıların yeməyə ehtiyacı vardır. Əgər yeməkdən kəsilsələr, həyatlarını davam etdirə bilməzlər. Yeməklərin, insanın təkcə bədəninə yaxşı və pis təsiri yoxdur, bəlkə də mənəvi və əxlaqi baxımdan da ruhuna yaxşı və pis təsir edir. Bəziləri elə zənn edirlər ki, İlahi peyğəmbərlərin yeməyə ehtiyacı yoxdur.

Quranın Ənbiya surəsi 8-ci ayədə Allah buyurur:

**Biz, peyğəmbərldəri yeməz-içməz bir bədən yaratmadıq, onlar dünyada əbədidə deyillər.**

Demək yeməy hər hansı canlı üçün əsasdır. Lakin peyğəmbər (ə) yeyən görən iman gətirməyənlər Furqan surəsi 7-ci ayəsində buyurulur:

**“Müşriklər dedilər: Bu necə peğəmbərdir ki, yemək yeyir, bazarları gəzib dolanır.”**

İnsan yeməyinə diqqət etməli və onun sərçeşməsini yağış bilməklə, özünün ruhani yeməyinə də diqqət etməlidir. Allah ona hansı vasitə ilə qismət edir. Neməti yeyən şəxs onu yaradana şükr etməyi özünə vacib bilməlidir. Necə ki, Quran Vaqiə surəsi 63-65-ci ayələrdə buyurulur:

**Biz əkdiyimiz toxuma nə deyirsiniz? Onu bitirən sizsiniz, yoxsa biz?! Əgər biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də mat-məəttəl qalasınız.**

Hədislərin birində, İslam peyğəmbəri (s.ə.v.v.)-dan nəql olunur. **Sizlərdən heç biriniz heç vaxt deməyin ki, mən bitirdim, bəlkə deyin ki, mən əkdim. Çünki, əslində bitirən Allahdır.**

Bu kəlamlarda insanın Allaha diqqətinin yönəlməsi üçün istiqamət vardır. Allah bütün ruziyə ehtiyacı olanların

ruzisini verəndir. Əgər istəsə, onların ruzisin verməz, yaxud məhv edər.

Vaqiə surəsinin 68-70-ci ayələrində: **“Bəs içdiyiniz suya nə deyirsiniz? Onu buluddan endirən sizsiz, yoxsa biz? Əgər istəsəydik onu acı bir su edərdik. Elə isə niyə şükür etmirsiniz.”**

Göründüyü kimi bu ayələrdə Allah, insanların vicdanına hökm etməyə çağırır və ya vicdanlarını oyadır ki, yemək və içməli şeylər barəsində fikirləşib, Allahın əzəmətin, iman gətirsinlər.

İslamda övliyalar, həmişə cisimlərin zərərlərinə, yemək və içməli şeylərin ruha təsirinə diqət yetirmişlər. Bəzi vaxtlar cisimlərin fəsad cəhətlərin mənəvi zərərlərini və ruha mənfi təsirini söyləmişlşər. Görəsən, nemətlərin bəzisi nə üçün haram buyurulmuşdur? İmam Sadiq (ə) buyurur:

Allah-Təaala hər bir yemək və içməli şeyi yalnız, onların mənfəət və məsləhətinə görə halal etmişdir.

Həmçinin, hər bir haram olan yemək və içmək yalnız onlarda fəsad və zərər olduğuna görədir.

Haram olan nemətlərdən insanlar faydalanmağı özlərinə lazım bilirlər. Ancaq haram nemətlərdə şəfa olmadığını da bilirlər, bəs nə üçün ondan əl çəkmirlər?

Əli (ə)-dan sual etdilər haram nədir?

**Ağa buyurdu, haram Allahın qoruq sahəsidir. Allah Murdar, Qan və Donuz ətini haram buyurub. İndigörək bu haram nemətlərdə nə kimi şərafətli insana pis təsir göstərən amillər var.**

## AYAĞIN HAQQI NƏDİR?

İki ayağının haqqı odur ki, onlarla, sənə rəva olmayan yerlərə qədəm götürmə.

Onlarla yol gedənin abır-həyasını aradan aparacağı yerə getmə. Çünki, onlar səni həml edirlər və səni dinə tərəf aparırlar. Sənin qarşıya getməyinə səbəb olurlar. Allahdan başqa heç bir güc-qüvvə yoxdur!

Qurani-Kərimdə **“Ricl”** (ayaq) kəlməsi çox işlənib.

Sad surəsində: **“Ayağınla qədəm at və yol yeri”** buyurulur.

**“Ricl”** sözünün cəm şəkli **“Ərcul”** vəznində olur. “Əraf” surəsinin 195-ci ayəsində buyurulur: **“Məgər onların yeriyən ayaqları var”.**

Həmçinin, Quranda, yol yeriyərkən iki ayaq arasındakı fasilə mənasını bildirən “Xutva” və qədəm mənasında olan “xətvə” kəlməsindən istifadə edib. Birinci kəlmənin cəm şəkli, “Xutuvat”, ikinci kəlmənin cəm şəkli isə “Xətavat” kimi işlənilir.

Bəqərə surəsi 168-ci ayədə

**Ey insanlar! Yer üzündəki şeylərin təmiz və halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, Şeytan sizinlə açıq-açığına düşməndir buyurulur.**

Şeytanın izinə düşmək ona tabe olmaq deməkdir. Quranda (Xutuvat) cəm şəklində Quranda beş yerdə gəlmişdir. Bəqərə surəsi, 168-208-ci ayələr. Nur surəsi 21-ci ayə, ənam surəsi 142-ci ayə, Bütün bunlarda məqsəd, insanın öz həyatında şeytanın həva-həvəslərinə tabe olmayıb, pey-

ğəmbərlər vasitəsilə nişan verilmiş doğru, düzgün və məntiqi yolla getmələrinə təşviqdir.

Allahın xalis bəndələri Furqan surəsində, xüsusi bəndələrdən (ibadur-rəhman) on iki xüsusiyyət zikr edir və onlardan birincisi belə bəndələrin yol getməsidir.

Furqan surəsi 63-cü ayə

**Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzərlər.**

Allahın xalis bəndələrinin ilk xüsusiyyəti, təkəbbür, qürur və özbaşınalığı inkar edib, əxlaqi xüsusiyyətləri özlərində cəmləşdirirlər.

Allah Təalanın Peyğəmbər (ə)-a göndərdiyi mühüm göstərişlərdən biri budur ki, **Yer üzündə təkəbbürlə gəzib, dolanma. Çünki, sən nə yeri yara bilər, nə də (boyca) yüksəlib dağlara çata bilərsən.**

İsra surəsi 37-ci ayədəki peyğəmbər (ə) söylənilən bu sözləri onun ümməti həmişə özləri üçün əsas bilib ondan nəticə çıxartmalıdır.

Bəzi şəxslərin belə hala düşmələrinin səbəbi odur ki, özlərini unudaraq təkəbbürlük bəlasına mübtəla olublar düz yoldan faydalana bilmirlər.

"Məkarumul əxlaq" kitabında peyğəmbər (c)-ın yol getməsi barəsində xüsusi bir bölmədə bəhs olunub.

O rəvayətlərin birində Əli (ə) buyurur:

İslam peyğəmbəri (s.ə.v.v.) yol gedərkən, tələsik olmayan halda sürətlə qədəm götürərdi. Sanki, üzü aşağı yol gedirdi. Ondan əvvəl və ondan sonra belə yol yeriyən görmədim.

Bütün bunlar hamı üçün ibrətamiz deyimlər kimi qəbul olunmalıdır. Bu tövsiyəni Loğman öz oğluna Quranın "Loğman" surəsinin 18-19-cu ayəsində belə buyurur:

**Yer üzündə qürurla getmə. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz. Yeriyəndə müvazinəti gözlə.** *(nə çox yeyin, nə də çox asta get)*.

Deməк hər bir insan belə öyüd və nəsihəti dünyada özünə rəva bilmədilər. Çünki Quran Nur surəsi 24-cü ayədə buyurur:

**Qiyamət günü dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəklər.**

Allah-təala o gün hər bir əzada şüur, dərk və söz danışmaq qüdrəti yaradacaq, onların hamısı doğru danışacaq heç bir təəccüb yeri də yoxdur! Bu qüdrəti dil adlı bir tikə ətdə yaradan, başqa əzalarda da yarada bilər.

Onlar hamısı indiki insan üçün nə qədər dərk etmək cəhətinə çətin olsa da lakin Allahın əzəməti qarşısında hər şeyin aciz olduğunu bilməlidir.

Necə ki, deyərlər rəngi rüxsarun, batini sirrindən xəbər verir.

Ayağın şəriətdə dəyəri. "Təkmilətül-minhac" kitabında belə yazılır: İnsanın iki ayağının kəsilməsi, tam bir insanın qan bahası qədərdir. Hər bir ayağın qanbahası isə insanın qanbahasının yarısı qədərdir. Bu işdə heç fərq yoxdur, ki, ayaq oynaqdan, baldırdan, yaxud, dizdən kəsilmiş olsun.

Ayaq barmaqlarının kəsilməsi də insanın tam qanbahası qədərdir. "Müxtəsər-Nafe" kitabında yazılır.

iki ayağın kəsilməsi tam insanın qanbahası qədərdir. Onların hər birinin kəsilməsi isə insanın tam qanbahasının yarısına bərabərdir. İki ayağın həddi, ayağın baldırdan ayrılması yeridir. Ayağın barmaqlarında hökmü əlin barmaqları hökmündədir.

## ƏLİN HAQQI NƏDİR?

Amma, əlinin sənin boynundakı haqqı budur ki, sənə halal olmayan şeyə əlini uzatma. Çünki, gələcəkdə Allah Təalanın əzabından və əhalinin məzəmətkar dilindən amanda qalmazsan. Gözlə ki, sənə vacib olan işlərdə əlinin qarşısını alma. Ona elə ehtiram et ki, haram olunmuşlarından saxla! Çünki, əgər əl, bu dünyada haramdan çəkilsə və ya məntiq, əql və şərafətlə iş görsə, axirətdə qiymətli mükafat və savaba nail olacaq.

"Yəd" sözü ərəbcə "əl" mənasında cəm şəkli isə Quranda "Əydi" gəlmişdir. Fəth surəsinin 20-ci ayəsində gəlib.

**"Allah insanların sizə qarşı uzanmış ələrini kəsdi".**

**Əl** bəzən qüdrət, Səltənət və Mülk mənasında quranda zikr edilir. Necə ki, Ali İmran surəsinin 26-cı ayəsində oxuyuruq:

**...Xeyir yalnız, sənin əlindədir. Həqiqətən, sən hər şeyə qadirsən.**

Quranda **"yəd məğlulə"** (bağlanmış əl), bir şeyin qarşısının alışmasına və smicliyinə deyilir. Necə ki, **"yəd məbsutə"** (açıq əl) onun əks mənasındadır.

Maidə Surəsinin 64-cü ayəsində oxuyuruq: **Yəhudilər dedilər: Allahın əlləri bağlıdır. Bu dedikləri sözə görə onların öz əlləri bağlansın və lənətə gəlsinlər. Xeyr! Allahın əlləri açıqdır. İstədiyi kimi lütf və ehsan edər.**

Sad surəsinin 45-ci ayəsində isə

**"Bəsirət və qüvvə sahibi olan bəndələrimizi - İbrahimi, İsağı və Yəqubi yad et!"**

Göründüyü kimi əl ilahi nəzərində necə özünə məxsus adlanır. Çünki insan həyatda özünə və əzalarına qiymət verməyi gərək bacarsın, onların qaydına qalsın.

Əlilə beyət etmək islamda ən bəyənilmiş işlərdən biri hesab olunur. "Beyət" sözü ərəbcə "bey" kökündən olub müamilə (alver) zamanı iki tərəfin bir-birinə əl verməsilə deyilir.

Sonradan isə ümumi məna alıb bütün əhd-peyman zamanı əl verməyə aid olur. O da belə olur ki, hər vaxt başqasına qarşı vəfadarlığını elan etmək istəsə, onu rəsmi tanıyıb əmrinə itaət etsə, onunla beyət edər. İbni Xəldun "Tarix müqəddiməsi" kitabında yazır: "Əmrlə beyət edərkən, təkid üçün əl-ələ verirdilər. Bu da alıcı satıcının işinə oxşayır".

kişilərin islam peyğəmbəri ilə beyəti əl ilə olurdu. Qadınlarla beyət su qabı vasitəsilə olurdu. Fəth surəsi 10-cu ayədə Allah buyurur: **"Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar"**.

Peyğəmbər (s.ə) və imamlar barəsində olan beyətlər əhalinin onlarla vəfadarlıqlarına təkid üçün idi. Ona görə də onun sındırılması böyük günah sayılır. İmam Müsəbni Cəfər (ə) buyurur:

"Üç günah var ki, insanı həlak edər: Beyəti sındırmaq, sünnəti tərk etmək və əhalidən ayrılmaq."

## GÖZÜN HAQQI NƏDİR?

Ancaq gözünün sənin boynunda haqqı budur ki, onu sənə halal olmayan hər şeydən qoruyasan və onu günaha batırmayasan. Yalnız, ibrət götürüb, elm və biliyini artırmaqdan ötrü bəzi şeylərə baxmayasan. Çünki görmək bir növ ibrət vasitəsidir.

**"Bəsər"** lüğətdə iki mənada, görmək istedad və göz mənasında işlənir. Rağib İsfahani özünün **"Müfrədat"** kitabında yazır: Bəsər, lüğətdə həm göz, həm də görmək istedadına deyilir. **"Bəsurə"** yəni, görən oldu. **"Bəsər"** və **"Əbsərə"** yəni, gördü dərk etdi, müşahidə etdi.

**"Bəsər**" həm gözə və həm də görmək hissinə deyilir.

Nəhl surəsi 37-ci ayədə

Qiyamətin qopması *(əmri)* bir göz qırpımında, yaxud daha tez olar. buyurulur.

**"Bəsirət"** sözü, qəlbin görməsi mənasında olub, mərifət və dərk ilə həmrədifdir.

Məşhur alim Təbərisi, Quranın **"Mən və mənə tabe olanlar, açıq-aşikar bir dəlillə** *(insanları)* **Allaha çağırırıq."** ayəsində **"bəsirət"** sözünü, mərifət və qəlbin görməsi mənasında qeyd etmişdir.

Göz, hiss və idrak vasitəsi olduğuna görə psixologiya elmində diqqət mərkəzində olur. Nur və işıq qoşunlarına bağlı olduğuna görə fizikada ondan bəhs edilir. Görməyin

sirri keyfiyyətinə görə fəlsəfə elmini özünə cəlb etmişdir. Bədənin bir üzvü olub, xüsusi vəzifə yerinə yetirdiyinə görə şərh və fiziologiya elmində gözün cüziyyatları bəyan olunur.

Allah-təala göz nemətinin əzəmətini **"Bələd"** surəsini 8-ci ayəsində bəşərə açır, buyurur:

**"Məgər biz insana iki göz vermədikmi?"**

Lakin insanların bəziləri bu nemətlərdən istifadə etmirlər.

Əraf surəsinin 179-cu ayəsində insanların bir dəstəsi barəsində buyurulur:

**Onların gözləri vardır, lakin, onunla görməzlər.**

Göz Allahın haram buyurduqlarına bağlanmış olmalıdır.

Kəhf surəsi 101-ci ayəsində kafirlər barəsində belə buyurulur:

**O kəslər ki, gözləri məni anlamaqdan pərdəliidi və eşitməyə də qadir deyildirlər!**

Bu ayədə buyurulur ki, kafirlər haram olmuşlardan gözlərini yumardılar. Bəlkə o şeylər ki, Allahı yada salır, ondan gözlərini örtdülər. Eşitmək qüvvələri olduğu halda qulaq asmadılar. Gözün düzgün şəkildə istifadə etməyin yollarından birini Quran bəyan etmişdir. Qurani-Kərim **"Tariq"** surəsinin 5-7-ci ayələrində insanı görməyə dəvət edərək buyurur: **Elə isə insan nədən, yaradıldığına bir baxsın. O axıb tökülən bir sudan *(nütfədən)* yaradılmışdır. O su *(kişilərin)* bel sümüyündən *(qadınların)* isə köks sümüyündən çıxır.**

Bununla Quran bütün insanların əlindən tutub onları ilk yarandığı vaxta qaytarır.

Qurani-Kərimin ikinci dəvət etdiyi məsələ, insanın yemək və təamlarına diqqət yetirməsidir. **"Əbəsə"** surəsinin 24-cü ayəsində buyurur:

**İnsan hələ bir yeməyinə baxsın.**

**"Baxmaq"**dan məqsədin nə olması barəsində müfəssirlər arasında ixtilaf var. Bir dəstə Zahir Baxışa etiqadı olub, məqsəd insan süfrəyə baxıb yeməyin halal və ya haram olmasına diqqət etməsidir.

Bəzi rəvayətlərdə bu yeməyin **"elmi qida"** olduğu söylənilir. İmam Baqir (ə) buyurur:

**"Öz elminə bax ki, kimdən və hansı yolda qərar tutub və ya yeməyin tərkibi barəsində fikirləşmək. Hər nə olursa-olsun. Quran insanı bu sahəyə baxmağa dəvət edir"**

Qurani Kərimdə çox yerlərdə, insan baxmağa dəvət olunur. Məsələn: **"Yer üzündə dolaşıb görün ki, haqqı inkar edənlərin axırı necə oldu?"**

Başqa yerdə buyurur: **"Yer üzünü gəzib Allahı Məxluqatı yaratmağa ilk əvvəldən nə cür başladığına baxın."**

## MURDAR NƏ ÜÇÜN HARAM OLMUŞDUR?

"Kafi" və "Əmali" kitablarda Müfəzzəl ibni Ömərdən nəql olunmuşdur ki, həzrət İmam Sadiq (ə)dan soruşdu:

Allah təala nə üçün murdar, qan və donuz ətini haram etmişdir?

Həzrət buyurdu: Allah təalanın bəzi şeyləri haram və bəzilərini isə halal etməsi onun öz mənafeyi üçün deyildir. Əksinə Allah təala xalqı yaratmış və onların bədənlərinin hansı şeylər vasitəsilə bərpa qalması və hansı şeylərin onlar üçün məsləhətli olmasını bilirdi. Elə buna görə də onların xeyrinə olan bütün şeyləri onlara halal etmişdir.

Həmçinin onlar üçün zərərli olanları bildiyi üçün, (bir sıra) zərərli şeylərdən nəhy edib onları haram etdi. Həmçinin o həzrət (ə) buyurdu: Şübhəsiz murdara yaxınlaşıb ondan yeyən şəxsin bədəni zəif, cismin arıq və gücü süst olub, nəsli kəsilər və murdar yeyən şəxs qəfildədir.

Bəlkə bu fəsadların səbəbi öz-özünə və yaxud boğulmaq vasitəsi ilə ölən heyvanın bədənində qan cərəyanının birdən-birə dayanmasıdır ki, bu da çirkin qanların heyvanın bədənindən xaric olur və beləliklə, əti zəhərlənir. İmam Sadiq (ə.)-dan Allah inkar edən bir şəxs soruşdu: Nə üçün Allah meyiti (murdarı) haram etmişdir?

Həzrət onun cavabında buyurdu: "Murdarın haram olması, onunla Allah adı çəkilmiş *(və kəsilmiş heyvanın)* arasında fərq olduğu üçündür. Həmçinin murdar olmuş heyvanın qanı xaric olmayaraq bədəninə qayıdıb qalır və beləliklə də onun əti ağır və dadsız olur. Bu isə onun ətinin qanı ilə birlikdə yeyilməsi üçündür. O şəxs dedi: Beləliklə, balığın da qanı bədənindən xaric olmadığı üçün əti haram və murdar olmalıdır? Həzrət (ə) buyurdu: Balığın paklaşdırılması onun sudan çıxarılaraq çölə buraxılması və öz-özünə ölməsi ilədir. Və onun qanı (çox) olmadığından başını kəsmək lazım deyil və çəyirtkədə bu qəbildəndir. Beləlik-

lə, çoxlu qanı olmadığı üçün, onun qanı bədənindən xica olsun deyə başının kəsilməyinə ehtiyac yoxdur. Onun bədənində olan az qan isə başı kəsilmiş heyvanın bədənində qalmış az qan kimi zərərsiz və halaldır.

Qan iki növdür və onlar murdar və pak qanlardan ibarətdir. Atıcı qanı olan hər bir heyvanın, həmçinin insan qanı nəcisdir. Damarını kəsdikdə qanı atan heyvan nəzərdə tutulur ki, bunun da az və çox olması şərt deyildir. Elə buna görə də süd sağarkən onun içində olan qan və o südün özü nəcis sayılır və onu içməkdə haramdır. Həmçinin ehtiyata görə içərisində qan olan yumurtadan da çəkinmək lazımdır.

Təmiz qan (pak) qan isə iki qismə bölünür: Onlardan biri balıq və ağcaqanad kimi atıcı qanı olmayan heyvanların qanı, digəri isə əti halal olan heyvanın başının *(şəriət göstərişinə əsasən)* kəsdikdən sonra bədənində qalan qanıdır.

Təmiz və murdarlığından asılı olmayaraq, qanın yeyilməsi haramdır.

## İNSAN SƏADƏTİNDƏ AĞLIN ROLU VARMI?

Bu suala hər hansı baxışla cavab vermək olsa da belə bu cavabların ən başlıcası **“Qurani Kərim”**in **“Şəms”** surəsinin 9-10-cu ayələri qəti və mütləq cavabdır.

*(Bu ilahi ayətlərə and olsun ki,)* **nəfsini günahlardan təmizləyən mütləq nicat tapacaqdır. Onu günaha batıran isə əlbəttə, ziyana uğrayacaqdır.**

İnsan nə qədər çox bəndəlik etdikcə bir o qədər əbədi səadətə yaxınlaşar, əksinə bəndəliyi azaldıqca səadətdən uzaqlaşar.

Qəribədir biz Allaha daha çox bəndəlik etməklə, Peyğəmbərin əmrini yerinə yetirdikcə səadətə yaxınlaşmağımızı bilə-bilə Allaha və Peyğəmbərə itaət etməkdə səhlənkarlıq göstəririk. Əksinə, şeytan yolunda pis olduğunu bilə-bilə yenə də ona doğru gedirik. İnsana yalnız ağıl qüvvəsi hakim olsaydı bildiyinə əməl edəcəkdi, amma təkcə ağıl deyil, başqa qüvvələr də hakimdir.

Bəzilərinə ağıl hakimlikdən azad edilib əl-qolu bağlanmış bir dustaq kimidir. Bədənimizin tələbatına dair aclıq və susuzluq kimi bir sıra istəklərimiz vardır.

Həm də bunlardan əlavə bir sıra istəklərimiz vardır. Məsələn, hər bir ana övladını sevir və onun ehtiyaclarını təmin etməyi, təhlükədən qorumağı özünə borc bilir. Və bu işdən zövq alır. Başqa bir istək də var, insanın həmcinslərilə əlaqələridir. Bu sosial hissiyyat adlanır.

Misal üçün yanğına düşmüş bir insanı gördükdə narahat olur və onu qurtarmaq qərarına gəlirik. Bu hissiyyat heyvanda da vardır. İnsanın bir sıra istəkləri də xəyal qüvvəsi ilə əlaqədardır. Buna şairi misal çəkmək olar ki, gözəl şerdən və onda işləmiş bədii vasitələrdən zövq alır.

Vahimə qüvvəsi ilə əlaqədar bir zövq də vardır. Elə insanlar vardır ki, mənsəbə yetişmək uğrunda var-yoxunu, hətta övladını verməyə belə hazırdır. Allah bu istəkləri müəyyən məsləhət və hikmətlərə əsasən, bizdə yaratmışdır. Ağıl nəzarəti altında olmaq şərti ilə səadətə çatmaq olar. Ağıl nəzarəti altında olan qüvvələr.

## NƏ ÜÇÜN QURANIN TƏRCÜMƏSİ ÖZÜ DEYİL?

Çünki Quran Allah kəlamıdır. Tərcüməsi isə tərcümə edənin sözüdür.

Quran tərcüməsi ilə namaz qılmaq olarmı?

Qılına bilməz! Bu şəkildə qılınan namaz qəbul olunmaz.

Peyğəmbər (ə)-ın ən böyük möcüzəsi nədir?

Qurani-Kərimdir.

İnsan içində ən bəxtsiz adam kimdir?

Quranı dərk etmədən, Quran əleyhinə danışandır.

## İSLAM PEYĞƏMBƏRİNİN ZÖVCƏLƏRİNİN SAYININ FƏLSƏFƏSİ NƏDİR?

Həzrəti Məhəmmədin (s.ə.v.v.) bir yox, bir neçə qadınla evlənməsi, bir sıra ictimai-siyasi çətinliklərin həlli məqsədini daşımışdır. Həzrət öz peyğəmbərliyini elan etdiyi zaman tək-tənha idi və onun risalətinə çox az adam iman gətirmişdi. Təbii ki, Xurafatın hakim olduğu həmin cəmiyyətdə əksər qəbilələr onun risalətinə müxalif mövqedə dayanmışdır. Həzrət Peyğəmbər (c) düşmənin müqavimətini qırmaq üçün icazə vermiş bütün yollardan istifadə edirdi.

Həzrət (s) yalnız bir bakirə qızla - Ayişə ilə evlənmişdir. 25 yaşlı gənc 40 yaşlı dul qadınla - Xədicə (s.ə) evlənmiş və 53 yaşınadək yalnız, bu qadınla nigahda olmuşdur. Öz dövrünün cahil adət-ənənələrini sındırmaq üçün dul,

Zeynəblə evlənən Peyğəmbər bakirə qızlarla da ailə qura bilərdi.

Tarixçiləri Həzrəti Məhəmmədin zövcəsi sayılan qadınların əksəriyyətinin onunla cinsi yaxınlıqda olmadıqlarını bildirirlər. Hətta bəzi qəbilələr öz qızını Həzrətə nişanlamaqla kifayətlənmiş və bunu özləri üçün böyük fəxr hesab etmişlər.

İkinci bir tərəfdən, sonsuz olmayan Peyğəmbərin (c) nə üçün az sayda övladı olmalı idi. Həmin dövrdə, adətən, övladla nəticələnən cinsi yaxınlıq, həzrət (s) üçün önəmli deyildi. Önəmli olan, bu izdivaclar vasitəsilə qəbilələri İslama gətirmək, cəmiyyətdə əlaqələr möhkəmlətmək idi.

**Qonaqlıqda ac olduğunu soruşmaq olarmı?**

Həzrəti peyğəmbər (s) buyurur: **“Qonaq behişt bələdçisidir. Qonağa ehtiram göstərilməsi o qədər əhəmiyyətlidir ki, İslam qonağı səmadan enmiş hədiyyə kimi təqdim edir**. Həzrət peyğəmbər (s) buyurur: **“Qonaq öz ruzusi ilə gəlir və ailənin günahlarını özü ilə aparır”**.

Qonağa böyük əhəmiyyət verilməsi ilə yanaşı onu təmtəraqla qəbul etmək nəhy olunur. İslam qonağı sadə şəkildə qəbul edilməsini tövsiyə edərək məsləhət görür ki, ev sahibi olanın müzayiqə etməsin, qonaq bunda artıq qəbulun intizarında olmasın. İmam Sadiq (ə) buyurur: “Qonaqdan yemək yeyib, yeməyəcəyini soruşmayın. İmkan çatan həddə süfrə açın” Açılmış süfrəni kasıb bilərək, təhqir etmək yaxşı deyil. “Sizə layiq süfrə aça bilmədim” demək olmaz. İmam Sadiq (ə) buyurur: “Açılmamış süfrəni əskik bilən ev sahibi və qonaq azğındır”.

Qonağın da öz vəzifələri vardır. Qonaq ona göstərilən yerdə oturmalı, ev sahibinin narahatçılığına səbəb olacaq hərəkətlərə yol verməməlidir.

## QURANİ KƏRİMİN 114 SURƏSİ OLDUĞU HALDA, NƏ ÜÇÜN "YASİN" SURƏSİ DAHA ÇOX TİLOVƏT OLUNUR?

Bu surə "ya" və "Sin" müqəttə hərfləri ilə başlayır. İmami Sadiq (ə) buyurur: "Yasin Allahın Rəsulunun adıdır. Çünki bunun ardınca buyurulur ki, "Sən Mürsəl (şəriət sahibi olan) peyğəmbərlərdənsən". Surədə yaranış, qiyamət, həyat və ölüm haqqında müxtəlif səhnələrlə qarşılaşırıq.

Hədisələrdə "Yasin" surəsi "Quranın qəlbi" adlandırılır. İmam Sadiq (ə) buyurur:

**"Bu surəni qürubdan əvvəl oxuyan insan gün uzunu hifz olunar və bol ruzidən faydalanar. Hər kəs bu surəni yatmazdan əvvəl oxusa, Allah min mələk məmur edər ki, onu hər şeytan və hər bəladan qorusun."**

Lakin bu fəzilətlər surənin kor-koranə oxuyana yox, onun məfhumunu düşünüb, anlayanlara şamildir.

Elə bir düşüncə ki, insanın əməllərinə sirayət edir!

Quran möminləri qələbə ilə müjdələdiyi halda, nə üçün bəzi möminlər şəhadətə yetişir?

"Qələbə" sözünün mənası olduqca genişdir.

"Səffat" surəsinin 172-ci ayəsində möminlərə belə bir vəd verilir: **"Onlar mütləq qalib gələcəklər"**. Bəs nə üçün İmam Hüseyn (ə) Kərbəla vaqiəsində şəhadətə yetişdi?

# CİNLƏR NƏ ÜÇÜN GÖZƏ GÖRÜNMÜR?

“Cin” insanın hiss üzvlərinin duymadığı varlıq mənasını verir. “Məcnun” da “Cin” kəlməsindəndir və ağıl qüvvəsi fəaliyyətsiz olan insana deyilir. Ana bətnindən bürünmüş uşaq “cənin”, torpağı ağaclarla örtülmüş bağ “cənnət” adlanır.

Qurani-Kərimin buyruğuna əsasən insan torpaqdan, cin isə odun şəffaf şöləsindən yarandığı üçün insan cini görə bilmir. Quran ayələrinə əsasən də, cin insan kimi mömin və ya kafir ola bilər. **“Biz cin və insanın yalnız ibadətdən ötrü yaratdıq”.**

Allah-Təalaya səcdə əmrindən boyun qaçıran İblis, əslində cin tayfasındandır. O, yalnız ibadətcil olduğundan, mələklərlə bir cərgədə dayanmışdı. Qurani Kərimin 114 surəsindən biri “Cin”surəsidir. Bu surədə onların dilindən buyurulur. **Şübhəsiz ki, aramızda əməli salehlər də vardır, əməlisaleh olmayanlar da. Biz müxtəlif firqələrə ayrılmışıq.**

(Cin surəsi 11-ci ayə).

**“Doğrusu, biz haqq yolu göstərən Quranı dinlədiyimiz zaman ona iman gətirdik”.**

**“Şübhəsiz ki, aramızda müsəlmanlar da var, yoldan çıxanlar da.”**

(Cinin surəsi 13-14-ayələr)

Son nəticə olaraq bunu belə deyə bilərik ki, İblis cin tayfasından olduğundan, onun davamçısı şeytanlar da bu tayfanın iman gətirmiş üzvlərindəndir.

## QOCALARA EHTİRAM İNSANA NƏ VERİR?

Qocalara ehtiram mövzusunda Peyğəmbər (s.ə.v.v.) buyurur:

**“Hər kim ağsaqqal, mömin kişiyə ağ saqqalına görə ehtiram etsə, Allah-təala onu Cəhənnəmin əzab və narahatlıqlarından amanda saxlayar.”**

“Üsuli-Kafi” kitabında **“Ağsaqqal müsəlmanın ehtiramının vacib olması”** ünvanı ilə çoxlu rəvayətlər söylənilir.

İmami Sadiq (ə) buyurur:

**“Qoca və yaşlı müsəlmana ehtiram göstərib hörmətini saxlamaq, Allahın ən çox xoşuna gələn işlərdəndir.”**

Hər bir cəmiyyətdə qocaların sayı çox ola bilər və bu müasir mədəniyyətə malik dünya, onların çarəsini, qocaları isti ailə yuvalarından ayırıb, onları incitmək heç bir şəxs üçün bağışlanası deyildir. İslam qocalara verilən üstünlüyü həmişə öz parlaqlığı ilə şöləndirir. Ağsaqqalın başının ağ tükünü bərəkət və əzəmət nişanəsi sayır.

“Hədisi Qüdsidə” Allah buyurur:

**“Saqqalın ağartısı mənim nurumdur. Mən öz nurumu cəhənnəm atəşinə atıb əzab verməkdən həya edirəm”.**

Qoca mömin kişinin ağarmış saqqalına baxıb buyurur: “Ey mənim bəndəm! Yaşın çoxalıb. Sümüklərim boşalıb. Bədəninin dərisi nazikləşib. Əcəl yaxınlaşıb. Vaxt çatıb ki, mənə tərəf gələsən. Məndən utan ki, mən, sənin ağ saqqalını cəhənnəm atəşində yandırmaqdan həya edirəm. Sonra isə peyğəmbər (s.ə.v.v) ağladı. Peyğəmbərdən soruşdular: Ağlamağının səbəbi nədir? Buyurdu:

**“Ağlayıram ki, Allah ona əzab verməkdən həya edir, bəs o necə, Allahdan utanmır.”**

Allah-təala qocaları cəhənnəm atəşində yandırmaqdan həya edir. Ona görə də qocalarda həya edib, qoca vaxtlarında günahlardan çəkinməlidirlər.

Allah təala yetmiş yaşlı qoca kişilərə ehtiram göstərir, həştad yaşlı qocalardan isə həya edir. Bəs əmr edir ki, onların günahlarını bağışlayıb, əməllərinə yaxşı işlər yazılsın.

Elələridə vardır ki, günaha adət ediblər.

Belələri, tezliklə özlərini tövbə suyu ilə yumalı, özlərinə qarşı Allahdan mərhəmət və Məğfirə yaratmalıdırlar.

## CƏMİYYƏTDƏKİ İCTİMAİ-SİYASİ DƏYİŞİKLİKLƏRİN SƏBƏBKARI NƏDİR?

**İnsan, yoxsa Allah?**

Allah-Təala “Qurani-Kərim”in “Rəd” surəsi 11-ci ayədə buyurur:

**“Hər hansı bir tayfa öz vəziyyətini dəyişməsə, Allah da onun vəziyyətini dəyişməz.”**

Ayədən göründüyü kimi bütün millətlərin taleyi onların öz əlindədir. Onların xoşbəxtlik və bədbəxtliklərinin ilkin səbəbkarı özləridir. Öz xoşbəxtliyi üçün çalışmayan millətin Allah - Təaladan nə isə gözləməsi əbəsdir.

Ayə və hədislərin göstərişlərinə əsasən, cəmiyyətdəki bədbəxtlikləri aradan qaldırmaq istəyən millət, ilk əvvəl öz düşüncəsində inqilab etməlidir.

Öz imanı, əxlaqındakı zəif nöqtələri tapıb, xalis bir töv-

bə ilə çirkinliklərdən təmizlənməyən cəmiyyətin səadətə çatması mümkünsüzdür.

"İnsanın xoşbəxtliyi və bədbəxtliyində Allah təsirsizdir" demək də düzgün deyildir.

Allah təala hər bir insanı təqib edib, qoruyan mələklər qərar vermişdir. Onlar doğru yol seçənlərə yardım göstərirlər. Azqınlığı seçənlərin isə, əzabı artırılar. Məslən, ədalət və həqiqət uğrunda canından keçən millətlər, ədalətli hakimlə mükafatlandırılır, günah və aydınlığa meyilli millətlər isə, zalim hakimlə cəzalandırılırlar.

## ƏLİN ŞƏRİƏTDƏ DƏYƏRİ NƏDİR?

İslam dinində insanın iki əlinin qanbahası, insanın tam qanbahası qədərdir. Hər bir əldən ötrü insanın qanbahasının yarısı qədərdir.

Bu qədər qanbahası olan əlin həddi hara qədərdir? Buyurur: "hədd, əlin içi ilə dirsək arasındadır. Əgər birinin əli dirsəkdən kəsilsə, onda barmaq olsa da, yarı qanbahası qədərdir. Əgər təkcə barmaq kəsilərsə tam qanbahasının yarısı qədər deyə verməlidir."

## DONUZ ƏTİNİN HARAM EDİLMƏSİNİN SƏBƏBİ NƏDİR?

Donuz və it əslində nəcis olan iki heyvandır ki, onun bütün bədən üzvləri və hətta ruhu olmayan tük və dırnaq-

larıda nəcisdir. Bu iki heyvan heç bir yolla təmiz ola bilməz, onları yemək isə haram və böyük günab sayılır.

İmam Rza (ə) donuz ətini yeyilməsini haram olması barədə buyurur:

**“Allah-təala donuz (ətini) yeməyi haram etmişdir. Çünki Allah -Təalanın xalqı ibrət dərsi olması üçün yaratdığı ən çirkin və qorxulu bir heyvandır.** *(Yəni: xalq onu görməklə Allahın hər bir şeyə qadir olmasını bilib, özlərini gözəl bəşər üzləri üçün şükür etsinlər).”*

Həmçinin - Allah-Təalanın şəhvətbazlıq nəticəsində onlardan gözəl bəşər simalarını olması və onları məsx edərək donuz halına salınmasında qorxsunlar. (Çünki əvvəllər dünya əhlindən bir dəstəsi bu hala salınmışdır. Başqaları isə donuz xasiyyətli olduqları üçün Bərzəx və qiyamətdə donuz halında məşhur olacaqlar). Həmçinin Allah-Təala, donuzu keçmişdə bu hala düşmüş adamlara dəlil olsun deyə, xalq arasında qoyulmuşdur. Donuz ətini haramlığının başqa səbəbi isə ətin ən pis və ən çirkin olmasıdır ki, onun qanında da bir çox ziyanlar vardır. Donuz əti yeyən insanda donuz əxlaqına bənzər xüsusiyyətlər yaradır.

Donuz qeyrətsizlik və namussuzluqda məşhur olan və cinsi əlaqədə heçbir ədəbə riayət etməyən bir heyvandır. Özündə heç bir həya biruzə verməyən və cinsi təəssübü olmayan bir heyvandır.

**“Bernaba”** incilində donuzu şeytan simvolu adlandırmış və bu heyvanın bədənində Şeytan ruhu olduğunu bildirmişdir. Məsihlərin əlində ola, İncildə Həzrəti İsa (ə)-ın şeytan donuz sürülərinin bədənlərinə daxil olub, onları ça-

ya tərəf göndərməsindən söz açılmışdır.

Buna görə, məsihlər donuz ətinin pisliyini bilən halda onu yeməkdən əl çəkmirlər.

Avropalılar birini qeyrətsiz adlandırmaq istədikdə ona “donuz” deyirlər.

Donuz ətinin bir çox cismi ziyanları vardır. Onların daha mühümü “Tirikin” və “Çirişin” digəri isə “Tenya”dır.

1. Tirikin donuz əti arasında özünə yuva salan xırda heyvandır ki, onun erkəyinin eni bir millimetr yarım, dişisinin eni isə üç milli metrə yaxındır.

Tirikin bir ay ərzində ondan on beş minə qədər yumurta qoyur və qanın qırmızı zərrəcikləri çoxalmağa başlayır və daha sonra aradan gedərək azalır və beləliklə, insanı da qan azlığı xəstəliyinə salır ki, bu xəstəlik onun ölümünə səbəb olur.

Tirikin qurdundan yaranmış xəstəlik “Tirkiyuz” adı ilə məşhurdur. Bu xəstəlik donuz əti yeyən ölkələrdə çoxdur. Müsəlman ölkələrində demək olar ki, yoxdur.

Bir kilo donuz ətində 400 milyon tirikin qurdunun (mikrobunun) olması mümkündür.

Mədəyə daxil olmuş Tirkin qurdunu heç bir dərman aradan apara bilmir.

Loderrey xəstəliyi - Donuz əti yemək nəticəsində yarnan xəstəliyidir. Bu xəstəliyin vücuda gəlməsidə “Tenya” qurdunun bədəni iki sıra dırnaq və dörd hava cisimdən ibarət bir başdan və zəncirvari uzun quyruqdan təşkil tapır. Bu qurd insanın mədəsinə yapışır. “Loderroy” xəstəliyi, Almaniya kimi  donuz ətindən çoxlu istifadə edən ölkələrdə

daha çoxdur. Donuz ətinin yeyilməsinin ziyanları yalnız qeyd olunan iki xəstəliklə bitmir və əsasən donuz əti gec həzm olduğu üçün mədəni zəhmətə salır. Çox vaxtlar donuz əti yemək sayəsində "butulism" adlanan zəhər də vücuda gəlir.

Min dörd yüz il bundan qabaq dünyanın bu cür elmi məsələlərdən çox-çox uzaq olduğu bir zaman donuz ətinin ziyanlarını nəzərə alıb onu haram edən İslam dininin böyüklüyünə də etiraf etmək lazımdır.

## KOSMOSUN KƏŞFİ

İnsanların kosmosu tədqiq və kəşf etməsi 1957-ci il oktyabr ayının 4-də SSRİ-ni "Sputnik" peykinin kosmosa göndərilməsi ilə başlandı. Yerin orbitindən çıxan ilk insan sovet kosmonavtı Yuri Qaqarin oldu. İnsanların aya ayaq açması isə amerikalıların 1969-cu il iyul ayının 20-də "Apollon-II" orbital gəmisini kosmosa göndərilməsilə baş verdi. Həmçinin Quranda 1400 il əvvəl insanların belə bir sahədə nail olacağı inkişafa və kosmosa çıxmağın mümkün ola biləcəyinə işarə edilir. Allah bu məsələyə Quranda bu ayə ilə diqqət çəkir: **"Ey cin və insan tayfası! Əgər göylərin və yerin ətrafından kənara çıxa bilərsinizsə, çıxın. Siz ancaq qüvvətlə çıxa bilərsiniz!"** *("Rəhman" surəsi 33 ayə)*.

Ayədə "qüvvət" olaraq tərcümə edilən söz, yəni ərəb dilindəki "sultan" kəlməsi "hüccət, burhan, güc, qüvvət, hökm, qanun, yol, avtoritet, icazə, dəlil" kimi mənalara gəlir.

Diqqət edilsə görünər ki, yuxarıdakı ayə ilə insanların göylərin və yerin dərinliklərini heç vaxt keçə bilməyəcəkləri deyil, ancaq güc və qüvvətlə keçə biləcəklərini vurğulamır. Allahın Quranda bildirdiyi bu məsələ XX əsrdə üstün texnologiya sayəsində həyata keçdi.

**Ölümdən sonra nə olacaqdır?**

Ölmək, qəbrdə dəfn olunmaq və sair işlər barədə, dünyadan köçənlər və bizdən qabaq vəfat etmiş şəxslərin sərgüzəştləri barədə düşünmək kifayətdir. Bütün işlər burada sona bitsəydi, heç bir qəm-qüssə üçün yer qalmazdı. Lakin ölümdən sonra Quran və rəvayətlərə əsasən hər bir insan, ədalət məhkəməsinə aparılıb kiçik, böyük və bütün işlərinə görə cavab verməli olacaqdır. Dünyada bir çox (zahirdə) başıucalar, orada zəlil olacaq. Bir çox böyüklər isə orada qarışqadan da kiçik olacaqdır. Bir çox gözəl sifətlər orada pis hallara, hətta it və donuz sifətlərindən də pis sifətlərə düşəcəklər. Heç kəs öz aqibətinin necə qurtaracağını bilmir, özünün bədbəxtlər və ya xoşbəxtlərdən, başıucalar və ya zəlillərdən, həmçinin üzü ağ və ya üzü qaralardan olduğunu anlamır. Qeyd olunmuş insan halətləri kimliyi və məqamından asılı olamayaraq bütün insanlara aiddirlər. Hər hansı ağıllı şəxs, hazırki və gələcək barədə xəbərlər haqqında düşünərsə, xudbinlik, böyüklük və təkəbbürün insana yaraşmamasını yəqin edəcəkdir. Doğrudan bütün varlığını zəiflik və bacarıqsızlıq bürüyən insan necə də böyüklük və mənəm-mənəmlik iddiasını edir? Görəsən bundan da aydın yalan ola bilərmi?

## MƏYSİR VƏ ƏZLAM NƏDİR?

Məysir bütün növ qumarlara aid edilir. O, asan yolla əldə etmək mənasını ifadə edən "yuer" kəlməsindən alınmışdır. Qumar oynayan şəxs, çox asanlıqla, heç bir zəhmət çəkmədən başqalarının malını mənimsəyir. Ona görə də qumar məysir deyilir.

Əzlam isə, xüsusi formada olan çubuqlar idi və onların vasitəsilə qumar oynayırdılar. O, həm də "Əqlam" adlandırılırdı. Ərəblər bir dəvəni alıb, nəhr etdikdən sonra, onu iyirmi səkkizyerə bölür və hər birinin üzərində xüsusi ad yazılmış on dənə çubuğu, on nəfərin adına püşk atırdalır. Onların yeddisinin adı; Qəz, Tövən, Rəqib, Həls, Nafis, Müsbəl və Müəlla idi. Bunlardan hər birinin adı kimin payına çıxsaydı dəvədən bir, yaxud bir neçə payı udurdu. Beləliklə, hər kəsin adına Qəz çıxsaydı, bir pay udurdu. Sonrakı adların payı da öz növbəsində artırdı. Hər kəsin adına Müəlla çıxsaydı, dəvənin ətindən yeddi pay götürərdi. Yerdə qalan üç ox; Mənbəh, Səfih və Rəqəd heç bir uduşa və paya malik deyildi. Hər kəsin adına çıxsaydı, dəvənin pulunu verməli idi.

Buna əsasən, yuxarıdakı ayədə əzlamın məysirdən sonra qeyd olunması, xüsusi şeyin ümumi şeydən sonra zikr olunması sayılır. Çünki əzlamın özü də məysərin (qumarın) bir növüdür. Əlbəttə, bu barədə başqa nəzərlər də deyilmişdir.

Deməli, şərif ayənin mənası belə olur: **"Həqiqətən şərab, qumar, bütlər və əzlan - hamısı çirkin və şeytan**

**əməlidir. Onlar şər və ziyandan başqa insana heçbir şey nəsib etmir. Onlardan uzaq olun, bəlkə nicat tapasınız.”**

Yəni onların hər biri ilə məşğul olmaqda heç bir qurtuluş və ümid yeri yoxdur.

## NİYƏ HİCRƏTİN İLİ İSLAM TARİXİNİN BAŞLANĞICI KİMİ SEÇİLİB?

Bu çox maraqlı mövzudur. Ona görə ki, yaxşı bilirik ki, hər bir millətin və qövmun özü üçün bir tarix başlanğıcıvardır. Məsələn, xaçpərəstlər öz tarix başlanğıcını İsa (ə)-ın doğulduğu ili qərar veriblər. İslam dinində peyğəmbər (c)in dünyasının dəyişməsi kimi çoxlu mühüm hadisələr olubdur. Lakin onlardan heç birisi seçilməyib, təkcə Rəsulullahın hicrəti tarixi İslam tarixi kimi qeyd olunubdur.

Tarix deyir:

İslamda ikinci xəlifənin zamanında təbiətən vüsət tapmışdır. Müsəlmanlar hər tərəfli və ümumi sayılan tarix başlanğıcını təyin etmək fikrinə düşdülər. Bir çox danışıqlardan sonra Əli (ə)ın hicrətə dair olan nəzərini seçib tarix başlanğıcı kimi qəbul etdilər. Həqiqətdə isə belə olmalıdır.

Çünki hicrət, İslam dinində piyadə olan ən parlaq bir proqram və İslam tarixində yeni bir fəslin başlanğıcıdır. Müsəlmanlar Məkkədə olana qədər özlərinin təlim dövranlarını görürdülər, zahirdə də heç bir siyasi və ictimai qüdrətləri də yoxları idi. Lakin hicrətdən sonra isə fasilə-

siz İslam dövləti təşkil olundu. əgər müsəlmanlar Peyğəmbər (c)in fərmaniylə belə bir hicrətə əl atmasaydılar, nəinki İslam dini Məkkə mühitindən qırağa çıxmazdı, bəlkə həmin yerdə dəfn olub, yaddan çıxardı.

Aydındır ki, "hicrət" peyğəmbər (s) in zamanında məxsus olan bir hökm deyildir. Bəlkə əgər hər bir əsrdə, zamanda və məkanda həmin şərait qabağa gəlsəydi, hicrət etmək müsəlmanların vəzifəsi idi. Əsasən Quran hicrəti azadlıq və rahatlığın tapışmasının təməli bilməsi bəhs olunan ayədə açıq-aşkar gəlibdir. Bu həqiqət Nəhl surəsinin 41-ci ayəsində başqa bir bəyanla zikr olunub.

**"Zülmə məruz qaldıqdan sonra Allah yolunda mühacirət edən adamların dünyada gözəl bir yeləri olacaqdır."**

Hicrət İslam dini nəzərincə, yalnız məkanda və xarici görnüşdə olan hicrət deyil, bəlkə gərək insanın daxili aləmindən başlasın. O hicrətidə insani nəciblik və iftixarla ziddiyyətli olan şeylərdən uzaqlaşmalıdır. İnsan onun sayəsində məkanda və xarici görnüşdə olan hicrətə hazır olur. Əgər məkanda olan hicrətə ehtiyac olmasa da, bu hicrət *(yəni daxili aləmdə olan hicrət)*.

Allah yolunda mühacirlərin sırasında yerləşmək üçün lazımlıdır.

Ümumiyyətlə, insan hicrətin ruhu "qaranlıq"dan "nur"a küfrdən imana, güman və itaətsizlikdən Allah fərmanından itaət etməyə tərəf qaçmaqdır. "Bəzi insanlar deyirlər, hicrət etmişik, halbuki doğruçu hicrət etməyiblər. Doğruçu hicrət edən şəxslər günahdan hicrət edib bir daha

ona mürtəkib olmayanlardır. Məhəmməd (ə) və İbrahim (ə) dünyada olan mühacirlərin başçısı və rəhbəridir.”

## KİŞİNİN ÜZÜNÜN TÜKLƏNMƏSİ

İlahinin təəccübə səbəb olan kişi və qadın arasında yaratdığı fərqlərdən biri də qadınlardan fərqli olaraq kişinin üzündə tük çıxmasıdır.

Kişilərdə bu proses təklifə çatandan sonra, fəqət üzün aşağı hissəsi, yanaqların tüklənməsi, alın və yanaqların yuxarı hissəsinin tüksüz olmaması baş verir. Cinsi orqanların tüklərin çıxmasında təəccüblü şəkildə rolu böyükdür. Məsələn əgər bir nəfərin nəslini kəsərlərsə (axtalanmaq) onun üzündən tük bitmə prosesi dayanmış olur. Bu çox heyrətamizdir. Kişi və qadının zahiri görünüşü bir-birindən fərqlənməsi lazımdır. Bəzi vaxtlar kişinin qadınlıq, qadının isə kişilik iddia edərək etməsi mümkündür. Məsələn, kişinin qadın hamamına getməsi zinət edib, çarşab örtüb gərdənbənd, qolbaq taxmaq kimi təkcə qadına aid olan iş deyil, kişilərin də bu işi görməsi mümkündür. Kişi və qadını bir-birindən fərqlənməsi bu işlərə bağlı deyil. Əslində üzün tüklənməsi qadın və kişi arasındakı əsas fərqlərdəndir. Başqa bir fərq isə qadının kişi olmadığını bilmək lazımdır. qadın xilqəti kişi təskinliyi üçün yaranmışdır. Ona görə də hər nə qədər gözəl, qəlbli qadın olsa, bir o qədər yaxşıdır. Əgər qadın üzü də tüklü olmuş olsaydı gözəllik qəlbi dilrubaçılıqdan əsər-əlamət olmazdı. Kişilərdə həm-

çinin qadınlar kimi belə yaransaydılar yenə də qadın ilə kişi arasında zahiri görnüşdə heç bir fərq olmazdı. Rəvayətdə buyurmuşdur:

Kişilərin-kişilərə, qadınlarınsa-qadınlara kifayət olunacaqları zamanı gələcək. "Lut" qəbiləsinin şəraiti kimi şərait, kişi üzünü qırxıb qadın kimi bəzənərsə yavaş-yavaş özünü qadına bənzədəcək. Onda isə Allah eləməmiş "Lüt" qəbiləsinin əməlləri təkrar olunacaq.

## TƏYƏMUMUN FƏLSƏFƏSİ

Çoxları soruşurlar ki, əlləri torpağın üzərinə vurub, alına və əllərin üstünə çəkməyin nə faydası vardır? Xüsusilə bilmirik ki, torpaqlar aludə və mikrobla doludur.

*Cavab: 1.* **Əxlaqi faydası:** Təyəmum ibadətlərdən biri sayılır. İbadətin ruhu sözün əsl mənasında onda cilvələnir. Alın insanın ən şərafətli üzvü olduğu üçün, əllərini torpağa vurub alını məss edir ki, öz təvazökarlığını Allahın qarşısında göstərsin. Yəni mənim alınım və əllərim sənin hüzurunda necə də təvazökardırlar. Sonra bu işi davamında qüsul və dəstəmaz almaq şərtilə namaza və sair ibadətlərlə məşğul olur. Bu tərtiblə təvazökarlıq, bəndəlik və şükür etməklik bəndələrin ruhunun yüksəlməsində öz təsirin bağışlayır.

**2. Sağlamlıq faydası:** Bu gün isbat olunub ki, torpaqda olan bakteriyaların sayəsində xəstəlikləri məhv etmək olar.

Bu bakteriyaların işi, yerin səthində olan adi maddələri parçalamaq və cürbə-cür çirkli maddələri təmizləmək-

dən ibarətdir. Elə bu səbəbə görə heyvanları və insanları öləndən sonra torpağın altında dəfn edirlər. Həmçinin cür-bəcür qarışıq maddələr yerin üz qatında yerləşirlər və qısa bir müddət ərzində parçalanıb bakteriyaların hücumunun təsiri nəticəsində üfunətli maddələr məhv edilirlər. Aydın oldu torpaqda əgər bu xüsusiyyət olmasaydı, yer kürrəsi qısa bir müdət ərzində böyük bir üfunətli zibilliyə döndərdi. Adətən torpağın özünün antibiotik xüsusiyyəti vardır və onun mikrobları öldürməkdə çoxlu təsiri vardır. Beləliklə, pak torpaq aludə deyil, aludəliyi məhv edəndir. Və bu cəhətdən müəyyən qədər suyu əvəz edə bilər. Buna baxmayaraq ki, su mikrobları həll edəndir və özü ilə aparandır, amma torpaq özü mikrob öldürəndir.

## BƏDƏN ÜZVLƏRİNİN ƏL İLƏ OLAN NİSBƏTİ

Bədən normallığını yoxlamaq üçün bir növ də bədən üzvlərinin əl ilə olan nisbətidir. Böyük əl sahibi böyük üzə, kiçik əl sahibi isə kiçik üzə malikdir. Adamların hər birinin üz uzunluğu başın tük bitən hissəsindən çənəsinə qədər bir qarış və bir qarışın 1\8-i qədərdir. lakin üzün enliliyi hər bir şəxsdə bir qulaq pərdəsindən o biri qulaq pərdəsinə qədər bir qarış və öz qarışının 1\4-i qədərdir. Az-çox olmaqla hər bir kəsin göz uzunluğu nisbətən 1\8 qarışı və burun nisbəti isə hər bir şəxsdə öz qarışının 1\4-i qədərdir. Bu ilahinin ümumi qanunudur. Hər bir dövranda milyonlarla bəşər gəlib-getmiş, hamısı da bu müəyyən nizam altında olmuş və olacaqdır. Hər bir bədənin normal olub-olmasına həmin

bədənin sahibinin barmaq və qarışı ilə ölçülür. Yəni məsələn: hər bir adamın boyu öz əlinin səkkiz qarışına bərabərdir. Və ya məsələn: qollarını qanad kimi açarsa sağ əl barmağının ucundan sol əl barmağının ucuna qədər özünün səkkiz qarışı qədər olar. Öz qarışını hesab edib ölçün görün deyildiyi qədərdir ya yox!

Səkkiz qarışlıq boy isə iki qarışla tənzimlənmişdir. Yəni bərabər olaraq dörd hissəyə bölünmüşdür. Ayaqdan dizə qədər iki qarış, dizdən ombaya qədər iki qarış, onbadan qəlbə iki qarış qəlbdən də beyinə qədər qədər iki qarışdır. Əgər insan əllərini göyə qaldıran zaman qəlb pərgarın mərkəzi ola burunla bir dairə çəkirik. Əl barmağından ayaq barmağının başına qədər həmin şəxsin boyu özünün on qarışına bərabər olacaq. Bütün normal adamlarda belədir.

## QADIN VƏ KİŞİNİN BEYİN ÇƏKİSİ

Qadın və kişi arasındakı heyrətə səbəb olan yeni tibbdə də aydınlaşdırılan ixtilaflardan biri də insanın bütün idrak mərkəzi olan beyin hissəciklərinin çəkisidir. Beyin zərrəciklərinin bir neçə milyon zərrələrdən yaranmışdır. Qadın və kişinin beynini çəkərkən kişi beyninin qadınınkına nisbətən ağır çəkili olması müşahidə olunmuşdur. Sirri isə aydındır. Çünki ictimaiyyətin və yaşayışı idarə etmək üçün kişi çox təfəkkür edib düşünür. Əqli çox olduğuna görə də təklifi (vəzifəsi) Allahın tələbidə çoxdur. Əgər qadınlar ərin haqqı ödəmiş, haram iş görməmiş, vacibatı fövtə verməmiş olsalar, Allahın rəhminə gələr, lütfünə səbəb olarlar. Təklifin şiddətli olmasından elm, mərifət məqamında

çox çalışmalı olan biçarə kişilərdir. Kişidən tələb edilən elm, mərifət və ibadəti qadından istənilmir. Əslində kişilər qadınların qoruyucularıdır. Həm özünün nicat tapması, həm də qadının əlindən tutması lazımdır. Əgər arvad günah iş görsə, kişinin boynundadır. Əgər arvad evdən hicabsız eşiyə çıxarsa, xəyanətlə naməhrəm ona baxarsa, bu işə razı olduğuna görə günah kişidədir. Kişi gərək arvadının əzab əhli olmaması üçün onun işlərinə göz ola. Əgər arvadının evdən çıxması günaha düçar olması zəminə yaradarsa, günaha batmaması üçün onu eşiyə getməyə qoymamalıdır. Hər bir kişinin birinci dərəcəli görəcəyi iş - arvad uşaq və xadimininin işlərinə nəzər yetirməkdir. Qiyamət günü, elə həmin arvad-uşağın ətəyindən tutub, niyə o dünyada bizdən muğayat olmadın - deməsi mümkündür ya yox? Bunların öhdəsindən gəlmək olarmı? Kişilərin öz pak qızlarının necə fəsadlara atdıqları zaman "qeyrət" hara getmişdi? Qeyrətlilərin etirazlarına eşitdikdə isə çörək sahibi olmaları, böyüyəndə aylıq maaşlarının yaxşı olması lazımdır deyə aylıq maaşın tamahına iffət və isməti bada verirlər.

## NƏ ÜÇÜN İMAM HÜSEYN (Ə) ATASI ƏLİ (Ə) KİMİ SÜKUT ETMƏDİ?

Birinci Yezidin müqabilində sükut etmək, üç xəlifənin müqabilində sükut etməkdən fərqlənir.

Çünki üç Xəlifə qumarbaz və zinazadə deyildilər. Amma Yezid qumarbaz, şərab içən və zinazadə idi.

Müsəlmana qadağan olunmuş bütün xilaf işlərə əl atırdı. Buna əsasən belə bir şəxsin müqabilində sükut etmək, onun zülmkar hökumətini İslam hökuməti kimi tanımaq idi. Ədalət, həqqaniyyət, mətanətlik və İslamın bütün əsası sual altına düşəcəkdi.

İkinci İmam Əli (ə)ın zamanıyla imam Hüseyn (ə) zamanı arasında illərlə fasilə vardır. Əgər o vaxt Həzrət Əli (ə) qılınca əl ataraq xəlifələrin əleyhinə vruşsaydı, təzəcə müsəlman olmuş şəxslər şübhəyə düşəcək və öz əqidələrindən dönəcəklər. İslamın düşmənləri olan və İslama zərbə vurmaq intizarında yəhudilər, xristianlar və müşriklər fürsətdən istifadə edərək İslamın əsasını dağıdacaq, Qurandan və dindən əsər qalmayacaqdır. Buna görə də Əmir-Əl-Möminin (ə) dini qorumaq naminə xilafətdən əl çəkdi. Həqiqətdə İmam Əlinin (ə) sükutu, imam Həsənin (ə) sülhü və imam Hüseynin (ə) inqilabı bir-birinə sıx bağlı olan eyni hərəkət idi.

## İMAM HÜSEYN (Ə) KUFƏ CAMAATININ DƏVƏTİ İLƏ QİYAM ETDİ? YOXSA ONLAR DƏVƏT ETMƏSƏYDİLƏR BELƏ O HƏZRƏT QİYAM EDƏCƏKDİ?

İmam Hüseynin (ə) hərəkatında əsas amil yaxşılığa dəvət və pislikdən çəkindirmə amili idi. Bu surətdə Kufə camaatı o həzrəti (ə) dəvət etməsəydilər belə İmam (ə) bir neçə dəlilə əsasən müxalifətçilik və qiyam edəcəkdi.

1. İmam Hüseyn (ə) dəfələrlə öz qiyamının əsas hədə-

fini Allahın Rəsulunun (s) sünnəti və ənənəsini diriltmək yaxşılığa dəvət və pislikdən çəkindirmə olduğunu açıqlamışdır.

O həzrət (ə) Hürrün ordusuna xitabən belə buyurdu. “Ey camaat İslam peyğəmbəri (c) buyurub: Əgər hər bir şəxs zalım, Allahın haramını halal edən, Allahın əhdini sındıran, Peyğəmbərin (s) sünnəti ilə müxalifətçilik edən, camaata günah və düşmənçiliklə davranan bir sultanı (padşahı) gördüyü halda söz və ya işlə ona qarşı müxalifətçilik etməzsə, Allah-təala onu da zalim padşahla birlikdə cəhənnəmə daxil edər”. Bu xütbədə İmam Hüseyn (ə) açıq-aşkar bəyan edir ki, mənim mübarizəmdə qayə zülm və sitəmə qarşı çıxmaqdır. Həmçinin qardaşı MəhəmmədHənəfiyəyə etdiyi vəsiyyətdə buyurur: “Mən yalnız cəddimin ümmətini islah etmək, yaxşılığa dəvət və pislikdən çəkindirmək naminə qiyam etmişəm”.

Elə buna görə də imam Hüseyn (ə) islami cəmiyyətin uçrumda olduğunu gördükdə islah üçün qiyam etməyi qərara alır.

2. İmam Hüseynin (ə) qiyam etməsində Kufəlilərin dəvətinin əsas rolu olduğunu inkar edən ikinci dəlil budur ki, imam Hüseynin (ə) Yezidin beyətinin rədd etməsi xəbəri Kufəyə çatdıqda Kufəlilər yığışaraq əhd etdilər və dəvət üçün məktub yazdılar. Ancaq bunu da deməliyik ki, Müaviyə hələ sağlığında imam Hüseyndən (ə) beyət istəmiş, amma o həzrət imtina etmişdir. Buna əsasən imam Hüseynin (ə) beyətdən boyun qaçırması Kufəlilərin o həzrəti dəvət etməsindən qabaq olmuşdur. Çünki beyətin xətəri İs-

lam üçün olan xətər idi, tək iman Hüseyn (ə) üçün yox.

3. İmam Hüseynin (ə) hərəkatının əsas hədəfi Kufəlilərin təklifi olsaydı, imam (ə) daha ehtiyatla hərəkət etməli, İbni Abbasın və başqalarının nəsihətinə əməl etməliydi.

Amma həqiqət budur ki, İmam (ə) Kufəlilərə etimad etmirdi. Çünki İmama (ə) dəfələrlə xəbər gətirmişdilər ki, "Kufə camaatının qəlbləri sizinlə, qılıncları isə sizin əleyhinizədir".

Beləliklə, İmam (ə) öz qiyam yolunu dəyişmədi, qiyamının ilk günlərində etdiyi alovlu çıxışları, axır günlərdə də təkrar etdi.

## NƏ ÜÇÜN İMAM HÜSEYN KUFƏLİLƏRİN DƏVƏTİNİ QƏBUL ETDİ?

İmam Hüseynin (ə) Kufə camaatının dəvətini qəbul etməsi həzrəti Əlinin (ə) vilayət və başçılığı qəbul etməsi kimidir. Osman öldürüldükdən sonra camaat beyət etmək üçün İmam Əlinin (ə) evinə toplaşarkən həzrət buyurdu:

"Məndən əl çəkin, başqasını axtarıb tapın, çünki elə bir işə yönəlmişəm ki, cürbəcür yolları var, növbənöv rəngləri var. Könüllər bu işdə qərar tuta bilməz."

Camaat İmam Əli (ə) ilə beyətdə israr etdikdə o həzrət hökuməti qəbul etmək barəsində buyurdu: "Amma bunu da bilin ki, and olsun toxumu əkənə, insanı yaradana, bu cəmiyyət beyət üçün yığılmasaydı, höccət tamam olmuşdu. Əgər zalimin döyüb zülm etməsi və məzlumun ac qalması

qarşısında sükut etməmək haqqında Allahın alimlərdən aldığı əhd olmasaydı, mən xilafət dəvəsinin ipini buraxaraq ondan yan keçərdim, onun axırını əvvəli ilə suvarardım. İmam Hüseyn (ə) ona əl uzatmış adamlara höccəti tamam etmək üçün onlara cavab verir. İmam Hüseynin (ə) Kufə camaatının dəvətin rədd etmək üçün heç bir üzürü yox idi. Əgər İmam Hüseynin (ə) Kufəlilərin istəklərinə cavab verməyərək "mən bilirəm ki, siz mənə qarşı vəfalı olmayacaqsınız, buna görə də sizin istəklərinizə müsbət cavab verməram" desəydi, qaneedici bir cavab olmazdı, onlar da həmişə iddia edə bilərdilər ki, biz sənə qarşı vəfalı idik.

## MUXTAR KİMDİR?

Muxtar Əbu Übeydə ibni Məsudi Səqəfinin oğludur. Hicrətin 1-ci ilində dünyaya gəlmişdir. 13 yaşında ikən atası ilə düşmənlərə qarşı vuruşmaq istəmiş, lakin atası bunun qarşısını almışdır. Muxtar şücaətli, uzaqgörən və ağıllı bir çoban idi və güclü yaddaşa malik idi. Muxtar İraqda Əhlibeytin gizli aşiqlərindən və təbliğçilərindən idi. O, imam Əli (ə), imam Həsən (ə) və imam Hüseyn (ə)ın imarətini qəbul edirdi. O hicrətin 66-cı ilində qiyam edərək imam Hüseyn (ə) qatillərindən intiqam almışdır. Onun hakimiyyəti 18 ay (hicrətin 66-cı il rəbiül əvvəl ayının 14-dən hicrətin 67-ci il ramazan ayının 14-ə kimi) davam edib. Muxtar 67 yaşında Məsəb ibn Zübeyrin qoşunu ilə döyüşdə şəhadətə çatmış və Kufə Məscidində dəfn olunmuşdur.

## XƏVARİC NƏDİR?

Xəvaric üsyançılar deməkdir. Bu söz ərəbcə tüğyan və ya üsyan mənasını anladan "Xürüc" sözündən alınmışdır. Onların meydana gəlməsi hakimiyyət hadisəsi ilə bağlıdır. "Xəvariclik" düşüncəsinin əsas köklərini aşağıdakılar təşkil edirdi:

1. Əli (ə)ı, Osmanı və Müaviyəni və əshabi-cəməli "Cəməl firqəsini", əshabi-təhkimi, "Hakimiyyət cərəyanına razılıq verənlər" hakimiyyət cərəyanına razılıq verib sonra tövbə edənlər.

2. Əli (ə) Osman və başqa saydıqlarımızın kafirliyinə inanmayanlar.

3. İmam təkcə ürəkdən inanmaq deyil, mərufa əməl edib, qadağan edilmiş şeylərdən çəkinmək anının bir hissəsidir. İmam, etiqad və praktikanın tərkibində əmələ gəlir.

4. Zalim rəhbər və hakimə qarşı üsyan etməyin qeydsiz-şərtsizcəsinə vacibliyini onlar deyirdilər. Əmr be Məruf və Nəhy Əz Mülkər heç bir şərtdən asılı olmamalıdır və hər hansı bir yerdə olursa-olsun istisnasız olaraq bu ilahi əmrə əməl etmək lazımdır. Bunlar həmin əqidələrinə görə btün yer əhlini kafir sanır və hamını "qanı tökən Əli öldürülməli" və cəhənnəm əhli bildirdilər.

"Xəvaric" birinci əsrin-dördüncü on illiyində baş verən təhlükəli bir səhv nəticəsində meydana gəlmişdi, bir əsr yarımdan artıq davam etmədi. Əbbasilər sülaləsinin əvvəllərində tamamilə aradan getdilər. Xəvaric məktəbi həqiqətən qala biləcək bir məktəb deyildi, lakin o öz izini qoydu

və o etiqad və düşüncəsi başqa islam firqələrinə təsir buraxdı. Xəvaric əvvəlcə dini adamalar olub, azad bəhslər və tənqidlərlə kifayətlənirdilər. Xəvaricin ruhiyyəsi məxsus bir ruhiyyədir. Onlar çirkinlik ilə gözəlliyin tərkibi idilər. Və ümumiyyətlə elə bir vəziyyətdə idilər ki, nəhayət, Əli (ə)ın düşmənləri sırasına daxil oldular və Əli (ə)ın şəxsiyyəti onları dəf etdi.

## NAMAZ QILMAQ İNSANLARIN ƏMƏLLƏRİNƏ MANE OLA BİLƏRMİ?

Namaz Allahın Quranda müəyyən edilmiş vaxtlarda vacib buyurduğu bir ibadətdir. Allah namazlarında davamlı olanlara və dəqiq davrananlara əcr verəcəyini bildirir. Allah Quranda namaz qılanların sahib olacaqları bir qazancın da olduğunu bildirmişdir. **Quranda sənə vəhy olunanı oxu və namaz qıl. Həqiqətən, namaz çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək, şübhəsiz ki, daha böyükdür. Allah nə etdiklərinizi bilir.**

Ənkəbut surəsi 45-ci ayəsində Allahın buyurduqlarını hər bir Allah bəndəsi özünə vacib bilməlidir.

Allahın ayəsində bildirdiyi kimi, namaz qılanlar çirkinliklərdən və pisliklərdən uzaq olarlar. Allah, onların qəlbinə belə pisliklərdən uzaqda qalmaqlarını əmr edir. Quranda bildirən namaz ibadətini incəliklə yerinə-yetirən insan Allahdan qorxan insandır. Hər gün Rəbbimizin hüzurunda müəyyənləşmiş vaxtlarda 5 dəfə qiyam edən, səcdə və rükü edən insan içində hiss etdiyi hörmət dolu qorxu sə-

bəbindən əlbəttə, pisliklərə də yanaşmaz. Vicdanı, Allahın izni və ilhamı ilə bu insanın pisliyə, çirkin bir utanmazlığa yönəlməsinə mane olur. Belə bir insan bir anlıq pislik içində olarsa da, Rəbbimizin hüzurunda dua edərkən, onun sonsuz qüdrətini düşünərkən, elə o anda da etdiyi pisliyi görər və tövbə edərək bir daha geri dönməmək şərti ilə bunlardan uzaqlaşır.

## İZZƏT ALLAH TƏRƏFİNDƏN VERİLİR?

Axirətə inanmayan və təkcə bu dünya həyatının olduğunu zənn edən insanların böyük əksəriyyəti dünyada güc, qüvvət və üstünlük tapmağa çalışırlar. Həyatları boyunca acgözlüklə buna cəhd göstərərlər. Özləri üçün gücün, üstünlüyü və nüfuzlu olmağın ölçüləri və dəyərli vardır. Buna görə varlı olmaq, rəhbər olmaq, sözü keçən olmaq, şöhrət sahibi olmaq lazımdır. Bunlardan birini itirdikdə isə bütün etibarlarının, şəxsiyyət və izzətlərinin yerlə-yeksan olduğunu düşünərlər. Halbuki, bu çox böyük bir yanılmadır və Allah onların bu yanılmalarını Quranda belə açıqlayır.

**“Onlar üçün şəfaət diləsinlər deyə, Allahdan başqa tanrılar qəbul etdilər. Xeyr, onların ibadətini danacaq və onlara düşmən olacaqlar”.**

(Məryəm surəsi 81-82-ci ayələr)

Yeganə güc və izzət sahibi olan Allahdır və Allah gücü və izzəti istədiyinə verər. Beləliklə güc və üstünlüyə malik olmaq üçün Allahdan kənarda səbəblər və vasitəçi-

lər arayanlar bunları Allaha ortaq etmiş olurlar. Çünki nə malın, nə etibarın, nə də vəzifənin insana güc verəcək bir iradəsi yoxdur. Bundan başqa, Allah hər insandan bütün bunları bir anda geri ola bilər. Məsələn, ən yüksək vəzifədəki bir insan bir anda vəzifəsiz, malsız və etibarsız qala bilər. Çünki hər şey tək və həqiqi sahibi olan Allahdır.

Allah izzət və nüfuzu, ona dost olan, könüldən bağlanana, Qurana tabe olan bəndələrinə verər. Qurana tabe olan bir insan heç vaxt özünü axirətdə Allahın qarşısında alçaldacaq, onu utandırıb peşmanlığa salacaq bir əxlaqa və davranışa yaxın durmaz. Heç kimdən qorxub çəkinməz, heç kimə yıxılmaz, heç kimin güc və zalımlığından qorxub çəkilməz. Sadəcə, Allahı razı etmək istər və sadəcə, Allahdan qorxub çəkinər. Bu səbəbdən heç bir zəifliyi, insanlar qarşısında əskikliyi yoxdur. Mala, var-dövlət, vəzifə və mövqeyə sahib olmasa da Allah onu öz qatından yardımı ilə güc və şərəf sahibi edər. Belə bir insan eyni zamanda Quran əxlaqını yaşamağın və imanın verdiyi üstünlüyü və şərəfi üzərində daşıyar. Allah bunu Munafiqin surəsinin 8-ci ayəsində belə bildirir.

**Halbuki, Şərəf-şan da, (qüvvət və qələbə də) yalnız Allaha, onun Peyğəmbərinə və mömünlərə məxsusdur.**

## İNSAN DÜŞÜNCƏ VƏ NİYYƏTİNDƏN DƏ SORĞU-SUALA TUTULACAQDIRMI?

Quranda bütün ibadətlərin könüldən, sadəcə Allahın rizası üçün edilməsi bildirilir. Ayələrdə belə buyurulur:

**“... Hər kəs könüllü xeyir iş görərsə, bu onun üçün**

**daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!”** *(Bəqərə surəsi 184)*

**“Namazlara, orta” namaza riayət edin və Allaha itaət üçün ayağa qalxın”** *(Bəqərə surəsi 238)*

**“Həqiqətən, İbrahim Allaha müti, batildən haqqa tapınan bir imam idi. O heç vaxt müşriklərdən olmamışdı** *(Nəhl surəsi 120).*

Allah Quranda özünü göstərmək üçün pul xərcləyən və ya özünü göstərmək üçün namaz qılan insanların olduğunu xəbər verir. Ancaq ayələrdə xəbər verildiyi kimi, namaz qılan, oruc tutan, zəkat verən, itaət edən bir insanın əsl niyyəti, ürəyindən keçirdikləri mühümdür.

Və ya bir insan uzun müddət xeyir işlər görə, məktəblər aça, kasıblara yardım göstərə bilər. Bu insanlar namaz qılarkən Allahı düşünməz, onun qarşısında nə qədər aciz və boyun əyici olduğunu düşünmədən sadəcə ağızları ilə dua oxuya və zikrlər edə bilərlər. Ancaq bu insan əgər bu etdiklərini Allahın ondan razı olmasını istəyərək, Allaha qarşı aciz və möhtac olduğunu düşünərək, axirətdən qorxaraq etmirsə, ibadətləri Allah yanında qəbul edilməyə bilər. **Allah insanların kəsdikləri qurbanların qanlarını deyil, təqvalarının ona yetişəcəyini Həcc surəsi 37-ci ayədə belə bildirir!**

**Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır** *(səmimiqəlbdən etdiyiniz ibadətdir).* **Allah sizi doğru yola yönəltdiyi üçün onu uca tutasınız deyə, bu qurbanlıqları sizə belə ram etdi. Yaxşılıq edənlərə müjdə ver!”**

Bir çox insanın ən mühüm yanılmalarından biri, sadəcə əməl olaraq etdiklərindən sorğu-suala tutulacaqlarını zənn etmələridir. Halbuki, Allah insanın niyyətindən, düşüncələrindən, qəlblərində güzlədiklərindən də haqq-hesab çəkəcəyini bildirir.

**Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. Allah istədiyini bağışlar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir!"** *("Bəqərə" surəsi 284)*

Allahdan insan heç bir şey gizlədə bilməz. Ağlına gələn bir şübhə, vəsvəsə, möminlər haqqındakı inancı, ibadət edərkən ağlından keçənləri Allah bircə-bircə bilməkdə və bütün bunlar mələklər tərəfindən yazılmaqdadır. Məsələn, əgər bir ibadəti istəmdən edirsə, pis şeylər haqqında düşünürsə, Allah bunu bilir. Və insan hər birini axirət günündə qarşısında görəcəkdir. İnsanın quruluşunun səbəblərindən biri qəlbin təmiz olması, dini zahirən deyil, qəlbində və düşüncələrində səmimi olaraq yaşamasıdır. Qısa və ötəri həyat üçün axirətdəki sonsuz və həqiqi həyatı yaddan çıxarması böyük bir ağılsızlıq olar. Allahın dünya həyatının ötəriliyi haqqında insanları xəbərdar etdiyi ayələrdən bəziləri belədir: **"Ey qövmüm! Bu dünya həyatı keçici bir şeydir, axirət isə əbədi yurddur"!** *(Mominin surəsi 39)*

**"Həqiqətən, bunlar tez keçib gedəni sevər, ağır günə dal çevirərlər"** *(İnsan surəsi 27).*

## ORBİTLƏR VƏ DÖVR EDƏN KAİNAT

Kainatdakı əzəmətli nizamın mühüm səbəblərindən biri də şübhəsiz ki, göy cisimlərinin müəyyən edilmiş oxları ətrafında hərəkət etməsidir. Ulduzlar planetlər, peyklər həm öz oxları ətrafında, həm də bağlı olduqları sistemlə birlikdə hərəkət edirlər.

Kainatda təxminən 200 milyard qalaktika, hər qalaktikada isə nə az nə çox düz 200 milyard ulduz var. Bu ulduzların əksəriyyətinin planetləri, bu planetlərin də öz peykləri var. Bütün göy cismləri çox incə hesabla müəyyən edilən orbitlərə malikdir. Onların hər biri milyon illərdir ki, öz orbitində digərləri ilə qüsursuz bir uzunluqda və nizamda hərəkət edirlər. Bunlarla yanaşı çoxlu quyruqlu ulduzlar da mövcuddur. Onlar da öz orbitlərində fasiləsiz hərəkət edirlər.

Kainatdakı orbitlər ancaq bəzi göy cisimlərinə aid deyil. Günəş sistemi hətta başqa qalaktikaların, başqa mərkəzlərin ətrafında böyük hərəkətlik (dinamiklik, fəaliyyət) nümayiş etdirir. Yer və onunla birlikdə Günəş sistemi əvvəlki yerindən hər il 500 milyon kilometr uzaqlaşır. Hesablanıb ki, göy cisimləri öz orbitlərindəki istiqamətlərindən qismən çıxsa, bu sistem alt-üst olacaq. Məsələn, Yer öz orbitində yerini adi vəziyyətdəki istiqamətindən aşağı-yuxarı cəmi 3 mm dəyişsə, meydana gələcək dəhşətli hadisələr bir mənbədə belə bildirilir. Yer kürəsi Günəşin ətrafında fırlanarkən elə hərəkət edir ki, hər 18 mildə orbitindən 2,8 mm ayrılır. Yer kürrəsinin orbitindən 3 mm-lik ayrılması böyük fəlakətlərə səbəb olardı. Yer öz orbitindən bu za-

man 2,8 mm deyil, 2,5 mm ayrılsaydı, dünyadakı bütün canlılar donardı. Əgər orbitdən ayrılma 3,1 mm olsaydı, bütün canlılar istidən yanaraq kül olardı. Göy cisimlərinin fərqli bir xüsusiyyəti də onların öz orbitləri ilə yanaşı bir də öz oxları ətrafında hərəkət etməsidir. Quranın **"Dönüşlü olan göyə and olsun"** (Tariq 11) ayəsi məhz bu həqiqətə işarədir.

**"Günəş də özü üçün müəyyən olmuş yerdə seyr edər. Bu yenilməz qüvvət sahibi olan (hər şeyi) bilən Allahın təqdiridir"** *(Yasin 38).*

Quranda bildirilən bu həqiqətlər yalnız və yalnız XX əsrdə astronomiya elmi sahəsində aparılan tədqiqatlarla təsdiq edilib. Mütəxəssislərin hesablamasına görə Günəş "Solar Apeks" adlı orbit boyu Veqa ulduzu istiqamətində saatda 720.000 kilometrlik möhtəşəm bir surətlə hərəkət edir.

Bu təxmini hesablama Günəşin sutka ərzində 17 milyon 280 min kilometr yol qət etdiyi göstərilir. Günəşlə birlikdə onun cazibə sistemindəki bütün planet və peykləri də eyni məsafədə qət edir.

## AY İLİNİN HESABLAMASI

**"Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb, bilən bir tayfa üçün belə müfəssəl izah edər!** *(Yunus surəsi, ayə 5)*

Bu ayədə Allah Ayın insanlar üçün illərin hesablanmasında bir ölçü olacağının aydın şəkildə bildirmişdir. Bundan başqa, bu hesablamalar nəzərləri Ayın öz orbitində hərəkəti əsnasındakı yerlərinə uyğun olacağına cəlb edir. Yer-Ay və Yer-Günəş istiqamətləri arasındakı bucaq davamlı olaraq dəyişdiyi üçün biz Ayı çeşidli vaxtlarda müxtəlif şəkillərdə görürük. Ayı görməyimiz Ayın Günəşdən aldığı işığı əks etdirməsi səbəbilə mümkündür. Bunun üçün də Ayın Günəşin ətrafından işıqlandırılan tərəfi yerdəki müşahidəçiyə görə həmişə dəyişir. Bu dəyişikliklər nəzərə alınaraq bəzi hesablamalar aparılır ki, bu da illəri hesablamağı asanlaşdırır. Əvvəllər 1 ay insanlar tərəfindən iki bədrlənmiş ay arasındakı vaxt və ya Ayın Yerin ətrafında dövr etdiyi zaman kəsiyi olaraq götürülürdü. Bu hesaba görə, bir ay 29 gün 12 saat 44 dəqiqə təşkil edirdi. Buna "qəməri ay" deyilir. 12 qəməri ay isə Rum təqviminə görə, 1 il edir. Ancaq Günəş ətrafındakı dövrəsi qurtaranda 1 il olaraq qəbul etdiyimiz miladi təqvimilə Rum təqvimi arasında hər il 11 günlük fərq meydana gəlir. "Kəf" surəsinin 25-ci ayəsində bu fərq belə şərh olunur.

**"Onlar mağarada üç yüz il qaldılar və üstünə doqquz il də əlavə olundu".** Ayədə qeyd olunan dövrü belə aydınlaşdırmaq mümkündür. 300 il + 11 gün (hər il üçün meydana gələn fərq) = 3300 gün. 1 Günəş ilinin 365 gün 5 saat 48 dəqiqə 45,5 saniyədən ibarət olması nəzərə alınsa, 3300 gün 365,24 gün 9 ilə bərabərdir. Başqa sözlə, miladi təqvimə görə 300, Rum təqviminə görə isə 300+9 ildir. Aydın olduğu kimi, ayədə çox incə hesablamaya əsaslanan

bu 9 illik fərq diqqətimizə çatdırılıb (ən doğrusunu Allah bilir).

Quranda belə bir məlumatın qeyd edilməsi müqəddəs kitabımızın şübhəsiz ki, elmi möcüzələrdən biridir.

## DƏMİRDƏKİ BÖYÜK SİRR

Dəmir Quranda böyük diqqət yetirilən kimyəvi elementlərdən biridir. Quranın "Hədud", yəni "Dəmir" adlı surəsində belə buyurulur:

**"... Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də nazil etdik (endirdik)"...** *("Hədud" 25-ci ayə)*

Ayədə xüsusi olaraq dəmirlə bağlı işlədilən "ənzəlnə", yəni "endirmək" kəlməsi məcazi anlamda onun insanların xidmətinə verilməsi mənasında başa düşülə bilər. Fəqət kəlmənin yağış və günəş şüaları ilə bağlı işlədilən "Göydən fiziki olaraq endirmə" şəklindəki həqiqi mənasına diqqət veriləndə ayənin çox mühüm elmi möcüzə olması görünür.

Çünki müasir Astronomiya elmi Yerdəki dəmir mədənlərinin kosmosdakı böyük ulduzlardan gəldiyini sübut etmişdir. Təkcə yerdəki deyil, bütün Günəş sistemindəki dəmir kənardan əldə edilmişdir. Kainatdakı ağır metallar böyük ulduzların nüvələrində hazırlanır, Günəş sistemi isə dəmir elementini öz quruluşunda hazırlaya biləcək bir xassəyə malik deyil.

Çünki Günəş dəmir elementinin meydana gəlməsinə kifayət etmir. Dəmir ancaq Günəşdən də böyük olan ulduzlarda bir neçə yüz milyard dərəcəyə çatan istidə əmələ gələ bilər. Nova və Supernova adlandırılan bu ulduzlardakı dəmirin miqdarı müəyyən həddi keçəndə ulduz artıq onu saxlaya bilmir və partlayır. Bu partlayışın nəticəsində dəmirə çevrilən meteoritlər kosmosa səpələnir və bir göy cisminin cazibə qüvvəsinə məruz qalıb onun üzərinə enən, yəni onun tərəfindən cəzb olunana qədər kosmik boşluqda hərəkət edir.

Bir elmi mənbədə bu məsələ ilə bağlı aşağıdakı məlumat qeyd edilir. Daha çox yaşı olan Supernova hadisələrini göstərən dəlillər də var. Dəniz tavanında yığılmış dəmir - 60, Günəşdən 90 işıq ili uzaqlıqda təxminən 5 milyon il əvvəl meydana gələn bir Supernova partlayışının dəlili olaraq izah edilir. Supernova partlayışında əmələ gələn dəmir - 60 elementi 1,5 milyon il ömrü olan radioktiv izotopdur. Yerin altındakı təbəqələrdə rast gəlinən dəmir-60 izotopu yaxın kosmosda olan elementlərin nüvə sintezi prosesindən keçərək əvvəlcə yer atmosferinə, oradan da Yerin alt təbəqələrinə düşməsi nəticəsində meydana gəlmişdir. Dəmir mədənləri yerdə əmələ gəlməmiş Supernovalardan göy daşları vasitəsilə daşınaraq eyniylə ayədə bildirildiyi kimi **"Yerə endirilmişdir"**. Bu məlumatın Quranın nazil olunduğu VII əsrdə elmi şəkildə təsbit edilməsini qeyri-mümkünlüyü isə tam aydındır.

Bu həqiqət yalnız hər şeyi sonsuz biliyi ilə əhatə edən Allahın sözündə - Quranda var.

Dəmirdən bəhs edən “hədid” surəsinin 25-ci ayəsi iki olduqca maraqlı riyazi işarədən ibarətdir. “Hədid” Quranın 57-ci surəsidir. Hədid kəlməsinin ərəbcədəki riyazi dəyəri, yəni “əbcəd” hesablanarkən qarşımıza çıxan rəqəm də eynidir.

57 hədid kəlməsinin riyazi dəyəri (əscədlə) isə 26-dır, 26-da dəmirin atom sayıdır.

## FİRONUN CƏSƏDİNİ QORUNUB SAXLANMALI

Bəlli olduğu kimi, Firon özünü Tanrı olaraq qəbul edirdi. Firon həzrəti Musanın onu Allaha iman gətirməyə çağıran bütün dəvətlərinə böhtan və hədə ilə cavab verirdi. Firon bu təkəbbürlü davranışını ölüm təhlükəsi ilə qarşılaşıb suların altında qalacağını başa düşəcəyi ona qədər davam etdirdi. Fironun Allahın əzabı ilə qarşılaşanda dərhal İman gətirməyə çalışması Quranda bu ayə ilə bildirilir.

**İsrail oğullarını dənizdən keçirdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. (Firon) batacağı anda: “İsrail oğullarının inandıqlarından başqa Tanrı olmadığına iman gətirdim. Məndə artıq müsəlmanlardanam” dedi.** *(“Yunis” sur. 90 ayə).*

Ancaq Allah Fironun belə bir anda iman gətirməsini qəbul etməmişdir. Allah Fironun bu qeyri-səmimi davranışını Quranda bu ayələrlə bildirir:

**“İndimi? Halbuki əvvəlcə qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun!”**

**Səndən sonrakılara bir ibrət olsun deyə bu gün səni xilas edəcəyik (hər kəsə cəsədini göstərəciyik), həqiqətən insanların çoxusu ayələrimizdən qafildir.**

*(Yunus sur. 91-92 ayə).*

Ayədə Firona aid cəsədin gələcək nəsillərə ibrət olacağının bildirilməsi cəsədin "dağılmayacağına" bir işarə olaraq qəbul edilə bilər. Quranda 1400 il əvvəl xəbər verildiyi kimi hələ də tarixi bir fakt olaraq saxlanılan bu cəsəd Qahirədəki Misir Muzeyinin "Çar mumiyaları otağı"nda nümayiş etdirilir.

Böyük ehtimalla sulara qərq olub boğulandan sonra Fironun cəsədi sahilə çıxmış və misirlilər tərəfindən tapılaraq əvvəlcədən hazırlanmış qəbrinə aparılmışdır.

## MUXTARNAMƏDƏN HİSSƏLƏR

Əbü übeydə Səqəfi bir imanlı şəxs idi. Şeyx Əbu Cəfər Babaveyh öz kitabında bu əhvalatı rəvayət eyləyir ki, bir gün Həzrət Əmir Əlmöminin (ə) Mədinənin bir küçəsindən keçirdi. Gördü ki, bir dəstə uşaqlar küçənin bir tərəfində oynayırlar. Muxtar onların içində idi. Muxtarın uzun saçları hər baxanı ona qarşı diqqətli edərdi. Əli (ə) Muxtarı görüb yanındakılardan sual eylədi bu kimin oğludur?

Ərz eylədilər ki, Əbu Übeydə Səqəfinin oğludur. Əli (ə) Muxtarı çağırıb dizləri üstə otuzdurub nəvaziş əlini onun başına çəkib buyurdu: -

- Ey mənim əziz oğlum nə vaxt olacaqdır ki, bizim qanımızı düşmənlərimizdən alasan? Hədislərdə var ki, Mux-

tarın oğlu bir gün Həzrət imami Məhəmməd Baqir (ə) yanına təşrif buyurub salam ərz eylədi. Həzrət İmam Məhəmməd Baqir (ə)-salamin cavabın qaytarandan sonra Muxtarın oğlunu öz yanında yer verib, buyurdu: Sən biz əhlibeyitdənsən. Əgər biz xatircəm olsaq sən də xatircəmsən. Hərgah biz nigaran olsaq, sən də nigaransan. Bu hədislərdən Muxtarın oğlu və özü haqda çox var. Bir dəstə Muxtarın barəsində deyirlər ki, İmam Hüseyn (ə)ın qardaşı Məhəmməd Hənəfiyəni imam bilərmiş, nəinki imami Zeynəlabdini. Bu danışıqlar onun haqqında böhtandır. Çünki Muxtar camaatı İmam Zeynalabdin (ə) beyət etməyə çağırardı.

Bu barədə Şeyx Cəfəri Tusi ki, böyük müctəhidlərdən idi. Muxtarın fəzilətini və dərəcəsini öz kitablarında yazıb. Nəql edilir, Osman Yəmani deyir ki, zəkat haqqında Həzrət İmam Məhəmməd Baqir (ə) yanına bir miqdar pul apardım. O, həzrətin yanında bir dəstə adamlarda var idi. Danışıq zamanı Muxtarın adın çəkdilər. Hər kəs onun adın çəkirdi imam Əleyhissəlam deyərdi: Allah Muxtara rəhmət eləsin o bizim nəfəslərimizi açdı və dərdlərimizə məlhəm saldı. Bizim vəziyyətimizi xoş eylədi.

Kərbəla vaqiəsindən sonra Əbu Talib arvadları və qızları saçlarına həna qoymadılar ta Muxtar Ubeydulla ibn Ziyaddin başın kəsib imam Zeynəl Abidin (ə) hüzuruna göndərən günə qədər. Başqa rəvayətdə Zeyn ibn Əli *(Zeynəlabidin)* onun atası Zeynəl Abidin (ə) ki, buyurdu Muxtar bizim qanımızı aldı.

Rəvayətdi Əli ibn Əsbatdan ki, Muxtarın oğlu imam

Məhəmməd Bağır(ə)ın xidmətinə təşrif buyurub ərz etdi: Ey rəsullulahın balası mənim atamın haqqında nə buyurursuz? İmam buyurdu: Muxtar bizim dostlarımızdan və istəkli şiələrimizdən idi.

Əbu Məxnəf Luti Yəhya Azadi keçən qocalardan rəvayət eyləyir ki, ikinci xəlifə Ömər ibn Xəttab Əbu Übeydəni İraq qoşununa sərkərdə təyin eylədi. Harunun davasına göndərdi. Əbu Übeydə bu döyüşdə şəhid oldu. O zaman Muxtar uşaq idi, Kufəyə gəldi. Necə ki, Mədaini bir mərkəz qəbul etdilər. Muxtar əmisi səd ilə orada sakin oldu. O vəqtə kimi ki, camaat imam Həsən (ə)a beyət eylədilər. Əvvəl adam ki, imama beyət elədi Qeys ibni Səd idi. Qeys beyəti bu şərtlə etdi ki, birinci gərək imam Həsən (ə) cihad buyura. İmam Həsən (ə) buyurdu: sən beyət elə cihad öz vaxtında buyrular. Bu sözdən cəmaata məlum oldu ki, Həzrətin cəng etmək istəyi yoxdur. Bu zaman İraq əhli cəm olub dedilər ki, imam Həsən (ə) gərək buradan köç eyləyə və ayrı diyara çıxıb gedə.

İmam əleyhissəlam bu təklifdən sonra dörd min nəfər ilə Kufədən çıxıb Mədinəyə getdi. Qeys ibn Sədi iki min nəfər ilə qabaqcadan yolladı.

Qeys İmam sərhədində gəlib dayandı İmam (ə) altı ay Kəsranın sarayında dinməz-söyləməz qaldı. Həmin dövrdə şiyə məzhəbli Muğeyrə adlı bir şəxs Məkkənin hakimi idi. Muğeyrə Əli (ə) şəhadətindən qabaq o vəzifədə işləyirdi.

Eylə ki, camaat bildi Həzrət imam yoxdur, hər kəs bir hiylə ilə qaçıb Maviyə məluna tabe oldular. Abdulla Abbas Bəsrənin hakimi Maviyəyə bir məktub yazda Bəsrənin

vergisinin tələb etmək üçün sənin yanına gələrəm. Maviyə bir məktub yazıb gəlməyini xahiş etdi. Abdulla Maviyənin yanına gəldi. Oradan da getdi Məkkəyə. Məkkədə ikən imam Həsənə qarşı qiyam eylədi və onu yaraladı. İmam Həsən (ə) tutdular. Bu zaman Maviyə Şam qoşunu ilə İraq sərhəddinə gəldi. İmam Həsən (ə)ı həmən gecə Abdulla gətirib Muxtarın əmisi Sədin qapısına çatdırdı. Abdulla Sədi səslədi ki, imamı bura gətirmişik sənə təhvil verək. Muxtarın əmisi Səd səsi eşidən kimi evin üstündən aşağı endi. Gəlib özün imama yetirdi. Onlar dedilər ya Səd bunu saxla Maviyənin yanına göndərəcəyik. Muxtar gəlib əmisinə dedi ki, əmi bu nemətdən sənə muştuluq olsun.

Əmisi dedi: bala, onlar imamı Şamə göndərəcşəklər əli-qolu bağlı. Muxtar necə ki, bu sözü eşitdi bir nərə çəkdi və dedi: vay olsun sənə ki, belə sözü ağzuva gətirirsən. Əmi mən bu vəqtə qədər bilməmişəm ki, İmam Həsən (ə) peyğəmbər (ə)ın qızıl gülünün qönçə gülüdür. Murtəzanın gözünün işığıdır və Zəhranın cigər guşəsidir. Bu sözlərdən tövbə elə, Muxtarın əmisi istiğfar eylədi və dedi tövbə edirəm.

O vəqt qapını açdılar və imam Həsən (ə)ı evə gətirdilər orda onu pünhan eylədilər və yaralarına məlhəm qoyub xidmət eylədilər ta ki, yaraları yaxşı oldu. Səd ibn Məsuddan rəvayətdir ki, neçə dəfələrlə Muxtardan eşitdim ki, deyərdi: mən əvvəldə əhli beyt (ə), Əbu Talibin düşməni idim. Necə ki, dəfələrlə Muxtardan eşitdim ki, deyərdi mənim yanımda hər kəs Əli (ə) adını dilə gətirsəydi mənim tüklərim qəzəbimdən biz-biz olardı.

Tainki bir gecə yuxu gördüm, bu düşmənçilik dostluqla mübəddəl oldu. Soruşdular ki, necə idi o yuxu. Muxtar cavab verdi:

- Gördüm behiştdə bir bağda Həzrət Rəsul Əkrəm (ə) bir təxt (yaqut zümrüddən) üstə oturub.

Əhli beyt (ə) Taha onun təxtinin dairəsində oturublar. Qabağa gedib təzim edəndən sonra, salam verdim.

Lakin həzrət mənə etina eləmədi. Çox qəmgin oldum. Bir az keçəndən sonra mənə nəzər edib buyurdu: Ey Muxtar, mənim əhli-beytimin düşmənçiliyindən əl çək.

Hər kəs məni dost tuta, sonra mənim nurididələrimi gərək dost tutsun. Hər o kəslər ki, mənim əhli beytim ilə düşmən ola mənə düşməndir. Bizlərə düşmən olanların yeri cəhənnəmdir. Mən yuxudan ayıldım, gördüm bədənimin hər əzası ağac yarpağı kimi əsir. Buna görə də o ədavət məhəbbətə çevrildi. İmam Həsən (ə)a zəhər verdilər. Kufə əhli həzrət İmam Hüseynə (ə) yazdılar ki, Kufəyə gəlmək sənə vacibdir. Ona görə ki, Kufə əhli sizə beyət eləsinlər. Vilayət Maviyə oğlu Yeziddən alınsın və sizə tapşırılsın.

İmam Hüseyn (ə) həmin günlərdə Məkkədə idi. Ona görə ki, İmam Hüseyn (ə) Yezidin Mədinə hakimi Vəlidə yazdığı beyət haqqındakı xəbərdən hali olan zmam, Rəcəb ayının 27-də hicrətin 60-cı ilndə Mədinəni tərk etmişdi. Kufəlilərdə Məkkədə olan imam Hüseyn (ə) a çoxlu sayda məktublar yazaraq onu öz şəhərlərinə gəlməyi xahiş edirdilər. Odur ki, İmam Hüseyn (ə) öz əmisi Əqilin oğlu Müslümü çağırtdırdı. Göstəriş verdi ki, get Kufəyə və əhalidən

beyət al. Müslüm (ə.r) Məkkədən çıxıb Kufəyə bir neçə günə gəlib çatdı. Müslüm (ə.r) özü ilə o şəhərə iki Məhəmməd və İbrahim adlı oğlanlarını da Kufəyə gətirmişdi. Müslüm (ə.r) Kufəyə gəlib şiyələri həzrətin beyətinə dəvət eylədi. Kufədə əvvəl şəxs ki, dəvəti qəbul eylədi, o da Muxtar idi. Muxtar beyətdən sonra dedi: And ola peyğəmbər (ə)ın pak qəbrinə ki, əgər imam Hüseyn (ə)ı tapam nə qədər ki, bədənimdə ruhum var, onun qabağında qılınc vuraram, ya ölərəm, ya da muradıma yetişərəm.

Bu zaman çox adam beyət eylədi. Şam şəhərində Yezidin bu əhvalatdan xəbəri oldu. Öz dəftərxana müdrin çağırıb ondan məsləhət aldı ki, Kufəyə kimi hakim təyin edək. Həmin anda Maviyənin vəqtində də işləyən bu adam dedi ki, ya Yezid heç narahat olma, atan sağlığında yazdırdığı əmri gətirim bax. Gedib bir kağız gətirib orada olanı başladı oxumağa. O zaman ki, Kufədə şiələr çoxluq təşkil etdilər, onda Übeydulla ibn Ziyadı ora hakim təyin edin.

Yezid əmrdən xəbərdar olan kimi Bəsrədə hakim olan Ubeydulla ibn Ziyada bir məktub yazdı, qasid vasitəsilə Bəsrəyə göndərdi. Məktub Ubeydullaha çatan kimi Yezidin adın oxuyub öpüb qoydu gözü üstə. Gördü Yezid yazıb: Ziyad oğlu, məktub sənə çatan kimi vəzifə icraçılığın qardaşına təhvil ver. Özün təcili gəl Kufəyə. Ona görə ki, İmam Hüseyn (ə) öz tərəfindən əmisi oğlu Müslümü Kufəyə göndərib xalqdan beyət alıb. Kufə əhli ona olan münasibəti aşkar ediblər. Sən Kufəyə gələn kimi Müslüm ibn Əqli tutub mənim yanıma göndər. Ubeydulla təcili gəldi Kufəyə. Müslüm o gələnə kimi Muxtarın evində idi, onun

gəlişin biləndən sonra Kufənin hakimi Haninin evinə pənah gətirdi. Ubeydulla Müslümün Haninin evində olduğundan xəbəri olan kimi Hamini yanına çağırtdırıb Müslümü ondan istədi. Hani Müslümdən bixəbər olduğunu bildirdi. Ubeydulla bu sözdən sonra qabağında olan mürəkkəb qabını götürüb Haniyə atdı. Mürəkkəb qabı Haniyə dəyən kimi yanındakı bir kişi Şəmşir belində idi durmuşdu . Əlin uzadıb şəmşiri həmin kişinin belindən çıxardıb Ubeydullaha hücum etdi.

Ubeydulla taxt üstə oturmuşdu, gördü ki, məni vuracaq tez taxtdan düşüb qaçdı. Qaça-qaça göstəriş verdi ki, Hanını tutsunlar. Hanı həmin anda dedi: ey murdar it min nəfər sənin kimi tülkü eyləyə bilməz mənim üzümə əyri baxa.

Ubeydulla Ziyada qəzəb yetişdi Haniyə dedi: Sənə indi bildirərəm. Həmin göstərişdən sonra Ubeydullanın adamları Hanini tutdular. Şəhərə xəbər eylədilər ki, Hanini tutublar. Haninin adamları və Müslüm silahlanıb Ubeydullanın adamları ilə vuruşmağa başladılar. Rəvayət eyləyirlər ki, Muxtar o gün şəhərdə deyildi. Muxtar bu əhvalatı eşidən kimi öz adamları ilə Kufəyə tərəf gəlməyə başladı. Gəlib Kufəyə az qalmış gördülər yolun kənarında bir nəfər əyləşib Muxtar qabağa keçib Müslümdən xəbər soruşdu, dedi: ey kişi hansı qəbilədənsən dedi:zindan yanam.

Muxtar dedi, Ziyad oğlunun sərkərdəsin harda gördün? Dedi mən heç kəsi görməmişəm. Muxtarın soruşmaqda məqsədi bu idi ki, o hər nə desəydi onu fal tutardı.

Muxtar bir az qabağa gedib bir şəxs gördü gözdən kor idi, qıçdan şil idi. Muxtar təəccüb eylədi dedi: Haradan gə-

lirsən. Dedi: şəhərdən. Soruşdu hansı qəbilədənsən və Müslümdən nə xəbərin vardır. Dedi mənim xəbərim yoxdur. Ancaq eşitmişəm ki, Ziyad oğlu ilə cəng edir. Muxtar buyurdu tez olun onun köməyinə yetişək.

Bunu deyib sürətlə şəhərə yaxınlaşdılar. Bir nəfər ki, Muxtarı tanımırdı və qəribəidi Muxtara dedi hara gedirsən və bu qoşunla qəsdün nədir?

O iki qoşun ki, döyüşürlər hansına köməyə gedirsən?

Muxtar dedi, Müslümün köməyinə gedirəm. İnşallah ümüdim var ki, dünyanı Müslümün düşmənlərindən pak edim. O kişi Muxtara həmlə eylədi, Muxtar atı ona tərəf çapdırdı bir zərbət onun başından həvala eylədi, ta sinəsinə qədər parçaladı. Muxtar Kufəyə tərəf sürətlə hərəkət edirdi ki, Müslümə özünü çatdırsın. Muxtarın qulamı baxdı gördü ki, beş nəfər yolun kənarında oturub və şer oxuyurlar. Neçə ki, Muxtar onlara özün yetirdi və soruşdu: bu şerlər ki, oxuyursuz mənası nədir?

Ərz eylədilər öldürdülər bir şəxsi ki, çox yaxşı adam idi. Ona hiylə etdilər. Muxtar ağladı və dedi vay olsun qorxuram ki, Müslümü öldürələr. Ordan sürətlə kənarlaşıb bir nəfərə rast gəldilər. Bu şəxs bəni Əsəd qəbiləsindən idi. Muxtarı tanıdı və dedi, ya Seyyidi hara gedirsən. Muxtar ərz eylədi Kufəyə Müslüm ibn Əqilə kömək etməyə. O kişi dedi ki, Allah sənə əcr versin. Müslümün müsibətinə ki, Müslümi öldürdülər. Başın kəsib Dəməşqə yolladılar. Bədənin Kufə bazarının qənarələrinə vurdular. Muxtar bu sözü eşidən kimi atdan yerə düşdü və yaxasın açdı və ağladı o vəqtə kimi ki, qəşş eylədi. O kişi dedi ya seyyidi özünü

ələ al və özünü bu haramzadə Ubeydulladan qoru. Muxtar ətrafında olan adamları şəhərin kənarında qoydu və özü tək şəhərə daxil oldu. Gördü bazara ələm vurublar. İbn-Haris adlı bir şəxs ələmin yanında durub nida edir ki, hər kəs bu-ələmin altına girsə amandadır. Muxtar necə ki, bu sözü eşitdi xeyməyə tərəf üz qoydu ona xəbər verdilər bir şəxs gəlib. Ömər ibn Haris Muxtarı tanıyırdı. Onu qarşıladı. Muxtar dedi, ya Ömər bil ki, mən Müslümün ölməyindən narahatam. Səni ki, gördüm şad oldum. Ömər dedi yaxşı fikir eyləyib onun köməyinə gəlmədim. İndi heç kəsdə cürət yoxdur ki, sənlə ucadan danışa. Ömər Ubeydulla Ziyadın yanına gəlib xəbər verdi ki, sən Muxtarı düşmən bilirdin. Amma indi birinci şəxsdir ki, ələm altına pənahəndə olub. Ziyadın oğlu Muxtarı çağırtdırdı saraya. Muxtar saraya daxil oldu, salam verdi Ubeydulla salamın cavabın qaytarmadı. Muxtar çox narahat oldu. Ubeydulla dedi: Ey Muxtar, belə xəyal etmə ki, mən sənin hiyləndən bixəbərəm. Dünən Müslümə beyət edirdin, bu gün mənim Ələmimin altına girirsən. Ömər Ubeydullaha dedi: Muxtar sizi istəyəndir, onun barədə səf edirsən?

Ubeydulla bu sözdən razı qalıb Muxtara nəvaziş etdi.

Bu halda qasid gəlib Muxtarın Ubeydulla Ziyad qoşununun öldürməsi xəbərini verdi. Ubeydulla Muxtara üz çevirib dedi: Mənim havadarlarımı öldürüb, indi mənimlə dostluq iddiası edirsən? Muxtar dedi: Təqsir onlarda idi. Mənim dava etmək fikrim yox idi.

Ubeydulla dedi: Məlun əgər birinin günahı var idi, iyirmi nəfəri nə üçün öldürmüsən?

Muxtar qəzəblənib cavab verdi ki, məlun sənsən, xəbis haramzadə mənə töhmət vurursan.

Ubeydulla mizin üstündən mürəkkəb qabın götürüb atdı Muxtara. Muxtarın alnı yaralandı. Bu zaman Muxtar yanındakı şəxsin kəmərindən qılıncı çəkib ona hücum eylədi. O məlun qorxudan qaçıb və onu tutmağa əmr etdi. Amir ibn Təfil qulamlar ilə qalxıb Muxtarı tutdular. Bu vaxtlarda Zilhəccə ayının 8-də hicrətin 60-cı ilində imam Hüseyn (ə) Məkkədən xaric olmuşdu, Kufəyə tərəf gəlirdi.

İbn Ziyad məlun imamın gəlməsindən xəbərdar olub, Ömər ibn Sədi onun davasına yolladı. Muxtar bu qəziyyədən xəbərdar oldu. Çox qəmgin olub gah ağladı, gah imama dua eylədi.

Bilmədi ki, nə çarə eyləsin. Ömər Səd imam Hüseyn (ə)la dava edərək onu şəhid eylədilər. İmamın mübarək başını kəsib Kufəyə Ubeydullanın xidmətinə göndərdi. O xəbis dedi:

Muxtarı zindandan çıxarıb yanıma gətirin. Muxtarı gətirdilər, o məlun şəmadətlə Muxtara dedi: Bax məhəbbət bəslədiyin əbu Turab övladlarının başlarıdır. Ya Muxtar bax, qəmin çoxlasın, dərdin artsın. Muxtar dedi: Ey ləin haramzadə o ki, bunlara eyləmisən cəzasını görərsən. Ancaq onu da bil ki, mən sizlərdən imamın intiqamını almalıjam. Əgər bu işdə Allah mənə kömək olsa istəyimə yetəcəyəm. Sizin bu çirkin əməllərinizin müqabilində mən intiqam almasam rahat ola bilmərəm. Ubeydulla göstəriş verdi, onun zəncirlərin möhkəm etdilər, zindana saldılar. Yeddi il zindanda qalandan sonra müəllim Kəsr adlı bir şəxsin köməyi ilə zindandan çıxır.

# ƏBDULLA ƏFİF VƏ ƏBDUR-RƏHMAN SƏİDİN QİYAMI

Əbu Məxnəf Luti Əhməd ibn Müslüm Kufidən rəvayət edirlər ki, Ömər Səd və Şimr Zülcoşanan, Sinan ibn Ənəs və Xoli məlun Həzrət imam Hüseyn (ə)ın şəhadətindən sonra itrəti tahanı Kufəyə əsir gətirdilər. Ziyadın oğlu əmr eylədi carçı hər tərəfdə car çəkib və əhli Kufəni məscidə dəvət eylədi. Namaz vaxtı idi, namazın birini qılıb minbərə çıxdı nəhs üzün camaata tutdu və dedi: Ey Kufə əhli şükür ölsün Allah Zülcəlala ki, Yezidi əbu Turab oğluna müzəffər eylədi. Həqdən batili təmiz etdi. Bu sözlərdən çox deyəndən sonra minbərdən endiyi halda bir nəfər yerindən durub nərə çəkdi və hay-hayla ağladı. Eylə ki, bu ağlamağı eşitdilər hamı ağladı. Bu şəxs Əmir Əl Möminin (ə) əshabından idi. Çox əziz və zahid bir kişiydi. Təəssüflər olsun ki, gözləri kor idi. Əli (ə) onu çox dost tutardı. Adı Abdulla Əfif idi. Sonra uca səslə dedi: Ey Mərcanın oğlu İmam əsri Yezid məlunun fərmanı ilə öldürdün, Allahdan utanmadın, indi bu cür həyasızcasına danışırsan?

Abdulla çox dedi, Kufə əhli ağladı. Übeydulla ziyad vəhşətə düşdü, o saat ayağa qalxıb dedi: tutun bu qovmi onlar tüğyan eyləyib və bəni uməyyə və ali Yezidə düşməndirlər. Onlar Abdullahı tutmaq istədilər. Amma Abdulla hər yerə getsə idi özü ilə yeddi yüz öz tərəfdarlarından apardı. Hansı ki, hamısı döyüşkən, cəsur və mübariz silahlı adamlar idilər.

Abdulla bir nərə çəkdi və dedi: Agah olun və gözləyin məni tutmasınlar. Nagah məscid mühasirə olundu. Əl şəm-

şirin qəbzəsində müntəzir fərman durdular. İbni Ziyad səsləndi; vurun bu camaatı ki, Yezidə düşməndirlər. Hər iki tərəfin adamları qılınc çəkib oxları kamana qoydular. İstədilər ki, məsciddən xaric olsunlar daha yol yox idi. Bəs həmlə etdilər onları vurub öldürməyə. Çün o məlunun zülmü həddindən aşdı, özü silahlandı və qılınc çəkdi, yüz nəfər bəni üməyyə döyüşçüləri şəmşirini çəkib onun dalınca rəvana oldular. O qədər orada nahaq yerə xəlqi qırdılar ki, məscid qanla doldu, bu xəbər Kufə əhlinə çatdı, böyük bir dava oldu, heç kəs - heç kəsi tanımırdı.

Həmid ibn Müslüm deyir ki, mən o gün Abdullahın yanında idim. Übeydulla Ziyad deyirdi: Abdullahı tutun. Diqqət eylədim gördüm Abdulla bəni Əsəd qəbiləsinin içindəndir. Übeydulla Ziyadın gözü ona düşdü. Adamlardan yüz nəfər göndərib onu araya aldılar. Bəni Azad qəbiləsi çün belə gördü onlara həmlə etdilər. Übeydulla Ziyad beş yüz nəfər əlavə onlara kömək yolladı və dedi o koru araya alın. Bir cür edin ki, onu saraya ataraq. Abdulla bir saat onlarla döyüşdü, axır Abdullahı tutdular və saraya apardılar.

Həmid ibn Müslüm rəvayət edir ki, o gün məscidin qapısının qabağında dörd min nəfərdən Übeydulla qoşunundan adam ölmüşdü. Bəni Azad qəbiləsindən isə üç yüz nəfər şəhid olmuşdu.

Necə ki, Übeydulla saraya daxil oldu, Kufənin və bəni Üməyyənin böyüklərini çağıtdırdı və dedi: agah olun ki, dünən dörd min nəfər bizim dostlarımızdan ölüb, indi məsləhət nədir? Dedilər ey əmir bunlar həmin camaatdırlar ki, Süffeyn və Cəməl davalarında iştirak ediblər, çox təcrübə əldə ediblər.

Abdulla ki, bəni Azad qəbiləsinin böyüklərindəndir. Təkcə onun beş yüz təcrübəli, döyüşkən qulamları var. Əgər onun gözü kor olmasaydı ona qalib gəlmək olmazdı. Necə ki, Übeydulla Ziyad bu sözləri eşitdi, başın aşağı salıb, bir azdan sonra onların sözlərin təsdiq etdi və dedi, bu kişiyə təklifiniz nədir? Dedilər: onu zəncirləyib zindana saldırın. Əgər bəni Azadların dava fikri olsa onda Abdullahı öldürməkliklə onları qorxut. Bu sözləri Übeydulla eşidən kimi şad oldu və dedi o koru gətirin.

Abdullahı Übeydulla Ziyadın yanına gətirdilər. Abdullah dedi: Ey haramzada məni öldürmək ilə qorxudursan, mənim imamım öləndən sonra yaşamaq mənə haram olsun. Mənə iftixardır ki, Əli (ə) və övladının yolunda şəhid olam. Übeydulla bu xitabı eşidən kimi Şəmşir çəkib Abdullahın boynunu vursun, mümkün olmadı. Abdulla əlindəki Əsa ilə onun alnından möhkəm vurdu, qan saqqalına töküldü. Abdulla dedi: ey məlun it sən oladi rəsuli öldürməkdən utanmadın, həya etmədin, məni öldürməkdən nə qorxacaqsan? Kaş mənim gözlərim olaydı, ta sənə subut edəydim ki, mərd kimdir, namərd kimdir. İlahi özün bilirsən ki, korluq mənə maniədir. Orda olan böyüklər onun bu cəsarətinə və sözlərinə təəccüb etdilər. Sonra Abdullahı zindana yoladılar.

Səhərisi gün carçı car çəkdi Kufənin etibarlıların cəm eylədi və dedi: Hər kəs bəni Azad tayfasından görsüz öldürün. Bəni Azad qəbiləsi bunu eşidən kimi iyirmi min nəfərdən artıq adam silahlandılar və şəhərə dağıldılar. Böyük iğtişaş baş verdi. Bəni Azad tayfası belə qərara gəlidlər ki, Abdullahı zindandan xilas eyləsinlər. Həmin vəqt Əbdür-

rəhman bir namə atası Səid Məxnəfə yazıb onu vəziyyətdən xəbərdar eylədi. Atası razılıq verdi. Onlar saraya tərəf üz tutub gəldilər.

Çox qaranlıq hava idi, yağış şiddətlə yağırdı. Əbdürrəhman dedi ey əziz yoldaşlar kəməndləri açın. Kəməndləri divara atıb möhkəm edib. Əbdürrəhman yuxarı qalxdı, kömək edərək digər üç nəfəri də öz yanına çəkdi. Gözətçilər hamısı yatmışdılar. Sarayın içində bir eyvan gördülər ki, rəngbərəng pərdələr asılıb. Orada bir nəfər rhat yataqda yatıb yanında olan iki növbətçilər də yatıblar. Əbdürrəhman yavaş-yavaş gedib onların silahların götürdü. Tariqi Əmşə və yoldaşları gözləyirdilər ki, əgər onlar oyansalar dava düşəcək.

Əbdürrəhman orda gəzərkən gördü biri namaz qılır və Quran oxuyurdu. Əbdürrəhman şad oldu, qayıdıb istədi onun başından vursun, yenə ehtiyat eylədi ki, əgər bir belə iş görə mümkündü onun səsinə qaravullar ayıla, istəklərinə nail olmasınlar. Yaxınları əl atıb onun boğazın möhkəm tutdu və boğdu, cəhənnəmə vasil oldu. Əbdürrəhman gəldi Abdulla saxlanan otağa özün ona nişan verdi. Abdullah dedi: Əbdürrəhman Übeydulla çalış gəlişindən xəbərdar olmasın. O, öldürdüyün adam mənim qarovulumdu. Ali rəsulun böyük düşmənlərindən biri idi. Əbdürrəhman bu sözü eşidən kimi şad oldu. Abdullah dedi: Tez məni buradan apar. Əbdürrəhman yoldaşlarının köməkliyi ilə Abdullahı oradan çıxardıb evinə gətirdilər və öz qövmlərinə tapşırdılar. Qərara gəldilər ki, bir neçə gün gizlin yerdə olsun ta cəryanı anlasınlar. Özləri təcili qayıtdılar. Bu əsnada əmir Əşəs yüz əlli nəfərlə görsəndi. Onlardan üçnəfər qabağa

gəlib soruşdu kimsiz Əbdürrəhman, dedi mənəm.

Haris ibn Ömər və Mosuli dedilər ey əmir nə fərmanun var ta icra olunsun.

Bu əmir Əşəs bir bilikli şəxs idi, döyüş vəqti beş yüz nəfər dilavərin bərabəri idi. Əbdürrəhman otuz nəfər öz adamlarından ayırıb buğda satılan bazara göndərdi. Onlar gəlib öz adamlarına xəbər verdilər ki, əmr Əşəs adamları ilə vuruşmaq üçün şəmşir götürün. Əbdürrəhmanın adamları şəmşirləri işə salıb əmir Əsəsin adamların və özün cəhənnəmə vasil etdilər. Az vaxt içində düşmən tərəfdən çoxlu sayda adam qırdılar. Bu döyüşlər zamanı Azərbaycandan Səid və Məsud adlı iki şəxs üç min nəfər adamla köməyə gəlib, Əbdürrəhmanın qoşununa birləşdi. Səidin gəlişi Kufə Əhli tərəfindən yaxşı qarşılandı. Üç gün imam üçün taziyə saxladılar. Əbu Məxnəf bəzi rəvayətlərində buyurur ki, necə ki, Səid Azərbaycandan gəlib Kərbəlaya çatanda eşitdi ki, Kərbəla vaqiəsi tamamlanıb. Çox narahat oldu. Dedi mən imama kömək etmək üçün üç qardaşımla və üç min qoşun ilə gəlmişdim. Lakin mənə müyəssər olmadı, imam qarşısında vuruşan Səid istəyirdi ki, can və mal ilə özünü imama fəda eyləsin. Çox təəssüf edirdi ki, imam ondan qabaq şəhid olub.

## MUXTARIN ZİNDANDAN NİCAT TAPMASI

Əbu Məxnəf Luti rəvayət eyləyir ki, Ubeydulla Ziyad Əbdürrəhmanın döyüşünə getdi, onları şəhid etdilər. Məhəmməd ibn Süleyman və Vərqa ibn Garib öz qəbilələrinə gedib kömək tədarükü gördülər. Übeydulla döyüşdən qayı-

dıb Kufəyə gəldi, göstəriş verdi ki, hər kəs Əli (ə) və Əbü Turab adın dilə gətirdi, dilin boğazından çıxardın. Hər kəs fəziləti Əmir Əlmöminin (ə) adın ağzına gətirə başın bədənindən ayırın. Hər kəs onlara havadar ola belə ki, o məhəllənini evləri qarət olacaqdır. Sahibi kitab yazır ki, nə qədər Əli (ə) şiyəsi Kufədə var idi, bir-bir köçüb getdilər. Başqa şəhərlərdə gizləndilər.

Bir nəfər Kufədə var idi bəni Neman qəbiləsindən namaz qılardı. Əmir Əl Möminin (ə) istəyənlərindən idi. O şəxs Əliyə (ə) çox xidmətlər etmişdi, onun məclislərində iştirak etmişdi.

Bəni Uməyyə uşaqlarına dərs deyərdi müəllim idi. Kufənin bütün əhalisi onu tanıyırdı və ona çox ehtiram edərdilər.

Bir gün hava çox isti idi. Günorta namazı vaxtı evinin qapısı ağzında əyləşmişdi.

Gördü bir uşaq su aparır, o uşağa dedi: Ay bala hava çox istidir, bir az sudan ver içim. O uşaq suyu yerə tökdü müəllimə vermədi. Buna görə müəllim Yezidə lənət oxudu. Bu sözü həmin uşaq - Sinan ibn Ənəsin oğlu eşitdi. Həmin uşağın müəllimdə acığı var idi. Öz-özünə dedi: Əgr səni bəlaya salmasam Sinan ibn Ənəsin oğlu deyiləm. O Zinazadə o saat gedib bir xərabəyə girib başını-gözünü qana buladı. Gəldi atasının yanına. Atası oğlunda bu əhvalı görən kimi soruşdu: bala, sənə nə olub?

O it balası dedi: Müəllim su istədi, vermədim, Yezidə lənət oxudu. Dedim, niyə Yezidə lənət oxuyursan? Məni bu hala saldı.

Bəs atası yapışdı oğlunun əlindən gəldi Übeydulla Ziyadın yanına bir az da yalan qoydu üstünə, Übeydulla Ziyada dedi:

Übeydulla Ənəsin sözlərin eşidən kimi fərraş göndərdi müəllimi yanına gətizdirdi. Həmin anda ki, müəllim orda hazır oldu. Übuydulla üzün tutdu müəllimə dedi: haramzadə o yaxşılıqların əvəzində belə edirsən? Müəllim dedi: Mən belə sözləri deməmişəm, mənim bu sözlərdən xəbərim yoxdur. Bu oğlan yalan deyir. Übeydulla dedi: oğlan düz deyir sən yalan deyirsən. Hökm eylədi müəllimi saldılar ziddinə. Həmin zindana ki, Muxtar da orada saxlanılırdı. Müəllimin zindanda ayaqlarına kündə, boynuna qoluna zəncir vurdular. Zindan bir qaranlıq yer idi. Qaranlıq təsirindən müəllim Muxtarı görmədi. Amma Muxtar müəllimin bədənində olan zəncirin səsini eşitmişdi. Sürünə-sürünə o səmtə gəldi, zindanın bir küncündə onu gördü. Müəllimin gözü həmin şəxsə düşdü ki, ayaqlarında kündə, boynunda  zəncir. Müəllim deyir: mən ona salam eylədim. Salamdan sonra mənə dedi: Ey biçarə nə günah etmisən ki, səni də bura gətiriblər?

Müəllim deyir: Mən dedim and olsun Allaha təfsilat bu cür olub məni nahaqdan bura saldılar. Müəllim deyir: o şəxs bu sözü məndən eşitdi, ağladı. Dedim, ağa siz nə təqsirin sahibisiz. Buyurdu: Əhli beyt(ə)ın məhəbbəti məni bura gətirib. Gündə işgəncə və əzab edirlər. Müəllim deyir, gördüm o biçarə zəncirin ağırlıqlarından boynunu yuxarı götürə bilmirdi. Onun əhvalına qəlbim od tutub yandı. Çox ağladım. Adın xəbər aldım. Dedi: Mənim adım Muxtardır, Səqəfi qəbiləsindənəm. Necə ki, Muxtar adını eşti-

dim onu qucaqlayıb üzündən, gözündən öpdüm. Muxtar mənə dedi: Sən qəm eyləmə, tezliklə səni azad edərlər. Ona görə ki, sən onların uşaqlarına dərs deyirsən. Uşaqların ataları sənin xahişini edərlər və sən xilas olarsan. Amma mən qalmalıyam, mənim bir kəsim yoxdur. Əfsus arzum ürəyimdə qaldı ki, İmam Hüseyn (ə) qanı yerdə qalacaqdır.

**Gərçi Yusif var mən zindaniyəm.**
**Misru nil mən əziz saniyəm**
**Qatili əda oladi rəsul**
**Dərmənai eşq mən qurbaniyəm.**

Müəllim dedi: Əmir heç qəm eyləmə, mətləb ki, varundu yetirsən dedi.

Bunlar burada söhbətə məşğul oldular, o tərəfdən eşit Kəsir müəllimin qızından ki, adi Bəşarət idi. Übeydulla Ziyadın övrətinin dayəsi idi. Necə ki, Bəşarət eşitdi atasını Übeydulla zindana saldırıb, sinəsini açıb nalə çəkə-çəkə gəldi Übeydullanın arvadının yanına. Hərəmxanaya daxil olub başın açdı zar-zar ağladı. Bəşarət onun övrətinin oğluna süd vermişdi. O cəhətə görə arvad onun xətrin çox istəyirdi. Ona nəvaziş eylədi, dedi: Bəşarət sənə nə olub, bu cür şivən edirsən? Dedi: bundan artıq daha nə olsun ki, mən xəyal edərdim ki, özgələr yüz günah etsə, mən xahiş eyləsəm sözüm yerə düşməz. İndi mənim bir qoca atam var ki, daridünyada göz ona tikmişəm və tənha ümidim o idi. Günahsız, təqsirsiz onu uşağın sözüylə zindana salıblar.

O qadın dedi: qüssə eyləmə mən sənin atuvu bir saat zindanda qoymaram qalsun.

Bəşarət şad oldu, bir saatdan sonra ibn Ziyad evə gəldi.

Übeydullahın arvadı dedi: ya əmir, o müəllim ki, zindana salmısan, sabah o uşaqların ataları yığışar sənə töhmət vurarlar. Yaxşı budur ki, onu mənə bağışla, azad eylə.

O məlun minnət qoydu dedi: Əgər yüz qan tökmüş olsa, sənə bağışladım. Bir nəfər xidmətçilərdən çağırıb dedi: Get o müəllim ki, zindandadır. Kündə və zəncirlərini götür, xilas elə gətir mənim yanıma. Xidmətçi müəllimi zindandan çıxartdı. Müəllim Muxtardan ayrılarkən Muxtar ağladı. Müəllim dedi: Ya Muxtar nə xahişin varsa de, imkan olsa canidil ilə ona əməl edim.

Muxtar buyurdu: Ya Kəsir, hacətim var əgər rəva eyləsən çox yaxşı olar. Kəsir dedi: Ya Muxtar bu qədər xahişə ehtiyac yoxdur. Hər mətləbin olsa göz üstə əməl edərəm. Muxtar dedi: bir parça kağız və qələmə ehtiyacım var. Baş üstə. Müəllim Kəsiri apardılar ibn Ziyadın yanına. O məlun dedi: ey şeyx səni öz kərəmimizlə azad etdim. Bir daha bundan sonra belə söz danışma ha. Yoxsa qəzəbimizə düçar olarsan. Müəllim ədəb qaydası ilə Əmirə münasibətin bildirdi, dua səna eylədi. Qəlbində lənət oxuyurdu. Çıxıb evinə gəldi. Dedi, hərgah Muxtarın hacətini rəva etsəm, axirət savabına nail olaram. Müəllim səhəri gün əlli dirhəm pul götürüb bir qoyun kəsdirib kabab etdi, bir neçə ədəd çörək götürdü, gəldi zindanın qapısına. Zindan sahibi orada yox idi, verdi zindan sahibinin arvadına. Arvad soruşdu bu nə üçündür? Sən kimsən? Müəllim dedi: Mən Kəsir müəlliməm. Bu təamları zindanda olanlara nəzr etmişəm. Sonra əlli dirhəm pulu verdi o qadına dedi, bu təamdan bir qədər Muxtara da verərsüz. Kəsir qayıdıb gəldi evi-

nə. O qadın xonçanı götürüb gətirdi evinə. Qadının əri gəlib evə çatanda qadın xonçanı ərinin qarşısında yerə qoydu, dedi: Bunu Kəsir müəllim gətirib. Zindan sahibi bildi ki, müəllimin nə isə bir istəyi var. Görək ta axırı necə olar. Zindan sahibi özü də Əhli beyti (ə) dost tutan idi.

Səhəri oldu müəllim əvvəlki gündəki kimi bir xonça töhfə götürüb zindana gəldi. Zindansahibi özü-özünə dedi: Vallahi hamısı Muxtarın kələyidi. Üçüncü gün əvvəlki qayda ilə zindana müəllim gəldi. Gətirdiyi təamı qoyub getmək istəyəndə zindan sahibi onu səslədi, ey müəllim üç gündür ki, sən bu cür gedib-gəlirsən, məqsədin nədir? Müəllim mən sənin məqsədini bilirəm, lakin mənə bildirmirsən ki, onu mən yayaram.

Amma agah ol, and olsun pərvərdigara, mən də əhli beyt (ə) dostlarındanam. Qorxma, Kəsir gördü ki, and içdi, xatircəm oldu. Qəlbindəki sirri aşikar etdi. Zindan sahibi dedi: eybi yoxdur, bu asan işdi. Əvvəlki qayda ilə hazırlıq gör. Üç ədəd böyük çörək bişir, hər birinin içinə kağızı və qələmi qoy. Gətir ver mənə, sonrası ilə işin olmasın, o mənim öhdəmdə olar. Müəllim bu sözləri eşitdi şad oldu. Evə gəlib tədarükə məşğul oldu. Amma o tərəfdən xəbər verim ki, zindan sahibinin bir oğuluğu var idi ki, məhz Allah rizası onu məsciddən götürüb böyütmüşdü. Həmin o oğlan uşağı bu danışıqların hamısın özün yuxuya vermiş halətdə eşitdi. Hər nə ki, onlardan eşitmişdi, səhər tezdən yerindən durub gəldi, Übeydulla Ziyada xəbər verdi.

Übeydulla ibn Ziyad o uşağın əlindən tutub gətirdi Zindanbaşının yanına. Gəlib soruşdu hanı Zindanban? Zindan-

ban gəlib onun xidmətində dayandı və dedi: Əmir məndən nə iş həyata keçib. İbn Ziyad dedi: İstəyirsən Muxtarı zindandan nicat verəsən? Sənin müəllimlə danışığından xəbərdaram. Zindanban dedi: Mən xətamı etmişəm? Übeydulla ibn Ziyad həmin uşağı göstərdi: bax, bu sənin oğlun mənə xəbər gətirdi. Zindanban dedi: Hamı bilir ki, bu mənim oğlum deyil. Mən onu məsciddən götürmüşəm. Allah rizasına saxlayıram. Bu əsnada müəllim qulamın başında bir təbəq həmin yerə daxil oldu. Zindanban kəlmeyi-şəhadətin dedi: İlahi özün bu sirri gizli saxla. Bu zülmkarın əlinə fürsət vermə.

Allah təbarək və təala onlara kömək oldu. Ubeydulla göstəriş verdi, çörəkləri oyan, bu yan elədilər, tikələdilər. Qələm və kağızı tapmadılar. Zindanban bir az sakitləşdi, rahat nəfəs aldı. Zindanban belə dedi: Əmir indi bildiz ki,mən xəta etməmişəm.

Bəs qulaq asın bu oğlanın xətakarlığın sizə söyləyim. Bu oğlan mənim övrətimə dilizarlıq etmişdi. Çox tənbeh etdim, odur ki, bu yalanı mənim adıma deyir. Übeydulla bu sözü eşidən kimi cəllad istədi. Cəllad hazır olan kimi dedi: vur bu oğlanın başını. Cəllad qılıncı vuranda Ubeydulla baxdı zindanbana görüm nə halətə düşəcək, gördü uşağın ölməyinə görə o özün çaşdırmadı. Bu işdən Ubeydulla xatircəm oldu, adamlarını götürüb ordan çıxdılar. Həmin anda müəllim və zindanban çox şad oldular. Allahın şükrünü yerinə yetirdilər. Çörəkləri gətirib Muxtara verdilər. Muxtar çörəyin içərisinə qoqyulmuş kağız və qələmi götürüb, bir namə bacısının əri Abdullah ibni Ömərə yazdı. Namə-

də başına gələnləri şərh eylədi. Axırda yazdı ki, səndən bir xahişim var ki, bir namə yazasan Yezid (l.ə)-ə, ondan xahiş edəsən ta ki, məni zindandan xilas eyləsin. Muxtar naməni möhürləyib verdi Kəsirə dedi: Gərək bu naməni yetirəsən Mədinədə Abdullah ibni Ömərə.

Müəllim bu tapşırığa əməl etməyi özünə lazım bildi. Məktubu çəkmələrinin birinin içərisində gizlətdi. Gəldi Übeydulla ibn Ziydın yanına, ondan icazə aldı Məkkəyə ziyarətə getmək üçün. Məkkə ziyarəti adı ilə öz səyi nəticəsində  az vaxt müddətində gəldi Mədinəyə. Abdullah ibn Ömərin evinə gəldi. Abdullah ibn Ömər onu qəbul etdi. Müəllim çəkməsini çıxardıb gizlətdiyi məktubu götürüb verdi Abdullaha. Məktubun Muxtar tərəfindən yazıldığını görüb tez öz həyat yoldaşına *(Muxtarın bacısı idi)* qardaşının sağ olmağı haqda müjdə xəbəri verdi. Bacı qardaş xəbərini eşidən kimi özündən getdi. Huşa gələndən sonra ərindən təkidlə xahiş elədi ki, qardaşımın zindandan çıxmasına köməyini əsirgəmə.

Abdulla ibni Ömər bir məktub yazdı Yezidə (l.ə.) ki, mənim məktubum sənə çatan kimi Muxtarı zindandan çıxarılması barədə Kufənin hakimi Übeydulla ibn Ziyada göstəriş verməkçün əgər əməl etməsən sənin vilayətinin torpağını torba ilə daşıtdıraram. Naməni möhürləyib verdi müəllim Kəsirə və bir dəst libas rum parçasından ona xələt, bir qədər yol xərci, bir at müəllimə verib səfərini uğurlu olmağı arzuladı.

Müəllim Kəsir gecə-gündüz yol gedib gəlib çatdı Dəməşqə.

Bir karvansarada mənzil eylədi. Həmin karvansara məscidlə üz-bəüz idi. Məscidin yanında bir baqqal dükanı var idi. Ancaq kəsir fikir xəyal içində o ətrafı seyr edir ki, nə cür Yezid sarayına yol tapım və məktubu ona verim. Bir neçə gün orda olduğu saatlarda məsciddə namaz qılardı, hamı çıxıb gedəndən sonra tək qalıb Allahdan bu işə kömək istəyirdi. Məsciddən çıxıb getmək istəyirdi baqqal onu səslədi. Ya şeyx elə bil ki, bir hacətun var? Müəllim dönüb geri baxdı. Elə zənn eylədi ki, baqqal bir şey anlayıb. Fikrə getdi. Baqqal onu səslədi, ya şeyx fikir etmə, and olsun Allaha və şahi Mərdanın haqqına hansı ki, dost və düşmən onu ağa bilirlər. Mən də o ağaların nökəriyəm. De görüm sirrin nədir? Yaman çox fikirli adama oxşayırsan? Müəllim bu səmimiyyəti baqqaldan görəndə dedi: Mən bir namə gətirmişəm. Yezidə (l.ə) Muxtarın xilas olmağından ötəri. Neçə gündür ki, çalışıram Yezid (l.ə) sarayına yol tapa bilmirəm.

Baqqal dedi: get gecəni istirahət elə, səhər gələrsən mən sənə yol göstərərəm.

Müəllim sabahkı bələdçinin kim olmağını bilmirdi. Onu bu fikir səhərə kimi yatmağa qoymadı. Səhər yerindən durub, namazın qılıb gəldi baqqalın yanına. Salam verib, onun göstərdiyi yerdə əyləşdi. Baqqal Kəsirə dedi ki, ayıq ol, dediklərimi eşit. Baqqal bir dəst libas ona verdi, dedi: bu libasdan ancaq xəlifənin məmurları geyirlər. Bunu gey əyninə get, darulimarəyə daxil ol, heç kəsə etina etmə, hər kəs salam versə cavabın qaytar. Onlar belə xəyal edirlər ki, sən də onlarla bir yerdə işləyənsən. Gedərsən daxil

olarsan birinci qapıdan içəri, orada bir neçə qarovul adamları dayanıblar. Ordan keçərsən ikinci otağa, orda hicablı bir neçə nəfəri görərsən, ordan keçərsən üçüncü otağa ordada cərgə-cərgə adamlar durublar. Dördüncü otaqda görəcəksən ki, tamam işçilər cəvahirat içərisində bəzənib əl-əl üstə qoyub dayanıblar. Ordan keçərsən beşinci otağa, orda bir dəstə qara libas geyənləri görərsən. Ordan keçərsən altıncı otağa, görərsən ki, bir dəstə adam düzülüb xidmətçilərin əynində ipək libaslar, qızılı kəmərlər, oradan keçərsən, heç danışma yetişərsən bir yerə ki, otağa ipək parça döşənib, məbada oradan keçəsən ki, şübhələnməsinlər, durarsan onun ətrafında görərsən ki, bir nəfər təxt üstə əyləşib, əynində qırmızı ipəkdən libas, kəməri qızıldan. Bir əmmamə İraq xəzindən başına qoyub. Bil və agah ol, onu tanı ki, o həmin vələdüzinadır. Yəni Yezid (L.ə)dir. Onun qapısında bir nəfər türk millətindən olan qulam dayanıb. Əynində qara parçadan libas var, qara əmmamə başında. Bil ki, o, qulam etibarlı adamdır. Əhli-beytin dostlarındandır. O gündən ki, cənabi İmam Hüseyn (ə)ı şəhid ediblər, o qulam qara geyir, daim ağlayır. Ona görə ki, bu qulam ağasına çox vəfalı olub. Onun ağası İmam Hüseyn (ə)ın oğlu Əli Əkbər (ə) idi.

Yezid bu qulamda vəfadarlığına görə onu gətirib öz yanında işlədir. Əvvəl o qulam Yezidin (L.ə) təklifin qəbul etməyib.

Yezid (L.ə) söz verib ki, sən mənə qulam olsan sənin hər gün üç istəyinə əməl edəcəyəm. Ona görə də o qulam razılıq verib. Onun xətrin Yezid (L.ə.) çox istəyir. Hətta o qulamın xahişinə əsasən Yezid (L.ə) bütün başı kəsilmiş

şəhidlərin başlarını Şamdan göndərdi Kərbəlaya. Orada dəfn eylədilər. O qulam gecələr namaz qılır, gündüzlər oruc tutur Yezidin (L.ə) çörəyin yemir. Öz maaşı ilə keçinər.

Ya şeyx o qulamdan əl çəkmə, eləki o qulam üzünə baxdı, salam eylə və naməni ona göstər. O gələr sənin yanına naməni verərsən. Ancaq o haramzadədən özünü qoru, çünki o atası Maviyədən də pisdir.

Müəllim bu sözləri eşitdi dedi: Allah bu işdə sənə xeyr bəxş eyləsin. Baqqal sənin üçün olmasaydı mən qiyamətə kimi ora yol tpa bilməzdim. Səhər oldu müəllim yerindən durub libasların dəyişdi, naməni götürüb Bismillahir-rəhmanir rəhim deyib Allaha təvəkkül edib, kəlmeyi şəhadətin deyib gəldi Yezidin darül imarəsinə. Heç kəsə etina etmədi. Keçib gəldi həmin yerdəki, baqqal demişdi dayandı. O qulamı gördü, tanıdı salam eylədi, naməni ona nişan verdi. Qulam salamın cavabın qaytardı, naməni alıb baxdı. Həmən saat Yezid (l.ə.) hamamdan gəlirdi. Barigaha daxil olanda cah-calal ilə gəlirdi. Başdan-ayağa qırmızı paltarın üstündə cürbə-cür bər-bəzəklər ətrafa şölə saçırdı. Baxanın gözləri qamaşırdı. Həmin vəfalı qulm Sudeyf Yezid öz otağına daxil olandan sonra girdi onun qəbuluna Sudeyf Yezidə dedi: birinci dəfədir ki, *(səndən xahiş edirəm, çünki sən özün mənimlə şərtləşmisən ki, gündə üç hacətüvü yerinə yetirəcəm)* xahiş edirəm. Yezid naməni aldı baxdı, bədəninə lərzə düşdü. Müəllim deyir o çox böyük bədənli idi, qara sifəti var idi. Müəllim deyir məndən xəbər aldı ki, bu naməni sən gətiribsən? dedim bəli! Dedi səndən bir söz xəbər alıram, düzün de. Dedim baş üstə. Dedi Hüseyn ibn Əli-

ni nə cür tanıyırsan? Onu öldürməkdən sənin qəlbüvə nə təsiri oldu?

Dedim ya əmir, hansı Hüseyni deyirsən?

Dedi Fatimə balası. Dedim hansı Fatimə balası, dedim hansı fatimə? Dedi Məhəmməd Mustafa peyğəmbər (ə) qızı. Dedim əmir məni islama dəvət edirsən? Mən nə bilirəm bunlar kimdir? Mən bir ərəbəm bədəvi ki, Ömər ibn Xəttabın oğlu məni muzdla bura göndərib xidmətüzə.

Yezid bu sözüeşidib güldü. Amma bu sözdən qulamın xoşu gəldi. Sudeyf Yezidə dedi: Əmir bizim nəyimizə lazımdır bu ərəb şiyədir ya yox. Naməsinə cavab verin getsin. Yezid bu naməni əmisi oğlu Übeydullah ibn Ziyada yazdı ki, bu namə sənə çatan kimi Muxtarı zindandan xilas eylə. Möhürün vurdu verdi qulama.

Qulam da naməni götürüb verdi müəllim kəsirə. Çox şad oldu. Qulam müəllimi ağuşa çəkib üzündən, gözündən öpdü dedi: Allah sənə kömək olsun, tez get Kufəyə. Bu məlun fikrin dəyişə bilər. Sən Muxtarı azad etməkdə böyük xidmət göstərdin. Mənim salamımı Muxtara yetirərsən. Ona deginən qorxmasın, Allah sənə bu işdə kömək edəcək. Bəs müəllim qulamla xudahafizləşib Dəvəyə süvar oldu. Kufəyə tərəf yol aldı. Bir neçə günə gəlib Kufəyə çatdı. Gəldi ibn Ziyadın yanına. Ədəbi rəsmlə ehtiram göstərəndən sonra naməni ona verdi. Hər vəqt Yeziddən namə gəlsəydi Ubeydulla ayağa durub iki əli ilə alardı, öpüb qoyardı gözünə, sonra açardı baxardı. Dedi: ya şeyx: mənim və Ömər Sədin, Şümürün və başqalarının qətlinə fərman gətiribsən. Səndə imam Hüseyn (ə)ın qanını, intiqamını almaqda sən də şərik oldun?

Müəllim dedi: Əmir uzun sözün qısası, Muxtarı ver, aparım. Abdullah ibni Ömərin və Muxtarın bacısının yanına. Çünki onun bacısı neçə ildir ki, qardaş fərağındadır.

İbn Ziyad xidmətçilərindən birini çağırıb Muxtarın xilas olmağına və onun yanına gətirilməsinə sərəncam verdi. Muxtara xəbər çatdı ki, Yezidin göstərişi ilə səni zindandan xilas edirlər, o sevindi. Allaha şükür etdi.

Übeydulla ibni Ziyad Muxtarın çiyninə xələt saldı, əlvan libaslar geyindirdi. Ona kömək etməyi vəd verdi. Muxtar bu hiyləgərin əməlinə bələd idi. O dur ki, Mədinəyə getmək üçün ondan icazə aldı. Übeydullah razılıq verdi və Muxtar ilə təam yedi. Onunla xudaafizləşib darülimarəni tərk etdi.

Muxtar müəllimə  minnətdarlıq elədi. Onun işin yüksək qiymətləndirdi. Sonra Muxtar dedi, ya Kəsir, əhdim əhddir, sözüm-sözdür. Baş balışa qoymaram ta gərək imam Hüseyn (ə) qanının intiqamını alam. Muxtar Kəsir ilə xudafizləşdi. Kufəni tərk eylədi Mədinəyə gəldi. Ömərin oğlu Abdullahın evinin qapısını döydü. Soruşdular kimsən? Dedi mənəm, Muxtaram. Qapını açdılar. Muxtarla görüşdülər. Bacısı sevincdən tab gətirməyib ürəyi partladı. Qardaş qucağında dünyasını dəyişdi.

Muxtar bacısının əza məclisindən sonra Məkkəyə gəldi. Zəmanə imamının naibindən qiyam üçün icazənamə almağa.

Nysret

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Tanrı və iman haqqında sorğular. Tehran 1992-ci il.
2. Porseşhai piramuni nübüvvət. Qum 1355-ci il.
3. Hüseyni. Cənnət və nemətləri. Qum 1991.
4. Məkarim Şirazi. İlahi Ədalət 1991
5. Məhəmməd Cavad Bahunər Seyid Rza Bərqi. Din üsulları və hökmləri. Qum 1990.
6. Cəfər Sübhani İlahiyyat elmləri və İslam maarifi. Qum 1992.
7. Ayətulla Əbdülhüseyn Dəstğeyib. Qəlb Quran 1375 Tehran.
8. Misbah Yəzdi. İdeoloji və etik məsələlərə aid bəhslər.
9. Hacı Şeyx Mühəmməd Tağı Şüştəri. Davarei Əli (ə). 1988 - Tehran
10. Nurul Quran fi təfsiri Quran. Ayətulla seyid Kamal Fəqih. 2002-ci il. İsfahan.
11. Əhmədağa Əhmədov İslam təlimi.
12. Əbül Fərəc - Maraqlı əhvalatlar.
13. H.Məmmədbəyli. Məhəmməd Nəsrəddin Tusi 1982- Bakı.
14. Lütfullah Əhməd. Həzrəti Muhəmməd (ə) həyatı 1366-cı il.
15. Ələddin Əsgərov. Nələr olmur bu dünyada. 1990
16. Ziya Bünyadov və Vasim Məmmədəliyev. Qurani Kərim. Bakı 1992.
17. Harun Yəhya. Quran Möcüzələri. 2002
18. Şeyx Məhəmməd ibni Həsən Amili Hədisi əudsi.

# MÜNDƏRİCAT

ÖN SÖZ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5
ALLAHA İNANMAQ FİTRİDİRMİ, YOXSA BAŞQA ƏMƏLDƏN ASILIDIR .8
QURANDA ALLAHIN VARLIĞINI SÜBUT EDƏN BİR NEÇƏ AYƏ. . . . . . . .9
İBRAHİM (Ə) VƏ SONRADAN ALLAHPƏRƏST OLAN KAFİR. QONAQ. .10
TANRIYA YAXINLAŞMAQ YOLU HANSDIR? . . . . . . . . . . . . . . . . . . . . . . .12
İNAM DƏRSLƏRİ NECƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .13
İNAMIN RÜKÜNLƏRI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .14
İNSAN NƏ CÜR HƏQİQİ MÖMÜN VƏKAMİL İNSAN OLA BİLƏR? . . . . . .15
HƏQİQİ İNAMIN ƏLAMƏTİ İNSANDA NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . .17
İNAM GÜCÜNÜ NECƏ GÜCLƏNDİRƏ BİLƏRİK? . . . . . . . . . . . . . . . . . . .18
İNAM VƏ İRADƏNİN MÖHKƏMLƏNMƏSİ UĞRUNDA NƏ ETMƏLİYİK .20
YƏDULLAH NƏ DEMƏKDİR? MƏGƏR TANRININ ƏLİ DƏ VARDIR? . . . .23
“YƏDULLAHİ FÖQƏ EYDİYİM” ŞƏRİFƏ AYƏSİNİN MƏNASI NƏDİR? .24
İLKİN İNSANLAR BÜTPƏRƏST İDİLƏR, YOXSA TANRIPƏRƏST? . . . . . .25
ƏSHABI FİL NECƏ HƏLAK OLDU. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .26
NƏ ÜÇÜN İNSANLAR DİNƏ EHTİYACLIDARLAR . . . . . . . . . . . . . . . . . . .27
DİN NƏ ÜÇÜN LAZIMDIR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .27
DİN VƏ QANUN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .28
BƏNDƏLİYİN HƏQİQƏTİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .29
İNAM QANUNUN QƏTİ İCRASINA ZƏMANƏT VERİR . . . . . . . . . . . . . . . .32
İSLAM BİR HƏYAT NİZAMIDIR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .33
KÜFRÜN MƏNASI NƏDİR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .34
“BİSMİLLAH” SURƏNİN BİR HİSSƏSİDİRMİ. . . . . . . . . . . . . . . . . . . . . .35
İSLAMİ İQTİSADİ GÖRÜŞ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .36
İSLAM NİZAMDA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .38
BİR MÜSƏLMAN DİNİN DÜŞMƏNLƏRİNİ NƏ ÜÇÜN SEVMƏMƏLİDİR . .39
ƏSBAT KİMLƏRDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .40

QİBLƏNİN FƏLSƏFƏSİ ....................................41
MÜSƏLMANLIQLA XRİSTİANLIQ ƏSAS, ETİBARI İLƏ EYNİDİRMİ? ...43
MİSSİONERLİK NƏDİR ....................................44
HİKMƏT NƏDİR VƏ ONUN TƏSİRİ NƏDƏN İBARƏTDİR. ............44
DÜNYƏVİ SÜLH YALNIZ İMAN SAHƏSİNDƏ OLA BİLƏR. ............45
İNSAN NƏ ÜÇÜN PEYĞƏMBƏRLƏRİN GƏLMƏSİNƏ EHTİYACIDIR. ...47
ƏN YAXŞI QANUNVERİCİ KİMDİR? ............................48
QANUN VERİCİNİN ŞƏRTLƏRİ ...............................49
BİR ZAMANDA İKİ VƏ YA ÇOX PEYĞƏMBƏR ALLAH, TƏRƏFİNDƏN MƏBUS OLA BİLƏRMİ? ..............................52
BİZ PEYĞƏMBƏRDƏN EHTİYACSIZ OLA BİLƏRİKMİ? ...............53
NİYƏ MÜTƏAL ALLAH ÇOXLU PEYĞƏMBƏR GÖNDƏRMİŞDİ VƏ NİYƏ BUNLARIN HƏR BİRİNİ ÖZLƏRİNƏ MƏXSUS PROQRAM İLƏ İNSANLARA RƏHBƏRLİK EDİRLƏR. ...........................55
PEYĞƏMBƏRLƏR HAMISI BİR SÖZÜ DEYİRDİLƏR? BİR SÖZ İDİSƏ NİYƏ MƏSİHLƏRLƏ MÜSƏLMANLAR ONUN ÜSULLARINDA MÜXTƏLİFDİRLƏR. ...............................56
İLAHİ PEYĞƏMBƏRLƏR BİR-BİRİLƏ FƏRQLƏNİR VƏ BU PEYĞƏMBƏRİN BİRİSİNİ DİGƏRİNDƏN ÜSTÜN ETDİK AYƏSİ. .......57
NİYƏ PEYĞƏMBƏRLƏRİN HAMISI BİR ÖLKƏ VƏ YA BİR MƏMLƏKƏTDƏ ƏRSƏYƏ GƏLMƏYİBLƏR. .........................58
NİYƏ PEYĞƏMBƏRLƏR İNSANLAR ARASINDAN SEÇİLİRDİLƏR. .....59
NİYƏ CAMAAT PEYĞƏMBƏRİ İNCİDİB, ONLAR İLƏ MÜBAHİSƏ APARIBLAR. ...................................59
BƏZİ MÜBALİĞLƏRİN DEDİYİNƏ ƏSASƏN PEYĞƏMBƏRLƏRİN ALLAH TƏRƏFİNDƏN OLMAQLARINI NƏZƏRƏ ALARAQ ............................60
ALLAH TƏRƏFİNDƏN 124 MİN PEYĞƏMBƏR GÖNDƏRİLİBSƏ, NİYƏ ONLARIN ADLARI ƏLDƏ DEYİLDİR? ........................63
BİR GÜRUH PEYĞƏMBƏRİN ADLARI ...........................63
PEYĞƏMBƏRLƏRİN BAŞQA İNSANLARDAN FƏRQİ NƏDİR? .........64
PEYĞƏMBƏR İLƏ BİR ULU ALİM ............................65
PEYĞƏMBƏR YALNIZ ÖZ BACARIQLARI ÜZRƏ, ALLAH TƏRƏFİNDƏN SEÇİLİBLƏR. ...............................66

NİYƏ PEYBƏRLƏR VƏ İMANLAR MƏSUM OLMALIDIRLAR. . . . . . . . . .67

PEYĞƏMBƏR VƏ İMAMLARIN İNSAN OLDUQLARINI NƏZƏRƏ ALARAQ GÜNAH ETMƏKLƏRİNİ NECƏ TƏBİR ETMƏK OLAR. . . . . . . .68

BİR İŞİN ZƏRƏRLƏRİNİ BİLMƏK, HƏMİN İŞDƏN ÇƏKİNMƏK AMİLİDİRSƏ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .68

BÜTÜN İLAHİ PEYĞƏMBƏRLƏR MƏSUMDURLARSA, . . . . . . . . . . . . . . . .69

İMANLAR VƏ PEYĞƏMBƏRLƏR BÜTÜN SAHƏLƏRDƏ GÜNAH ETMƏMƏLİDİRLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .69

PEYĞƏMBƏRLƏR, İMAMLAR BU VƏZİFƏYƏ ÇATMADAN ÖNCƏ MƏSUM İDİLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .71

PEYĞƏMBƏRLƏR VƏ İMAMLAR GÜNAH ETMƏKDƏ VƏ MƏSUM OLMAQDA İXTİYARSIZ İDİLƏRMİ? . . . . . . . . . . . . . . . . . . . . .71

İSMƏT MƏQAMI PEYĞƏMBƏRLƏR VƏ İMAMLAR ÜÇÜN ƏLƏ KEÇİRMƏLİDİR YOXSA HƏDİYYƏ KİMİDİR. . . . . . . . . . . . .72

İSMƏT MƏQAMI, PEYĞƏMBƏRLƏR VƏ İMAMLARDA . . . . . . . . . . . . . . . .73

PEYĞƏMBƏR VƏ İMAMLAR MƏSUMDURLARSA, . . . . . . . . . . . . . . . . . . . .74

RƏSULU ƏKRƏM (S.Ə.V.V)İN MƏSUM OLDUĞUNA BAXMAYARAQ BU AYƏ NECƏ ALLAHIM. . . . . . . . . . . . . . . . . . . . . . . . . .77

“ZƏNB” NƏ DEMƏKDİR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .79

BİR ADAM YALNIZ NEÇƏ İL DÜZ DANIŞA . . . . . . . . . . . . . . . . . . . . . . . .82

MÖCÜZƏ İLƏ SEHRİN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .83

BU SÖZ DOĞRUDURMU? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .85

MÖCÜZƏNİN ANLAMI AĞLASIĞMAZ BİR İŞİN GÖRMƏYİ DEMƏKDİR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .86

BÜT DÜZƏLDƏN AZƏR KİM İDİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .87

ALLAH VƏHDANİYYƏTİNƏ ELM SAHİBLƏRİNİN NƏZƏRİ . . . . . . . . . . . .89

ALLAHI TANIMA YOLLARI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .90

KİMYƏVİ QANUNLAR VƏ ALLAH ADOEF BUHLER . . . . . . . . . . . . . . . . .93

KARL KALİTİS. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .95

KİRİN FİLİD . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .96

ANDİRU AYVİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .96

ALLAHI TANIMAQ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .97

ADÜN QUST . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .98
JAN HANRİ FAİR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .98
BƏSİRƏT GÖZÜ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .99
DƏVƏNİN YARANIŞI ÇOX TƏƏCCÜBLÜDÜR. . . . . . . . . . . . . . . . . . . . . . .100
KÖKSÜN GENİŞLİYİ VƏ ONUN NİŞANƏLƏRİ . . . . . . . . . . . . . . . . . . . .101
QAŞ, KİPRİK VƏ ONLAR ARASINDA OLAN DƏRİ. . . . . . . . . . . . . . . . .103
SÜD NECƏ YARANIR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .104
GÜVƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .105
BAL ARISI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .105
YARALANMIŞ ÜZVÜN SAĞALMASI . . . . . . . . . . . . . . . . . . . . . . . . . .106
GECƏ QUŞU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .107
UŞAĞINI HEÇ VAXT GÖRMƏYƏN ANA . . . . . . . . . . . . . . . . . . . . . . .108
DOĞUM YERİNƏ MƏHƏBBƏT VƏ CƏHƏT TOPLA . . . . . . . . . . . . . . . . .109
QIRMIZI ARI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .110
İXLAS NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .111
ƏDALƏT NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .112
QURAN VƏ ALLAH ƏDALƏTİ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .112
ZÜLMÜN QAYNAĞI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .114
ALLAH VƏ PEYĞƏMBƏRLİK BAĞLILIĞI. . . . . . . . . . . . . . . . . . . . . . . .115
NECƏ İSMƏT MƏQAMINA GÜVƏNMƏK OLAR. . . . . . . . . . . . . . . . . . .117
PEYĞƏMBƏRİ TANIMAĞIN ƏN YAXŞI YOLU . . . . . . . . . . . . . . . . . . . .118
QURAN HANSI CƏHƏTDƏN MÖCÜZDİR. . . . . . . . . . . . . . . . . . . . . . . .120
NƏ ÜÇÜN İBLİS MÜXALİFƏT ETDİ? . . . . . . . . . . . . . . . . . . . . . . . . . .123
QURAN İSLAM PEYĞƏMBƏRİNİN ƏBƏDİ MÖCÜZƏSİ. . . . . . . . . . . . . . .124
FƏSİHLİK VƏ VƏLİDLİK. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .127
NİYƏ MÜQTƏ HƏRİFLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .127
VƏHY NƏ ÜÇÜN ÜMUMİ HİSS DEYİLDİR. . . . . . . . . . . . . . . . . . . . . . .128
DİN VƏ ELM. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .131
ELM VƏ ŞƏRQ ALİMLƏRİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .133
MÜSƏLMAN RİYAZİYYATÇILAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .135

ƏBU REYHAN BİRUNİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .141
ƏBU ƏLİ SİNA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .143
ÖMƏR XƏYYAM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .145
NƏSRƏDDİN TUSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .145
İNSANLARIN NÖVLƏRİ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .149
ÖLÜMDƏN SONRAKI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .152
BEHİŞTİN QƏSRLƏRİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .154
BEHİŞT ƏHLİNİN PALTARLARI . . . . . . . . . . . . . . . . . . . . . . . . . .155
BEHİŞT ƏHLİNİN CAVAN OLMASI . . . . . . . . . . . . . . . . . . . . . . .156
BEHİŞT ƏHLİN UŞAQLI OLMALIDIR . . . . . . . . . . . . . . . . . . . . .156
BEHİŞTİN MUSİQİ VƏ AHƏNGLƏRİ . . . . . . . . . . . . . . . . . . . . . .157
AXİRƏT DÜNYASINDA BEHİŞTİN NÖVLƏRİ. . . . . . . . . . . . . . . . . . . . . . . .158
BEHİŞT ƏBƏDİDİR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .158
BEHİŞTİN HAVASI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .159
İNSAN HƏR NƏ İSTƏSƏ BEHİŞTDƏ VARDIR . . . . . . . . . . . . . . . .159
BEHİŞTİN BU DÜNYA İLƏ MÜQAYİSƏSİ. . . . . . . . . . . . . . . . . . . .159
YOXSULLUQDAN SONRA VAR-DÖVLƏT. . . . . . . . . . . . . . . . . . . .160
BİR QOCA KİŞİ YER ŞUMLAYIR. . . . . . . . . . . . . . . . . . . . . . . . . .163
BƏZİ DUALAR DÜZGÜN DEYİLDİR. . . . . . . . . . . . . . . . . . . . . . . .164
GÜNƏŞ, BULUD VƏ AY. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .167
TƏBİİ FƏLAKƏTLƏRİN SƏBƏBİ NƏDƏDİR? . . . . . . . . . . . . . . . . .169
NƏ ÜÇÜN DÜNYA BİR ANDA YARANMADI? . . . . . . . . . . . . . . . . .170
ŞİMŞƏYİN FAYDASI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .171
NƏ ÜÇÜN DƏSTNAMAZ ALARKƏN. . . . . . . . . . . . . . . . . . . . . . . .172
NƏ ÜÇÜN DƏSTƏMAZ ALMAQ ƏMR OLUNDU? . . . . . . . . . . . . . . .172
NƏ ÜÇÜN ALLAH PEYĞƏMBƏR VƏ İMAMLARI
NAMİNƏ QAİB ETMƏDİ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .173
SƏXAVƏTLƏ ƏDALƏTİN FƏRQİ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .173
AZANI BAŞQA DİLDƏ OXUMAQ OLARMI? . . . . . . . . . . . . . . . . . .174
İLK DƏFƏ AZAN NƏ VAXT QƏBUL EDİLİB? . . . . . . . . . . . . . . . . .175

İLK DƏFƏ ZƏKAT NƏ VAXT VACİB BUYURULUB. . . . . . . . . . . . . . . . .176
FİTRƏ SƏDƏQƏSİ NƏ VAXT VACİB OLDU. . . . . . . . . . . . . . . . . . . . . . .176
İLK DƏFƏ FİTR VƏ QURBAN NAMAZI NƏ VAXT QILINDI. . . . . . . . . . .176
NƏ ÜÇÜN ƏLİ (Ə) O, ƏBU TURAB DEYİRLƏR. . . . . . . . . . . . . . . . . . . . .177
MƏSCİDLƏRƏ MİNBƏR NƏ VAXT QOYULDU? . . . . . . . . . . . . . . . . . . . . .177
NƏ ÜÇÜN HƏMZƏ (Ə) SEYİDİ ADLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .178
46 İLDƏN SONRA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .179
40 İLDƏN SONRA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .180
İMAM RZA (Ə) AZANIN HİKMƏTİ BARƏSİNDƏ . . . . . . . . . . . . . . . . . . . .180
MÜHƏMMƏD PEYĞƏMBƏRİN (Ə) HƏYATINDAN NÜMUNƏLƏR . . . . .181
OLUNAN ƏZİYYƏTLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .186
ŞƏHMD EDİLƏN MÜSƏLMANLAR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .187
ƏMMAR YASİR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .188
XALQA XİDMƏT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .189
İSLAMDA TƏLİM-TƏRBİYƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .191
BÜTÜN ELMLƏRİ ÖYRƏNMƏK FAYDALIDIR. . . . . . . . . . . . . . . . . . . . . .193
TƏRBİYYƏNİN ƏHƏMİYYƏTİ MÜƏLLİMİN YOLU . . . . . . . . . . . . . . . . .194
İSLAM PEYĞƏMBƏRİNİN ÜMMƏTƏ BUYURDUQLARIDA . . . . . . . . . . .195
ƏKİNÇİLİK. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .197
HEYVANDARLIQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .200
ƏXLAQ VƏ CƏMİYYƏT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .201
ALLAHA, PEYĞƏMBƏRƏ QARŞI OLAN VƏZİFƏLƏR. . . . . . . . . . . . . . . .204
ÖZÜMÜZƏ QARŞI OLAN VƏZİFƏLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .206
ANAMIZA, ATAMIZA QARŞI VƏZİFƏLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . .207
VƏTƏN VƏ MİLLƏTƏ QARŞI VƏZİFƏLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . .209
İNSANLIĞA QARŞI VƏZİFƏLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .211
ƏLİ (Ə) DAN SUALLAR VƏ CAVABLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . .216
ORDAN BURDAN, HƏR YERDƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .228
YAZI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .243
QƏDİM PULLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .248

DUANIN ƏHƏMİYYƏTİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .251
MUHƏMMƏD (S.Ə.V.V) PEYĞƏMBƏRİN DİGƏR PEYĞƏMBƏRDƏN FƏRQLİ SİFƏTLƏRİ VARMI? . . . . . . . . . . . . . . . . . . . .252
MÜSƏLMAN OLMAYAN KİMSƏLƏR, BİZİM YAXIN DOSTLARIMIZ OLA BİLƏRLƏRMİ? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .253
BU GÜNKİ XRİSTİANLIQDA "TƏK ALLAH"A İNAM VARDIRMI? . . . . .255
MARAQLIDIR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .255
NƏ ÜÇÜN AYAQLAR VƏ BAŞIN BİR HİSSƏSİNƏ MƏSH ÇƏKİLİR? . . . .257
NƏ ÜÇÜN CÜMƏ GÜNÜ QÜSL ETMƏK VACİBDİR? . . . . . . . . . . . . . . .257
QÜSL NECƏ BİR TƏMİZLİKDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .258
QİYAMƏT SORĞUSUNDA PEYĞƏMBƏR NƏSLİNDƏN OLMAĞIN FAYDASI VARMI? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .259
PEYĞƏMBƏRİ (Ə.S.) QOCALDAN SURƏ HANSIDIR? . . . . . . . . . . . . . . .260
BÜTPƏRƏSTLİK NECƏ BAŞLAYIB? . . . . . . . . . . . . . . . . . . . . . . . . .262
FƏQİRLİK GƏTİRƏN MƏKRUHATLAR . . . . . . . . . . . . . . . . . . . . . . . .264
RUZİ QAZANMAQ İBADƏT SAYILIRMI? . . . . . . . . . . . . . . . . . . . . . . .266
İLK MÜSƏLMAN KİMDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .269
ADƏM (Ə) GÜNAHKARDIRMI? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .270
İNSAN HEYVANA ÇEVRİLƏ BİLƏRMİ? . . . . . . . . . . . . . . . . . . . . . . . .271
PEYĞƏMBƏR (S) QEYB ALƏMİNDƏN XƏBƏRDAR İDİMİ? . . . . . . . . . .272
İMAMLA PEYĞƏMBƏRİN FƏRQİ NƏDİR? VƏ İMAMƏT NƏ DEMƏKDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .273
İSLAM PEYĞƏMBƏRİNİN MƏDİNƏDƏ GÖSTƏRDİYİ İLK MÖCÜZƏ NƏ OLUB? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .274
NƏ ÜÇÜN NUH (Ə) ÖMRÜ UZUN OLDU? . . . . . . . . . . . . . . . . . . . . . . . .275
QURAN BARƏSİNDƏ YADLARIN SÖZÜ . . . . . . . . . . . . . . . . . . . . . . . .278
SİRATİ MÜSTƏQİM NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .280
GÖZÜN ŞƏRİ CƏHƏTDƏN DƏYƏRİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . .282
MƏSULİYYƏTLƏRİN TANINMASI YOLU NƏDİR? . . . . . . . . . . . . . . . . . .314
ŞƏRAB İÇMƏYİN İNSAN ORQANİZMİNƏ TƏSİRLƏRİ NƏDİR? . . . . . . .315
LÜĞƏTDƏ HƏRFLƏRİN KÖMPÜTERLƏ TƏFSİRİ . . . . . . . . . . . . . . . . . .317

TƏVİL NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .320
HƏVARİLƏR KİMLƏR İDİ? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .320
YANARDAĞLAR, VULKANLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .321
NEMƏTİN VERİLMƏSİNDƏKİ VƏ ALINMASINDAKI SİRLƏR . . . . . . . .323
UŞAQLARIN SAÇININ AĞARMASI NƏ VAXT OLACAQ? . . . . . . . . . . . . .324
HAQQ NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .325
DİLİN HAQQI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .328
DİL İNSANDA ƏN BÖYÜK NEMƏTDİR . . . . . . . . . . . . . . . . . . . . . .328
QULAĞIN HAQQI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .331
EŞİTMƏYİN İNSAN TƏKAMÜLÜNDƏ ROLU . . . . . . . . . . . . . . . . . . .331
QULAQ NEÇƏ HİSSƏDƏN İBARƏTDİR? . . . . . . . . . . . . . . . . . . . . .332
NECƏ EŞİDİRİK? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .333
QARNIN HAQQI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .334
AYAĞIN HAQQI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .337
ƏLİN HAQQI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .340
GÖZÜN HAQQI NƏDİR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .342
MURDAR NƏ ÜÇÜN HARAM OLMUŞDUR? . . . . . . . . . . . . . . . . . . . .344
İNSAN SƏADƏTİNDƏ AĞLIN ROLU VARMI? . . . . . . . . . . . . . . . . . . .346
NƏ ÜÇÜN QURANIN TƏRCÜMƏSİ ÖZÜ DEYİL? . . . . . . . . . . . . . . . . .348
İSLAM PEYĞƏMBƏRİNİN ZÖVCƏLƏRİNİN
SAYININ FƏLSƏFƏSİ NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .348
QURANİ KƏRİMİN 114 SURƏSİ OLDUĞU HALDA, NƏ ÜÇÜN
“YASİN” SURƏSİ DAHA ÇOX TİLOVƏT OLUNUR? . . . . . . . . . . . . . . .350
CİNLƏR NƏ ÜÇÜN GÖZƏ GÖRÜNMÜR? . . . . . . . . . . . . . . . . . . . . .351
QOCALARA EHTİRAM İNSANA NƏ VERİR? . . . . . . . . . . . . . . . . . . .352
CƏMİYYƏTDƏKİ İCTİMAİ-SİYASİ DƏYİŞİKLİKLƏRİN
SƏBƏBKARI NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .353
ƏLİN ŞƏRİƏTDƏ DƏYƏRİ NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . .354
DONUZ ƏTİNİN HARAM EDİLMƏSİNİN SƏBƏBİ NƏDİR? . . . . . . . . . . .354
KOSMOSUN KƏŞFİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .357
MƏYSİR VƏ ƏZLAM NƏDİR? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .359

NİYƏ HİCRƏTİN İLİ İSLAM TARİXİNİN BAŞLANĞICI KİMİ SEÇİLİB? . . . . . . . . . . 360
KİŞİNİN ÜZÜNÜN TÜKLƏNMƏSİ . . . . . . . . . . 362
TƏYƏMUMUN FƏLSƏFƏSİ . . . . . . . . . . 363
BƏDƏN ÜZVLƏRİNİN ƏLİLƏ OLAN NİSBƏTİ . . . . . . . . . . 364
QADIN VƏ KİŞİNİN BEYİN ÇƏKİSİ . . . . . . . . . . 365
NƏ ÜÇÜN İMAM HÜSEYN (Ə) ATASI ƏLİ (Ə) KİMİ SÜKUT ETMƏDİ? . . . . . . . . . . 366
İMAM HÜSEYN (Ə) KUFƏ CAMAATININ DƏVƏTİ İLƏ QİYAM ETDİ? YOXSA ONLAR DƏVƏT ETMƏSƏYDİLƏR BELƏ O HƏZRƏT QİYAM EDƏCƏKDİ? . . . . . . . . . . 367
NƏ ÜÇÜN İMAM HÜSEYN KUFƏLİLƏRİN DƏVƏTİNİ QƏBUL ETDİ? . . . . . . . . . . 369
MUXTAR KİMDİR? . . . . . . . . . . 370
XƏVARİC NƏDİR? . . . . . . . . . . 371
NAMAZ QILMAQ İNSANLARIN ƏMƏLLƏRİNƏ MANE OLA BİLƏRMİ? . . . . . . . . . . 372
İZZƏT ALLAH TƏRƏFİNDƏN VERİLİR? . . . . . . . . . . 373
İNSAN DÜŞÜNCƏ VƏ NİYYƏTİNDƏN DƏ SORĞU-SUALA TUTULACAQDIRMI? . . . . . . . . . . 374
ORBİTLƏR VƏ DÖVR EDƏN KAİNAT . . . . . . . . . . 377
AY İLİNİN HESABLAMASI . . . . . . . . . . 378
DƏMİRDƏKİ BÖYÜK SİRR . . . . . . . . . . 380
FİRONUN CƏSƏDİNİ QORUNUB SAXLANMASI . . . . . . . . . . 382
MUXTARNAMƏDƏN HİSSƏLƏR . . . . . . . . . . 383
ƏBDULLA ƏFİF VƏ ƏBDUR-RƏHMAN SƏİDİN QİYAMI . . . . . . . . . . 393
MUXTARIN ZİNDANDAN NİCAT TAPMASI . . . . . . . . . . 397
İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT . . . . . . . . . . 410

Kərbəlayi Nüsrət Qızılağaclı
*(Nəsrullayev Nüsrət Nəsrulla oğlu)*

İSLAM ÇƏLƏNGİ
3 cilddə
1-ci cild


| | |
|---|---|
| Çapa imzalanmışdır: | 28.07.2005 |
| Kağız formatı: | 60x84 1/16 |
| Hesab-nəşriyyat həcmi: | 26,25 ç.v. |
| Sayı: | 500 |
| Sifariş: | 372 |

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 498-68-25; faks: 498-08-14*